ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 93, №4, 2026 ISSN 2409-8817

ELMİ əsərlər

НАУЧНЫЕ ТРУДЫ

SCIENTIFIC WORKS

İnstitutun "Elmi əsərlər"i 1934-cü ildən nəşr edlir.
"Scientific works" of the institute have been published since 1934.
«Научные труды» института издаются с 1934 года.

İnstitut üzrə 150 nömrəli əmri diqqət mərkəzinə gətirək:
We bring to the attention Order No. 150 of the Institute:
Доводим до сведения приказ № 150 института:



Приказ №150

От 17/I-34 г.

Временно утвердить редакционной Коллегии Аз.Н.И.И.П.П. в составе ответ. редактора т. Мамедова Гулам /Директора Ин-та/ секретаря т. Малахальцева и членом т. Араслы.

Тов. Малахальцеву 19/I к 1 часу дня представить план выпуска научных трудов Института.

Директор Ин-та: [signature]

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2026.93.4
https://archive.org/details/elmi-s-rl-r.-arti-3-2026-c-apa-2 – Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://scholar.google.com/scholar?start=0&q=site:journals.arti.edu.az&hl=en&as_sdt=0,5 - Google Scholar
https://www.slideshare.net/slideshow/scientific-works-2026-volume-93-number-3/287588290 – SlideShare
https://www.calameo.com/read/007335995721824678fc1 – Calameo

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 93, № 4, 2026

НАУЧНЫЕ ТРУДЫ

том 93, № 4, 2026

SCIENTIFIC WORKS

volume 93, № 4, 2026

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**
Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)
Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2026

Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934. Frequency of publication: 6 issues per year.

"Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy, associate professor*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc.prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**
Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2026

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года. Периодичность издания: 6 номеров в год.

«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике, доцент*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев Редакционный совет**:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2026

BÖYÜK AZƏRBAYCAN ŞAİRİ XAQANİ ŞİRVANİNİN 900 İLLİK YUBİLEYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

ORDER OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ON THE CELEBRATION OF THE 900th ANNIVERSARY OF THE BIRTH OF THE GREAT AZERBAIJANI POET KHAGANI SHIRVANI

УКАЗ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О ПРАЗДНОВАНИИ 900-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ ВЕЛИКЛГЛ АЗУРБАЙДЖАНСКОГО ПОЕТА ХАГАНИ ШИРВАНИ

2026-cı ildə böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illiyi tamam olur.

Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır. Zəmanəsinin ən müxtəlif elmlərini dərindən bilən və Şərqin çoxəsrlik mədəni ənənələri zəminində əzəmətlə yüksələn qüdrətli söz ustası şeiriyyətin zirvəsində dayanan sənət nümunələrindən ibarət zəngin bir irs qoyub getmişdir. Ədalətə çağırış, mübarizə ruhu və şəxsiyyət azadlığı, mənəvi ucalıq, insan ləyaqəti və idrakın gücünə inam bu nadir irsin səciyyəvi cəhətləridir. Mütəfəkkir sənətkar ictimai-fəlsəfi və didaktik-əxlaqi düşüncələrdən yoğrulan, yüksək estetik dəyərə malik humanist məzmunlu əsərlərində sosial-tarixi hadisələri özünəməxsus bədiiliklə mənalandırmış və bunlardan ibrət almağı tövsiyə etmişdir. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür. Əsrinin mədəni həyatı ilə heyrətamiz dərəcədə sıx bağlı olan Xaqani Şirvani klassik ədəbiyyata qazandırdığı yeniliklərlə bütövlükdə Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Sonrakı yüzilliklərin ustad şairləri Xaqani dühasına həmişə ehtiramla yanaşmış, məktəb kimi ondan bəhrələnmişlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 28 yanvar 2026-cı il

UOT 37.01

Fatma Kamal qızı Sofiyeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun baş mütəxəssisi
E-mail: fatma.sofiyeva@arti.edu.az
https://orcid.org/0009-0000-6578-0392
https://doi.org/10.69682/arti.2026.93(4).7-11

ƏFZƏLƏDDİN XAQANİNİN 900 İLLİK İŞIĞI: POEZİYA, FƏLSƏFƏ VƏ ZAMANIN DİALEKTİKASI

Fatma Kamal Sofiyeva
senior specialist at the Institute of Education of the Republic of Azerbaijan

900 YEARS OF LIGHT OF AFZELADDIN KHAGANI: POETRY, PHILOSOPHY, AND THE DIALECTICS OF TIME

Фатма Камал гызы Софиева
старший специалист Института образования Азербайджанской Республики

900 ЛЕТ СВЕТА АФЗЕЛАДДИНА ХАГАНИ: ПОЭЗИЯ, ФИЛОСОФИЯ И ДИАЛЕКТИКА ВРЕМЕНИ

Xülasə. Məqalədə XII əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Əfzələddin Xaqani Şirvani irsi müasir elmi yanaşmalar əsasında təhlil edilmişdir. Tədqiqatda Xaqaninin poetik sisteminin forma və məzmun baxımından zənginliyi, divan poeziyası ənənəsindəki mövqeyi və xüsusilə "Töhfətül-İraqeyn" əsərinin fəlsəfi-estetik xüsusiyyətləri araşdırılmışdır. Şairin yaradıcılığında zaman konsepsiyası, fanilik və əbədiyyət problemi, hakimiyyət və ədalət münasibətləri, eləcə də fərdi taleyin ictimai reallıqla əlaqəsi əsas təhlil obyektləri kimi çıxış edir.
Açar sözlər: *divan poeziyası, Töhfətül-İraqeyn, zaman konsepsiyası, sufizm, hermenevtik təhlil*

Abstract: The article analyzes the legacy of Afzaladdin Khagani Shirvani, a prominent representative of 12th-century Azerbaijani poetry, based on modern scientific approaches. The study examines the richness of Khagani's poetic system in terms of form and content, his position in the tradition of divan poetry, and especially the philosophical and aesthetic features of his work "Tohfatul-Iraqayn". The concept of time, the problem of mortality and eternity, the relationship between power and justice, as well as the connection of individual fate with social reality act as the main objects of analysis in the poet's work.
Keywords: *divan poetry, Tohfatul-Iraqayn, concept of time, Sufism, poetic style, hermeneutic analysis*

Аннотация: В статье анализируется наследие Афзаладдина Хагани Ширвани, видного представителя азербайджанской поэзии XII века, с использованием современных научных подходов. Исследование рассматривает богатство поэтической системы Хагани с точки зрения формы и содержания, его место в традиции диванной поэзии, и особенно философско-эстетические особенности его произведения «Тохфатул-Иракайн». Главными объектами анализа в творчестве поэта выступают концепция времени, проблема смертности и вечности, взаимосвязь власти и справедливости, а также связь индивидуальной судьбы с социальной реальностью.
Ключевые слова: *диванная поэзия, Тохфатул-Иракайн, концепция времени, суфизм, поэтический стиль, герменевтический анализ*

Əfzələddin Xaqani Şirvani yaradıcılığı Azərbaycan və ümumşərq ədəbiyyatında nadir nümunələrdən biridir ki, həm məzmun, həm də forma baxımından zənginliyi ilə seçilir. Onun

ədəbi irsi geniş divan poeziyası ənənəsini əhatə edir: qəsidələr, qəzəllər, məsnəvilər və nəsr üslubuna yaxınlaşan poetik mətnlər bu irsin mərkəzində dayanır. Ən mühüm və geniş müzakirə olunan əsərlərdən biri "Töhfətül-İraqeyn" məsnəvisidir ki, bu da yalnız poetik mətn deyil, eyni zamanda yaşadığı dövrün mədəni-siyasi və dini mühiti ilə bağlı dərin təfəkkürün ifadəsidir. Qorunmuş əlyazmalar və nəşrlər Xaqaninin minlərlə beytdən ibarət mətnlər yaratdığını göstərir ki, bu da onun yalnız saray çevrəsində deyil, geniş ədəbi auditoriyada da tanınmış şair olmasının göstəricisidir.

Xaqaninin yaradıcılığını anlamaq üçün onun həyat şəraitini nəzərə almaq vacibdir. O, saray məkanında yetişmiş, hakimiyyət dairələrinin təsiri altında fəaliyyət göstərmiş, lakin bu təsirə baxmayaraq öz poetik səsi və subyektiv təfəkkürü ilə formalaşmışdır. Xaqaninin həyatında həbslər və səfərlər mühüm rol oynayıb; sarayla qarşılıqlı münasibətlər, hakimiyyət əməkdaşlığı və ayrı-seçkilik kimi təcrübələr onun şeir dilinə və dünyagörüşünə təsir edib. Bu kontekst onun yaradıcılığında qəsidə, qəzəl, məsnəvi kimi klassik formalardan istifadəni yalnız ənənəvi ədəbi texnika səviyyəsinə endirmir, eyni zamanda fərdi duyğu və fəlsəfi düşüncənin ifadə vasitəsinə çevirir.

Formal ustalıq və məzmunun çoxqatlılığı Xaqani şeirinin əsas xüsusiyyətlərindəndir. Onun qəsidələri estetik olaraq klassik saray poeziyasının elementlərini daşısa da, məzmun baxımından insan təcrübəsinin mürəkkəb qatlarına, varlıq, zaman, ədalət, ölüm və s. kimi fəlsəfi mövzulara müraciət edir. Qəzəllərində isə qəlb-insan münasibətləri, sevgi və ayrılıq tematikası ilə bərabər, şairin subyektiv dünyası, dini-mistik motivlər və sosial müşahidələr də birbaşa ifadə olunur. "Töhfətül-İraqeyn" kimi məsnəvi strukturlar isə poetik üslubu nəsr elementləri ilə qarışdıraraq, praktik səfər təcrübəsini estetik-ifadəvi səviyyədə təqdim edir. Beləliklə, Xaqaninin saray həyatı, həbslər və səfərlər kimi bioqrafik məqamları poetik yaradıcılığının formal və məzmun aspektlərini birləşdirən enerji mənbəyi kimi çıxış etmişdir; bu da onu yalnız dövrün şairi deyil, həm də dərin ədəbi-fəlsəfi düşüncəyə malik mətbuat şəxsiyyətinə çevirir [1, s. 16].

Ə. Xaqaninin poetik dili klassik şərq ədəbiyyatında "mürəkkəb üslub" (səbk-i mürəkkəb) kimi xarakterizə olunan estetik modelə yaxınlaşır. Onun şeirlərində leksik sıxlıq, sintaktik dolaşıqlıq və məna qatlarının üst-üstə yığılması müşahidə olunur. Bu xüsusiyyət təsadüfi deyil; şair məqsədli şəkildə mətni çoxqatlı semantik konstruksiya kimi qurur. Metafor və təşbehlər yalnız bədii təsvir vasitəsi funksiyasını daşımır, eyni zamanda intellektual kod rolunu oynayır. Bir beytdə işlədilən bir obraz həm dini mənbəyə, həm fəlsəfi ideyaya, həm də tarixi hadisəyə işarə edə bilir. Bu isə Xaqani mətninin hermenevtik şərhini zəruri edir.

Xaqani öz şəxsi taleyini, o cümlədən sarayla münasibətlərini, haqsızlıqları, həbs həyatını və səfərlərini poetik "historiya"ya çevirir. Bu, avtobioqrafik elementlərin estetik transformasiyasıdır. Onun həbslərə həsr olunmuş qəsidələri yalnız fərdi ağrının ifadəsi deyil, ədalətsiz ictimai sistemə qarşı incə və simvolik etirazdır. Bu baxımdan şair öz taleyini ümumiləşdirərək, insanın hakimiyyət və zaman qarşısındakı vəziyyətini poetik modelə çevirir. Şəxsi təcrübə ümumbəşəri məna qazanır. Eyni zamanda, Xaqani yaradıcılığında sosial münasibətlər, yəni məmuriyyət sistemi, zəngin-kasıb qarşıdurması, mənəvi deqradasiya və dəyərlərin itməsi poetik meditasiya predmetinə çevrilir [4]. Əfzələddin Xaqani yaradıcılığında sosiallaşma və ya mənəvi-sosioloji baxışlar, əsasən, fərdin cəmiyyətdəki mövqeyi, feodal mühitinin ədalətsizliklərinə qarşı etiraz, insan amilinin mərkəzə gətirilməsi ilə özünü göstərir ki, bu da müasir dövrdə yeniyetmə insanların sosiallaşması prosesində mühüm rola malik ola bilər. T. Əliyevanın qeyd etdiyi kimi, "Bu proses şəxsin özünü dərk etməsinə, dünyaya və özünə olan şəxsi münasibətinə istiqamətlənir" (7, s.29).

Ə. Xaqani saray mühitini içəridən tanıyan şair kimi hakimiyyət strukturlarının zahiri təmtərağını və daxili boşluğunu paralel şəkildə göstərir. Bu, onu təkcə lirika ustası deyil, həm də sosial-fəlsəfi müşahidəçi kimi təqdim edir. Onun sarkazmı və ironiyası klassik qəsidə çərçivəsində gizli tənqid forması kimi çıxış edir.

Xaqaninin düşüncə sistemində sufizmin təsiri də hiss olunur. Fanilik, ilahi ədalət, mənəvi kamillik və ruhun saflaşması kimi ideyalar onun poetikasında mühüm yer tutur. Lakin o, sırf mistik şair deyil; saray təcrübəsinin gətirdiyi realist baxış və tənqidi mövqe onun yaradıcılığında sufizm ilə praktik həyat təcrübəsi arasında dinamik tarazlıq yaradır. Bu sintez Xaqanini nə

yalnız dini-mistik, nə də yalnız saray şairi kimi xarakterizə etməyə imkan verir – o, hər iki müstəvidə düşünən və yazan mürəkkəb intellektual fiqurdur [3, s. 172].

Müasir ədəbiyyatşünaslıqda Xaqaninin fəlsəfi-əxlaqi rezonansı xüsusi vurğulanır. Tədqiqatçılar qeyd edirlər ki, onun poeziyasında zaman və insan münasibəti, hakimiyyət və ədalət problemi, fanilik və əbədiyyət dilemması bu gün də aktual səslənir. Bu isə Xaqaninin 900 illik zaman məsafəsindən belə müasir oxucu ilə dialoq qurmaq qabiliyyətinə malik olduğunu göstərir. Onun poetik fəlsəfəsi tarixdə qalmış estetik nümunə deyil, davamlı mənəvi-intellektual müzakirə məkanıdır.

Xaqaninin mətnlərində "zaman" anlayışı yalnız semantik çərçivədə işlənən motiv deyil, poetik kompozisiyanı formalaşdıran əsas struktur prinsipidir. Onun qəsidələrində və xüsusilə həbsiyyə xarakterli şeirlərində zaman üçölçülü şəkildə təqdim olunur: keçmiş xatirə və təcrübə kimi, indiki məqam ağrı və sınaq kimi, gələcək isə qeyri-müəyyən və ümidlə qorxu arasında tərəddüd edən perspektiv kimi qurulur. Bu üç zaman qatının paralel mövcudluğu Xaqani poetikasında dialektik gərginlik yaradır və mətnin daxili dinamikasını təmin edir [5]. Keçmişə müraciət şair üçün sadəcə nostalji deyil; o, keçmişi müqayisə meyarına çevirərək indiki vəziyyətin dəyərləndirilməsini aparır. Həbs şeirlərində keçmiş azadlıq və hörmət dövrü ilə indiki məhrumiyyət arasında qarşılaşdırma edilir. Bu qarşılaşdırma poetik kontrast vasitəsilə zamanın dəyişkənliyini və insan taleyinin qeyri-sabitliyini göstərir. Eyni zamanda, gələcəyə yönələn baxış bəzən ilahi ədalətə inam, bəzən isə sosial reallıqlara qarşı skeptik münasibət formasında ifadə olunur.

Zamanın bu polyfonik quruluşu, yəni zamanın tək bir xətt üzrə (keçmişdən gələcəyə) deyil, bir neçə fərqli "layın" və ya ritmin eyni anda mövcud olması ideyası Xaqaniyə həm tarixi, həm də şəxsi səs qatlarını eyni mətndə birləşdirməyə imkan verir. O, öz taleyini dövrün ictimai-siyasi reallıqları ilə paralel təqdim edir və beləliklə, fərdi təcrübəni tarixi sənədə çevirir. Şairin dili burada həm lirika, həm də xronika funksiyası daşıyır. Onun bəzi qəsidələri faktoloji detalları, sosial münasibətləri və saray mühitini əks etdirməklə, tarixi mərhələnin mənəvi portretini yaradır. Bu baxımdan Xaqani təkcə emosional ifadəçi deyil, həm də zamanın şahidi və şərhçisidir. Eyni zamanda, şairin zaman konsepsiyası didaktik çalar daşıyır [6, s. 45]. O, faniliyi xatırlatmaqla insanı mənəvi ayıqlığa çağırır, zənginlik və hakimiyyətin keçiciliyini vurğulayaraq etik mövqe sərgiləyir. Bu isə Xaqanini yalnız poetik obraz yaradıcısı deyil, həm də təlim-nəsihət müəllimi kimi təqdim edir. Onun mətnlərində zamanın dəyişməsi insanın dəyişməsi demək deyil; ictimai düyünlər, hakimiyyətin ədalətsizliyi, mənəvi axtarış və daxili ziddiyyətlər tarix boyu təkrarlanır. Məhz bu ümumiləşdirici yanaşma Xaqani poeziyasının 900 il sonra belə aktual qalmasının əsas səbəblərindən biridir. Zaman keçsə də, onun poetik fəlsəfəsində qaldırılan suallar insanlığın daimi problemlərinə toxunduğu üçün öz semantik gücünü itirmir.

XX-XXI əsr ədəbiyyatşünaslığı Xaqani irsinin sistemli şəkildə yenidən oxunması və elmi əsaslarla şərh olunması baxımından mühüm mərhələ olmuşdur. Rus şərqşünası Yevgeni Bertels klassik Şərq poeziyasının tədqiqi çərçivəsində Xaqaninin yaradıcılığını yüksək intellektual poetik sistem kimi qiymətləndirmiş, onun üslub xüsusiyyətlərini və fəlsəfi qatlarını filoloji metodlarla təhlil etmişdir. Azərbaycan ədəbiyyatşünaslığında isə Həmid Araslı Xaqaninin mətnlərinin elmi-tənqidi nəşrinin hazırlanması, bioqrafik faktların dəqiqləşdirilməsi və poetikasının sistemləşdirilməsi istiqamətində fundamental işlər görmüşdür. Bu tədqiqatlar nəticəsində Xaqani yalnız klassik qəsidə ustası kimi deyil, mürəkkəb fəlsəfi-estetik sistem yaradıcısı kimi təqdim olunmuşdur. XX əsrin ikinci yarısından etibarən aparılan mətnşünaslıq işləri əlyazmaların müqayisəli analizi, variantların tutuşdurulması və redaksiyaların dəqiqləşdirilməsi ilə Xaqani irsinin daha etibarlı elmi bazasını formalaşdırmışdır. Bu proses şairin əsərlərinin həm orijinal mətnlərinin, həm də tərcümələrinin daha sistemli şəkildə elmi dövriyyəyə daxil edilməsinə imkan yaratmışdır. Hermenevtik yanaşmalar isə Xaqaninin simvolik və alluziv dilini kontekstual müstəvidə – dini, fəlsəfi və tarixi mühitlə əlaqədə – şərh etməyə yönəlmişdir. XXI əsrdə Xaqani irsinə maraq yeni mərhələyə keçmişdir. Müasir nəşrlər, monoqrafiyalar və elmi məqalələr onun poetik strukturu, zaman konsepsiyası, sufi motivləri və sosial tənqid elementləri üzərində yeni metodoloji baxışlar təklif edir. Kontekstual və intertekstual analizlər

Xaqaninin mətnlərini yalnız milli ədəbiyyat çərçivəsində deyil, ümumşərq və dünya ədəbi ənənəsi kontekstində qiymətləndirməyə imkan verir. Bu yanaşma Xaqanini regional klassikdən qlobal ədəbi yaddaşın nümayəndəsinə çevirir.

900 illik yubiley münasibətilə Azərbaycan elmi nəşrlərində, konfrans materiallarında və mədəni-ictimai mediada Xaqani irsinə həsr olunmuş silsilə məqalələr və layihələr bu yenidən dəyərləndirmə prosesinin göstəricisidir. Bu, sadəcə yubiley tədbiri deyil, həm də klassik irsin müasir elmi diskursda aktual saxlanılması istiqamətində davamlı bir tendensiyadır. Beləliklə, XX-XXI əsr tədqiqatları Xaqanini tarixdə qalmış poetik fiqur kimi deyil, çağdaş elmi müzakirələr üçün açıq olan dinamik və çoxqatlı ədəbi fenomen kimi təqdim etmişdir.

Beləliklə, Əfzələddin Xaqani Şirvani 900 illik zaman məsafəsindən baxıldıqda yalnız orta əsr saray şairi kimi deyil, çoxqatlı poetik-fəlsəfi sistem yaradan universal ədəbi şəxsiyyət kimi görünür. Onun yaradıcılığında forma ilə məzmun, lirika ilə fəlsəfə, fərdi taleyin dramı ilə ictimai-tarixi müşahidə bir-birini tamamlayan vahid estetik struktur təşkil edir. Xaqani klassik janr çərçivələrini qorusa da, onları fərdi intellektual təcrübənin ifadə vasitəsinə çevirərək poeziyanı dərin semantik və ontoloji müstəviyə yüksəltmişdir. Zaman, ədalət, fanilik, hakimiyyət və mənəvi kamillik kimi problemlərin onun mətnlərində ardıcıl və sistemli şəkildə işlənməsi şairi yalnız öz dövrünün deyil, bütün zamanların mütəfəkkirinə çevirir. Müasir elmi yanaşmaların göstərdiyi kimi, Xaqani irsi tükənmiş estetik miras deyil, davamlı interpretasiya və müzakirə potensialına malik canlı ədəbi fenomendir. Bu mənada, onun 900 illik yubileyi təkcə tarixi xatırlatma deyil, həm də klassik irsin müasir düşüncə ilə yenidən dialoqa daxil edilməsinin zəruriliyini təsdiq edən elmi və mədəni hadisədir.

Nəticə. Əfzələddin Xaqani Şirvani yaradıcılığı Azərbaycan və ümumşərq ədəbiyyatında yalnız klassik poetik ənənənin davamı deyil, eyni zamanda yüksək intellektual və fəlsəfi sistem kimi dəyərləndirilməlidir. Onun divan poeziyası çərçivəsində yaratdığı qəsidə, qəzəl və məsnəvilər forma baxımından ənənəyə söykənsə də, məzmun baxımından dərin ontoloji və etik problemləri ehtiva edir. Xüsusilə zaman, fanilik, hakimiyyət və ədalət kimi mövzular şairin poetik düşüncəsində strukturlaşdırıcı elementə çevrilmişdir. Onu da qeyd edək ki, Xaqaninin dili mürəkkəb semantik quruluşa malikdir və dini-fəlsəfi alluziyalar, simvolik kodlar və intertekstual istinadlar vasitəsilə çoxqatlı məna sistemi yaradır. Bu xüsusiyyət onun poeziyasını səthi lirizmdən fərqləndirərək analitik və hermenevtik yanaşma tələb edən mətni formalaşdırır. Şairin bioqrafik təcrübəsi – saray həyatı, həbslər və səfərlər-yaradıcılığında yalnız faktoloji element kimi deyil, poetik-fəlsəfi transformasiya olunmuş təcrübə kimi çıxış edir. Xaqaninin zaman konsepsiyası xüsusi əhəmiyyət daşıyır. Onun şeirlərində zaman xətti inkişaf prinsipi ilə deyil, keçmiş, indi və gələcəyin dialektik qarşılıqlı təsiri əsasında qurulur. Bu, şairə həm şəxsi taleyini, həm də ictimai reallığı paralel şəkildə təqdim etməyə imkan verir. Nəticədə fərdi ağrı ümumbəşəri problemə çevrilir və şair yalnız lirika müəllifi deyil, həm də zamanın şərhçisi və mənəvi müəllimi kimi çıxış edir. XX-XXI əsr ədəbiyyatşünaslığında aparılan tədqiqatlar Xaqani irsinin yeni metodoloji yanaşmalar əsasında yenidən qiymətləndirilməsinə imkan yaratmışdır. Onun yaradıcılığı milli ədəbiyyat kontekstindən çıxaraq ümumbəşəri ədəbi-fəlsəfi diskursun bir hissəsinə çevrilmişdir. Bu isə Xaqani poeziyasının 900 il sonra belə aktual qalmasının əsas səbəbidir.

Problemin aktuallığı. Xaqani Şirvani irsinin 900 illik zaman məsafəsindən yenidən elmi təhlilə cəlb olunması müasir ədəbiyyatşünaslıq üçün aktual istiqamətlərdən biridir. Qloballaşma və sürətli mədəni transformasiyalar şəraitində klassik ədəbi irsin fəlsəfi və etik potensialının yenidən dəyərləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Problemin elmi-nəzəri yeniliyi. Tədqiqatda Xaqani poeziyası yalnız bioqrafik və ya janr xüsusiyyətləri çərçivəsində deyil, zaman konsepsiyasının poetik struktur elementi kimi funksiyası prizmasından sistemli şəkildə təhlil edilmişdir. Zamanın keçmiş-indiki-gələcək dialektikası əsasında qurulan kompozisiya modeli ayrıca struktur prinsipi kimi əsaslandırılmışdır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri klassik Azərbaycan ədəbiyyatının tədrisində, xüsusilə XII əsr poeziyasının fəlsəfi aspektlərinin izahında istifadə oluna bilər. Məqalədə təqdim olunan struktur-semantik yanaşma ali məktəblərdə "Klassik Azərbaycan ədəbiyyatı", "Şərq poetikası" və "Ədəbiyyat nəzəriyyəsi" fənlərinin tədrisində metodik baza kimi tətbiq edilə bilər. Eyni zamanda, Xaqani yaradıcılığının müasir interpretasiya imkanlarının göstərilməsi gələcək elmi tədqiqatlar üçün

konseptual istiqamət müəyyənləşdirir və klassik irsin aktual tədqiqat obyekti kimi yenidən qiymətləndirilməsinə xidmət edir.

Ədəbiyyat

1. Бертéльс, Е.Э. Низами и Хагани.Moskva: Восточная литература / Е.Э. Бертéльс. -Москва, -1962. -146 с.
2. Həmidov, İ. “Xaqani Şirvani poeziyasında simvolika və semantik struktur // Filologiya məsələləri, -Bakı, 2020, № 5, s. 112–125.
3. Həmidov, İ. Xaqani Şirvani: həyat və yaradıcılığı / İ. Həmidov. -Bakı: Elm və Təhsil, 2020.-396 s.
4. Məmmədov, K.. Xaqani Şirvaninin həyatı və yaradıcılığı / İ. Həmidov.-Bakı: Elm, -2004. -396 s.
5. Xaqani Şirvani. Seçilmiş əsərləri / X. Şirnavi. -Bakı: Lider, 2004. -672 s.
6. Xaqani Şirvani. Töhfətül-İraqeyn. Tənqidi mətn, ön söz və şərhlər / H. Araslı. -Bakı: Azərbaycan SSR EA nəşriyyatı, -1957. -228 s.
7. Əliyeva, T.Ə. Yeniyetmələrin sosiallaşmasının mərhələləri və funksiyaları // -Bakı: ARTİ-nin Elmi əsərləri, 2026, №1

UOT 37.01

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/0000-0002-9210-7141
E-mail: a.abbasov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(4).12-13

TƏQDİM EDİLƏN MƏQALƏLƏR YÜKSƏK SƏVİYYƏDƏ OLMALIDIR

Akif Nuragha Abbasov
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor, Honored teacher

SUBMITTED ARTICLES MUST BE OF HIGH QUALITY

Акиф Нурага оглу Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, Заслуженный учитель

ПРЕДСТАВЛЕННЫЕ СТАТЬИ ДОЛЖНЫ БЫТЬ ВЫСКОГО КАЧЕСТВА

Hörmətli məqalə müəlliflər!

Jurnalımızla əməkdaşlıq etdiyiniz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Jurnalımız 1934-cü ildən nəşr edilir. Artıq ömrünün 92-ci ilini yaşayır və ildə 6 nömrəsi işıq üzü görür.

Bildiyiniz kimi, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının icazəsi ilə pedaqogika, fənlərin tədrisi metodikası və psixologiya elmləri üzrə materiallar jurnalımızda özünə yer alır. Onun axırıncı səhifələrində təqdim olunan məqalələrə verilən tələblər [1, s. 60-62] öz əksini tapmışdır. Nümunələr gətirək:

1. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.

2. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.

3. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir.

4. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

Müəlliflər həmin tələblərə əsasən əməl edirlər, fəqət bir sıra hallarda bəziləri tələbləri gözləmədən yazılarını redaksiyaya göndərirlər. Məsələn, "Təqdim olunan məqalələrə verilən tələblər"də göstərilir.

Ali Attestasiya Komissiyasının "Elmi dərəcələrin verilməsi qaydası haqqında Əsasnamə"də istifadə edilmiş ədəbiyyatın tərtibinə aydınlıq gətirilir. Biz jurnalımızın son səhifələrində yığcam şəkildə həmin qaydaları əks etdirmişik. Çoxcildli nəşrlərin; müəllifi göstərilməyən nəşrlərin; müəllifi dörd nəfərədək olan nəşrlər, o cümlədən bir müəllifli nəşrlərin; iki və üç müəllifli nəşrlərin; müəllifi dörd və daha çox olan nəşrlərin; beşdən çox müəllifli nəşrlərin; jurnal məqalələrinin; müəllifi üçdən çox olan jurnal məqalələrin; konfrans materiallarının; dissertasiyalar və onları avtoreferatlarının; elektron resursların; normativ-hüquqi sənədlərin; qəzet məqalələrinin; arxiv materiallarının yazılışı qaydalarına yazılışı ilə bağlı aydın təsəvvür yaradılır.

Bu tələb də bir sıra hallarda bəzi müəlliflər tərəfindən pozulur.

Məqalələri yazılışına verilən tələblərdən biri də budur ki, jurnalda müxtəlif illərdə dərc olunan məqalələrə istinad olmalıdır. Eyni zamanda web of science və scopus bazasında oturan jurnalla istinad tələb edilir.

Bu tələb jurnalımızın "Təqdim olunan məqalələrə verilən tələblər" bölməsində öz ifadəsini belə tapıb: "Məqalələrdə Web of Science və ya SCOPUS bazasında yerləşən jurnalların ayrı-ayrı nömrələrində və eyni zamanda Azərbaycan Respublikasının Təhsil İnstitutun Elmi əsərlərinin müxtəlif nömrələrində dərc olunmuş məqalələrə istinadlar vacibdir" [2, 260].

Bəzi məqalə müəllifləri bu tələbi də gözləmirlər.

Təbii ki, bu kimi məqalələr təkmilləşdirmə və redaktə işlərinin aparılması üçün müəlliflərə qaytarılır.

Belə bir məsələ də xüsusi diqqətə çatdırılmalıdır ki, bəzi məqalələr oxunmadan redaksiyaya təqdim olunur. Baxırsan ki, çoxsaylı hərf, üslub və orfoqrafiya səhvləri vardır. Məsələn, "***təıəb*** *(?) edir", **fəaliyyət göstrərir** (?).*

Dilimizdə qarşılığı olduğu halda bəzi söz və ifadələr qeyri-dildə yazılır. Məsələn, ***faktor*** (***amil*** sözü əvəzinə), ***effektiv (səmərəli*** sözü əvəzinə), ***kompetensiya*** (***sərişt*ə** sözü əvəzinə), ***kriteriya*** (***meyar*** sözü əvəzinə). təşkli, vasitələri, edaqoji, emo–sional, səmədəliliyini və s.

Hətta bəzi hallarda bu kimi anlaşılmaz cümlələrə rast gəlinir: "Biz, finlilər yalnız bu yolla bizdə çox böyük olmayan dəyərli insan resursları ehtiyatını istifadə edə bilərik".

Təqdim olunan bəzi məqalələr elmi xarakterli deyildir, yazılarında hamıya məlum məsələlərdən söz açılır. Halbuku "Təqdim olunan məqalələrə verilən tələblər"dəki kimi olmalıdır:

"1. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.

2. Məqalələrdə öz əksini tapan fikirlər müəlliflərə aid olmalıdır. İstifadə edilmiş fotolar açıq mənbələrdən götürülməlidir. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması məqalə müəlliflərinin məsuliyyətindədir [1, s. 60]."

Bəzən nədənsə ciddi redaktəyə ehtiyacı olan, çoxsaylı orfoqrafik səhvlər olan məqalələr redaksiyaya göndərilir. Başqa müəlliflərin yazılarını köçürərək, redaksiyaya təqdim edənlər var.

1. Öz məqalələrinə məsiliyyətli yanaşsınlar yaxşı-yaxşı oxuyub, üslub və orfoqrafik xətalarını düzəltdikdən sonra onları çapa hazır hesab etsinlər.

2. Plagiat hallarına yol verməsinlər.

3. Öz məqalələrində ədəbiyyat siyahısının tərtibini..... "qaydaları" nəzərə almaqla hazırlasınlar.

4. İqtibas vermədən ədəbiyyata əsərin adını salmasınlar.

5. Məqalələrində "Azərbaycan Respublikasının Elmi əsərlərin"nə Scopus və Web of Science bazasındakı jurnallara istinad etsinlər.

6. Məqalələrini təhsilin son dərəcə aktual problemlərinə həsr etsinlər. Nəzərdən keçirdikləri problemin nəzəri məsələləri ilə yanaşı təcrübi məsələlərinə də diqqət yetirsinlər.

Ədəbiyyat

1. Təqdim olunan məqalələrə tələblər // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2026. № 3, s. 260-262
2. İstifadə edilmiş ədəbiyyatın biblioqrafik təsviri // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2026. № 3, s. 25

UOT 37.01

Məhbubə Ərziman qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
elmlər doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0009-0009-4916-4982
E-mail: pedagogmm57@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).14-19

MÜƏLLİM HAZIRLIĞINDA SİSTEM YANAŞMANIN ELMİ-PEDAQOJİ ƏSASLARI

Mahbuba Arziman Mammadova
doctoral student of the doctor of science at
Azerbaijan State Pedagogical University

SCIENTIFIC-PEDAGOGICAL FOUNDATIONS OF THE SYSTEM APPROACH IN TEACHER TRAINING

Махбуба Арзиман гызы Мамедова
диссертант по программе доктора
Азербайджанского Государственного Педагогического Университета

НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ СИСТЕМНОГО ПОДХОДА В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ

Xülasə. Məqalədə müəllim hazırlığında sistem yanaşmanın elmi-pedaqoji əsasları araşdırılır. Müasir dövrdə təhsil sistemində baş verən qlobal dəyişikliklər müəllim hazırlığında yeni yanaşmaların tətbiqini zəruri edir. Sistem yanaşma müəllim hazırlığını ayrı-ayrı elementlərin məcmusu kimi deyil, qarşılıqlı əlaqədə olan vahid və bütöv bir struktur kimi nəzərdən keçirir. Məqalədə bu yanaşmanın mahiyyəti, əsas prinsipləri və təhsil prosesində tətbiq imkanları təhlil olunur. Eyni zamanda müəllimin yalnız bilik ötürən deyil, həm də təşkilatçı, tədqiqatçı və inkişafetdirici kimi formalaşmasının vacibliyi vurğulanır. Sistem yanaşmanın tətbiqi müəllim hazırlığının keyfiyyətinin artırılmasına, pedaqoji fəaliyyətin daha səmərəli təşkilinə və müasir təhsil tələblərinə uyğun kadrların yetişdirilməsinə xidmət edir.
Açar sözlər: *müəllim hazırlığı, sistem yanaşma, pedaqoji əsaslar, təhsil sistemi, innovasiya, təlim prosesi, pedaqoji fəaliyyət, müasir təhsil*

Absract. The article examines the scientific and pedagogical foundations of the system approach in teacher training. The global changes taking place in the education system in modern times necessitate the application of new approaches in teacher training. The system approach considers teacher training not as a set of separate elements, but as a single and integrated structure that is interconnected. The article analyzes the essence, basic principles and application possibilities of this approach in the educational process. At the same time, the importance of the formation of a teacher not only as a transmitter of knowledge, but also as an organizer, researcher and developer is emphasized. The application of the system approach serves to improve the quality of teacher training, more efficient organization of pedagogical activity and the training of personnel in accordance with modern educational requirements.
Keywords: *teacher training, system approach, pedagogical foundations, education system, innovation, training process, pedagogical activity, modern education*

Аннотация. В статье исследуются научно-педагогические основы системного подхода в подготовке учителей. Глобальные изменения, происходящие в современной системе образования, требуют применения новых подходов в подготовке учителей. Системный подход рассматривает подготовку учителей не как совокупность отдельных элементов, а как единую и интегрированную структуру, взаимосвязанную между собой. В статье анализируются сущность, основные принципы и возможности применения этого подхода в образовательном процессе. При этом подчеркивается важность формирования учителя не только как передатчика знаний, но и как организатора, исследователя и разработчика. Применение системного подхода служит повышению качества подготовки учителей, более эффективной организации педагогической деятельности и подготовке кадров в соответствии с современными образовательными требованиями.

Ключевые слова: *подготовка учителей, системный подход, педагогические основы, система образования, инновации, учебный процесс, педагогическая деятельность, современное образование*

Müasir dövrdə təhsil sistemində baş verən sürətli dəyişikliklər müəllim hazırlığına yeni yanaşmaların tətbiqini zəruri edir. Xüsusilə qloballaşma, rəqəmsallaşma və innovasiyaların artdığı bir şəraitdə müəllimin yalnız bilik ötürən deyil, həm də təşkilatçı, tədqiqatçı və inkişaf etdirici rolunda çıxış etməsi tələb olunur. Bu baxımdan müəllim hazırlığında sistem yanaşma mühüm əhəmiyyət kəsb edir.

"Müəllim hazırlığında sistem yanaşmasının elmi-pedaqoji əsasları müasir pedaqoji nəzəriyyənin və təcrübənin vacib komponentidir. Bu yanaşma təhsili vahid, strukturlaşdırılmış və qarşılıqlı əlaqəli elementlərdən ibarət kompleks sistem kimi qəbul edir" [11].

Sistem yanaşma müəllim hazırlığını ayrı-ayrı elementlərin cəmi kimi deyil, qarşılıqlı əlaqədə olan bütöv bir struktur kimi nəzərdən keçirir. Bu yanaşma müəllim hazırlığının məqsəd, məzmun, metod, forma və nəticə komponentlərinin vəhdətdə öyrənilməsini təmin edir.

"Müasir pedaqoji tədqiqatlar göstərir ki, sistem yanaşmanın tətbiqi müəllimlərin peşə fəaliyyətinin effektivliyini artırır, onların çevik düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir [6]". Bu yanaşma müəllimlərin dəyişən təhsil mühitinə uyğunlaşmasını asanlaşdırır və onların innovativ fəaliyyətə hazırlığını gücləndirir.

Sistem yanaşmasının ümumi elmi əsasları. Sistem yanaşması ümum elmi metodologiyanın əsas istiqamətlərindən biri olub, mürəkkəb obyekt və proseslərin bütöv şəkildə öyrənilməsini təmin edir. Bu yanaşma hadisə və prosesləri ayrı-ayrı elementlər kimi deyil, qarşılıqlı əlaqədə olan vahid bir sistem kimi təhlil etməyə imkan yaradır. Sistem yanaşmanın əsas məqsədi sistem daxilindəki komponentlərin funksiyalarını, qarşılıqlı təsir mexanizmlərini və ümumi nəticəyə təsirini birbaşa aşkara çıxarmaqdır.

Sistem yanaşma aşağıdakı əsas prinsipləri vacib sayır:

- **Bütövlük (holizm)** prinsipi. Burada sistem ayrı-ayrı hissələrin mexaniki cəmi kimi deyil, onların qarşılıqlı əlaqəsi nəticəsində formalaşan vahid struktur kimi öyrənilir. Bu prinsipə görə, sistemin xüsusiyyətləri yalnız elementlərin xüsusiyyətləri ilə izah olunmur, eyni zamanda, onların qarşılıqlı təsiri də nəzərə alınır. Təhsil sahəsində bu, müəllim hazırlığının yalnız fənn bilikləri ilə deyil, pedaqoji, psixoloji və sosial komponentlərin vəhdəti ilə formalaşdığını göstərir.
- **Struktur və iyerarxiya prinsipi.** Hər bir sistem müəyyən strukturdan ibarətdir və bu struktur daxilində komponentlər arasında iyerarxik əlaqələr mövcuddur. Sistem yanaşması bu əlaqələri aşkar etməyi və onların funksional rolunu müəyyənləşdirməyi tələb edir. Məsələn, müəllim hazırlığında məqsəd, məzmun, metod və nəticə komponentləri bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərir və hər biri müəyyən səviyyədə sistemin ümumi səmərəliliyinə təsir edir.
- **Qaşılıqlı əlaqə və inteqrasiya prinsipi.** Sistem daxilindəki elementlər bir-birinə təsir edir və bu təsir dinamik xarakter daşıyır. Heç bir element təcrid olunmuş şəkildə mövcud deyil. Bu prinsip təhsil prosesində inteqrativ yanaşmanın vacibliyini göstərir, yəni biliklərin, bacarıqların və dəyərlərin bir-biri ilə əlaqəli şəkildə formalaşdırılması əsas məsələdir.
- **Funksionallıq və idarəolunma prinsipi.** Sistemin hər bir elementi müəyyən funksionallıq yerinə yetirir və bu funksiyalar sistemin ümumi məqsədinə xidmət edir. Eyni zamanda sistemin effektiv fəaliyyəti onun düzgün idarə olunmasından asılıdır. Müəllim hazırlığında bu,

tədris prosesinin planlaşdırılması, təşkili və qiymətləndirilməsi ilə bağlıdır.

- **Açıq sistem prinsipi** sistemin xarici mühitlə (cəmiyyət, iqtisadiyyat, texnologiyalar) qarşılıqlı təsiridir. Bu zaman mühitdən fərqlənmə yaranır. Təhsil sistemi də cəmiyyət, iqtisadiyyat və texnologiyalarla sıx bağlıdır. Bu baxımdan müəllim hazırlığı sosial dəyişikliklərə uyğun olaraq daim yenilənməli və inkişaf etdirilməlidir.

Pedaqogikada bu yanaşma V.S. Lednev, Yu.K. Babanski və digər alimlərin işlərində inkişaf etdirilib. Təhsil sistemi "giriş – proses – çıxış – rəy" sxemi ilə modelləşdirilir. Bu, müəllim hazırlığını da əhatə edir [8].

Sistem yanaşma hər hansı bir obyektin və ya prosesin elementlərarası əlaqələr əsasında bütöv şəkildə öyrənilməsini nəzərdə tutur. Təhsildə bu yanaşma aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1. Bütövlük prinsipi
2. Struktur və funksional əlaqələrin mövcudluğu
3. Dinamik inkişaf
4. İdarəolunanlıq

Müəllim hazırlığında sistem yanaşma dedikdə, pedaqoji prosesin bütün komponentlərinin qarşılıqlı əlaqədə təşkil olunması başa düşülür. Bu yanaşma müəllim hazırlığını təsadüfi deyil, planlı və məqsədəuyğun prosesə çevirir.

Sistem yanaşma müəllim hazırlığında bir neçə əsas komponentin qarşılıqlı fəaliyyətini nəzərdə tutur:

1. Məqsəd komponenti. Müəllim hazırlığının əsas məqsədi peşəkar, yaradıcı və innovativ müəllim yetişdirməkdir. Bu məqsəd sistemin bütün digər komponentlərini istiqamətləndirir.

2. Məzmun komponenti. Məzmun müəllimə verilən bilik, bacarıq və vərdişlərin məcmusudur. Müasir dövrdə bu məzmuna aşağıdakılar daxildir:

- Pedaqoji biliklər
- Psixoloji hazırlıq
- Metodiki bacarıqlar
- Rəqəmsal savadlılıq.

3. Metod və vasitələr

Təlim prosesində istifadə olunan metodlar sistem yanaşmanın effektivliyini müəyyən edir. Bunlara daxildir:

- İnteraktiv metodlar
- Layihə əsaslı öyrənmə
- Tədqiqatyönlü fəaliyyətlər
- Problem əsaslı təlim.

Müəllim hazırlığı müxtəlif formalarda həyata keçirilir: mühazirələr, seminarlar, praktik məşğələlər, pedaqoji təcrübə.

Sistem yanaşmanın nəticəsi yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasıdır. Bu nəticə yalnız biliklə deyil, həm də müəllimin peşə davranışı ilə ölçülür.

Müəllim hazırlığında sistem yanaşma bir sıra pedaqoji prinsiplərə əsaslanır:

Elmilik prinsipi – təlim elmi əsaslara söykənməlidir.

Sistemlilik və ardıcıllıq – biliklər mərhələli şəkildə verilməlidir.

Fəallıq prinsipi – tələbələr təlim prosesində aktiv iştirak etməlidir.

Fərdiləşdirmə – hər bir tələbənin xüsusiyyətləri nəzərə alınmalıdır.

İnteqrasiya – müxtəlif fənlər arasında əlaqə qurulmalıdır.

Müasir təhsil sistemində sistem yanaşma daha da aktuallaşmışdır. Bunun əsas səbəbləri aşağıdakılardır:

- Rəqəmsal texnologiyaların inkişafı
- Təhsil proqramlarının yenilənməsi
- Müəllimin rolunun dəyişməsi
- Əmək bazarının yeni tələbləri.

Bu şəraitdə müəllim hazırlığı yalnız nəzəri biliklərlə kifayətlənmir, praktik və innovativ bacarıqları da əhatə etməlidir.

Müəllim hazırlığı fasiləsiz pedaqoji təhsil sistemi kimi qurulur (ilkin hazırlıq – ixtisasartırma – peşəkar inkişaf). Azərbaycan Respublikasında bu, Nazirlər Kabinetinin 2007-ci il 102 nömrəli qərarı ilə təsdiq edilmiş Konsepsiyada əksini tapıb. Burada müəllim hazırlığı vahid sistem kimi – dövlət, ictimai və şəxsi prioritetlərin balansı əsasında qurulur [9].

Əsas komponentlər:

1. Məqsəd bloku – səriştəli, peşəkar, yaradıcı müəllim hazırlamaq (şəxsiyyətyönümlü təhsil).

2. Məzmun bloku – nəzəri (pedaqogika, psixologiya, fənn bilikləri) + praktik (pedaqoji təcrübə, innovativ texnologiyalar) hazırlıq.

3. Proses bloku – tədris metodları, texnologiyalar (rəqəmsal, distant, inklüziv), tələbə-müəllim əməkdaşlığı.

4. Nəticə bloku – səriştələr (pedaqoji, metodiki, sosial, rəqəmsal), qiymətləndirmə və rəy mexanizmləri.

5. İdarəetmə və monitorinq – innovasiyalar, təkmilləşdirmə, fasiləsiz inkişaf [3].

Bu yanaşma komplekslik təmin edir: bilik → bacarıq → vərdiş → peşəkar səriştə→ şəxsi inkişaf.

Müasir kontekstdə tətbiqi (Azərbaycan və beynəlxalq təcrübə)

- **İlkin hazırlıqda innovasiyalar** – tədris planlarının yenilənməsi, praktik komponentin gücləndirilməsi, rəqəmsal texnologiyalar (süni intellekt, onlayn platformalar), TPACK modeli (məzmun + pedaqogika + texnologiya bilikləri). [8].
- **Fasiləsizlik** – ilkin təhsildən sonra ixtisasartırma və özünütəhsil sisteminin inteqrasiyası.
- **Səriştəyönüülük** – yalnız bilik vermək deyil, şagirdlərlə işləmə bacarıqlarını formalaşdırmaq.
- **Beynəlxalq aspekt** – UNESCO və digər qurumların tövsiyələrində sistem yanaşması müəllim hazırlığı və kurikulumun inkişafı üçün əsas kimi qəbul edilir (giriş-proses-çıxış modelləri) [10].

Üstünlükləri:

- Hazırlığın effektivliyini artırır.
- Adaptivliyi və çevikliyi təmin edir.
- Keyfiyyətə nəzarəti asanlaşdırır.
- Müasir çağırışlara (rəqəmsallaşma, inklüzivlik, qloballaşma) cavab verir.

Çətinliklər:

- Müəllimlərin yeni yanaşmalara hazırlığı.
- Resurslar (texniki, metodiki).
- Sistemdəki bütün elementlərin sinxronlaşdırılması.
- Müəllim hazırlığında sistem yanaşması elmi-pedaqoji prosesi xaotik deyil, məqsədyönlü, strukturlaşdırılmış və nəticəyönlü edir. Azərbaycanda bu, dövlət siyasətinin prioritetidir və fasiləsiz pedaqoji təhsil konsepsiyasında əks olunub. Bu yanaşmanın tətbiqi müəllimlərin peşəkarlığını yüksəldir, təhsilin keyfiyyətini artırır və cəmiyyətin inkişafına töhfə verir.

İlkin müəllim hazırlığında innovasiya meylləri

Sistem yanaşmanın tətbiqi zamanı bəzi çətinliklər də mövcuddur. Belə ki, ənənəvi təlim üsullarının üstünlük verilməsi, müəllimlərin innovativ metodlara tam hazır olmaması, maddi-texniki bazanın zəifliyi, proqramların köhnəlməsi və s. bura daxildir.

Bu problemlərin aradan qaldırılması sistem yanaşmanın effektiv tətbiqi üçün vacibdir.

Müasir dövrdə təhsil sistemində baş verən qlobal dəyişikliklər müəllim hazırlığında yeni yanaşmaların tətbiqini zəruri edir. Xüsusilə sistem yanaşma müəllim hazırlığının elmi-pedaqoji əsaslarının formalaşmasında mühüm rol oynayır və bu sahədə innovativ meyllərin yaranmasına təkan verir. Sistem yanaşma müəllim hazırlığını ayrı-ayrı komponentlərin mexaniki toplusu kimi deyil, qarşılıqlı əlaqədə olan vahid bir struktur kimi nəzərdən keçirir.

İlkin müəllim hazırlığında sistem yanaşmanın tətbiqi bir sıra mühüm üstünlüklər yaradır:

1. Təlim prosesinin səmərəliliyinin artması. Sistemli planlaşdırma, məqsəd, məzmun, metod və qiymətləndirmə komponentlərinin qarşılıqlı uyğunluğu təlimin daha səmərəli təşkilinə şərait yaradır. Bu isə gələcək müəllimlərin peşə bacarıqlarını daha məqsədyönlü şəkildə inkişaf etdirir.

2. Müəllimlərin peşəkar inkişafının təmin olunması. Sistem yanaşma müəllim hazırlığını fasiləsiz inkişaf prosesi kimi qəbul edir. Bu yanaşma çərçivəsində tələbələr yalnız nəzəri biliklər deyil, həm də refleksiya, özünüqiymətləndirmə və tədqiqat aparmaq bacarıqları qazanırlar.

3. Nəzəri və praktik biliklərin inteqrasiyası. Ənənəvi təhsildə müşahidə olunan nəzəri biliklərin praktikadan ayrı olması problemli sistem yanaşma vasitəsilə aradan qaldırılır. Tədris prosesində praktik fəaliyyətlər, pedaqoji təcrübə və real sinif situasiyalarının modelləşdirilməsi xüsusi yer tutur.

4. Təhsil keyfiyyətinin yüksəlməsi. Sistem yanaşma nəticəyönüü təhsili ön plana çəkir. Bu isə müəllim hazırlığında keyfiyyət göstəricilərinin yüksəlməsinə, məzunların əmək bazarına daha hazır vəziyyətdə daxil olmasına imkan yaradır.

Bununla yanaşı, sistem yanaşmanın tətbiqi zamanı müəyyən çətinliklər də ortaya çıxır. Ənənəvi təlim üsullarının üstünlük təşkil etməsi, müəllimlərin innovativ metodlara tam hazır olmaması, maddi-texniki bazanın yetərsizliyi və təhsil proqramlarının müasir tələblərə uyğun yenilənməməsi bu çətinliklər sırasında xüsusi qeyd olunmalıdır. Həmçinin bəzi hallarda idarəetmə mexanizmlərinin qeyri-effektivliyi sistem yanaşmanın tətbiqini ləngidə bilər.

Bu problemlərin aradan qaldırılması üçün kompleks tədbirlərin həyata keçirilməsi vacibdir. İlk növbədə müəllim hazırlığı proqramları müasir tələblərə uyğun şəkildə yenilənməli, rəqəmsal

texnologiyaların tətbiqi genişləndirilməli və müəllimlərin davamlı peşəkar inkişafı təmin olunmalıdır. Eyni zamanda ali təhsil müəssisələri ilə məktəblər arasında əməkdaşlıq gücləndirilməli, praktikyönlü təlimə daha çox yer verilməlidir.

Müəllim hazırlığında sistem yanaşma müasir təhsil sisteminin əsas tələblərindən biri kimi çıxış edir. Bu yanaşma müəllim hazırlığını daha məqsədyönlü, çevik və keyfiyyətli edir. Sistem yanaşmanın tətbiqi nəticəsində müəllimlər yalnız bilik ötürən deyil, həm də yaradıcı, tədqiqatçı və innovativ düşüncəyə malik mütəxəssislər kimi formalaşırlar. Bu isə bütövlükdə təhsil sisteminin inkişafına və cəmiyyətin tərəqqisinə mühüm töhfə verir.

Müəllim hazırlığında sistem yanaşma müasir təhsil sisteminin əsas tələblərindən biridir. Bu yanaşma müəllim hazırlığını daha məqsədyönlü, səmərəli və keyfiyyətli edir. Bu yanaşma müəllim hazırlığını yalnız ayrı-ayrı bilik və bacarıqların mənimsənilməsi kimi deyil, kompleks və inteqrativ bir proses kimi dəyərləndirir. Sistem yanaşmaya əsasən, müəllim hazırlığında məqsəd, məzmun, metod, vasitə və nəticə komponentləri vahid struktur daxilində qarşılıqlı təsir göstərir və bir-birini tamamlayır.

Bu yanaşmanın tətbiqi müəllim hazırlığının daha planlı, ardıcıl və səmərəli təşkilinə imkan yaradır. Belə ki, gələcək müəllimlər yalnız nəzəri biliklərlə kifayətlənmir, eyni zamanda, praktik bacarıqlar, tədqiqat aparmaq qabiliyyəti, yaradıcı düşünmə və innovativ fəaliyyət kimi mühüm səriştələrə yiyələnirlər. Sistem yanaşma müəllimin peşəkar inkişafını dinamik proses kimi qəbul edir və onun fasiləsiz təhsilini, özünüinkişafını və refleksiv fəaliyyətini ön plana çəkir.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, tədris-təlim prosesi o vaxt keyfiyyətli hesab edilir ki, tədris prosesinə istiqamət verən və onu inkişaf etdirən müəllimlərin bilikləri kifayət qədər təkmilləşdirilmiş və yeniləşdirilmiş olsun, müasir tələblərə cavab versin. Tədris-təlim prosesində müəyyən bir fənnin müvafiq bölməsinin və ya mövzunun tədrisində effektivliyə nail olma, məhz texnologiyanın seçilməsindən çox asılıdır. Bu baxımdan texnologiya, texnoloji yanaşma təhsil islahatının ayrılmaz bir hissəsi kimi səriştəli müəllim (təhsilverən) hazırlığında mühüm rol oynayır [11].

Eyni zamanda bu yanaşma müəllimi təlim prosesinin passiv icraçısından aktiv təşkilatçı və istiqamətləndirici subyektə çevirir. Müəllim yalnız bilik ötürmür, o, şagirdlərin idrak fəaliyyətini təşkil edən, onları araşdırmaya və müstəqil düşünməyə yönəldən şəxs kimi formalaşır. Bu isə müasir təhsilin əsas prinsiplərindən olan şagirdyönlülük, fərdiləşdirmə və inklüzivlik kimi yanaşmaların həyata keçirilməsinə şərait yaradır.

Sistem yanaşmanın müəllim hazırlığında tətbiqi pedaqoji fəaliyyətin keyfiyyətinin yüksəldilməsinə, təlimin səmərəliliiyinin artırılmasına və müasir tələblərə cavab verən peşəkar müəllim kadrlarının formalaşmasına mühüm töhfə verir. Gələcəkdə bu yanaşmanın daha geniş tətbiqi təhsil sisteminin davamlı inkişafını təmin edən əsas amillərdən biri kimi çıxış edəcəkdir.

Ənənəvi müəllim hazırlığı daha çox bilikyönlü və passiv öyrənmə modeli üzərində qurulmuşdur. Bu modeldə müəllim əsas informasiya mənbəyi kimi çıxış edir. Sistem yanaşmaya əsaslanan müasir model isə müəllim hazırlığını kompleks proses kimi dəyərləndirir və burada əsas diqqət gələcək müəllimin hərətərəfli inkişafına – pedaqoji, psixoloji, tədqiqat və innovativ bacarıqlarına yönəlir.

Bu baxımdan yeni yanaşma təhsilin keyfiyyətinin artırılması, müəllimlərin dəyişən təhsil mühitinə uyğunlaşması və şagirdyönlü təlimin həyata keçirilməsi üçün daha effektiv hesab olunur.

Nəticə

Aparılmış təhlillər göstərir ki, müəllim hazırlığında sistem yanaşma müasir təhsil sisteminin inkişaf istiqamətlərinə uyğun olan ən səmərəli metodoloji yanaşmalardan biridir. Bu yanaşma müəllim hazırlığını ayrı-ayrı elementlərin məcmusu kimi deyil, qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan komponentlərdən ibarət vahid sistem kimi dəyərləndirir. Sistem yanaşmanın tətbiqi nəticəsində müəllim hazırlığında nəzəri və praktik biliklərin inteqrasiyası təmin olunur, peşə sərştələrin formalaşması sürətlənir, təlim prosesinin keyfiyyəti yüksəlir və müəllimlərin fasiləsiz peşəkar inkişafı üçün əlverişli şərait yaranır.

Beləliklə, gələcəkdə müəllim hazırlığında sistem yanaşmanın daha geniş tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcəkdir.

Problemin aktuallığı. Müasir təhsil islahatları və müəllim peşəsinə verilən yeni tələblər müəllim hazırlığında sistem yanaşmanın tətbiqini zəruri edir. Bu yanaşma gələcək müəllimlərin peşə sərişlərin

formalaşdırılmasına və təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Problemin elmi yeniliyi. Tədqiqatda müəllim hazırlığında sistem yanaşmanın nəzəri-pedaqoji əsasları sistemləşdirilmiş, onun müəllimlərin peşə hazırlığına təsiri müəyyənləşdirilmiş və tətbiqi istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələrindən müəllim hazırlığı proqramlarının təkmilləşdirilməsində, pedaqoji kadrların peşəkar inkişafının təşkilində və tədris prosesinin səmərəliliyinin artırılmasında istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası. – Bakı, 2022. – 38 s.
2. Cəfərov, S. Pedaqoji prosesin təşkili və idarə olunması // – Bakı: Elm və təhsil, –2021. – 256 s.
3. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: monoqrafiya / elmi red. F.A. Rüstəmov. – Bakı: Elm və təhsil, –2018. – 208 s.
4. İlyasov, M. İlkin müəllim hazırlığında innovasiya meyilləri // Azərbaycan məktəbi. – 2024. – № 2. – S. 21–30.
5. Məmmədov R. Təhsildə innovasiyalar və müəllim hazırlığı. – Bakı: Təhsil, –2017. – 184 s.
6. Darling-Hammond, L. Teacher education around the world: What can we learn from international practice? // European Journal of Teacher Education. – 2017. No. 3. – P. 291–309. – DOI: 10.1080/02619768.2017.1315399.
7. UNESCO/ILO. Recommendation concerning the Status of Teachers. – Paris: UNESCO, 1966. – Available at: UNESDOC https://www.unesco.org/en/legal-affairs/recommendation-concerning-status-teachers?hub=70224&utm_source=chatgpt.com
8. Леднев, В.С. Содержание образования: сущность, структура, перспективы. – Москва: Высшая школа, –1991. – 224 с.
9. Azərbaycan Respublikasının Nazirlər Kabineti. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası [Elektron resurs]. – Bakı, 2007. – İstifadə rejimi: Elm və Təhsil Nazirliyi PDF sənədi https://edu.gov.az/upload/file/fasilesiz-pedoqoji-kensepsiya-ve-strategiya.pdf?utm_source=chatgpt.com
10. UNESCO/ILO. Recommendation concerning the Status of Teachers [Electronic resource]. – Paris: UNESCO; International Labour Organization, –1966. – Available at: UNESDOC Repository
11. Məmmədova, S. Səriştəli təhsilverən hazırlığında yeni texnologiyalardan istifadənin sosial-pedaqoji aspektləri [Elektron resurs]. – İstifadə rejimi: Təhsil Jurnalı məqaləsi
12. Kenny, J., & Cirkony, C. Using systems perspectives to develop underlying principles for educational reform // Australian Journal of Teacher Education. – 2022. – Vol. 47, No. 1. – P. 80–99. – DOI: 10.14221/ajte.2022v47n1.6.
13. Bertram, C. A systems approach to understanding novice teachers' experiences and professional learning // Journal of Education. – 2023. – P. 11–31. – DOI: 10.17159/2520-9868/i90a01.

Redaksiyaya daxil olub: 17.06.2026

UOT 37.01

Natiq Lyutfiq oğlu Axundov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim
http://orcid.orq/0000-0001-6761-8399
E-mail: natiq_axundov1953@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).20-24

MÜƏLLİM HAZIRLIĞI İLƏ BAĞLI PEDAQOJİ TƏCRÜBƏNİN YEKUNUNDA TƏLƏBƏ, METODİST, PEDAQOQ VƏ PSİXOLOQUN HESABATININ TÜRKİYƏ MODELİ

Natiq Lyutfiq Akhundov
leading researcher at the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in pedagogy,
associate professor, Honored Teacher

THE TURKISH MODEL OF THE REPORT OF THE STUDENT, METHODOLOGIST, PEDAGOGUE, AND PSYCHOLOGIST AT THE END OF THE PEDAGOGICAL PRACTICE RELATED TO TEACHER TRAINING

Натиг Лютфиг оглы Ахундов
ведущий научный сотрудник Института Образования Азербайджанской Республики,
доцент,
доктор философии по педагогике, Заслуженный учитель

ТУРЕЦКАЯ МОДЕЛЬ ОТЧЕТА СТУДЕНТА, МЕТОДИСТА, ПЕДАГОГА И ПСИХОЛОГА ПО ИТОГАМ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ В РАМКАХ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ

Xülasə. Təqdim olunan məqalədə Türkiyə təhsil sisteminin modelinə əsasən gələcək müəllimlərin hazırlanması prosesində pedaqoji təcrübənin təşkili, idarə olunması və yekun qiymətləndirilməsi məsələləri araşdırılır. Pedaqoji təcrübə dövrü tələbələrin nəzəri biliklərini praktikada tətbiq etməsi, sinif idarəçiliyi və sosial-psixoloji bacarıqlarını inkişaf etdirməsi baxımından təhlil olunur.
Açar sözlər: *Türkiyə modeli, müəllim hazırlığı, pedaqoji təcrübə, yekun hesabat, metodist rəyi, pedaqoji qiymətləndirmə, sinif idarəetməsi, psixoloji dəstək*

Abstract. This article examines the organization, management, and final evaluation of pedagogical practice in the process of teacher training based on the Turkish educational model. The pedagogical practice period is analyzed in terms of students applying theoretical knowledge into practice, developing classroom management skills, and socio-psychological competencies.
Keywords: *Turkish model, teacher training, pedagogical practice, final report, pedagogical evaluation, psychological support.*

Аннотация. В данной статье на основе турецкой модели системы образования исследуются вопросы организации, управления и итогового оценивания педагогической практики в процессе подготовки будущих учителей. Педагогическая практика анализируется с точки зрения применения студентами теоретических знаний на практике, развития навыков управления классом и социально-психологических компетенций.
Ключевые слова: *турецкая модель, подготовка учителей, педагогическая практика, итоговый отчет, педагогическое оценивание, психологическая поддержка*

Türkiyədə tələbələrin pedaqoji təcrübəsi onların müəllimlik ixtisası üzrə praktik təcrübə qazanması üçün çox vacib bir mərhələdir. Bu təcrübə tələbələrin fənni tədris etmə bacarıqlarını inkişaf etdirmələrini və nəzəri biliklərini praktikada tətbiq etməyi öyrənmələrini təmin edir. Gələcək müəllimlərin pedaqoji təcrübə müddəti, onun başlama və bitmə vaxtı, krediti və təşkilati qaydaları müxtəlif təhsil müəssisələri tərəfindən müvafiq standartlarla tənzimlənir [1, s. 34-38; 3, s. 52; 5].

Pedaqoji təcrübə onların sinifdə effektiv tədris aparmaq, şagirdlərlə münasibət qurmaq və tədris prosesində qarşılaşa biləcəkləri çətinliklərin öhdəsindən gəlmək üçün lazım olan bacarıqları inkişaf etdirmək məqsədini güdür. Tələbələrin fəaliyyəti yalnız şagirdlərin təhsilinə dəstək olmaqla kifayətlənmir, həm də onların sinif idarəetməsi, qiymətləndirmə və tədris planı hazırlama kimi müxtəlif pedaqoji bacarıqlarını inkişaf etdirir [4, s. 97-103; 1, s. 79]. Pedaqoji təcrübə müddətində tələbələr həm tədris etdikləri dərslərin, həm də şagirdlərlə olan fəaliyyətlərin nəticələrini sənədləşdirir və bununla əlaqəli hesabat təqdim edirlər. [2, s. 141; 3, s. 118-123; 6, s. 164].

Pedaqoji təcrübənin sonunda tələbənin hesabat vermə forması

Tələbələrin təqdim etdiyi hesabatlar müəyyən bir struktur əsasında hazırlanır və onun forması tələbənin təcrübə dövründə əldə etdiyi məlumatların düzgün şəkildə təqdim edilməsi və təcrübə nəticələrinin qiymətləndirilməsi məqsədi daşıyır [3, s. 85-90; 4, s. 112].

Təcrübə planı hissəsində tələbə pedaqoji təcrübə müddətində hazırladığı dərs planlarını, istifadə etdiyi metodları və fəaliyyətləri təqdim edir. Tələbə hər bir dərs və ya fəaliyyətin icrası haqqında geniş məlumat verir, dərsin məqsədi, istifadə etdiyi metodlar, şagirdlərin reaksiyaları və tədris prosesinin necə keçdiyini qeyd edir [1, s. 97-101; 3, s. 120]. Türkiyədə pedaqoji təcrübə dövrü ərzində tələbənin hesabat verməsi üçün bəzi ümumi tələblər mövcuddur. Bu tələblər hesabatın düzgün və tam şəkildə hazırlanmasını təmin etmək məqsədinə xidmət edir [5].

1. **Hesabat əhatəli olmalıdır.** Burada tələbənin təcrübə dövrü ərzində apardığı bütün fəaliyyətlər əhatə olunmalı və hər bir fəaliyyətin nəticələri təqdim edilməlidir [3, s. 175].

2. **Ədəbi dil və tərtibat.** Hesabat yazılı şəkildə ədəbi dildə olmalı, düzgün qrammatik və imla qaydalarına riayət edilməlidir [2, s. 188].

3. **Şəxsi yanaşma.** Tələbə hesabatda yalnız faktları deyil, həm də şəxsi fikirlərini və təcrübə müddətində öyrəndiklərini paylaşmalıdır. Bu, onun inkişafını izləmək və güclü tərəflərini, inkişaf sahələrini müəyyən etmək üçün vacibdir [1, s. 142].

4. **Sənədlərlə dəstəklənməlidir.** Hesabata dərs planları, qiymətləndirmə vasitələri, şagirdlərin performansına dair statistikalar və digər müvafiq sənədlər əlavə edilməlidir [5]. Hesabatın qiymətləndirilməsi və tətbiqi hissəsində pedaqoji təcrübə dövrünün sonunda tələbənin hazırladığı hesabat qiymətləndirilir [2, s. 210; 3, s. 181]. Pedaqoji təcrübənin sonunda bu dövrü izləyən metodistlərin də öz hesabatlarını təqdim etmələri tələb olunur. Metodistlər tələbələrin təcrübə dövründəki fəaliyyətlərini izləyir, onları qiymətləndirir və təcrübə müddətində tələbələrin inkişafını izləmək məqsədilə rəy və hesabat təqdim edirlər [3, s. 74-78; 4, s. 95].

Pedaqoji təcrübə dövrünün sonunda metodistin hazırladığı hesabat üçün bəzi ümumi tələblər müəyyən edilmişdir. Bu tələblər hesabatın strukturunun və məzmununun keyfiyyətini təmin etmək məqsədini güdür [5].

1. **Əhatəlilik.** Hesabat tələbənin bütün fəaliyyətlərini, dərs planlarını, qiymətləndirmə üsullarını və sinif idarəçiliyini əhatə etməlidir [3, s. 171].

2. **Düzgünlük və aydınlıq.** Hesabat düzgün dil qaydalarına riayət edilərək, aydın və anlaşıqlı şəkildə yazılmalıdır [2, s. 198].

3. **Şəxsi müsahibə və təhlil.** Metodist hesabatda yalnız faktları təqdim etməməli, həm də şəxsi təhlil aparmalı və mülahizələrini paylaşmalıdır. Bu, tələbənin inkişafı ilə bağlı daha dərindən anlayış yaratmağa kömək edir [1, s. 149].

4. **Sənədlərlə dəstəklənmə.** Hesabat tələbənin təcrübə dövrü ərzində hazırladığı dərs planları, qiymətləndirmə vasitələri, şagirdlərin icra etdiyi tapşırıqlar və digər sənədlərlə dəstəklənməlidir [5].

Metodistin pedaqoji təcrübə dövrü ərzində təqdim etdiyi hesabatlar tələbənin inkişafını izləmək və proqramın keyfiyyətini qiymətləndirmək məqsədilə istifadə olunur [3, s. 181; 4, s. 214]. Metodistin hesabat; yalnız tələbənin inkişafını izləmək məqsədi daşımır, eyni zamanda pedaqoji

təcrübə dövrünün ümumi keyfiyyətini artırmağa yönəlmiş əhəmiyyətli bir materialdır. Metodistlərin rəyləri təcrübə proqramlarının təkmilləşdirilməsi və gələcəkdə daha yaxşı tədris mühiti yaratmaq üçün vacib bir qaynaqdır [4, s. 218; 5].

Pedaqoji təcrübənin sonunda pedaqoqun hesabat vermə forması

Təcrübə rəhbəri olan pedaqoq pedaqoji təcrübə müddətində tələbəni izləyir, ona dəstək olur və təcrübənin sonunda tələbənin fəaliyyətlərini qiymətləndirərək hesabat verir [3, s. 68-72; 4, s. 91].

Dərs planları və tədris metodları: pedaqoq tələbənin hazırladığı dərs planlarını və istifadə etdiyi tədris metodlarını qiymətləndirir. Burada dərs planlarının məqsədləri, məzmunu, metodların uyğunluğu və digər xüsusiyyətlər barədə ətraflı məlumat verilir [1, s. 88; 3, s. 101].

Tədrisin icrası: tələbənin dərsi necə keçdiyi, dərs zamanı şagirdlərin iştirakı və dərsə qarşı olan reaksiyaları təhlil edilir [4, s. 119].

Dərsin səmərəliliyi: pedaqoq dərsin məqsədlərinə nə dərəcədə çatıldığını, şagirdlərin nəticələrini və dərsin uğurunu qiymətləndirir [2, s. 146].

Hesabatda tələbənin tərbiyəvi fəaliyyətləri ilə bağlı pedaqoq onun şagirdlərlə münasibətlərini və tərbiyəvi fəaliyyətlərini də qiymətləndirir. Bu, sinif idarəçiliyi, şagirdlərin davranışlarını izləmə və təşviq etmə, tərbiyəvi tədbirlər, sinifdəki atmosferin idarə edilməsi kimi məsələləri əhatə edir. [4, s. 138-141]. Pedaqoq tələbənin intellektual və peşəkar inkişafını da izləyir. Bu, tələbənin öz tədris və pedaqoji bacarıqlarını necə inkişaf etdirdiyini, qarşılaşdığı çətinliklərə necə yanaşdığını və peşəkar biliklərini tətbiq etməkdəki müvəffəqiyyətini əhatə edir [3, s. 144-147].

Pedaqoq tələbənin təcrübə dövründə qarşılaşdığı əsas problemləri və çətinlikləri də qeyd edir [1, s. 136; 3, s. 158]. Hesabatın sonunda pedaqoq ümumi bir qiymətləndirmə edir. Tələbənin pedaqoji təcrübə dövrü ərzində nə qədər irəliləyiş göstərdiyini və gələcəkdə necə bir müəllim olacağını proqnozlaşdırır [1, s. 181].

Pedaqoqun pedaqoji təcrübə dövründə hazırladığı hesabat bəzi ümumi tələblərə cavab verməlidir. Bu tələblər hesabatın düzgün, aydın və müfəssəl olmasını təmin edir [5].

1. **Dəqiqlik və obyektivlik:** Hesabatın dəqiq və obyektiv olması vacibdir. Pedaqoq yalnız faktları təqdim etməli və subyektiv qiymətləndirmələrdən qaçmalıdır [2, s. 201].

2. **Aydınlıq və struktur:** Hesabatın aydın şəkildə yazılması və düzgün struktura sahib olması tələb olunur. Hər bir hissə arasında məntiqli keçidlər olmalıdır [3, s. 169].

3. **Peşəkar dil və qrammatika**: Hesabat ədəbi dildə, düzgün qrammatika ilə yazılmalıdır [2, s. 208].

4. **Şəxsi müsahibə və təhlil:** Pedaqoqun şəxsi təhlil və müşahidələri hesabatda yer almalıdır. Bu, tələbənin inkişafını daha dərindən qiymətləndirməyə imkan verir [1, s. 149].

5. **Sənədlərlə dəstəklənmə**: Hesabata tələbənin dərs planları, qiymətləndirmə sənədləri və digər tədris materialları əlavə edilə bilər [5].

Pedaqoq işi yalnız tələbənin fəaliyyətlərini izləmək və qiymətləndirmək deyil, o həm də tələbənin peşəkar inkişafını təmin etmək məqsədilə ona rəhbərlik edir. [1, s. 186; 4, s. 218].

Pedaqoji təcrübənin sonunda psixoloqun hesabat vermə forması

Psixoloqun pedaqoji təcrübə dövründə hazırladığı hesabat şagirdlərin emosional və sosial inkişafını izləmək, tələbənin bu inkişafı necə dəstəklədiyini və onun davranışlarının sinif atmosferinə necə təsir etdiyini qiymətləndirmək məqsədini güdür. Hesabat aşağıdakı əsas hissələrdən ibarət olur. [4, s. 104; 6, s. 71]

Hesabatın başında psixoloqun adı, məktəbin adı, təcrübə dövrü və şagirdlərlə işləmə tarixləri qeyd olunur. Giriş hissəsində psixoloq hesabatın məqsədini, metodunu və əhəmiyyətini izah etməklə yanaşı, onun şagirdlərin psixoloji inkişafını necə əks etdirdiyini vurğulayır. Bundan başqa, o, pedaqoji təcrübə dövründə tələbənin şagirdlərlə qarşılıqlı əlaqələrini qiymətləndirir. Bu, tələbənin şagirdlərin emosional və sosial vəziyyətlərini necə anlayıb idarə etməsi ilə bağlı müşahidələri əhatə edir [1, s. 63; 6, s. 88].

Hesabatın şagirdlərin psixoloji vəziyyətinin müəyyənləşdirilməsi hissəsində tələbənin şagirdlərin psixoloji vəziyyətini necə təhlil etdiyi, onların emosional vəziyyətlərini necə izlədiyi və hər hansı bir psixoloji problem qarşısında necə mübarizə apardığı qeyd edilir. [6, s.145-149]. Psixoloq tələbənin şagirdlərə necə psixoloji dəstək verdiyini, şagirdlərin sosial və emosional problemlərini həll etmək üçün hansı üsulları tətbiq etdiyini izah edir. [3, s. 137; 6, s. 173].

Tələbənin özünütəhlili və inkişafı ilə bağlı olaraq psixoloq tələbənin özünün psixoloji fəaliyyətlərini və inkişafını necə qiymətləndirdiyini, təcrübə dövründə özünü necə təkmilləşdirdiyini təhlil edir. Tələbənin şagirdlərə qarşı empatiya qabiliyyəti, onları anlama və dəstəkləmə bacarığı, şagirdlərin psixoloji problemlərini necə idarə etdiyi də bu hissədə yer alır [2, s. 181; 6, s. 194].

Hesabatın müşahidə və təkliflər hissəsində psixoloq tələbənin inkişafını, fəaliyyətlərini və şagirdlərlə əlaqələrini nəzərdən keçirir. Həmçinin tələbənin gələcək inkişafı üçün təkliflər verir. [1, s. 154; 4, s. 187.] Psixoloqun hazırladığı hesabatın aşağıdakı xüsusiyyətlərə sahib olması tələb olunur.

1. **Dəqiqlik və obyektivlik.** Hesabatda verilən məlumatların dəqiq və obyektiv olması vacibdir. Psixoloq şagirdlərin psixoloji inkişafını izləyərkən şəxsi yanaşmalarını faktlarla dəstəkləməlidir [2, s. 203].

2. **Aydınlıq və struktur.** Hesabatın yaxşı, geniş və aydın şəkildə yazılması vacibdir. Hər bir hissə, məqsəd və nəticələr açıq şəkildə təqdim edilməlidir [3, s. 169].

3. **Empatiya və şəffaflıq.** Hesabatın yazılmasında empatiya və şəffaflıq vacibdir. Psixoloq tələbənin inkişafına dair öz müşahidələrini təqdim etməli, lakin şagirdlərə qarşı müsbət və dəstəkləyici bir dildən istifadə etməlidir [6, s. 214].

4. **Şəxsi təhlil və müşahidələr.** Hesabatda psixoloqun şəxsi təhlil və mülahizələri yer almalıdır. Şagirdin inkişafı, davranışları və psixoloji vəziyyəti ilə bağlı psixoloqun təhlilləri hesabatı daha zəngin və faydalı edir [1, s. 166].

5. **Sənədlərlə dəstək.** Hesabatın təhlilləri və qiymətləndirmələri konkret nümunələrlə və sənədlərlə dəstəklənməlidir. Bu, hesabatın daha inandırıcı və obyektiv olmasına kömək edir [5].

Psixoloqun pedaqoji təcrübə dövründəki hesabatı şagirdlərin emosional və psixoloji inkişafını izləmək üçün vacib bir vasitədir. Hesabat həm də tələbənin inkişafını izləmək və pedaqoji təcrübə proqramının səmərəliliyini qiymətləndirmək məqsədilə istifadə edilir [4, s. 211; 6, s. 236].

Psixoloqun hesabatının qiymətləndirilməsi aşağıdakı meyarlara əsaslanır: *şagirdlərin psixoloji vəziyyətinin düzgün təhlili; tələbənin şagirdlərlə münasibətlərinin və onların inkişafının dəstəklənməsi; psixoloji müdaxilələrin səmərəliliyi; tələbənin psixoloji inkişafı ilə bağlı özünütəhlil qabiliyyəti; hesabatın strukturu və yazılış keyfiyyəti* [2, s. 219; 6, s. 248].

Nəticə. Bu məqalə, Türkiyə təhsil sisteminin modelinə əsaslanaraq müəllim hazırlığı prosesində pedaqoji təcrübənin çoxölçülü və obyektiv qiymətləndirilməsinin elmi-nəzəri əsaslarını ortaya qoyur. Gələcək müəllimlərin peşəkar inkişafı ənənəvi birtərəfli yanaşmadan fərqli olaraq, dörd müstəqil subyektin (tələbə, metodist, pedaqoq və psixoloq) qarşılıqlı hesabatlılıq mexanizmi əsasında qiymətləndirilməlidir.

Problemin aktuallığı. Müasir qloballşan dünyada təhsil sistemlərinin keyfiyyəti birbaşa olaraq fərqli böhran vəziyyətlərində çevik qərar qəbul edə bilən, rəqabətədavamlı müəllim kadrlarının yetişdirilməsindən asılıdır. Türkiyə modelinə əsaslanan bu tədqiqatın aktuallığı gələcək müəllimlərin yalnız akademik biliklərini deyil, həm də sinif menecmenti və emosional intellekt kimi çoxtərəfli bacarıqlarını ölçən hesabatlılıq sisteminə olan ehtiyacdan irəli gəlir.

Problemin elmi yeniliyi. Bu məqalədə gələcək müəllimin peşəkar inkişafı ilk dəfə olaraq tək tərəfli rəy kimi deyil, tələbə, metodist, pedaqoq və psixoloqun qiymətləndirmələrindən ibarət dördtərəfli qarşılıqlı əlaqə modeli şəklində elmi cəhətdən əsaslandırılır. Məqalədə sübut olunur ki, bu dördtərəfli hesabatlar sadəcə qiymətləndirmə vasitəsilə bitmir, həm də ali təhsil müəssisələrinin müəllim hazırlığı kurikulumlarının gələcək təkmilləşdirilməsini təmin edən elmi qaynaq rolu oynayır.

Problemin praktik əhəmiyyəti. Məqalədə təsvir olunan dördtərəfli hesabat strukturları ali təhsil müəssisələrinin pedaqoji fakültələri və reytinq komissiyaları üçün birbaşa istifadə oluna biləcək hazır metodiki təlimat xarakteri daşıyır. Tələbələrin dərs planlarını, şagird performans statistikalarını və real problemlərin həlli yollarını sənədləşdirməsi gələcək müəllimlərin zəngin peşəkar portfoliosunun formalaşmasına və böhran vəziyyətlərini praktik idarə etməsinə şərait yaradır.

Ədəbiyyat

1. Akkaya, N. Müəllimlik Mesleği ve Pedaqoji Uygulama / N. Akkaya. –İstanbul: Eğitim Yayınnevi, –2019. –190 s.
2. Büyüköztürk, Ş. Eğitimde Bilimsel Araştırma Yöntemleri / Ş. Büyüköztürk. –Ankara: Pegem Yayıncılık, –2018. –250 s.

3. Demirtaş, H. Pedaogojik Formasyon Eğitimi ve Uygulamaları / H. Demirtaş, –İstanbul: Nobel Yayıncılık, –2019. –190 s.
4. Korkmaz, H. Öğretmenlik Mesleği ve Eğitim Süreçleri / H. Korkmaz –İzmir: Eğitim Yayınevi, –2020. –220 s.
5. Milli Təhsil Nazirliyi (MEB). Müəllim hazırlığı və pedaqoji təcrübə qaydaları haqqında məlumat. www.meb.gov.tr
6. Şahin, N. Psikolojik Danışmanlık ve Eğitimde Psikoloji Uygulamaları / N. Şahin –İstanbul: Nobel Yayıncılık, –2018. –290 s.
7. F.A. Rüstəmov, A.Ə. Əliyeva. Ali təhsil müəssisələrində müəllim hazırlığının müasir strategiyaları və pedaqoji təcrübənin təşkilində innovativ yanaşmalar // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2019. № 2, s. 112–118, arti.edu.az/journal/elmi-eserler-2019-2
8. İ. H. Cəbrayılov. Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması və təcrübə prosesinin monitorinqi məsələləri // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2017. № 4, –s. 92-94, arti.edu.az/journal/elmi-eserler-2017-4

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 37.01

Mübariz Tahir oğlu Süleymanov
Bakı Dövlət Universitetinin Qazax filialının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-7544-3437
https://doi.org/10.69682/arti.2026.93(4).25-29

YUXARI SİNİF ŞAGİRDLƏRİNİN ÖZÜNÜTƏHSİLƏ CƏLB EDİLMƏSİNİN PRİORİTET MƏSƏLƏLƏRİ

Mubariz Tahir Suleymanov
senior lecturer at the Qazax branch of Baku State University,
doctor of philosophy in pedagogy

PRIORITY ISSUES OF INVOLVING UPPER SECONDARY SCHOOL STUDENTS IN SELF-EDUCATION

Мубариз Тахир оглы Сулейманов
старший преподаватель Газахского филиала Бакинского Государственного Университета,
доктор философии по педагогике

ПРИОРИТЕТНЫЕ ВОПРОСЫ ВОВЛЕЧЕНИЯ УЧАЩИХСЯ СТАРШИХ КЛАССОВ В САМООБРАЗОВАНИЕ

Xülasə. Özünütəhsil – şagirdin meyl və maraqlarına uyğun olaraq, müəllimin rəhbərliyi altında həyata keçirilən təhsil formasıdır. Özünütəhsil bir növ daxili tələbatın təzahür forması kimi də qeyd edilir. Tərəqqi edən cəmiyyətlərdə daim innovasiyalara, yaradıcı və kreativ ideyalara daha çox ehtiyac duyulur bu da öz növbəsində özünütəhsilin nə dərəcədə vacib olduğunu sübut edir. Özünütəhsil şagirdlərdə özünəinam və özünüqiymətləndirmə kimi keyfiyyətlərin formalaşmasına müsbət təsir göstərir.
Açar sözlər: *özünütəhsil, maraq, meyl, təlim, qabiliyyət, sərişta, dinamiklik, internet, yaradıcı, idrak, mütaliə*

Abstract. Self-education is a form of education carried out under the guidance of a teacher in accordance with the student's inclinations and interests. Self-education is also noted as a form of manifestation of an internal need. In progressing societies, there is a constant demand for innovation, as well as original and creative ideas this in turn proves how essential self-education is. Self-education has a positive impact on the formation of qualities such as self-confidence and self-esteem in students.
Keywords: *self-education, interest, inclination, training, ability, competence, dynamism, internet, creative, cognition, reading*

Аннотация. Самообразование – это форма обучения, осуществляемая под руководством учителя в соответствии со склонностями и интересами учащегося. Самообразование также отмечается как форма проявления внутренней потребности. В прогрессирующих обществах постоянно растет потребность в инновациях, оригинальных и креативных идеях это в свою очередь доказывает, насколько важно самообразование. Самообразование оказывает положительное влияние на формирование у учащихся таких качеств, как уверенность в себе и самооценка.
Ключевые слова: *самообразование, интерес, склонность, обучение, способность, компетенция, динамичность, интернет, творческий, познание, чтение*

Hazırda bəşəriyyətin inkişafı elə bir səviyyədədir ki, bütün sahələrdə mütəxəssislərin tam və hərtərəfli inkişaf səviyyəsi çağdaş dünyanın tələbatına cavab verməsi çox vacibdir. Bunun üçün yüksək səviyyədə təhsilin olması ən vacib şərtdir.

Müasir dövrdə bir çox sahələrdəki inkişaf demək olar ki, təhsil sisteminin özünün sistematikasının dəyişdirilməsini tələb edir. Azərbaycan reallığı və dünya təcrübəsi göstərir ki, heç də hər bir orta məktəb məzununun məktəbdə aldığı standart təhsil onu öz arzularına çatdırmır. Ona görə də yuxarı sinif şagirdlərində özünütəhsil fəaliyyətinin nə dərəcədə önəmli olması prioritet kimi qəbul olunmalıdır (bunun üçün dünya təcrübəsinə nəzər salmaq kifayətdir).

Özünütəhsilin daha stimulativ olması üçün şagirdin bacarıq və qabiliyyəti əsas götürülməklə meyl və maraqlarına uyğun istiqamətdə formalaşdırılması məqsədəuyğundur. Təbii ki, bütün sahələrdə olduğu kimi özünütəhsildə də motivasiyanın olması əsas şərtdir. Belə ki, şagird dərk etməlidir ki, onun meyl və maraqlarına uyğun olan planlarını (karyera) həyata keçirmək üçün ona lazım olan baza fənlərinin öyrənilməsi və bu sahəyə aid elmi-pedaqoji və elmi-texnoloji ədəbiyyatlarla yaxından tanış olmalıdır. Şagird dərk etməlidir ki, özünütəhsil prosesi özlüyündə kifayət qədər çətin təhsil formasıdır. Ən əsası ona görə ki, özünütəhsilə maraq göstərmək istəyən şagirdlərin özünütəhsilin ən vacib ukladı – xarici dil səviyyəsi və kompüter bacarıqlarının kifayət qədər olmasıdır.

Pedaqoji və sosioloji ədəbiyyatlarda özünütəhsillə bağlı tədqiqatlar və araşdırmalar o qədər azdır ki, sanki yox səviyyəsindədir. Özünütəhsilin aktual olması üçün ən vacib şərt ona tələbat olmasıdır. Məhz bu tələbat təlimin məqsədinin şəxsiyyət yetişdirməkdən ibarət olduğu məqamlarda ortaya çıxır. Belə ki, pedaqoji və metodik ədəbiyyatların araşdırılması onu göstərdi ki, özünütəhsilə əsasən iki mövqedən yanaşılır: birinci, şagirdin sosiallaşması, intellektual səviyyənin yüksəldilməsi üçün özünüinkişaf etdirməsi; ikinci, fərddən şəxsiyyətə keçidin ən vacib şərtlərindən biri kimi qeyd edilir.

Özünütəhsil şagirdlərdə fasiləsiz olaraq bilik əldə etmək onu özünün bir gündəlik tələbatına çevirmək vərdişi yaradır. Özünütəhsil yuxarı sinif şagirdlərində müstəqil bilik əldə etməklə dünyaya baxışlar sisteminin, yaradıcı və hərtərəfli düşünmək qabiliyyətinin formalaşmasında mühüm rol oynayır:

"Özünütəhsilin məğzi ondan ibarətdir ki, şagird əqli əməyin yeni texnikası, mədəniyyəti ilə tanış olur, özünün təkmilləşməsi üzərində müstəqil olaraq işləyir. Özünütəhsil geniş pedaqoji imkanlara malikdir və yuxarı sinif şagirdlərinin hərtərəfli formalaşmasında (pedaqoji, psixoloji, fiziki, sosial-mədəni) böyük rolu vardır" [1, s. 33].

Dünyanın bir çox ölkələrində özünütəhsillə bağlı bir çox araşdırmalar aparılmış və effektiv nəticələr ortaya çıxarılmışdır.

1. "Özünütəhsil daha aktual biliklər verir. İndiki zamanda yeni ideyalar insanların şüurunda yaranır, əvvəlcə danışıqlarda müzakirə olunur, sonra bloq və məqalələrdə.

2. Özünütəhsil fərdi təlim proqramlarının tərtib edilməsinə imkan verir. Formal təlim zamanı proqram daha geniş materialın, bəzən şagirdin marağına uyğun olmayan məlumatların da verilməsini nəzərdə tutur. O, yadda qalmır. Lakin buna çox vaxt və enerji sərf edilir. Özünütəhsil zamanı isə proqram şagirdin tələblərinə uyğun tərtib edilir.

3. Özünütəhsil təlim üçün daha çox motivasiya yaradır. Hərçənd ki, burada nə müəllim, nə də məşqçi iştirak edir. Maddi maraq da yoxdur. Amma buna baxmayaraq istədiyi sahəni öyrənməyə motivasiya güclüdür. Fərdiləşməyin aktual olduğu bir dövrdə özünütəlim daha səmərəli nəticə verir. Şagird öyrəndiyinin xeyrini və nəticəsini görür, bu isə ona təlimi davam etmək üçün qüvvət verir.

4. Özünütəhsil yaxşı fikirləri öyrənməyə imkan yaradır. Müstəqil bilik mənbələri seçməklə şagird artıq özündən əvvəlkilərə istinad edir.

5. Özünütəhsil şagirdin gündəlik rejim anlarını idarə etməyə imkan verir. Formal təlimdə olduğu kimi, özünütəhsildə də bunu etmək zəruridir. Lakin ikinci halda şagird özü üçün daha əlverişli vaxt tapır." [5]

Rusiyalı tədqiqatçı O. L. Nazarovanın dissertasiya işində özünütəhsil fəaliyyəti dərindən təhlil edilmişdir. [4]

O. L. Nazarovanın dissertasiya işinə əsaslanaraq O. L. Karpova və S. A. Anisimova "Ali məktəb tələbələrinin özünütəhsili mütəxəssislərin keyfiyyətli peşə hazırlığının şərti kimi" adlı

məqaləsində qeyd edirlər ki, Britaniyada fasiləsiz peşə təhsili nəzərində Böyüklərin Təhsil İnstitutu yaradılmışdır ki, burada da "özünütəhsillə məşğul olmağı bacarmaq" bloku fəaliyyət göstərir. İngiltərədə təlim standartlarının böyük hissəsi tələbələrin (şagirdlərin) müstəqil işinə ayrılır... İngiltərədə açıq təlim sistemi geniş yayılmışdır. Burada insanların əhəmiyyətli dərəcədə iradə, səy və bilikləri təlim fəaliyyətində tam müstəqil əldə etmək arzusunun olması tələb edilir. [3, s. 34]

Braziliyanın Rio-de-Janeyro şəhərində fəaliyyət göstərən "Şiko Anisio" məktəbinin də özünəməxsus təlim və təhsil təcrübəsi mövcuddur:

"Bu məktəb başqa məktəblərdən onunla fərqlənir ki, onun şagirdlərinin öz marağına uyğun fənlər seçmək hüququ var (riyaziyyat, Portuqaliya dili və s.). Lakin buna baxmayaraq hamı lider keyfiyyətlərinin inkişafı üzrə kurs keçməli, taym-menecmentin əsaslarını mənimsəməlidir. Bu əlavə fənlər hər şeyi dəyişir, bu məşğələlər həyatda gözəl başlanğıcdır. Bu məktəbdə sinif sistemindən imtina edilmiş, müxtəlif məkanlarda məşğul olurlar ki, uşaqlar müxtəlif şəraitdə diqqətini cəmləşdirməyi bacarsınlar və adaptasiya olunsunlar. Bu, onlara real həyatda kömək edə bilər. İdman məşğələlərində daha çox futbola, voleybola və qılınc oynatmaya üstünlük verilir ki, bu da diqqəti, reaksiyanı inkişaf etdirir, çeviklik tələb edir, uzaqgörənlik bacarıqlarını formalaşdırır. Bu vərdişlər uşaqlara həm sinifdə, həm də həyatda kömək edir. Onlar daha yaxşı oxuyurlar" [6].

"Co Fazerinin metodikası Amerika Birləşmiş Ştatlarında geniş yayılmışdır. Bu metodikanın əsas mahiyyəti şagirdlərin çətinlik və uğursuzluqlarla mübarizədə iradəli olmaqla öz məqsədinə çatmağı qeyd edir.

Amerika İllinoisinda müəllim işləyən Co Fazeri öz yetirmələrinə uğursuzluqları yeniliklərin aşkar edilməsi üçün imkanın yaranması kimi təqdim edir. Məğlubiyyəti, uğursuzluqları yaşamaq onun metodikasının vacib bəndlərindən biridir. Uşaqlar anlayırlar ki, real həyatda uğursuzluq qaçılmazdır və ona düzgün yanaşmağı öyrənirlər. Fazerinin dərslərində uşaqlar oxuyur, tamaşalar qoyur, filmləri montaj edir və üçölçülü (3D) printerlərdən istifadə edirlər. Bu yolla onlar taym-menecmentin (vaxtın idarə edilməsi) əsaslarını, layihələrin idarə edilməsini, bir-birini məlumatlandıraraq işləməyi, tənqidi adekvat qəbul etməyi (dostcasına, bəzən isə dağıdıcı xarakterə malik) öyrənirlər. Yanaşmanın əsas elementi komandada işləməkdir. Uşaqlar bir-birinin fəaliyyətini tamamlayırlar: kimsə işığa nəzarət edir, kimsə dekorasiyaları fikirləşib təqdim edir. Bu, uşaqların özlərini anlamasına, şəxsən hər birinin nə istədiyini bilməsinə səbəb olur və öz potensialını istifadə edərək nəticələr əldə etməsinə imkan verir. Fazeri əmindir ki, həyatda uğur qazanmaq üçün bu vərdişlərə malik olmaq bütün uşaqlar üçün zəruridir. Əvvəlcə Amerikanın ənənəvi məktəbi Fazerinin yaradıcı işlərinə ehtiyatla yanaşırdı. Lakin şagirdlərin uğurları və emosional sabitliyi Fazerinin həmkarlarını bu yanaşmanın səmərəli olduğuna əmin etdi." [6]

Hazırda dünya təhsil sistemində özünəməxsus yeri olan Finlandiya təhsil siyasətinin strateqlərindən olan Pasi Salberqin yanaşmaları özünəməxsusdur. O, Finlandiya təhsil sisteminin gələcəyi haqqında öz arzularını bu cür ifadə edir: "Məktəblər üzrə təhsilalanların elə bir birliyini yaratmaq ki, bütün gənclərin istedadlarının üzə çıxarılması təmin edilsin. Hər bir şagirdə öz marağı dairəsində inkişafı, biliklərini dərinləşdirmək və insanlarla qarşılıqlı ünsiyyəti üçün geniş imkanlar açılsın. Yeni məktəblər əvvəlki kimi gənclərə bilik və bacarıq verməlidir, lakin bununla yanaşı, səhvlər etməyə hazır olmağı öyrətməlidir. Onların fikrincə, səhv etməyən insan yeni və dəyərli heç bir şey fikirləşib tapa bilməz. Bunun üçün də mövcud təlim formatını dəyişmək tələb olunur. Məktəblər sonralar da fərdi təlimin imkanlarını genişləndirərək şagirdlərə qarşı daha çox dost münasibəti ilə dəyişməlidir. Fərdiləşmə müəllimlərin texnologiya və yaxud müstəqil təlimlə əvəzlənməsini nəzərdə tutmur. Əksinə, Finlandiya məktəbləri həyatda şagirdlərə lazım olan sosial vərdişlərin formalaşdırılmasında daha da təkmilləşməlidir. Bunun üçün məktəblər şagirdlərə daha maraqlı və təhlükəsiz sosial mühit təqdim etməlidir. Fərdi təlim və sosiallaşma böyük ixtisaslaşmaya aparır, lakin o, möhkəm bilik və bacarıq əsasında qurulmalıdır" [2].

Forma və müstəqillik amilinə görə özünütəhsilin iki tipi vardır: sərbəst və sistemli. Sərbəst özünütəhsil dedikdə, biz özünükamilləşmənin və yaxud hər hansı bir məsələnin şagird şəxsiyyətinin maraq və tələblərindən irəli gələn tələbatı kimi başa düşürük. İnsan bu zaman özü

özünütəhsilin məqsədini və onun həcmini müəyyən edir. Sistemli özünütəhsil şagirdin təhsil aldığı məktəb tərəfindən stimullaşdırılır. Təhsilalan marağına uyğun verilən tapşırığı yerinə yetirir və biliklərini zənginləşdirir. Özünütəhsilin bu növündə şagird proqram tələblərindən kənara çıxır və özünü səviyyəsinə çatdırır. [7; s. 438]

Özünütəhsilin məhz sərbəst və sistemli tipləri də bizə onu deməyə əsas verir ki, şagird meyl və maraqlarına uyğun olaraq qarşısına qoyduğu məqsədə bütün hallarda çatmaq iqtidarındadır.

Məktəbli fəaliyyətin subyekti olmaqla bəzi bacarıqlara sahib olur və onlardan istifadə edir. Subyekt öz aktivliyinin strategiyasına çevrilir, məqsəd təyin edir, motivləri anlayır, sərbəst olaraq görəcəyi işləri tənzimləyir və onları dəyərləndirir, həyati planlar yaradır. [8, s. 142] Şagirdin özü qarşısında planlar qoyması və bu planlaşmada bütün məsuliyyətin məhz subyekt olaraq onun üzərinə fokuslanması şagirddən kifayət qədər fəal olmasını tələb edir.

Özünütəhsilin əhəmiyyətli əlamətlərini İ.A. Redkovets belə səciyyələndirir:

"... Özünütəhsil fəaliyyəti könüllü prosesdir. Təlimin dərk edilməsindən fərqli olaraq özünütəhsil fəaliyyətinin əsas əlaməti onun seçim xarakterli olmasıdır..." [9, s. 7] İstənilən halda məcburiyyətin olmaması, daxili tələbatdan irəli gələn fəaliyyət üçün xarici motivasiyaya və stimula ehtiyac qalmır. Biz hələ ki, şagird özü bu fəaliyyət formasına sahib, mütləq uğur qazanılacaq (təbii ki, özünütəhsildə hazırlıq və planlaşdırma ən vacib şərtlərdəndir).

"... Müasir texnologiyalar həyatı və təfəkkür üsullarını hədsiz dərəcədə dəyişmişdir. Əvvəllər şagirdlərin bir bilik mənbəyi – müəllim var idi. Bu gün isə yüzlərlə resurslar mövcuddur və müəllim yazı taxtası qabağında onları danışmamalıdır. Problem həm də ondadır ki, dünya sürətlə dəyişir və bilinmir bu gün uşaqlara öyrədilən biliklər ona gələcəkdə lazım olacaqmı?" [10]

Beləliklə, cəmiyyətin inkişaf dinamikasına uyğun olaraq təhsildə müntəzəm şəkildə islahatların aparılması zəruridir. Bunun üçün alternativ məktəblər, alternativ tədris üsulları, alternativ kitablar, alternativ imtahan və qiymətləndirmə formaları, alternativ qəbul qaydaları müəyyənləşdirməyin vaxtı çoxdan çatmışdır. Dünya təcrübəsi innovativ yanaşmaların daha doğru olduğunu sübut edir. Tədqiqatlar bir daha göstərir ki, dünyanın hansı dövləti olursa-olsun orada təhsil alan şagirdlərin yarıdan çoxu elmə maraq göstərmir. Ona görə də meyl və marağın üstün olduğu sahələrin birbaşa elmi bazasını hazırlamaqla bu nisbəti aradan qaldırmaq olar. Bir sözlə şagirdlərin baza bilikləri ilə paralel onların arzu və istəklərini yerinə yetirmək üçün fərdi proqramlara da yer verilməsi özünütəhsilin prioritetlərindən hesab olunur.

Nəticə. Yuxarı sinif şagirdlərinin özünütəhsili mahiyyət etibarilə onun gələcək planlarının həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Belə ki, qarşıya məqsəd qoyulur, görüləcək işlər əvvəlcədən planlaşdırılır, mənbələr dəqiqləşdirilir və nəticədə hədəfəçatma sistematik şəkildə baş verir.

Problemin aktuallığı. Özünütəhsil özünüinkişafa xidmət etdiyindən bu təhsil formasına bütün dövrlərdə tələbat olub və olacaqdır.

Problemin yeniliyi və praktik əhəmiyyəti. Özünütəhsili həyata keçirmək üçün şagirdlər müasir informasiya texnologiyalarından istifadə bacarığına yiyələnməli, xarici dil qabiliyyətini inkişaf etdirməli, eyni zamanda bu təhsil formasında şagirdin meyl və maraqları əsas olduğundan onların gələcək karyerasında mühüm əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Süleymanov, M.T Yuxarı sinif şagirdlərinin özüntəhsil fəaliyyətinin pedaqoji və psixoloji əsasları //– Bakı: ARTİ Elmi əsərləri, –2021. № 4, –s.28-33
2. Будущее школьного образования Финляндии //– Bakı: ARTİ Elmi əsasları, –2021. s.88, №4, –s.33 http://webcache.-googleusercontent/com/search?q=cahe:http://www.ru- 90.ru/node/1541
3. Карпова, О. Л., Анисимова, В. А. Самообразование студентов вуза как условие качественной профессиональной подготовки специалистов // Педагогика и психология профессионального образования. – 2008, № 5. – С. 34.
4. Назарова, О. Л. Педагогические условия преодоления трудностей в самообразовании студентов индустриально-педагогического колледжа: / дис. канд. пед. наук) / –Челябинск, 1997. – 148
5. Самообразование: 11 аспектов эффективности,

http://tvoyplan.com/-2013/09/30/samoobrazovanie-sekrety-effektivnosti/
6. http://www.ru-90.ru/node/1541
7. https://www.scopus.com/inward/record.uri?eid=2-s2.0-85142150583&partnerID=40&md5=1187395d7384af24c5817483e66c4fdhttp:/www.scoups.com/inward/record.uri?eid=-s2.0-85142150583&partnerID=40&md5=1187395d7384af24c581783e66c4fd
8. Мищенко, Н. В. Модель процесса развития самообразовательной компетенности учащихся старших классов общеобразовательной школы // –Москва: Вестник, ЮУрГУ, –2011. №3, –с. 142.
9. Редковец, И. А. Формирование у учащихся общественно-ценностной мотивации самообразования / И. А. Редковец, –Волгоград: ВГПИ, –1986. –88 с. (s. 7)
10. http://www.ru-90.ru/node/1541

Redaksiyaya daxil olub: 19.05.2026

UOT 37.01

Rübabə Hacı qızı Abdullayeva
Bakı şəhəri, Binəqədi rayonunun 143 nömrəli tam orta məktəbin direktoru
https://orcid.org/0009-0000-5931-1936
E-mail:rubab.aliyeva@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).30-34

AZƏRBAYCANDA RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ MƏKTƏBDAXİLİ TƏLİMİN YENİ PEDAQOJİ MODELLƏRİ

Rubaba Haji Abdullayeva
director of secondary school No. 143 in the Binagadi district of Baku

NEW PEDAGOGICAL MODELS OF IN-SCHOOL EDUCATION IN THE CONTEXT OF DIGITAL TRANSFORMATION IN AZERBAIJAN

Рубаба Гаджи гызы Абдуллаева
директор полной средней школы №143 Бинагадинского района города Баку

НОВЫЕ ПЕДАГОГИЧЕСКИЕ МОДЕЛИ ВНУТРИШКОЛЬНОГО ОБУЧЕНИЯ В УСЛОВИЯХ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ В АЗЕРБАЙДЖАНЕ

Xülasə. Məqalədə Azərbaycanda rəqəmsal transformasiya şəraitində məktəbdaxili təlimin yeni pedaqoji modelləri təhlil olunur. Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər fonunda qarışıq təlim, tərsinə çevrilmiş sinif, fərdiləşdirilmiş təlim, layihə əsaslı öyrənmə və digər innovativ yanaşmaların mahiyyəti araşdırılır. Eyni zamanda, bu modellərin Azərbaycan təhsil sistemində tətbiq imkanları və pedaqoji əhəmiyyəti izah edilir. Məqalədə ölkədə həyata keçirilən təhsil islahatları təhlil olunur və beynəlxalq təcrübə ilə müqayisə aparılır. Nəticədə müəyyən edilir ki, Azərbaycanda bu sahədə mühüm irəliləyişlər olsa da, innovativ modellərin daha sistemli tətbiqinə ehtiyac vardır.
Açar sözlər: *rəqəmsal transformasiya, Azərbaycan təhsili, məktəbdaxili təlim, pedaqoji modellər, qarışıq təlim, fərdiləşdirilmiş təlim, STEAM, innovativ təhsil*

Abstract. The article analyzes new pedagogical models of in-school education in the context of digital transformation in Azerbaijan. Against the background of changes taking place in the modern education system, the essence of blended learning, the flipped classroom, individualized learning, project-based learning, and other innovative approaches is examined. At the same time, the possibilities of applying these models in the education system of Azerbaijan and their pedagogical significance are explained. The article analyzes the educational reforms implemented in the country and provides a comparison with international experience. As a result, it is determined that despite significant progress in this field in Azerbaijan, there is still a need for a more systematic implementation of innovative models.
Keywords: *digital transformation, education in Azerbaijan, in-school education, pedagogical models, blended learning, individualized learning, STEAM, innovative education*

Аннотация. В статье анализируются новые педагогические модели внутришкольного обучения в условиях цифровой трансформации в Азербайджане. На фоне изменений, происходящих в современной системе образования, исследуется сущность смешанного обучения, перевёрнутого класса, индивидуализированного обучения, проектно-ориентированного обучения и других инновационных подходов. В тоже время объясняются возможности применения данных моделей в системе образования Азербайджана и их педагогическое значение. В статье анализируются образовательные реформы, реализуемые в стране, и проводится сравнение с международным опытом. В результате определяется, что, несмотря на значительный прогресс в данной области в Азербайджане, существует необходимость более системного внедрения инновационных моделей.

Ключевые слова: *цифровая трансформация, образование Азербайджана, внутришкольное обучение, педагогические модели, смешанное обучение, индивидуализированное обучение, STEAM, инновационное образование*

Giriş. Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı təhsil sisteminə mühüm təsir göstərmişdir. Bu proses Azərbaycanda da təhsil siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Rəqəmsal transformasiya yalnız texnoloji yeniliklərin tətbiqi deyil, həm də təlim prosesinin məzmununun və təşkilinin yenilənməsi deməkdir. [1]

Azərbaycanda həyata keçirilən təhsil islahatları çərçivəsində məktəbdaxili təlimin təkmilləşdirilməsi, müasir pedaqoji yanaşmaların tətbiqi və rəqəmsal mühitin genişləndirilməsi prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Bu baxımdan yeni pedaqoji modellərin tətbiqi xüsusi aktuallıq kəsb edir.

Rəqəmsal transformasiya müasir təhsil sisteminin inkişafında struktur-formativ dəyişikliklərin əsas determinantı kimi çıxış edir. Bu proses yalnız informasiya-kommunikasiya texnologiyalarının (İKT) təlim prosesinə texniki inteqrasiyası ilə məhdudlaşmır, eyni zamanda təhsilin məzmun, struktur, idarəetmə və pedaqoji yanaşma aspektlərinin kompleks şəkildə yenidən təşkilini ehtiva edir. Azərbaycan Respublikasında təhsil sisteminin modernləşdirilməsi kontekstində rəqəmsal transformasiya strateji inkişaf prioritetlərindən biri kimi müəyyən edilmişdir.

Azərbaycan təhsil sistemində rəqəmsallaşma prosesi mərhələli və sistemli xarakter daşıyır. Bu istiqamətdə həyata keçirilən dövlət siyasəti çərçivəsində elektron təhsil infrastrukturunun formalaşdırılması, rəqəmsal idarəetmə mexanizmlərinin tətbiqi və tədris resurslarının elektronlaşdırılması kimi tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Elektron jurnal və qiymətləndirmə sistemlərinin tətbiqi, rəqəmsal platformalar vasitəsilə tədris prosesinin idarə olunması təhsil sistemində operativlik, şəffaflıq və məlumatların inteqrasiyası baxımından mühüm institusional dəyişikliklər yaratmışdır. [2]

Rəqəmsal transformasiyanın Azərbaycan təhsil sistemində əsas istiqamətlərindən biri tədris resurslarının rəqəmsallaşdırılması və təhsil məzmununun innovativ formatda təqdim olunmasıdır. Elektron dərsliklər, interaktiv tədris materialları və onlayn öyrənmə platformaları şagirdlərin bilik mənbələrinə çıxış imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Bu isə təlim prosesində informasiya asimmetriyasını azaltmaqla yanaşı, şagirdlərin müstəqil öyrənmə və özünüidarəetmə kompetensiyalarının formalaşmasına şərait yaradır.

Rəqəmsal transformasiya həmçinin təlim prosesinin metodoloji əsaslarına da ciddi təsir göstərmişdir. Ənənəvi didaktik yanaşmalarla yanaşı, qarışıq təlim (blended learning), tərsinə çevrilmiş sinif (flipped classroom), fərdiləşdirilmiş təlim (personalized learning), layihə əsaslı öyrənmə (project-based learning) və STEAM yanaşması kimi innovativ pedaqoji modellərin tətbiqi genişlənmişdir. Bu modellər təlim prosesinin şagird mərkəzli xarakter almasına, öyrənmə fəaliyyətinin aktivləşməsinə və sərişdə əsaslı təhsil paradiqmasının güclənməsinə xidmət edir.

Azərbaycanda rəqəmsal transformasiyanın digər mühüm komponenti təhsil idarəetmə sisteminin rəqəmsallaşdırılmasıdır. Elektron idarəetmə platformalarının tətbiqi təhsil müəssisələrinin fəaliyyətində koordinasiyanın gücləndirilməsinə, idarəetmə qərarlarının məlumat əsaslı qəbuluna və təhsil prosesinin monitorinq imkanlarının genişlənməsinə şərait yaratmışdır. Bu isə təhsil siyasətinin daha analitik və proqnozlaşdırıcı əsasda formalaşdırılmasına xidmət edir.

Bununla belə, rəqəmsal transformasiya prosesinin səmərəliliyi bir sıra institusional və infrastruktur amillərlə şərtlənir. Regionlar üzrə texnoloji təminat səviyyəsində fərqliliklər, internet infrastrukturuna çıxış imkanlarının qeyri-bərabərliyi və pedaqoji kadrların rəqəmsal sərişdə səviyyəsində mövcud variasiyalar bu prosesin tam optimallaşdırılmasına müəyyən məhdudiyyətlər yaradır. Bu baxımdan rəqəmsal bərabərlik və inklüziv təhsil prinsiplərinin təmin olunması strateji əhəmiyyət kəsb edir.

Ümumilikdə, Azərbaycanda rəqəmsal transformasiya təhsil sisteminin modernləşdirilməsində sistem-formativ rol oynayaraq təlim prosesinin keyfiyyət göstəricilərinin yüksəldilməsinə, təhsil xidmətlərinin əlçatanlığının genişləndirilməsinə və kompetensiya əsaslı təhsil modelinin inkişafına mühüm töhfə verir. Bu prosesin davamlılığı isə həm texnoloji infrastrukturun təkmilləşdirilməsi, həm də müəllimlərin rəqəmsal-pedaqoji sərişdələrinin inkişafı ilə bilavasitə bağlıdır.

Rəqəmsal transformasiya şəraitində məktəbdaxili təlimin təşkili ənənəvi didaktik yanaş-

malardan fərqli olaraq, daha çevik, şagirdyönlü və səriştəəsaslı pedaqoji modellərin tətbiqini zəruri edir. Bu modellər təlim prosesinin yalnız bilik ötürülməsi funksiyasını deyil, həm də öyrənənlərin idraki, sosial və yaradıcı potensialının inkişafını hədəfləyir.

1. Qarışıq təlim (Blended Learning) modeli

Qarışıq təlim modeli ənənəvi sinifdaxili təlim ilə rəqəmsal öyrənmə mühitinin inteqrasiyasına əsaslanır. Bu modeldə tədris prosesinin bir hissəsi sinif şəraitində, digər hissəsi isə onlayn platformalar vasitəsilə həyata keçirilir.

Bu yanaşmanın əsas pedaqoji mahiyyəti təlimin zaman və məkan baxımından elastikləşdirilməsidir. Şagirdlər nəzəri materialları rəqəmsal resurslar vasitəsilə mənimsəyir, sinifdə isə həmin biliklərin tətbiqi, müzakirəsi və dərinləşdirilməsi həyata keçirilir. Bu model öyrənmə prosesinin fərdiləşdirilməsinə və şagirdlərin özünütənzimləmə bacarıqlarının inkişafına şərait yaradır.

2. Tərsinə çevrilmiş sinif (Flipped Classroom) modeli

Tərsinə çevrilmiş sinif modeli təlim prosesinin strukturunun inversiyası ilə xarakterizə olunur. Ənənəvi modeldə yeni biliklər sinifdə təqdim olunur və ev tapşırıqları vasitəsilə möhkəmləndirilirsə, bu modeldə şagirdlər nəzəri materialı əvvəlcədən rəqəmsal vasitələrlə öyrənir, sinif vaxtı isə tətbiqi fəaliyyətlərə yönəldilir.

Bu yanaşma müəllim-şagird interaksiyasının keyfiyyətini artırır və sinif vaxtını daha yüksək səviyyəli idraki fəaliyyətlərə – təhlil, tərkib və qiymətləndirməyə yönəldir. Nəticədə, şagirdlərin tənqidi düşünmə və problem həll etmə bacarıqları daha effektiv şəkildə inkişaf edir.

3. Fərdiləşdirilmiş təlim (Personalized Learning) modeli

Fərdiləşdirilmiş təlim modeli hər bir şagirdin idraki inkişaf səviyyəsi, maraq dairəsi və öyrənmə tempi nəzərə alınmaqla təlim prosesinin diferensiasiyasına əsaslanır. Rəqəmsal texnologiyalar bu modelin tətbiqində əsas vasitə kimi çıxış edir, çünki adaptiv platformalar şagirdin fəaliyyətinə uyğun fərdi öyrənmə trayektoriyası formalaşdırır.

Bu modelin əsas pedaqoji üstünlüyü təlimin standartlaşdırılmış deyil, fərdi ehtiyaclara uyğunlaşdırılmış xarakter daşımasıdır. Bu isə inklüziv təhsil prinsiplərinin reallaşdırılmasına və təlimdə bərabər imkanların təmin edilməsinə şərait yaradır.

4. Layihə əsaslı öyrənmə (Project-Based Learning) modeli

Layihə əsaslı öyrənmə modeli şagirdlərin real həyat problemləri üzərində sistemli fəaliyyət göstərməsinə əsaslanır. Bu modeldə təlim prosesi konkret bir problemin araşdırılması, planlaşdırılması, həlli və təqdimatı mərhələlərini əhatə edir.

Bu yanaşma şagirdlərdə tədqiqatçılıq bacarıqlarını, əməkdaşlıq səriştələrini və yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirir. Eyni zamanda, nəzəri biliklərin praktik tətbiqinə imkan yaradır və öyrənmənin real həyatla əlaqəsini gücləndirir.

5. STEAM yanaşması

STEAM (Science, Technology, Engineering, Arts, Mathematics) yanaşması fənlərarası inteqrasiyaya əsaslanan müasir pedaqoji modeldir. Bu modeldə müxtəlif elmi sahələr vahid təlim çərçivəsində birləşdirilərək şagirdlərdə kompleks düşünmə bacarıqları formalaşdırılır.

STEAM yanaşmasının əsas xüsusiyyəti yaradıcılıq və texniki biliklərin sintezidir. Rəqəmsal texnologiyalar bu modelin səmərəliliyini artıraraq simulyasiyalar, virtual laboratoriyalar və interaktiv layihələr vasitəsilə öyrənmə prosesini daha praktik və cəlbedici edir.

Ümumi pedaqoji nəticə

Yuxarıda qeyd olunan modellər göstərir ki, müasir məktəbdaxili təlim artıq transmissiv xarakterdən çıxaraq interaktiv, konstruktiv və səriştəyönlü sistemə transformasiya olunur. Bu modellərin tətbiqi təlim prosesində şagirdin aktiv subyekt kimi çıxış etməsini təmin edir və öyrənmə prosesinin keyfiyyətini yüksəldir.

Rəqəmsal transformasiya müasir təhsil sistemində müəllim fenomeninin mahiyyət etibarilə yenidən konseptuallaşdırılmasını şərtləndirmişdir. Ənənəvi didaktik modeldə müəllim biliklərin əsas ötürücüsü və mərkəzi informasiya mənbəyi kimi çıxış etdiyi halda, informasiya-kommunikasiya texnologiyalarının (İKT) tədris mühitinə inteqrasiyası nəticəsində bu funksiya əhəmiyyətli dərəcədə transformasiyaya uğramışdır. Müasir pedaqoji diskursda müəllim artıq transmissiv (ötürücü) modeldən konstruktivist və sosial-öyrənmə paradiqmasına əsaslanan fasilitativ modelə keçid etmişdir.

Bu kontekstdə müəllimin rolu çoxfunksiyalı pedaqoji subyekt kimi müəyyən olunur. O, bir tərəfdən təlim prosesinin fasilitatoru kimi öyrənmə mühitini təşkil edir, digər tərəfdən isə, mentor və kurator funksiyasını yerinə yetirərək tədris resurslarını seleksiya edir, onların didaktik məqsədlərə uyğunluğunu təmin edir və şagirdlərin fərdi təlim trayektoriyalarını yönləndirir. Bu yanaşma təlim prosesinin diferensiasiya və fərdiləşdirmə prinsipləri əsasında təşkilinə imkan yaradır.

Rəqəmsal təhsil mühitində müəllimin funksional spektri daha da genişlənərək rəqəmsal pedaqoq modelini formalaşdırır. Bu model çərçivəsində müəllim yalnız ənənəvi pedaqoji biliklərə deyil, həm də rəqəmsal səriştələrə malik olmalıdır. Buraya tədris texnologiyalarının tətbiqi, öyrənmə idarəetmə sistemlərinin (LMS) istifadəsi, interaktiv platformaların inteqrasiyası və rəqəmsal qiymətləndirmə alətlərinin tətbiqi daxildir.

Eyni zamanda, müəllimin qiymətləndirmə funksiyası da transformasiyaya uğramışdır. Ənənəvi summativ qiymətləndirmə yanaşması ilə yanaşı, formativ qiymətləndirmə və davamlı geribildirim mexanizmləri ön plana çıxmışdır. Bu yanaşma şagirdin öyrənmə prosesinin dinamik izlənilməsinə və fərdi inkişaf göstəricilərinin real vaxt rejimində qiymətləndirilməsinə imkan verir. Nəticə etibarilə, müəllim artıq yalnız nəticəni qiymətləndirən subyekt deyil, eyni zamanda öyrənmə prosesini tənzimləyən analitik pedaqoji aktor kimi çıxış edir.

Müasir pedaqoji nəzəriyyələrdə, xüsusilə konstruktivizm və sosial konstruktivizm yanaşmalarında müəllimin rolu öyrənənin aktiv bilik quruculuğunu dəstəkləyən bələdçi kimi interpretasiya olunur. Bu kontekstdə müəllim şagirdlərin tənqidi düşünmə, problem həll etmə, əməkdaşlıq və yaradıcı fəaliyyət bacarıqlarının inkişafını stimullaşdıran pedaqoji mühit formalaşdırır. Bu isə səriştəəsaslı təhsil modelinin əsas tələblərinə uyğun gəlir.

Azərbaycan təhsil sistemində həyata keçirilən kurikulum islahatları və rəqəmsal transformasiya tədbirləri müəllimin dəyişən roluna uyğunlaşma prosesini sürətləndirmişdir. Müəllimlərin ixtisasartırma proqramları, rəqəmsal bacarıqların inkişafı üzrə təlimlər və STEAM yönümlü pedaqoji yanaşmalar bu transformasiyanın institusional dəstəklənməsinə xidmət edir. Bununla belə, regional fərqliliklər, texnoloji infrastrukturun qeyri-bərabərliyi və bəzi hallarda metodiki hazırlığın yetərli olmaması bu prosesin tam optimallaşdırılmasını məhdudlaşdıran amillər kimi qalmaqdadır.

Nəticə. Beləliklə, müəllimin dəyişən rolu rəqəmsal transformasiya kontekstində pedaqoji fəaliyyətin yalnız funksional deyil, həm də epistemoloji səviyyədə yenidən qurulmasını ifadə edir. Müasir müəllim artıq sadəcə bilik ötürücüsü deyil, öyrənmə ekosisteminin dizayneri, idarəedicisi və analitik tənzimləyicisi kimi çıxış edən çoxölçülü pedaqoji subyektə çevrilmişdir.

Müasir dövrdə rəqəmsal transformasiya təhsil sisteminin inkişafını müəyyən edən əsas strateji istiqamətlərdən biri kimi çıxış edir. Aparılmış təhlil göstərir ki, rəqəmsal texnologiyaların təhsil mühitinə inteqrasiyası məktəbdaxili təlimin təşkilində yalnız texniki yenilənmə deyil, həm də pedaqoji məzmunun, metodologiyanın və idarəetmə mexanizmlərinin transformasiyasını şərtləndirir. Azərbaycanda həyata keçirilən təhsil islahatları çərçivəsində rəqəmsallaşma prosesi təlimin keyfiyyətinin yüksəldilməsi, təhsil xidmətlərinin əlçatanlığının artırılması və səriştəəsaslı təhsil modelinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, qarışıq təlim, tərsinə çevrilmiş sinif, fərdiləşdirilmiş təlim, layihə əsaslı öyrənmə və STEAM yanaşması kimi müasir pedaqoji modellər rəqəmsal transformasiya şəraitində məktəbdaxili təlimin səmərəliliyini artıran əsas metodoloji mexanizmlərdir. Bu modellər şagirdlərin yalnız akademik biliklərinin deyil, eyni zamanda tənqidi düşünmə, problem həll etmə, əməkdaşlıq, yaradıcılıq və rəqəmsal səriştələrininkişafına xidmət edir. Bununla yanaşı, müəllimin funksional rolu da transformasiya olunaraq onu bilik ötürücüsündən öyrənmə prosesinin fasilitatoru, kuratoru və pedaqoji dizaynerinə çevirmişdir.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi rəqəmsal transformasiya kontekstində məktəbdaxili təlimin təşkilinin müasir pedaqoji modellərlə kompleks şəkildə əlaqələndirilməsi və Azərbaycan təhsil sistemi kontekstində nəzəri-pedaqoji təhlilinin aparılması ilə müəyyən olunur.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr və irəli sürülən yanaşmalar ümumtəhsil müəssisələrində məktəbdaxili təlimin təşkilində, müəllimlərin peşəkar inkişaf proqramlarının hazır-

lanmasında və rəqəmsal təhsil strategiyalarının formalaşdırılmasında istifadə oluna bilər.

Problemin aktuallığı. Mövzunun aktuallığı müasir qlobal təhsil məkanında rəqəmsallaşma prosesinin sürətlənməsi və təhsil sistemlərinin yeni sosial-iqtisadi çağırışlara uyğunlaşma zərurəti ilə bağlıdır. Xüsusilə postpandemiya dövründə rəqəmsal təhsil mühitinin əhəmiyyəti daha aydın şəkildə ortaya çıxmış, təlim prosesinin fasiləsizliyi və dayanıqlılığı üçün rəqəmsal texnologiyaların vacibliyi sübut olunmuşdur. Azərbaycanda həyata keçirilən təhsil siyasəti və kurikulum islahatları da rəqəmsal transformasiyanın strateji prioritet kimi aktuallığını artırır.

Bu baxımdan rəqəmsal transformasiya şəraitində məktəbdaxili təlimin müasir pedaqoji modellər əsasında təşkili məsələsinin araşdırılması həm nəzəri, həm də praktik baxımdan mühüm elmi-pedaqoji əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Təhsildə rəqəmsallaşma strategiyası // – Bakı, 2020. –45 s.
2. Azərbaycan Respublikasının Prezidenti Administrasiyası. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // –Bakı, 2013. https://president.az/az/articles/view/9779?utm_source=chatgpt.com
3. UNESCO. Reimagining Our Futures Together: A New Social Contract for Education // –Paris: UNESCO Publishing, –2021. https://www.unesco.org/en/articles/reimagining-our-futures-together-new-social-contract-education?utm_source=chatgpt.com
4. OECD. Education in the Digital Age: Healthy and Happy Children // –Paris: OECD Publishing, –2020. –218 p. https://www.oecd.org/en/publications/education-in-the-digital-age_1209166a-en.html?utm_source=chatgpt.com
5. Fullan, M. Stratosphere: Integrating Technology, Pedagogy, and Change Knowledge // Toronto: Pearson Canada, –2013. – 100 p.
6. Khan, S. The One World Schoolhouse: Education Reimagined // New York: Twelve, –2012. –259 p.
7. Cəlilova, S.X. Analoq-rəqəmsal texnologiyaların Pedaqoji Universitetdə fizikanın tədrisi prosesinə inteqrasiyası // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2026. № 1, –s.146-151.

Redaksiyaya daxil olub: 20.05.2026

UOT 37.01

Türkan Habil qızı Nəsirova
Milli Müdafiə Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0003-2143-1950
E-mail: turkan.kishizade@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).35-38

TƏHSİL PROSESİNDƏ DİFERENSİAL STRATEGİYALARIN TƏTBİQİNDƏ SƏRİŞTƏLİ MÜƏLLİMİN ROLU

Turkan Habil Nasirova
doctorial student in the program of doctor of philosophy
at the National Defense University

THE ROLE OF A COMPETENT TEACHER IN THE IMPLEMENTATION OF DIFFERENTIAL STRATEGIES IN THE EDUCATIONAL PROCESS

Тюркан Хабиль гызы Насирова
докторант по программе доктора философии
Национального Университета Обороны

РОЛЬ КОМПЕТЕНТНОГО ПЕДАГОГА В РЕАЛИЗАЦИИ ДИФФЕРЕНЦИАЛЬНЫХ СТРАТЕГИЙ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

Xülasə. XIX əsrin sonu və XX əsrin əvvəllərində formalaşmağa başlayan tələbəyönlü təhsil yanaşmaları fərdi xüsusiyyətlərin nəzərə alınmasının vacibliyini ön plana çıxarmışdır. Amerikalı pedaqoq Con Dyui tərəfindən irəli sürülən nəzəri əsaslardan biri odur ki, təhsil yalnız bilik ötürülməsi ilə kifayətlənmir, həm də öyrənənlərin təcrübə və fəaliyyətə əsaslanaraq inkişafını qeyd etmişdir. Təhsil və tədrisdə diferensiallaşdırmanı müxtəlif perspektivlərdən izah edən psixoloq Lev Vıqotski "Yaxın inkişaf zonası" nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyə tələbələrin mövcud bilik səviyyəsini nəzərə alaraq onların potensial inkişaf imkanlarını üzə çıxarmağı və fərdi yanaşmanı stimullaşdırmağı zəruri edir. XX əsrin ikinci yarısında idrak psixologiyasının inkişafı ilə diferensial təlim ideyaları daha da genişləndi. Amerikalı psixoloq Hovard Qardner çoxsaylı intellekt nəzəriyyəsini irəli sürdü. Qardnerə görə, insanlar müxtəlif öyrənmə bacarıqlarına malikdir. Belə ki, müəllimlər fərqli metod və strategiyalardan istifadə edərkən fərdi xüsusiyyətləri nəzərə almalıdırlar. Müasir yanaşmada isə Tomlinson modeli mühüm əhəmiyyət kəsb edir. Bu modelin qurucusu Kerol Enn Tomlinson idi. O, diferensial təlim strategiyalarının nəzəri və praktik əsaslarını sistemli şəkildə təhlil etmişdir. Onun tədqiqatlarına əsasən müəllim yalnız bilik ötürməklə kifayətlənmir, həm də öyrənmə prosesini təşkil edən fasilitator rolunu oynayır.

Açar sözlər: *tədris strategiyaları, diferensial qiymətləndirmə, inklüziv təhsil, təlimin fərdiləşdirilməsi, sinif idarəetməsi, pedaqoji innovasiyalar*

Abstract. Student-centered educational approaches that emerged in the late 19th and early 20th centuries emphasized the importance of considering individual differences. The American educator John Dewey argued that education should not be limited to the transmission of knowledge, but should also focus on learners' development through experience and active participation. The psychologist Lev Vygotsky explained differentiation in education from various perspectives and introduced the "zone of proximal development," highlighting the need to consider students' current knowledge levels and support their potential growth through individualized approaches. In the second half of the 20th century, with the development of cognitive psychology, ideas of differentiated instruction expanded further. The American psychologist Howard Gardner proposed the theory of multiple intelligences, suggesting that individuals possess different learning abilities, and therefore teachers should use diverse methods and strategies to address these differences. In contemporary education, the model developed by Carol Ann Tomlinson plays a significant role. She systematically analyzed the theoretical and practical foundations of differentiated instruction, emphasizing that teachers are not only knowledge transmitters but also facilitators of the learning process.

Keywords: *teaching strategies, differential assessment, inclusive education, individualization of learning, classroom management, pedagogical innovations*

Аннотация. Студентоориентированные подходы в образовании, начавшие формироваться в конце XIX – начале XX века, выдвинули на первый план необходимость учета индивидуальных особенностей. Одним из теоретических оснований, предложенных американским педагогом Джоном Дьюи, является положение о том, что образование не ограничивается лишь передачей знаний, но также предполагает развитие обучающихся на основе их опыта и деятельности. Психолог Лев Выготский, объясняя дифференциацию в образовании и обучении с различных точек зрения, выдвинул теорию «зоны ближайшего развития». Эта теория предполагает необходимость выявления потенциальных возможностей развития учащихся с учетом их текущего уровня знаний и стимулирования индивидуального подхода. Во второй половине XX века с развитием когнитивной психологии идеи дифференцированного обучения получили дальнейшее распространение. Американский психолог Говард Гарднер предложил теорию множественного интеллекта. По Гарднеру, люди обладают различными способностями к обучению, поэтому при использовании различных методов и стратегий учителя должны учитывать индивидуальные особенности учащихся. В современном подходе важное значение имеет модель Томлинсон, основателем которой является Кэрол Энн Томлинсон. Она системно проанализировала теоретические и практические основы стратегий дифференцированного обучения. Согласно ее исследованиям, учитель не только передает знания, но и выступает в роли фасилитатора, организующего процесс обучения.

Ключевые слова: *стратегии обучения, дифференцированное оценивание, инклюзивное образование, индивидуализация обучения, управление классом, педагогические инновации*

İlk olaraq, diferensiallaşdırma təhsildə öyrənənlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq dərslərin fərqli yollarla təşkil edilməsidir. Məqsəd eyni qalmaqla, öyrənmə üsullarını, materialları, məhsulu və öyrənmə mühitini tələbələrin fərdi ehtiyaclarına uyğunlaşdırmaqdır ki, bütün öyrənənlər potensiallarını maksimum dərəcədə inkişaf etdirə bilsinlər. Diferensiallaşdırma eyni zamanda yenilik tələb etsə də, bu, son beş, on və ya on beş il ərzində tətbiq olunan tədris plan və proqramlarının təxirə salınmasını və ya tamamilə ləğv edilməsini tələb etmir. Əksinə, bu yanaşma iki mərhələli bir prosesi əhatə edir. Birinci mərhələdə mövcud təlim planlaşdırılarkən məzmunun müxtəlifliyi və çətinlik səviyyəsi təhlil olunur. İkinci mərhələdə isə öyrənənlərin ehtiyac və maraqlarına uyğun yeni yanaşmaların tətbiqi nəzərə alınır.

Diferensiallaşdırılmış təlimdə əsas məqamlara diqqət etmək lazımdır: Mövzu, proses və əldə etməli olduğun nəticə. Mövzu odur ki, tələbəyə hansı mövzu və anlayışlar təqdim ediləcək. Əlbəttə bu fərqli situasiyalardan asılıdır. Ola bilsin ki, bu mövzular dövlət standartlarına müvafiq, kurikulum əsaslı olsun[1]. Mövzunu seçərkən çətinlik səviyyəsinin müəyyənləşməsi vacib amildir. Bu da əlbəttə müəyyən bilik, bacarıq və qabiliyyət tipli tapşırıqların öncədən verilməsini zəruri edir. Belə ki, bu tapşırıqlar hər bir tələbənin cari qiymətləndirməsini apararaq onun səviyyəsini müəyyənləşdirir. [2, s. 51] Bəzən müəllim tədris prosesi ərzində standartdan kənara çıxa bilər, bu o halda baş verər ki, ya öyrənənlərin bilik və bacarıq səviyyəsi artar ya da qarışıq öyrənmə tipləri yaranar ki, bu da müəllimin xüsusi hazırlığını zəruriləşdirər. Proses odur ki, biz necə öyrətməliyik. Bu, eyni bir mövzunu fərqli perspektivlərdən izahıdır. Sinifdə müxtəlif öyrənmə bacarıqlarına sahib tələbələr olur. Eşitmə, görmə, kinestetik öyrənmə qabiliyyətlərinə görə fərqlənənlərə əsasən rollu oyun kimi metodlardan istifadə edərək öyrənməni üst səviyyəyə çatdıra bilərik. Tədris prosesində diferensial strategiyaların tətbiqi zamanı qrammatik mövzular da interaktiv metodlarla təqdim edilə bilər. [3, s. 54]. Məsələn, tələbələr indiki sadə zamandan istifadə edərək öz xüsusiyyətlərini və sinif yoldaşlarının xüsusiyyətlərini müqayisə edir, əldə olunan nəticələri isə dialoq və rollu oyun formasında təqdim edirlər. Eşitməyönlü öyrənənlər fərqli və müsbət tərəfləri müzakirə edərək şifahi təqdimat verirsə, vizual öyrənənlər həmin cəhətləri qrafik və ya sxemlər çəkərək izah edirlər.

Tədris prosesində diferensial strategiyaların tətbiqi zamanı "məhsul" anlayışı xüsusi əhəmiyyət daşıyır. Məhsul dedikdə tələbələrin təlim prosesinin sonunda əldə etdikləri nəticəni və öyrəndiklərini nümayiş etdirmə formasını başa düşürük. Bu yanaşmanın formalaşmasında Benjamin Blum tərəfindən irəli sürülmüş **Blum taksonomiyası** və Hovard Qardnerin "**Çoxsaylı zə-**

ka nəzəriyyəsi" mühüm rol oynayır. [1, s. 6]. Bu nəzəriyyələr tələbələrin yalnız bilik əldə etməsini deyil, həm də həmin bilikləri müxtəlif formalarda tətbiq etməsini ön plana çəkir.

Hovard Qardnerin çoxsaylı zəka nəzəriyyəsi əsasında müəllim sərişləliliyinin formalaşdırılması:

Tarix boyunca müəllim həm tədris prosesini idarə edən, onu təşkil edən, həm də kəşf və nəzəriyyələri ilə tanınan şəxs olmuşdur. Bu müəllimlərdən biri də Hovard Qardnerdir. O, Harvard Universitetinin professoru idi və 9 zəka nəzəriyyəsi adlı işini təqdim etdi. Öncəliklə, bu, 6 zəka nəzəriyyəsini özündə ehtiva etsə də siyahı daha sonra doqquza qalxdı, zamanla daha da geniş vüsət almağa başladı. Bu da özlüyündə intellektual və istedadlılıq səviyyələrinin ölçülməsində əvəzedilməz rolu vardır. Hər kəs üçün aydındır ki, 3 öyrənmə kateqoriyası vardır ki, bunlar kinestetik, audio və vizual öyrənməni təşkil edir. Bununla yanaşı tarix boyunca bir sıra yanaşmalar kəşf edildi ki, bu da öyrənmə potensialını üzə çıxarmaq və daha yaxşı tədris prosesini təşkil etməyə imkan verdi. Qardnerin nəzəriyyəsi təlimin planlaşdırılması, fəaliyyət və tapşırıqların seçilməsində qiymətləndirmə strategiyalarının müəyyənləşdirilməsində mühüm rolu vardır.

1. Verbal-linqvistik zəka – Bu zəka növünə malik tələbələr sözlə ifadə etməyi, oxumağı və yazmağı yaxşı bacarırlar. Müəllim onlarla işləyərkən qısa hekayələr yazdırmaq, təqdimatlar hazırlatmaq və söhbət etmək kimi fəaliyyətlərdən istifadə edə bilər. Bu, onların nitq və yazı bacarıqlarını inkişaf etdirir və öyrənmə prosesini daha səmərəli edir.

2. Məntiqi riyazi zəka – Bu zəka problemləri həll etməyi, məntiqi əlaqələri görməyi və rəqəmlərlə işləməyi asanlaşdırır. Müəllim məntiqi tapşırıqlar, problemlər və qrup oyunları təqdim edərək analiz və düşünmə bacarıqlarını gücləndirə bilər.

3. Məkan vizual zəka – Tələbələr şəkilləri, xəritələri və qrafikləri başa düşməyi və yaradıcılıqla istifadə etməyi yaxşı bacarırlar. Müəllim onlara şəkillərlə işləmə, sxem və ya konsept xəritəsi hazırlamağa imkan verə bilər.

4. Bədən kinestetik zəka – Tələbələr hərəkət etməyi, praktiki fəaliyyətləri və əllə işləri yaxşı bacarırlar. Rollu oyunlar, dramatizasiya və laboratoriya fəaliyyətləri bu zəkanı inkişaf etdirməyə kömək edir.

5. Musiqi zəka – Bu zəka musiqini dinləmə, ritm və melodiyanı anlama bacarığını əhatə edir. Müəllim tələbələrə mahnı və ya ritmik tapşırıqlar verərək öyrənmə prosesini əyləncəli və yaradıcı edə bilər.

6. Sosial zəka – Bu zəka digər insanları başa düşmə və onlarla əməkdaşlıq bacarığını əhatə edir. Müəllim qrup işləri, debatlar və müzakirələr təşkil edərək əməkdaşlıq və ünsiyyət bacarıqlarını gücləndirə bilər.

7. Daxili zəka – Öyrənənlər öz emosiyalarını və düşüncələrini anlamağı bacarırlar. Müəllim onlara jurnal yazmaq, özünü qiymətləndirmə və refleksiya tapşırıqları verərək özünü dərk etmə bacarıqlarını inkişaf etdirə bilər.[5]

Bu səbəbdən tələbələr əldə etdikləri bilik və bacarıqları şifahi təqdimat, debat, müzakirə, rollu oyun və ssenari kimi fəaliyyətlər vasitəsilə nümayiş etdirə bilərlər.[4] Tətbiqi mərhələdə əsas məqsəd mövcud bacarıqları inkişaf etdirmək və ya yeni bacarıqlar formalaşdırmaqdır. Məsələn, gitara ifa etməyi bacaran bir tələbə ingilis dilində mahnı və ya rep yazaraq dil bacarıqlarını yaradıcı şəkildə tətbiq edə bilər. Eyni zamanda səlis nitq qabiliyyətinə malik bir tələbəyə şifahi təqdimat hazırlamaq tapşırığının verilməsi yeni bacarıqların inkişafına imkan yaradır. Bu prosesdə müəllimin fasilitator rolu mühüm əhəmiyyət daşıyır və tələbələrin fərdi potensialının inkişafına şərait yaradır. [4, s. 21]. Tənqidi tipli tapşırıqların təyini onları özlərini inkişaf etdirməyə sövq edir. Bu tapşırıqların təyini müəllimin günü gündən professional yanaşmasını artırır. Təbii ki, hər bir fərd üçün çətinlik səviyyəsi müxtəlif olan tapşırıqların verilməsi vacibdir. Bu fərqliliyin düzgün bölüşdürülməsi tələbələrin motivasiyasına və öyrənmə bacarıqlarına mühüm təsiri vardır. Bu mətndə əsasən onu vurğulamışam ki, gənc müəllimlərin əksəriyyəti dərs prosesini daha interaktiv etməyə çalışırlar. Bu mükəmməl səslənir, lakin burada əsas məqam öyrənmə və öyrətməyə yönəlməkdir. Bizim üçün ən başlıcası öyrənmə nəticələrini öncədən müəyyən etmək, onu tədris ilinin əvvəlində aydın şəkildə izah etmək və bu nəticələrə nail olmaq üçün mühüm plan və proqram qurmaqdır. Bu plan adaptiv, yəni çevik dəyişikliklərə yol açan və ya diferensial yanaşmanı tələb edir. Müəllim bunu bilməlidir ki, təlimat bir ölçü vahidi deyil ki, hər kəs üçün eyni olsun. Metakoqnitiv bacarığa sahib olan tələbələrin ək-

səriyyəti öyrənmə üçün uyğun tədris vəsaitini, mövzuları maraq və potensiallarına görə seçə bilirlər. Burada müəllim əsasən fasilitator rolunu oynayır. Düzgün istiqamət tələbəni yüksək nəticələrə sahib olmağa kömək edir. Məqalədə Hovard Qardnerin idrak bacarıqlarının diferensiallaşdırmaya təsiri mövzusu da araşdırma aparılmışdır. Eyni zamanda sosial-iqtisadi və ailə amillərinin, mədəni və etnik təsirlər, gender fərqliliyinin təhsilə bilavasitə təsirindən də bəhs olunmuşdur. Sinif idarəetməsi zamanı isə diferensial strategiyaların tətbiqində səriştəli müəllim tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədrisi uyğunlaşdırır, effektiv öyrənmə mühiti yaradır və hər bir öyrənənin inkişafını təmin edir.

Nəticə. Son illərdə qloballaşma və təhsilin inteqrasiyası tələbələrin fərdi qabiliyyət və maraqlarının müxtəlifliyini artırıb. Bu vəziyyət müəllimləri tədris mühitini fərdiləşdirməyə, diferensial yanaşmanı konseptual və praktik səviyyədə tətbiq etməyə məcbur edir. Diferensial təlim öyrənənlərin bütün səviyyələrinə uyğun deyil, lakin davamlı qiymətləndirmə və çevik təlimat vasitəsilə onların bacarıqları inkişaf etdirilə bilər. Məsələn, Blum taksonomiyası əsasında qiymətləndirməyə (ingilis dili üzrə) əsaslanaraq, bu metod tələbələrin biliklərini mərhələli şəkildə yoxlamağa imkan verir. Öyrənənlər əvvəlcə mətndəki məlumatları xatırlayır, sonra onu izah edir, daha sonra isə yeni cümlələr quraraq tətbiq edirlər. Növbəti mərhələdə onlar mətn üzərində təhlil aparır, sonda isə öz fikirlərini bildirərək qiymətləndirmə və yaradıcı yanaşma nümayiş etdirirlər. Bu yanaşma onların həm dil, həm də düşünmə bacarıqlarını inkişaf etdirir.

Problemin aktuallığı. Müasir təhsil mühitində tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alan səriştəli müəllimlərin diferensial təlim strategiyalarından istifadəsi təhsilin keyfiyyətinin yüksəldilməsi üçün həyati əhəmiyyət kəsb edir.

Problemin yeniliyi. Diferensial təlim strategiyalarının müəllimin fasilitator rolu və innovativ pedaqoji yanaşmalarla birləşdirilərək sistemli tətbiqi mövzunun yeniliyini təşkil edir.

Problemin praktik əhəmiyyəti. Bu strategiyaların tətbiqi müəllimlərə dərs prosesini optimallaşdırmaq, tələbələrin fərdi inkişafını dəstəkləmək və təlim nəticələrini artırmaq imkanı verir.

Ədəbiyyat

1. Abbasov, A. Təlim prosesində müasir pedaqoji texnologiyalar və müəllim səriştəsi // –Bakı: Pedaqogika və Psixologiya, –2018. №3, –52 s.
2. Hüseynova, S. Diferensial təlimin təşkili və onun effektivliyi // –Bakı: Təhsil Araşdırmaları Jurnalı, –2020. №1, –39 s.
3. Quliyev, R. Müəllimin peşəkar inkişafı və təlim strategiyaları // –Bakı: Elm nəşriyyatı, –2017. –88 s.
4. Məmmədov, R. Müasir təlim strategiyalarında diferensiallaşdırma prinsipləri // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, –2019. №2. – 45 s.
5. Əliyeva, L. İngilis dili dərslərində interaktiv və diferensial metodların tətbiqi // –Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, – 2021. –67 s.
6. Vygotsky, L. S. Mind in Society: The Development of Higher Psychological Processes // – Cambridge, MA, USA, Harvard University Press, –1978. –p.3
7. Gardner, H. Frames of Mind: The Theory of Multiple Intelligences// – New York, USA: Basic Books, – 2011. –p.93
8. Tomlinson, C. A. The Differentiated Classroom: Responding to the Needs of All Learners // – Alexandria, VA, USA: ASCD, –2001. –p.110
9. Türkoğlu, M. E., & Cansoy, R. Linking instructional leadership and differentiated instruction: The mediating role of teacher agency // –USA: SAGE Open, –2026. –p. 4.
10. Suprayogi, M., Valcke, M., & Godwin, R. Differentiated instruction does matter: Effects on students' well-being and inclusion // –Switzerland: Frontiers in Education, –2021. –p. 9.

Redaksiyaya daxil olub: 22.04.2026

UOT 37.01

Gülnarə Vilayət qızı Şahmuradova
Azərbaycan Respublikasını Təhsil İnstitutunun elmi işçisi
https://orcid.org/0000-0003-1997-0317
E-mail: gulnara.shahmuradova@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).39-44

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ MİLLİ KİMLİK VƏ TƏHLÜKƏSİZLİK ŞÜURUNUN FORMALAŞMASINDA DƏRSLİKLƏRİN ROLU

Gulnara Vilayat Shahmuradova
researcher at the Institute of Education of the Republic of Azerbaijan

THE ROLE OF TEXTBOOKS IN THE FORMATION OF NATIONAL IDENTITY AND SECURITY AWARENESS IN GENERAL EDUCATION SCHOOLS

Гюльнара Вилаят гызы Шахмурадова
научный сотрудник Института Образования Азербайджанской Республики

РОЛЬ УЧЕБНИКОВ В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ И СОЗНАНИЯ БЕЗОПАСНОСТИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Xülasə. Məqalədə müasir qloballaşma və informasiya cəmiyyətinin yaratdığı ideoloji və mədəni çağırışlar kontekstində milli kimlik və təhlükəsizlik şüurunun formalaşmasında dərsliklərin rolu elmi-pedaqoji baxımdan araşdırılır. Milli kimlik fərdin tarixi-mədəni mənsubiyyətinin və vətəndaşlıq mövqeyinin formalaşmasında əsas ideoloji amil kimi təhlil edilir. Təhlükəsizlik şüuru isə yalnız hərbi və fiziki təhlükələrlə deyil, informasiya, ideoloji və mədəni risklərlə əlaqəli kompleks sosial-pedaqoji anlayış kimi şərh olunur. Məqalədə təhsil sisteminin, xüsusilə dərsliklərin milli-mənəvi dəyərlərin ötürülməsi, tarixi yaddaşın möhkəmləndirilməsi və təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsində daşıdığı funksiyalar Azərbaycan və beynəlxalq təcrübə əsasında təhlil edilir. Tədqiqatın nəticəsi olaraq dərslik siyasətinin milli ideologiya və təhlükəsizlik prinsipləri əsasında təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış tövsiyələr irəli sürülür.
Açar sözlər: *Milli kimlik, təhlükəsizlik şüuru, dərsliklər, təhsil siyasəti, milli-mənəvi dəyərlər, vətəndaşlıq tərbiyəsi, informasiya təhlükəsizliyi.*

Abstract. The article examines, from a scientific and pedagogical perspective, the role of textbooks in the formation of national identity and security awareness within the context of the ideological and cultural challenges posed by modern globalization and the information society. National identity is analyzed as a key ideological factor in shaping an individual's historical and cultural affiliation and civic position. Security awareness is interpreted as a complex socio-pedagogical concept related not only to military and physical threats but also to informational, ideological, and cultural risks. Based on Azerbaijani and international experience, the article analyzes the functions of the education system–particularly textbooks–in transmitting national and moral values, strengthening historical memory, and developing a culture of security. As a result of the study, scientifically grounded recommendations are proposed for improving textbook policy on the basis of national ideology and security principles.
Keywords: *National identity, security awareness, textbooks, education policy, national and moral values, civic education, information security*

Аннотация. В статье с научно-педагогической точки зрения исследуется роль учебников в формировании национальной идентичности и сознания безопасности в контексте идеологических и культурных вызовов, порождаемых современной глобализацией и информационным обществом. Национальная идентичность анализируется как ключевой идеологический фактор формирования историко-культурной принадлежности личности и её гражданской позиции. Сознание безопасности трактуется как комплексное социально-педагогическое понятие, связанное не только с военными и

физическими угрозами, но и с информационными, идеологическими и культурными рисками. На основе азербайджанского и международного опыта в статье анализируются функции системы образования, особенно учебников, в передаче национально-духовных ценностей, укреплении исторической памяти и развитии культуры безопасности. По результатам исследования выдвигаются научно обоснованные рекомендации по совершенствованию политики учебников на основе принципов национальной идеологии и безопасности.

Ключевые слова: *Национальная идентичность, сознание безопасности, учебники, образовательная политика, национально-духовные ценности, гражданское воспитание, информационная безопасность*

Giriş. XXI əsrdə qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsal informasiya mühitinin genişlənməsi və mədəniyyətlərarası qarşılıqlı təsirin intensivləşməsi, multikultural cəmiyyətlərin formalaşması, mədəni müxtəlifliyin qorunması, ailə birliyinin möhkəmlənməsi, informasiya savadlılığının təmin olunması, tolerant yanaşma milli kimlik məsələsini müasir cəmiyyətlər üçün yalnız mədəni deyil, eyni zamanda strateji problemə çevirmişdir. İnformasiya axınının sürətlənməsi, mədəni təsirlərin intensivləşməsi və ideoloji rəqabətin artması milli kimliyin qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi ön plana çıxarır. Müasir dünyada milli kimlik yalnız mədəni mənsubiyyət göstəricisi deyil, həm də dövlətçiliyin, ideoloji sabitliyin və sosial həmrəyliyin əsas dayaqlarından biri kimi çıxış edir [1].

Milli kimlik dövlətçiliyin ideoloji dayağı olmaqla yanaşı, cəmiyyətin sosial bütövlüyünü və mənəvi sabitliyini təmin edən əsas amillərdəndir. Bu xüsusiyyətlər milli dövlətçilik ənənələrinə malik olan Azərbaycan kimi ölkələr üçün xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, milli kimlik və təhlükəsizlik şüurunun məqsədyönlü şəkildə formalaşdırılması təhsil sisteminin prioritet vəzifələrindən biri hesab olunmalıdır.

Tədqiqatın məqsədi və metodologiyası. Tədqiqatın əsas məqsədi ümumtəhsil məktəblərində istifadə olunan dərsliklərin milli kimlik və təhlükəsizlik şüurunun formalaşmasına təsirini elmi-pedaqoji baxımdan araşdırmaq, onların məzmununda milli-mənəvi dəyərlərin, vətəndaşlıq ideyalarının, təhlükəsizlik mədəniyyətinə dair anlayışların təqdim olunma səviyyəsini müəyyənləşdirmək, qloballaşma dövründə milli ideologiyanın ötürülməsində rolunu öyrənməkdir.

Tədqiqatın metodoloji əsası. Araşdırma prosesində milli kimlik, təhlükəsizlik şüuru, vətəndaşlıq tərbiyəsi və dərslik nəzəriyyəsinə dair mövcud elmi ədəbiyyat elmi-nəzəri təhlil metodu vasitəsilə araşdırılmışdır. Ümumtəhsil məktəbləri üçün hazırlanmış dərsliklərin milli kimlik və təhlükəsizlik məsələləri ilə bağlı məzmunu məzmun təhlili metodu əsasında sistemli şəkildə təhlil edilmiş, bu sahədə Azərbaycan təcrübəsi beynəlxalq yanaşmalarla müqayisəli şəkildə öyrənilmişdir.

Müasir dövrdə təhlükəsizlik anlayışı ənənəvi hərbi çərçivəni aşaraq, informasiya mühiti, ideoloji təsirlər və mədəni kimliklə bağlı riskləri də əhatə edir. Erkən yaşlardan etibarən uşaqlarda dezinformasiya, informasiya müharibələri və mədəni assimilyasiya cəhdlərinə qarşı təhlükəsizlik şüurunun formalaşdırılması olduqca vacibdir. Bu kontekstdə dərsliklər həm milli kimliyin, həm də təhlükəsizlik mədəniyyətinin formalaşmasında əsas pedaqoji və ideoloji vasitədir.

Milli kimlik fərdin özünü müəyyən bir tarixi-mədəni və sosial icmanın üzvü kimi dərk etməsi və bu mənsubiyyəti şüurlu şəkildə qəbul etməsi ilə səciyyələnən sosial-psixoloji kateqoriyadır [5]. Bu anlayış fərdin cəmiyyət daxilində sosial mövqeyini və dövlətə münasibətini müəyyənləşdirir.

Ümummilli Lider Heydər Əliyev gənclərlə görüşlərinin birində demişdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi bilməyən gənc yaxşı vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik" [3].

Pedaqoji baxımdan milli kimlik tərbiyəvi xarakter daşıyır. Çünki bu anlayış şagirdlərdə vətənpərvərlik, milli məsuliyyət, tarixi yaddaşa hörmət və vətəndaşlıq mövqeyinin formalaşmasına xidmət edir. Milli kimliyin ilkin əsasları ailədə formalaşsa da, onun sistemli və davamlı inkişafı məktəb və təhsil mühiti vasitəsilə təmin olunur.

Mədəni kimliyin mənşəyi ilə bağlı müzakirələrdə milli kimliyin təşviqi və qorunması tərəfdarları, xüsusən də siyasi cəhətdən təlimatlandırılmış şəxslər və mədəni kimliyi ən dar mənada milli kimliklə eyniləşdirənlər, digər və fərqli mədəniyyətlərlə əlaqəli spesifik xüsusiyyətləri və orijinallığı sübut etməkdə israr edirlər. Mədəni və milli kimlik anlayışının özünəməxsusluğu problemdir, çünki müxtəlifliyi artırmaq və müəyyən mədəniyyətlərə və əlaqəli millətlərə üstünlük vermək məqsədi ilə istifadə olunur [4].

Böyük mütəfəkkir Əl-Fərabi deyirdi ki, təhsil insana bilik vasitəsilə etik dəyərlərin və bədii qabiliyyətlərin aşılanmasıdır. Dəyəryönlü tədris yanaşması "Dəyərlərə Əsaslanan Təhsil" proqramının tətbiqi ilə tətbiq olunur. "Dəyərlərə Əsaslanan Təhsil" proqramı şagirdlərin özünüdərkini, inkişafını, sosial məsuliyyətini və özünəinamını təşviq edir. Təhsil sistemi təhsil təşkilatının ümumi komandası tərəfindən həyata keçirilir [8].

Təhsil sistemi milli-mənəvi dəyərlərin yeni nəsillərə ötürülməsində əsas institusional mexanizm kimi çıxış edir. Dərsliklər vasitəsilə şagirdlər tarixi keçmiş, dil, ədəbiyyat və mədəni irs haqqında strukturlaşdırılmış biliklər əldə edir, özlərini milli-mədəni məkanın fəal daşıyıcısı kimi dərk edirlər.

Bu proses, bir tərəfdən, milli dəyərlərin mənimsənilməsini, digər tərəfdən isə tarixi yaddaşın qorunmasını təmin edir. Azərbaycanın müstəqillik mübarizəsi, 20 Yanvar hadisələri və Qarabağ müharibələri kimi mövzuların dərsliklərdə sistemli şəkildə təqdim edilməsi milli şüurun formalaşmasında mühüm rol oynayır [2].

Təhlükəsizlik şüuru fərdin və cəmiyyətin mövcudluğuna, inkişafına qarşı yönələn riskləri vaxtında dərk etməsi və bu risklərə qarşı adekvat davranmaq bacarığı kimi xarakterizə olunur. Müasir dövrdə, rəqəmsal informasiya mühitində bu anlayış informasiya təhlükəsizliyi, ideoloji sabitlik və mədəni kimliyin, birgəyaşayış, dözümlülük balansının qorunması kimi sahələri də əhatə edir.

Təhlükəsizlik şüurunun formalaşdırılması fənlərarası yanaşma tələb edir. Tarix dərslərində dövlətçilik və müdafiə ənənələri; ədəbiyyatda milli-mənəvi dəyərləri, ideyaları; informatika və media savadlılığı dərslərində isə kiber təhlükəsizlik və dezinformasiyaya qarşı tənqidi düşünmə bacarıqları şagirdlərin yaş xüsusiyyətlərinə uyğun şəkildə təqdim edilməlidir [7].

Milli kimlik və təhlükəsizlik şüurunun formlaşdırılmasına dərsliklər böyük təsir qüvvəsinə malikdir. Dərsliklər təhsil prosesində yalnız bilik mənbəyi deyil, eyni zamanda ideoloji və tərbiyəvi təsir vasitəsi hesab olunur:

- dərsliklər milli tarix və mədəniyyət haqqında sistemli biliklərin formalaşdırılması;
- milli dəyərlər və vətəndaşlıq məsuliyyətinin aşılanması;
- şagirdlərin sosial mühitə uyğunlaşmasının və vətəndaş mövqeyinin inkişaf etdirilməsi;
- multikultural mədəniyyətin formalaşdırılması kimi funksiyaları daşıyır.

Vizual materiallar, milli simvollar və situativ tapşırıqlar dərsliklərin pedaqoji təsir gücünü artıraraq milli kimlik və təhlükəsizlik şüurunun möhkəmlənməsinə şərait yaradır.

Eyni zamanda dərsliklərdə şagirdlərə təqdim olunan məzmun onların mənəvi dünyasını, milli-mədəni və vətənpərvərlik hisslərini formalaşdırır, dünyagörüşünün inkişafına mühüm təsir göstərir. Bu kontekstdə *dərsliklərin aşağıdakı əsas funksiyalarını* qeyd etmək olar:

a) İnformasiya funksiyası vasitəsilə şagirdlərə tarix, mədəniyyət, dil, coğrafiya, ədəbiyyat, hüquq və ictimaiyyətlə bağlı milli biliklər sistemli şəkildə ötürülür. Tarixi faktlar, ədəbi nümunələr, coğrafi bölgələr, mədəniyyətlərə xas etimoloji xüsusiyyətlər milli kimlik və mənsubiyyət hissini formalaşdırır.

b) Dərsliklər tərbiyəvi funksiyası milli dəyərlərə, adət-ənənələrə, qəhrəmanlıq nümunələrinə, vətən sevgisinə və vətəndaş məsuliyyətinə əsaslanan mövzuları özündə əks etdirməklə şagirdin milli-mənəvi kimliyinin formalaşmasına yönəldilir. Vətənpərvərlik, həmrəylik, milli qürur, tarixə hörmət və dövlətə bağlılıq kimi anlayışlar şagirdlərə yaş səviyyəsinə uyğun aşılanmalıdır.

c) Sosiallaşdırma funksiyası vasitəsilə şagirdlər milli və sosial rollarını dərk edir, cəmiyyətin bir üzvü kimi öz mövqelərini formalaşdırır, milli və bəşəri dəyərləri mənimsəyir. Bu xüsusiyyətləri özündə formalaşdıraraq, sosial həyata daha uyğun və məsuliyyətli şəkildə inteqrasiya olunur. Eyni zamanda, qarşılaşdığı risklərə və mədənimüxtəlifliyə adekvat cavab verə bilir.

Dərsliklərdə milli kimlik və təhlükəsizlik şüurunu formalaşdıran məzmunlar planlı və məqsədyönlü şəkildə öz əksini tapmalıdır. Bəzi fənlər üzrə nümunəvi məzmun istiqamətləri aşağıdakı kimi təqdim olunur:

Tarix dərslikləri

✓ Azərbaycanın dövlətçilik ənənələri;

✓ Qarabağ münaqişəsi və Vətən Müharibəsi;

✓ Şəhidlik anlayışı və milli qəhrəmanlar;

✓ Azərbaycan Xalq Cümhuriyyəti;

✓ SSRİ dövrü və müstəqillik tarixi;

Azərbaycan dili və ədəbiyyat dərslikləri

✓ Vətən mövzulu şeirlər və nəsr nümunələri;

✓ Azərbaycan xalqının mənəvi dəyərlərinin təqdimatı;

✓ Dilin dövlət atributu kimi əhəmiyyəti;

Həyat bilgisi və vətəndaşlıq dərslikləri

✓ Vətəndaş hüquqları və vəzifələri;

✓ Ailə, cəmiyyət və dövlət münasibətləri;

✓ Təhlükəsizlik mədəniyyəti;

✓ Fövqəladə hallarda davranış qaydaları;

İnformatika və media savadlılığı

✓ İnformasiya təhlükəsizliyi;

✓ Kiberməkanda düzgün davranış;

✓ Sosial şəbəkələrdə milli maraqların, dəyərlərin qorunması;

✓ Dezinformasiyaya qarşı müdafiə;

Dərsliklərdə yalnız mətn deyil, həm də **vizual materiallar**, **milli simvollar**, **tarixi fotolar**, **qəhrəmanların təsvirləri** və **interaktiv tapşırıqlar** şagirdin həm estetik zövqünü, həm də milli-mənəvi dəyərlərə bağlılığını gücləndirir. Buna misal olaraq

❖ Xəritələr üzərində strateji bölgələrin göstərilməsi;

❖ Milli geyimlərin, musiqi alətlərinin, memarlıq nümunələrinin təqdimatı;

❖ Bölgələrə xas olan adət-ənənələrə dair nümunələrin verilməsi;

❖ Bölgələrə aid Sənətkarlıq nümunələri – xalçaçılıq, zərgərlik, dulusçuluq, ağacoyma, misgərlik və s. – xalqın özünəməxsusluğunu, adət-ənənələrini əks etdirir. Bu sənətlər milli kimliyin unudulmamasına xidmət edir. Sənətkarlığın milli-mənəvi dəyərlərin qorunmasındakı rolu çox böyük və əvəzolunmazdır [9, s. 189]. Bu şəbədən də, dərsliklərdə toxuculuq, dulusçuluq məhsullarının, abidələrin, məscidlərin və digər sənətkarlıq nümunələrinin fotoşəkillərini və s göstərmək olar.

Dərslik nə qədər məzmunlu, məlumat cəhətdən zəngin və məqsədyönlü olsa da, onun tərbiyəvi təsiri müəllimdən çox asılıdır. Belə ki, müəllimin pedaqoji ustalığı, səlis nitqi, təqdimat bacarığı, mövzuya yanaşması və şagirdlə ünsiyyəti ilə birbaşa bağlıdır. Bu keyfiyyətlərə malik olan müəllimlər dərslikdəki məzmunu daha dərindən izah edir, şagirdləri fəal iştirakçıya çevirir, milli-mənəvi və bəşəri dəyərlər üzərində düşünmə, mövzu ilə bağlı müzakirə aparma və mühakimə yürütmə imkanları yaradır.

Azərbaycan təhsil sistemində son illərdə dərslik məzmunlarının milli kimlik və təhlükəsizlik aspektləri baxımından zənginləşdirilməsi prioritet məsələ kimi qarşıya qoyulur və bu tendensiya davam etdirilir. Xüsusilə, Vətən Müharibəsindən sonra dərsliklərdə tarixi yaddaş, milli qəhrəmanlıq və dövlətçilik mövzularına daha geniş yer ayrılması bu istiqamətdə atılmış mühüm addım hesab olunur [2].

Beynəlxalq təcrübə göstərir ki, bir sıra ölkələrdə dərsliklər milli kimlik və təhlükəsizlik mədəniyyətinin formalaşdırılmasında əsas pedaqoji alət kimi istifadə olunur. Beynəlxalq təcrübələrin öyrənilməsi və müsbət tendensiyaların milli kontekstə uyğunlaşdırılması Azərbaycan təhsil siyasətinin effektivliyini artıra bilər [7].

Milli kimlik dərsliklər vasitəsilə dil, ədəbiyyat, tarix və mədəniyyət nümunələri ilə şagirdlərin dünyagörüşünə ötürülür. Bunun nəticəsində gənc nəsil milli dəyərlərə sahib çıxan, öz dövlətinə və xalqına bağlı, fəal vətəndaş kimi yetişir. Eyni zamanda, dərsliklərdə təhlükəsizlik şüurunun sistemli, planlı, yaşamüvafiq yer alması informasiya təhlükələri və sosial risklərə qarşı şagirdlərdə adekvat davranış mexanizmləri yaradır.

44 günlük Vətən Müharibəsindən və ərazi bütövlüyünün bərpasından sonra təhsil sistemində dərslik siyasətində mühüm dəyişikliklərə imza atıldı. Milli kimlik, vətənpərvərlik və təhlükəsizlik mövzuları dərsliklərdə daha sistemli, əhatəli şəkildə öz əksini tapmağa başladı. Buna misal olaraq, aşağıdakıları qeyd etmək olar:

a) Tarix dərsliklərində

✓ 2021-ci ildən etibarən yenilənmiş tarix dərsliklərində Qarabağ münaqişəsi, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi, şəhidlər və qazilərin qəhrəmanlığı haqqında ayrıca bölmələr təqdim edilir.

✓ Vətən Müharibəsi iştirakçılarının həyat hekayələri dərs mətnləri və tapşırıqlar vasitəsilə öyrədilir.

b) Ədəbiyyat və dil dərsliklərində

✓ Şairlərin və yazıçıların vətənpərvərlik ruhlu əsərləri

✓ Milli qəhrəmanlar və tarixi şəxsiyyətlər haqqında mətnlər şagirdlərdə danışıq və yazı bacarıqları ilə yanaşı, milli dəyərlərin formalaşdırılması məqsədini daşıyır.

c) Fənlərarası inteqrasiya

✓ Həyat bilgisi və coğrafiya dərsliklərində Qarabağ bölgəsinin təbii sərvətləri və strateji əhəmiyyəti xüsusi vurğulanır.

✓ İnformatika fənnində sosial şəbəkələrdə milli maraqların qorunması və informasiya müharibəsi mövzuları izah edilir.

Milli kimlik anlayışları istənilən fənn sahəsinə daxil edilə bilsə də, tarix çox vaxt "millətin" özünü necə anladığında əsas rol oynaya bilər. Kimlik haqqında daha geniş müzakirələri əks etdirən tarix tədrisi ilə bağlı müzakirələr, kimliyin qurulmasının həm məzmununa, həm də prosesinə yönəlməyə meyllidir [6].

Beynəlxalq təcrübəyə nəzər saldıqda, dünyanın bir sıra ölkələrində milli kimlik və təhlükəsizlik şüurunun tədris vasitəsilə formalaşdırılmasına xüsusi diqqət yetirdiyi aydın görünür. Bu istiqamətdə nümunə göstərilə biləcək bəzi ölkələri qeyd etmək olar:

Finlandiyada milli dəyərlərlə yanaşı, sosial həmrəylik və ictimai məsuliyyət dərsliklərin əsas struktur komponentlərindəndir. Eyni zamanda, dərsliklərdə mədəni müxtəlifliyin qorunması, informasiya savadlılığı və demokratik dəyərlər təhlükəsizlik şüurunun əsas tərkib hissəsi kimi təqdim edilir.

İsrail tədris proqramlarında yəhudi kimliyinin qorunması və İsrail dövlətçiliyinin tarixi əsaslarının öyrədilməsi prioritetdir. Hərbi hazırlıq və milli təhlükəsizlik təlimləri məktəbdən başlayır.

Yaponiyada dərsliklərdə mədəni irs, ailə bağları, əxlaqi dəyərlər, mənəvi məsuliyyət və təbiətə hörmət mövzuları ön plandadır. Həmçinin, Yaponiyada şagirdlərə milli kimliyin daşıyıcısı olmaq hissi erkən yaşlardan aşılanır.

Bu beynəlxalq təcrübələrdən aşağıdakı istiqamətlərdə faydalanmaqla, Azərbaycan təhsil sistemində dərslikləri milli kimlik, təhlükəsizlik şüuru və şagirdlərin şəxsiyyət kimi formalaşması istiqamətində daha da təkmilləşdirmək mümkündür:

✓ ***İnteqrasiyalı dərslər*** vasitəsilə təhlükəsizlik, milli kimlik, ideologiya və vətəndaşlıq mövzularını həm akademik, həm tərbiyəvi məzmunda təqdim etmək;

✓ ***Qəhrəmanlıq simvollarının*** dərsliklərdə vizual və mətn formasında istifadəsini genişləndirmək;

✓ ***Media savadlılığı və kiber təhlükəsizlik*** mövzularını informatika, rəqəmsal fənninə daxil etmək;

Nəticə. Aparılmış elmi-pedaqoji təhlil göstərir ki, milli kimlik və təhlükəsizlik şüurunun formalaşmasında dərsliklər strateji əhəmiyyətə malikdir. Dərsliklər şagirdlərə yalnız akademik biliklər ötürmür, eyni zamanda onların milli mənsubiyyətini, vətəndaşlıq mövqeyini, məsuliyyətini və təhlükəsizlik mədəniyyətini formalaşdırır. Bu baxımdan, dərslik siyasətinin milli ideologiya və təhlükəsizlik prinsipləri əsasında davamlı şəkildə təkmilləşdirilməlidir. Bu da cəmiyyətin milli və mənəvi dayanıqlığının möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Təhlil edilən nümunələr göstərir ki, Azərbaycanda bu istiqamətdə müsbət irəliləyişlər olsa da, bəzi problemlər hələ də qalmaqdadır. Belə ki, dərslik məzmunlarının bəzən milli kimlik, ideoloji baxımdan səthi təqdim olunması və təhlükəsizlik aspektlərinin fənlərarası inteqrasiyasında boşluqlar müşahidə edilir.

Aşağıda qeyd olunan ***təkliflərin*** həyata keçirilməsi bu sahədə səmərəli təkmilləşdirmə aparmaq istiqamətində məqsədəuyğun hesab olunur:

❖ Dərsliklərin məzmunu milli ideologiya və təhlükəsizlik baxımından davamlı olaraq zənginləşdirilməsi;

❖ Milli-mənəvi dəyərlər, qəhrəmanlıq nümunələri, tarixi yaddaş və informasiya təhlükəsizliyi mövzuları bütün fənlərdə planlı, sistemli inteqrasiya olunması;

❖ Müəllim hazırlığı proqramlarında milli kimlik və təhlükəsizlik tərbiyəsi üzrə modullar tətbiq edilməsi;

❖ Beynəlxalq təcrübənin uyğunlaşdırılmış formada Azərbaycanda tətbiqinə diqqət yetirilməsi;

❖ Bu sahədə müvafiq səmərəli, effektiv mexanizm hazırlanması və s. məqsədəmüvafiq hesab edilə bilər.

Nəticə etibarilə, bu sahədə aparılacaq hərtərəfli, sistemli, planlı islahatlar cəmiyyətin milli və mənəvi dayanıqlığına əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Problemin aktuallığı. Müasir qloballaşma prosesi, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və ideoloji təsir imkanlarının ge-

nişlənməsi milli kimliyin qorunması və təhlükəsizlik şüurunun formalaşdırılması məsələlərini xüsusilə aktual etmişdir. Bu şəraitdə gənc nəslin tarixi yaddaşının, milli-mənəvi dəyərlərə bağlılığının və vətəndaşlıq mövqeyinin formalaşması təhsil sisteminin əsas prioritetlərindən biri kimi çıxış edir. Ümumtəhsil məktəbləri bu prosesin əsas mühitidir. Dərsliklər şagirdlərin dünyagörüşünün formalaşmasında aparıcı vasitə olmaqla yanaşı, milli ideologiyanın, vətənpərvərlik ruhunun və təhlükəsizlik mədəniyyətinin aşılanmasında mühüm rol oynayır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, ümumtəhsil məktəblərində istifadə olunan dərsliklər milli kimlik və təhlükəsizlik şüurunun formalaşması kontekstində elmi-pedaqoji yanaşma əsasında təhlil edilir. Azərbaycan təcrübəsi beynəlxalq yanaşmalarla müqayisəli şəkildə təhlil olunur.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri ümumtəhsil məktəbləri üçün dərsliklərin hazırlanması və təkmilləşdirilməsi prosesində praktik əhəmiyyət kəsb edir. Araşdırmada irəli sürülən nəticə və tövsiyələr dərslik siyasətinin milli kimlik və təhlükəsizlik prinsipləri əsasında formalaşdırılmasına, müəllimlərin təlim prosesində bu məsələlərə daha məqsədyönlü yanaşmasına töhfə verə bilər. Eyni zamanda tədqiqat materiallarından pedaqoji ali təhsil müəssisələrində, ixtisasartırma kurslarında, eləcə də təhsil siyasətinin planlaşdırılması və qiymətləndirilməsi sahəsində istifadə olunması mümkündür.

Ədəbiyyat

1. Anderson, B. Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism (Revised ed.). –London: Verso –2006. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://is.muni.cz/el/1423/podzim2013/SOC571E/um/Anderson_B_-_Imagined_Communities.pdf
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan tarixi dərsliyi (IX sinif). –Bakı: Təhsil, –2023. edu.gov.az
3. Ordahallı, Vidadi. Tariximizin öyrənilməsi gənclərimizin milli mənlik şüurunun inkişafında hansı rol oynayır /Bakı xəbər.-2014.-20 yanvar.-s.11. https://anl.az/down/meqale/baki_xeber/2014/yanvar/347564.htm
4. Ranka, M. Perić Romić. –Belgrade, 2020. THE ROLE OF EDUCATION IN PRESERVING NATIONAL IDENTITY. file:///C:/Users/user/Downloads/Theroleofeducationinpreservingnationalidentity.pdf
5. Smith, A. D. National Identity. –London: Penguin Books, –1991. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://is.muni.cz/el/fss/podzim2018/SOC291/um/4_Smith_ch2.pdf
6. Tormey, R. The construction of national identity through primary school history: the Irish case // British Journal of Sociology of Education, –2006. 27 (3), –311–324. https://ncca.ie/media/2596/roland-tormey-the-construction-of-national-identity-through-primary-school-history-the-irish-case.pdf
7. UNESCO. Education for Global Citizenship: A Guide for Policymakers. –Paris: UNESCO Publishing, –2015. https://www.unescoapceiu.org/post/3538?&page=3
8. Utkelbaeva A.A. ORGANIZATION OF EDUCATIONAL WORK AT SCHOOL, FORMATION OF PERSONALITY THROUGH THE PROMOTION OF NATIONAL VALUES. (2024)/ https://eurasia-science.org/index.php/pub/article/view/273?utm_source=chatgpt.com
9. Zamanova, N.İ., Milli kimliyin qorunub saxlanılmasında tarixi abidələrin və sənətkarlığın rolu. // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, –2025. Cild 92, №6. –s.189. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://journals.arti.edu.az/uploads/f_202601121153468390 58874.pdf
10. Culture and Identities //2020. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://ssd.org.rs/wp-content/uploads/2023/10/Culture_and_Identities_2020.pdf

Redaksiyaya daxil olub: 11.05.2026

UOT 37.01

Zərifə Mahmud qızı Həmidova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi
https://orcid.org/0000-0002-5041-636
E-mail:zerifehemidova16@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).45-50

TƏHSİL SİSTEMİNDƏ EKOLOJİ TƏRBİYƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI MEXANİZMLƏRİ

Zarifa Mahmud Hamidova
lecturer at Shamakhi branch of Azerbaijan State Pedagogical University

MECHANISMS FOR INCREASING THE EFFECTIVENESS OF ECOLOGICAL EDUCATION IN THE EDUCATION SYSTEM

Зарифа Махмуд гызы Гамидова
преподаватель Шамахинского филиала
Азербайджанского Государственного Педагогического Университета

МЕХАНИЗМЫ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Xülasə. Məqalədə tərbiyənin cəmiyyət həyatında mühüm rolundan və xüsusilə ekoloji tərbiyənin aktuallığından bəhs edir. Qeyd olunur ki, müasir dövrdə şəxsiyyətin hərtərəfli inkişafı, milli və bəşəri dəyərlərə sahib, vətənpərvər və əxlaqlı insanın formalaşdırılması tərbiyənin əsas məqsədidir. Bu baxımdan ekoloji mədəniyyətin inkişaf etdirilməsi mühüm vəzifə hesab olunur və onun formalaşdırılması ailədən başlayaraq bütün təhsil pillələrində davam etdirilməlidir. Məktəbəqədər yaşlı uşaqlarda ekoloji tərbiyənin həyata keçirilməsi üçün müxtəlif metod və vasitələrdən istifadə edilməsinin vacibliyi vurğulanır. Təlim prosesində uşaqların yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmalı, onların təbiətə marağı, düşünmə və nitq bacarıqları inkişaf etdirilməlidir. Ekoloji biliklərin əvvəlki biliklərlə əlaqələndirilməsi uşaqlarda daha davamlı və şüurlu münasibətin formalaşmasına kömək edir.
Açar sözlər: *ekoloji, cəmiyyət, təbiət, təhsil, kateqoriya, mühit, keyfiyyət göstəricisi*

Abstract. The article discusses the important role of upbringing in the life of society, as well as the relevance of environmental education. It is noted that in the modern period, the main goal of upbringing is the comprehensive development of the individual and the formation of a person possessing national and universal values, patriotism, and high moral qualities. In this context, the development of environmental culture is considered an important task, and its formation should begin within the family and continue at all levels of education. The importance of using various methods and means for implementing environmental education among preschool children is emphasized. In the learning process, it is necessary to take into account the age and psychological characteristics of children, as well as to develop their interest in nature, thinking, and speech skills. Connecting environmental knowledge with previously acquired knowledge contributes to the formation of a more stable and conscious attitude toward the environment among children.
Keywords: *ecological, society, nature, education, category, environment, quality indicator*

Аннотация. В статье рассматривается важная роль воспитания в жизни общества, а также актуальность экологического воспитания. Отмечается, что в современный период основной целью

воспитания является всестороннее развитие личности, формирование человека, обладающего национальными и общечеловеческими ценностями, патриотизмом и высокими нравственными качествами. В этом контексте развитие экологической культуры рассматривается как важная задача, а её формирование должно начинаться в семье и продолжаться на всех уровнях образования. Подчёркивается значимость применения различных методов и средств для осуществления экологического воспитания у детей дошкольного возраста. В процессе обучения необходимо учитывать возрастные и психологические особенности детей, развивать их интерес к природе, мышление и речевые навыки. Связывание экологических знаний с уже имеющимися знаниями способствует формированию у детей более устойчивого и осознанного отношения к окружающей среде.

Ключевые слова: *экология, общество, природа, образование, категория, окружающая среда, показатель качества*

Cəmiyyətdə xüsusi yeri və rolu olan tərbiyə prosesi haqqında söylənilən fikirlər bütün zamanlarda, xüsusilə də iqtisadi-ictimai formasiyaların, həyat və düşüncə tərzlərinin dəyişdiyi, mədəniyyət və sivilizasiyaların inteqrasiya etdiyi keçid dövrlərində aktual olmuş və bu gün də aktual olaraq qalır. Tərbiyənin dari pedaqoji ədəbiyyatda kifayət qədər təhlil edilmiş və mənaca bir-birinə yaxın olan fikirlər deyilmişdir.

Məktəbəqədər yaşlı uşaqlarda ekoloji tərbiyənin həyata keçirilməsində müxtəlif metod və üsullardan məqsədyönlü və yaradıcı şəkildə istifadə olunması xüsusi əhəmiyyət kəsb edir. Uşaqlara yeni biliklərin ötürülməsi məqsədilə təşkil olunan məşğələlər onların ekoloji düşüncəsinin formalaşmasında mühüm rol oynayır. Təlim proqramlarının məzmunu elə qurulmalıdır ki, təqdim edilən hər bir yeni məlumat uşaqların əvvəl qazandıqları biliklərlə əlaqələndirilsin və onları daha da genişləndirib zənginləşdirsin.

Məşğələlərin təşkili zamanı uşaqların yaş və psixoloji xüsusiyyətləri, xüsusilə onların qavrama imkanları nəzərə alınmalıdır. Təlim prosesi elə planlaşdırılmalıdır ki, uşaqların təbiətlə tanışlığı onların dünyagörüşünün genişlənməsinə, nitq və təfəkkür bacarıqlarının inkişafına xidmət etsin, eyni zamanda onlarda ekoloji mövzulara maraq və həvəs formalaşdırsın. Məşğələlərin əsas məqsədi yalnız proqram materialının mənimsədilməsi deyil, həm də uşaqlara yeni biliklərin izahı, onların möhkəmləndirilməsi və praktik düşünmə bacarıqlarının inkişaf etdirilməsidir. [6]

Bəşər cəmiyyətinin müasir inkişaf mərhələsi üçün səciyyəvi olan cəhətlərdən biri də ekoloji problemlərin təhlükəli dərəcədə kəskinləşməsi və qloballaşmasıdır. Insan həyatının elə bir sahəsi yoxdur ki, ora elmi-texniki tərəqqinin nailiyyətləri nüfuz etməsin. Bu, bir tərəfdən insanların maddi rifah halının yaxşılaşdırılmasına, cəmiyyətin inkişafına, digər tərəfdən isə təbiət-cəmiyyət münasibətlərinin kəskinləşməsinə səbəb olur. Kəskinləşmiş münasibətləri tənzimləmək üçün ilk növbədə təbiətdə, cəmiyyətdə və onların qarşılıqlı münasibətində mövcud proseslərin və problemlərin mahiyyətini araşdırmaq, gerçəkliyi dərk etmək və səmərəli tədbirlər görmək lazımdır. Dərk edilmiş gerçəklik davranış normalarını nizamlamazsa və cəmiyyəti tənzimləyən qanunlar qəbul edilərkən nəzərə alınmazsa, o, təsir qüvvəsini itirər, mənasiz arxiv materialına çevrilər. Odur ki, təbiətdə və cəmiyyətdə baş verən hadisələri ekoloji baxımdan təhlil etmək, onların mənasını, bir-birindən asılılığını, səbəblərini, müsbət və mənfi nəticələrini araşdırmaq və bunları praktik fəaliyyətlə əlaqələndirmək həmişə aktual olmuş və tərbiyəvi əhəmiyyət kəsb etmişdir.[2]

Ətraf mühitdə həm təbii proseslər, həm də insan fəaliyyətinin təsiri nəticəsində müxtəlif dəyişikliklər baş verir və bu dəyişikliklər həmin regionun həyatına ciddi təsir göstərir. Məlumdur ki, ətraf mühit, iqtisadiyyat, mədəniyyət və insan fəaliyyəti qarşılıqlı əlaqədə olan vahid bir sistem təşkil edir və bu sistemin hər hansı bir hissəsində baş verən dəyişikliklər digər sahələrə də təsirsiz ötüşmür. Eyni zamanda, dünya əhalisinin sürətli artımı, elmi-texniki tərəqqi insanların tələbatlarının genişlənməsinə səbəb olur. Ekoloji təhsil fərdlərdə ətraf mühitə məsuliyyətli yanaşma formalaşdırır, onların düzgün qərarlar qəbul etmə bacarıqlarını inkişaf etdirir və təbiətin qorunmasına yönəlmiş davranışların təşviqinə xidmət edir. [7]

Ekoloji tərbiyənin əsas vəzifələrindən biri ekoloji kateqoriyaların, hadisələrin, proseslərin mahiyyətini aydınlaşdırmaq, təbiətlə cəmiyyət arasında mövcud olan real münasibətlərin keçmişini, bu gününü və gələcəyini araşdırmaq, təbii sistemlərin mahifizəsi və onlardan səmərəli istifadə etmək yollarını göstərmək və təbliğ et-

məkdir ki, bunları da təbiət elmlərini bilmədən həyata keçirmək çox çətindir. Lakin bu və ya digər hadisəni sadəcə olaraq öyrənmək və ya şərh etmək tərbiyə baxımından azdır. İnsanlar bilməlidirlər ki, nəyi və nə üçün müdafiə etmək, nəcə və hansı metodlarla mübarizə aparmaq, hansı üsullarla müdafiə etmək lazımdır. Odur ki, insanların iqtisadi durumunu, düşüncə tərzini, dünyagörüşünü, təbiətdən səmərəli istifadə və onun məqsədyönlü mühafizəsi problemini, cəmiyyətdəki mövcud qanunlar və onların işləmə mexanizmini düzgün araşdırmaq ekoloji tərbiyənin əsas məsələlərindəndir.[4]

Ekoloji tərbiyə prosesində insan və təbiət münasibətlərinin nəzəri məsələləri ilə yanaşı, sosial tərəfinə də fikir vermək və bu işə daha həssas yanaşmaq lazımdır. Etiraf etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrin, o cümlədən bu günkü orta statistik Azərbaycan vətəndaşının düşüncə tərzini və buna uyğun olaraq fəaliyyət istiqamətini müəyyənləşdirən əsas amillərdən biri maddi maraqdır. Çoxlu gəlir əldə etmək, yaxşı dolanmaq zəncirvari arzular çoxluğunun əsasıdır. İnsanların fəaliyyət istiqaməti dərk edilmiş gerçəkliyə əsaslandığından əzbərlənmiş müddəalar və ya reallığa əsaslanmayan inzibati cəza təbbirləri fəaliyyətin təbii istiqamətini müəyyənləşdirə bilməz. Odur ki, ekoloji tərbiyə prosesi elmi və həyati faktlarla zənginləşməli və inandırıcı olmalıdır. İnsanlar dərk etməlidir ki, yer kürəsində demək olar ki, insan da daxil olmaqla bütün canlıların qida kimi, enerji mənbəyi kimi istifadə etdikləri üzvi maddələrin ilk və yeganə yaradıcısı və əsas oksigen mənbəyi yaşıl bitkilərdir. Meşə sahələrinin azalması, bitki örtüyünün məhv edilməsi ekologiyanın ən ciddi problemlərindən olan hava və ərzaq problemlərinin yaranmasına səbəb olur. Ozon təbəqəsinin deşilməsinin səbəbi isə işlənmiş qazların, xüsusilə frion qazlarının atmosferə tullanmasıdır.

Bir minik avtomobili 100 km məsafə qət edən zaman bir adamın bir illik tənəffüsünə lazım olan miqdarda oksigen qazı sərf edir. Bununla yanaşı, benzinin yanması zamanı atmosferə korban, azot, kükürd qazları və digər zəhərli maddələr buraxılır. Bitki məhsuldarlığını artırmaq üçün torpağa verilən gübrələr bitki ziyanvericilərinə qarşı tətbiq olunan müxtəlif kimyəvi maddələr məhsuldarlığı artırsa da insanda müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Təbiətdə canlılar arasında ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Belə faktlar olmazsa deyilənlər boş bir ehkama çevrilər və ən yaxşı halda insanlarda təəssüf hissi yaradar.

Ətraf mühit amillərinin insanın psixi rifahına təsiri məsələsi geniş şəkildə araşdırılmışdır. Ölkəmizdə keçiriləcək COP29 tədbirinin bu sahəyə yönəltdiyi diqqət kontekstində müəlliflər beynəlxalq tədqiqatların nəticələrinə əsaslanaraq mövcud elmi yanaşmaları təhlil etmişlər. Tədqiqatda təbii mühit faktorlarının psixi rifahın yaxşılaşdırılmasında mühüm rol oynadığı xüsusi vurğulanır. Eyni zamanda, ekoloji şüurun inkişafı məqsədilə fərdlərin özlərini daha geniş ekosistemin bir hissəsi kimi dərk etmələrinin vacibliyi qeyd olunur. Məqalədə insanların təbiətlə birbaşa təmasda olmasının psixoloji vəziyyətə müsbət təsiri əsaslandırılır və bu baxımdan naturopatik terapiyanın əhəmiyyəti ön plana çəkilir. [9]

İnsanlar və ətraf mühit bir tamın iki müxtəlif tərəfləridir. İnsan geoloji inkişaf prosesində əlverişli şərait yaranarkən meydana çıxmış və ətraf mühitə uyğunlaşmışdır. Təbiət-insan münasibətlərində təbiət tam, insan isə hissə kimi çıxış edir.

Hissə tamı dəyişdirməyə səy göstərir. Bəzi hallarda lokal miqyasda buna nail olur. Bu halda hissə, yəni insan sistemin sabit tərəfinə, tam isə dəyişən hissəsinə uyğun gəlir. Nəticədə tamın bəzi keyfiyyətlərini dəyişdirir. Tamın dəyişilmiş keyfiyyətləri ilə hissənin əvvəlki keyfiyyətləri arasında ziddiyyət yaranır. Ziddiyyətin həll olması üçün hissə uyğunlaşmalı və ya tamın əvvəlki keyfiyyətləri bərpa olunmalıdır. Hissənin tama uyğunlaşması, yəni insanın bioloji varlıq kimi dəyişilməsi, onda yeni fizioloji keyfiyyətlərin yaranması mümkün deyil. Belə olan halda insan çalışmalıdır ki, tamın, yəni təbiətin keyfiyyət göstəriciləri dəyişilməsin, dəyişilmiş keyfiyyətlər isə bərpa olunsun. Yəni tam və onun elementləri arasındakı asılılıqlar, əlaqələr sistemi nisbi sabit qalsın.

Tədris prosesinin ən dinamik komponentlərindən biri olan metod təlimin məqsəd və məzmunu ilə sıx bağlıdır. Müasir dövrdə digər fənlərdə olduğu kimi, biologiya və coğrafiyanın tədrisində də məzmun və məqsədlərə uyğun yeni yanaşmaların tətbiqi zəruri hesab olunur. Şagirdlərin təbiətə münasibəti onların ekoloji bilik səviyyəsi, mənəvi və hüquqi normalara riayət etmə bacarıqları, eləcə də təbiəti qoruma ənənələrini mənimsəmə dərəcəsi ilə müəyyənləşir. Bu baxımdan müəllimlər şagirdlərdə təbiətə

məsuliyyətli yanaşma formalaşdırmaq üçün həm məntiqi, həm də emosional təsirə malik metodlardan istifadə etməlidirlər. Təbiət və cəmiyyət arasındakı qarşılıqlı əlaqənin öyrədilməsi sadədən mürəkkəbə doğru mərhələli şəkildə təşkil olunmalı, biliklər isə sistemli şəkildə dərinləşdirilməlidir. Bu yanaşma şagirdlərdə ekoloji problemlərə marağı artırır və onların həlli prosesində fəal iştirak üçün motivasiya yaradır. Buna görə də ümumtəhsil müəssisələrində biologiya və coğrafiya fənlərinin tədrisində ekoloji tərbiyənin səmərəli metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır [10]

Ekoloji tərbiyə uzunmüddətli və mürəkkəb proses olub konkret şəraitdən asılı olaraq müxtəlif metodlarla həyata keçirilir. Tədris müəssisələrində təbiət elmləri sahəsində öyrədilən bütün mövzular həm də ekoloji tərbiyə baxımından təhlil edilməli və təbiətə xoş münasibət formalaşmalıdır. Insanların ünsiyyətdə olduğu bütün hallarda elm, təhsil, sənaye, kənd təssərüfatı müəssisələrində, müxtəlif məclislərdə, yığıncaqlarda, fərdi söhbətdə imkan yarandıqca ekoloji tərbiyədən söz açmaq, cansız və canlı təbiətin yaranması, inkişaf mərhələləri, bu günü və gələcəyi haqqında elmi məlumatlar vermək və müvafiq davranış normaları haqqında fikir söyləmək hər bir tərbiyəçinin, müəllimin, ümumiyyətlə təbiəti sevən və dərk edən kamil insanın mənəvi borcudur. Bu prosesə mümkün qədər kiçik yaşlardan başlamaq daha məqsədəuyğundur. Çünki insanın təbiətə marağı lap uşaqlıqdan, xüsusilə də məktəbəqədər tərbiyə müəssisələrindən başlayır.

Təbiət elə təşkil olunmuşdur ki, onun komponentləri arasında sıx əlaqə var. Təəssüf ki, təbiətin ayrı-ayrı komponentlərinin bir-birini tamamlamasına və onların qarşılıqlı münasibətlərinə müxtəlif amillərin mənfi təsiri güclənməkdədir. Nəzərə almaq lazımdır ki, ekoloji təfəkkürə malik hərtərəfli inkişaf etmiş kamil insanın formalaşdırılması prosesi total deyil, demokratik üsullarla həyata keçirilə bilər. Bunun üçün gerçəklik obyektiv sürətdə analiz və sintez edilməli, reallıq və elmilik, ümumi və xüsusi, mahiyyət və hadisə və s. kateqoriyalar vəhdətdə götürülməlidir. Bununla yanaşı təbii sərvətlərin mühafizəsi və səmərəli istifadəsi sahəsində yerli sakinlərin hüquq və vəzifələrini nəzərdə tutan qanunların daim təkminləşdirilməsinə və insanların bu sahədə maarifləndirilməsinə həmişə ehtiyac var. Hər bir vətəndaş bilməli və inanmalıdır ki, təbii ehtiyatlar ümummilli sərvətlərdir. Bu sərvətlərdə onların da payı var. Odur ki, təbii ehtiyatların, bütövlükdə təbiətin bu günü və gələcəyi üçün bütün vətəndaşlar cavabdehdirlər. Gələcək naminə bu günü qorumaq hər kəsin həm borcu, həm də məsuliyyətidir. Təbiətdəki tarazlığı pozan halları göstərməklə yanaşı, eyni zamanda bu halların yaranma səbəbləri və onların aradan götürülmə yollarını göstərmək lazımdır. İnsan fəaliyyətinin ekoloji mahiyyəti təbii mühitdə normal maddələr mübadiləsini təmin etmək, mühitin komponentləri arasındakı təbii tarazlığı qoruyub saxlamaqdır. Insan təbiəti sadəcə olaraq seyr etməklə, ondan estetik zövq almaqla və ya təbiətin qanun və qanunauyğunluqlarını öyrənməklə kifayətlənmir. Həm də təbiətə məqsədəuyğun, dəyişdirici təsir göstərir. Bu təsir müsbət və ya mənfi istiqamətdə, bilərəkdən və ya bilməyərəkdən ola bilər.

Hər bir fərd bəşər cəmiyyətinin ən aşağı strukturu olaraq ekoloji problemin yarada biləcəyi təzadları dərk etməlidir. Eyni bir ekoloji mühitdə yaşayan və eyni sosial təbəqəyə mənsub olan insanların təbiətə münasibəti çox vaxt müxtəlif olur. Bəzi insanlar nəinki özləri inanır, həm də digərlərini inandırmağa çalışırlar ki, təbiət insanlar üçün yaranıb. Odur ki, təbii sərvətlərdən istifadədə, ümumiyyətlə təbiətə münasibətdə heç bir məhdudiyyət ola bilməz. Belə hallarda tərbiyə prosesi daha da çətinləşir. Təbiət elmlərini öyrədən və öyrənənlərdən daha çox zəhmət tələb olunur. Çünki düşüncə tərzini dəyişdirmək onu yaratmaqdan daha çətindir. Bərpa olunan təbii sərvətləri bərpa etmək daha asandır nəinki ziyanlı təfəkkürü. Belə təfəkkürün reallaşması biosferin müxtəlif təbəqələrinin dəyişilməsinə olur: meşə sahələri azalır, bitki və heyvan növlərinin nəsli kəsilir, səhralaşma prosesi gedir, torpaqlar dövriyyədən çıxır, atmosferin qaz tərkibi, hidrosferin canlı aləmi və kimyəvi tərkibi dəyişir və s. Erməni millətçilərinin xalqımıza qarşı düşmənçilik, təbiətimizə qarşı isə işğalçılıq və qarətçilik ideyalarının reallaşması nəticəsində Azərbaycan ərazisinin təxminən beşdə bir hissəsində meşələr, landşaftlar yandırılmış, yaşayış məntəqələri və abidələr dağıdılmış, faydalı qazıntı yataqları vəhşicəsinə istismar edilmişdir. [3]

Tərbiyə prosesində Yer planetinin yaranması, üzvi aləmin meydana gəlməsi və inkişaf

mərhələləri izah edilərsə, geoloji keçmişdə bəzi növlərin həyat səhnəsindən birdəfəlik silinməsi və bir daha mövcud olmayacaqları haqqında məlumat verilərsə insanların ekoloji bilikləri daha da zənginləşər və onlarda canlı təbiəti qoruyub saxlamaq meyli artar. Milyard illər ərzində formalaşmış orqanizm mühit münasibətləri haqqında biliklərin gənc nəslə verilməsi ən vacib məsələlərdən biridir.

Orqanizm-mühit ziddiyətlərinin kəskinləşməsi həm mövcud növlərin məhvinə, həm də yeni növlərin yaranmasına səbəb olur. Bu ziddiyyətlərin kəskinləşməsi adətən mühitin kəmiyyət göstəricilərindəki dəyişmələrdən başlayır ki, bu da təbii və ya antropogen amillərin təsiri nəticəsində ola bilər. İkinci halda mühitin kəmiyyət dəyişkənliyi daha sürətlə baş verir. Məsələn: insan fəaliyyəti nəticəsində havaya buraxılan karbon qazı təbii proseslərdən əmələ gələn karbon qazının miqdarından 150-200 dəfə çoxdur. İlk mərhələdə kəmiyyət dəyişmələri keyfiyyət dəyişmələrinə gətirib çıxarmır. Lakin kəmiyyət dəyişmələrinin inkişafı müəyyən mərhələdə mühitin keyfiyyət dəyişmələrinə gətirib çıxarır. Yeni keyfiyyətli mühit ilə köhnə keyfiyyətli orqanizm münasibətləri arasında ziddiyyətin yaranmasına və kəskinləşməsinə səbəb olur. Mühit ekosistemin daha mütəhərrik, orqanizm isə sabit tərəfidir. Dəyişən və sabit tərəflər arasındakı ziddiyətlərin kəskinləşməsi mühitin köhnə keyfiyyətlərinə uyğunlaşmış orqanizmin məhvinə və ya yeni keyfiyyətlərə uyğunlaşa bilən yeni orqanizmin yaranmasına səbəb olur. Adətən ekosistemin antropogen amillərin təsiri nəticəsində yaranan inkişafında müsbət və mənfi təsirlər vəhdətdə olur. Xəzər dənizində neft sənayesinin inkişaf etdirilməsi cəmiyyətin maddi mənafeyi baxımından müsbət, hövzənin canlı aləmi üçün isə mənfi haldır. Hesablamalar göstərmişdir ki, Atlantik okeanında netf məhsullarının təsiri nəticəsində qırılan biokütlənin miqdarı həmin müddət ərzində həyata keçirilmiş ən intensiv ov nəticəsində qırılan biokütlənin miqdarından çoxdur. Bu cür misallar insan fəaliyyətinin bütün sahələri üçün səciyyəvidir. Hər bir antropogen mənşəli inkişaf bu iki tərəfin hər ikisini özündə birləşdirir. Lakin inkişafın ümumi istiqaməti bu tərəflərdən hansının çox olmasından asılıdır. Ekoloji baxımdan əsas məqsəd bu tərəflərdən hər hansı birini tamamilə saxlamaq deyil, bu tərəflər arasındakı münasibətləri, əlaqələri tənzimləməkdir. [5]

Nəticə etibarilə, müasir dövrdə ekoloji problemlərin qlobal xarakter alması ekoloji tərbiyənin və ekoloji şüurun formalaşdırılmasını zəruri edir. İnsan fəaliyyəti nəticəsində təbiətdə baş verən dəyişikliklər ekosistemlərin tarazlığını pozur, canlı aləmə mənfi təsir göstərir və yeni ekoloji problemlər yaradır. Bu baxımdan təhsil sistemi ekoloji məsuliyyətli vətəndaşların yetişdirilməsində mühüm rol oynayır.

Tədqiqat göstərir ki, ekoloji tərbiyənin səmərəliliyinin artırılması üçün innovativ pedaqoji metodlardan, fənlərarası inteqrasiyadan, layihə əsaslı və praktik fəaliyyətlərdən geniş istifadə olunmalıdır. Müasir rəqəmsal texnologiyaların tətbiqi, müəllimlərin ekoloji səriştələrin inkişaf etdirilməsi və ekoloji mövzuların tədris proqramlarında sistemli şəkildə yer alması bu prosesin keyfiyyətini yüksəldə bilər.

Beləliklə, ekoloji tərbiyənin gücləndirilməsi yalnız təbiətin qorunmasına deyil, həm də davamlı inkişafın təmin olunmasına, gələcək nəsillərdə məsuliyyətli davranışın və ekoloji mədəniyyətin formalaşmasına mühüm töhfə verir.

Problemin aktuallığı. Müasir dövrdə qlobal ekoloji problemlərin – iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması və ətraf mühitin çirklənməsi – artması cəmiyyətin ekoloji şüurunun formalaşdırılmasını zəruri edir. Bu baxımdan təhsil sistemi ekoloji tərbiyənin əsas daşıyıcısı kimi xüsusi əhəmiyyət kəsb edir. Şagird və tələbələrdə erkən yaşlardan ekoloji məsuliyyət hissinin formalaşdırılması gələcəkdə davamlı inkişafın təmin olunmasına xidmət edir.

Problemin elmi yeniliyi. Təhsil sistemində ekoloji tərbiyənin səmərəliliyinin artırılması üçün yeni yanaşmalar və mexanizmlər təklif olunur. Xüsusilə inteqrativ təlim modelləri, fənlərarası əlaqələrin gücləndirilməsi və innovativ pedaqoji metodların tətbiqi elmi baxımdan əsaslandırılır. Tədqiqatda ekoloji tərbiyənin yalnız nəzəri deyil, həm də praktik fəaliyyətlərlə əlaqələndirilməsi konsepsiyası irəli sürülür. Müasir rəqəmsal texnologiyaların və layihə əsaslı təlimin bu sahədə rolu yeni aspektdən təhlil edilir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri təhsil müəssisələrində ekoloji tərbiyənin daha səmərəli təşkili üçün praktik tövsiyələr təqdim edir. Təklif olunan mexanizmlər müəllimlərə dərs prosesində ekoloji mövzuları daha maraqlı və tətbiqyönlü şəkildə çatdırmağa imkan verir. Məqalədə verilən yanaşmalar məktəblərdə və ali təhsil müəssisələrində kurikulumların təkmilləşdirilməsinə kömək edə bilər.

Ədəbiyyat

1. Хефлинг, Г. Тревога в 2000 году: Бомбы замедленного действия на нашей планете (пер. с нем. М.С.Осиповой, Ю.М.Фролова) / - М.: Мысль. – 1990. - 45 с.
2. Məmmədov, N.M., Suravegina İ.T. Ekologiya / -Bakı: Maarif, - 2000. -52 s.
3. Əliyev, H.Ə. Həyəcan təbili / - Bakı: 2002. -23 s.
4. Məmmədov, Q.Ş. Azərbaycanın ekoetik problemləri: elmi, hüquqi, mənəvi aspektləri / Bakı: Elm, - 2004. -56 s.
5. Məmmədov, Q.Ş., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan /- Bakı: Elm, -2006. -34 s.
6. Əliyeva, G.E. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, - 2024. №5. – s.60-64
7. İsmayılxanova, Ə. Məktəbdənkənar tərbiyə müəssisələrində şagirdlərin ekoloji təhsil tərbiyəsinin sistemi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2024. №3. – s.71-74
8. Hacızadə, R. İbtidai sinif şagirdlərinin ekoloji tərbiyəsində motivasiya vasitələri // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, - 2024. №6. -s. 21-24
9. Zamanova, N. Yaşıl təhsil və davamlı inkişaf konsepsiyası // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2024. №6. – s. 25-29
10. Mammadzade, R.R. Teoría y problemas actuales de la formación moral de los estudiantes // Universidad y Sociedad, Tendencias de las nuevas economías: la importancia de sus publicaciones para alcanzar el desarrollo sostenible. Parte I vol. -17 Núm. – 2025 https://rus.ucf.edu.cu/index.php/rus/article/view/5019

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 37.01

Ramilə Babək qızı İsmayılxanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.orq/0009-0007-6566-4499
E-mail:devinismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).51-55

TƏLƏBƏLƏRİN MƏNƏVİ İNKİŞAFINDA TƏHSİLİN HUMANİSTLƏŞDİRİLMƏSİNİN ROLU

Ramila Babek Ismayilkhanova
lecturer at Azerbaijan State Pedagogical University

THE ROLE OF HUMANISING EDUCATION IN THE MORAL DEVELOPMENT OF STUDENTS

Рамиля Бабек гызы Исмаилханова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ ГУМАНИЗАЦИИ ОБРАЗОВАНИЯ В ДУХОВНО-НРАВСТВЕННОМ РАЗВИТИИ СТУДЕНТОВ

Xülasə. Təlim-tərbiyə proseslərinin təkmilləşdirilməsi, demokratikləşdirilməsi və humanistləşdirilməsi istər ümumtəhsil müəssisələrinin, istərsə də ali təhsil müəssisələrinin pedaqoji kollektivləri qarşısında mühüm vəzifə kimi dayanır. Təhsil müəssisələri cəmiyyətin qurucusu hesab etdiyimiz gənc nəslin əqli, əxlaqi, estetik, fiziki, etik və multikultural inkişafını təmin edərək, onların yaradıcı imkanlarını aşkara çıxarmalı, özünə və onu əhatə edən ətraf mühitə humanist münasibət formalaşdırmalı, sağlam təhsil mühiti yaratmalıdır. Təhsil sayəsində insanlar cəmiyyətdə baş verən hadisələrə birbaşa təsir etmə imkanına sahib olur və onlarda ictimai şüur formalaşır.

Müəllif onu da qeyd edir ki, təhsilimiz ümumbəşəri və milli-mənəvi dəyərlərdən bəhrələnir. Azərbaycan gəncliyi dərk etməlidir ki, millilik və ümumbəşərilik təhsil sistemimizin əsasında dayanır və onun ayrılmaz hissəsidir.

Bu nəcib, humanist hissləri indiki tələbə gənclərə aşılamaqla onların mənəvi dünyasına bir növ işıq tutmuş oluruq.

Açar sözlər. *demokratikləşdirilmə, humanistləşdirilmə, təhsilləndirici, tərbiyəedici, inkişafetdirici, fasiləsizlik, liberallaşma, səmərəlilik, inteqrasiya*

Abstract. The refinement, democratisation, and humanisation of teaching and learning processes represent a vital responsibility for the teaching staff of both general and higher education institutions. Educational institutions, as the architects of the younger generation who build our society, must ensure their intellectual, moral, aesthetic, physical, ethical, and multicultural development while uncovering their creative potential. It is their duty to foster a humanistic attitude within the individual towards themselves and their environment, thereby establishing a healthy educational atmosphere. Through education, individuals gain the capacity to directly influence societal events, which in turn facilitates the development of a robust social consciousness.

The author further observes that our educational system draws its strength from both universal human values and national spiritual traditions. Azerbaijani youth must recognise that national and universal principles lie at the very core of our educational system and constitute an inseparable part of its foundation.

By instilling these noble, humanistic sentiments in today's students, we effectively illuminate their internal spiritual world.

Keywords: *democratisation, humanisation, educational, upbringing, developmental, continuity, liberalisation, efficiency, integration*

Аннотация. В данной статье автор утверждает, что совершенствование, демократизация и гуманизация учебно-воспитательных процессов являются важнейшими задачами, стоящими сегодня перед педагогическими коллективами как общеобразовательных, так и высших учебных заведений.

Образовательные учреждения, обеспечивая интеллектуальное, нравственное, эстетическое, физическое, этическое и мультикультурное развитие подрастающего поколения, которое мы считаем созидателями общества, должны раскрывать их творческий потенциал. Они призваны формировать гуманное отношение индивида к самому себе и к окружающей среде, создавая при этом здоровую образовательную атмосферу. Благодаря образованию люди обретают возможность оказывать прямое влияние на процессы, происходящие в социуме, что способствует формированию у них развитого общественного сознания. Автор также отмечает, что отечественное образование черпает вдохновение в общечеловеческих и национально-духовных ценностях. Азербайджанская молодёжь должна осознавать, что национальные и общечеловеческие принципы лежат в основе нашей системы образования и являются её неотъемлемой составляющей. Привитие этих благородных, гуманистических чувств современному студенчеству, определенным образом освещает их внутренний духовный мир.

Ключевые слова: *демократизация, гуманизация, образовательный, воспитательный, развивающий, непрерывность, либерализация, эффективность, интеграция*

Müasir cəmiyyətin sürətli inkişafı, Azərbaycan Respublikasının dünyanın inkişaf etmiş ölkələri arasında özünəməxsus yer tutması təlim prosesinə də öz təsirini göstərmişdir. Bu səbəbdən də yeni pedaqoji təfəkkürün qarşısında dayanan tələblər təhsilin humanistləşdirilməsinin vacibliyini göstərir. Tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılmasına qayğı ilə yanaşmaq, təlim-tərbiyə prosesinin, seminar, mühazirə məşğələlərinin, auditoriyadankənar tədbirlərin səmərəli keçirilməsinə nail olmaq və milli-mənəvi dəyərlərə əsaslanmaq təhsilin qarşısında mühüm tələblər qoyur. Odur ki, halhazırda ölkəmizdə fəaliyyət göstərən dövlət və özəl universitetlər özlərinin iş prinsipini bu istiqamətdə təşkil etməlidirlər.

Bildiyimiz kimi, təlim prosesi təhsilləndirici, tərbiyəedici və inkişafetdirici missiyanı yerinə yetirir ki, bu da insan şəxsiyyətinin formalaşdırılmasında mühüm rol oynayır.

Azərbaycanın görkəmli professoru A.O. Mehrabov özünün "Müasir təhsilin konseptual problemləri" adlı monoqrafiyasında qeyd etmişdir ki, təhsilimiz açıq və özünü inkişaf etdirən sistem olmalı, idarəetmədə şəxsiyyətin inkişaf qanunları hökmən diqqət mərkəzində saxlanılmalıdır. Təhsil insan şəxsiyyətinin sosiallaşmasının təminatçısı olmaqla yanaşı, vahid strateji xətt olmalıdır. Odur ki, Kurikulum modelinə müraciət edilməsi onların vahid xətt üzrə qurulmasına imkan verir.

Təhsilin humanistləşdirilməsi probleminin aktuallığı dövlət sənədlərində də öz əksini tapmışdır. Müasir şəraitdə Azərbaycan təhsilinin demokratikləşdirilməsi və humanistləşdirilməsi problemi nəinki Təhsil Nazirliyinin, hətta Prezidentimiz cənab İlham Əliyevin diqqət mərkəzindədir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsində dövlət siyasətinin əsas prinsipi kimi təhsilin humanistləşdirilməsi prinsipi diqqət mərkəzində saxlanılmaqdadır. Eyni zamanda humansitləşdirmə prinsipi ilə əlaqəli olan millilik, demokratiklik, keyfiyyətlilik, bərabərlik, varislik, fasiləsizlik, liberallaşma, səmərəlilik və inteqrasiya proseslərinə münasibət də bildirilmişdir.

Təhsil Qanununda humanizmin məna və mahiyyətinə belə izah verilmişdir: "Humanistlik - şəxsiyyətin azad inkişafının, milli-ümumbəşəri dəyərlərin, sağlamlığın və təhlükəsizliyin, insan hüquqları və azadlıqlarının, insanlara və ətraf mühitə qayğılı münasibətin, dözümlülüyün və tolerantlığın prioriteti kimi qəbul edilmişdir". (3, s.116-117)

Təhsil qanununun 33-cü maddəsi "Təhsil verənlərin hüquqları və vəzifələri" adlanır ki, bu maddədə müəllimlərin, eyni zamanda bütün təhsil işçilərinin fəaliyyətində humanistləşdirmə və demokratikləşdirməni əsas götürmək vacib hesab edilmişdir. Müəllimlərin vəzifələri isə belə müəyyən edilmişdir: 1) dövlət siyasətinin təhsil sahəsində həyata keçirilməsini rəhbər tutmaq; 2) tərtib edilmiş təhsil proqramlarının tələbələr tərəfindən mənimsənilməsini təmin etmək; 3) tələbələri vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, əmək fəaliyyətinə və müstəqil həyata hazırlamaq, onlarda fəal həyat mövqeyi formalaşdırmaq; 4) təhsil alanlara özlərinin şəxsi nümunəsi ilə ölkəmizin müstəqilliyinə, dövlət rəmzlərinə, Azərbaycan Respubli-

kasının Konstitusiyasına və qanunlarına, xalqımızın tarixinə, dilinə, dininə, milli və ümumbəşəri dəyərlərə, adət və ənənələrimizə, mədəniyyətimizə, ümumilikdə cəmiyyətə, ətraf mühitə və insanlara qayğı və hörmət hisslərini aşılamaq; 5) müəllimlik nüfuzunu uca tutmaq, əxlaqi normalara riayət etmək, öz hərəkət və davranışlarında yüksək ziyalılıq nümunəsi nümayiş etdirmək; 6) tələbələrin, ümumiyyətlə, bütün təhsilalanların şərəf və ləyaqətinə hörmət və ehtiram bəsləmək.

Azərbaycan Respublikasında "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsinin mahiyyəti açıqlanmışdır. Böyük əhəmiyyət kəsb edən sənəddə qeyd edilir ki, ölkəmizdə təhsilin inkişafı xalqımızın rifah halının yaxşılaşdırılması və insanların fərdi həyatlarının daha əhəmiyyətli səviyyədə qurulmasına şərait yaradır. Həmçinin təhsil insanlara texnologiyanı tez bir zamanda mənimsəməyə, bir ömür təhsil prosesində iştirak etməyə, əmək bazarında özünə layiq yer tutmağa, sağlam həyat tərzinə nail olmağa, ətraf mühitə və insanlara qayğılı münasibətə imkan yaradır.

Təlim-tərbiyə proseslərinin təkmilləşdirilməsi, demokratikləşdirilməsi və humanistləşdirilməsi istər ümumtəhsil müəssisələrinin, istərsə də ali təhsil müəssisələrinin pedaqoji kollektivləri qarşısında mühüm vəzifə kimi dayanır.

Təhsil müəssisələri cəmiyyətin qurucusu hesab etdiyimiz gənc nəslin əqli, əxlaqi, estetik, fiziki, etik və multikultural inkişafını təmin edərək, onların yaradıcı imkanlarını aşkara çıxarmalı, özünə və onu əhatə edən ətraf mühitə humanist münasibət formalaşdırmalı, sağlam təhsil mühiti yaratmalıdır. Təhsil sayəsində insanlar cəmiyyətdə baş verən hadisələrə birbaşa təsir etmə imkanına sahib olur və onlarda ictimai şüur formalaşır. (2. s. 360-361)

Təhsil humanizmə, birgəyaşayışa, bərabərliyə, demokratiyaya təkan verən mühüm sosial institutdur desək yanılmarıq. Bəs təhsilin humanistləşdirilməsi nədir və indiki böyüyən gənc nəslə humanistləşdirmə nə vəd edir? Müasir pedaqoji ədəbiyyatlarda təlim prosesinin humanistləşdirilməsi, humanizm kimi ifadələrdən geniş şəkildə istifadə edilir. Bildiyimiz kimi humanizm, humanist münasibətlərin tarixi çox qədimdir. Lakin bu ifadələr intibah dövründən başlayaraq işlənməyə başlamışdır və humanist pedaqoji ideyaların formalaşmasına təsir göstərmişdir. Hətta qədim dövrlərdə humanist pedaqoqlar meydana gəlmişdir ki, onlar haqqında ali məktəblərdə "Təhsil tarixi" fənnini tədris edərkən tələbələrə ətraflı məlumatlar verilməkdədir. Bu fənn hal-hazırda ADPU-nun Ümumi pedaqogika kafedrası tərəfindən həm bakalavr, həm də magistratura səviyyəsində tədris edilir. Humanist hisslər, humanist baxışlar insanın həm cəmiyyətə, həm də digər insanlara münasibətində özünü göstərir. Humanistlik insanı hər cür bəd əməllərdən-qəddarlıqdan, əxlaqsızlıqdan, yalandan, riyadan çəkindirir və onlarda müsbət əxlaqi keyfiyyətlər – qocalara, xəstələrə, uşaqlara qayğılı münasibət formalaşdırır.

Təlim prosesinin humanistləşdirilməsi kimi bir prinsipin həyata keçirilməsi indiki dövr üçün ən aktual məsələdir və fikrimizcə, bütövlükdə təhsilimiz, pedaqoji prosesin məzmunu humanist xarakter daşımalıdır. Müəllimlərlə şagird və tələbələr arasındakı münasibətlərlə bərabər, təhsilin mahiyyəti, məzmunu, metodları, prinsipləri və təlimin təşkili formaları birmənalı şəkildə humanistləşdirilməlidir.

Təsadüfi deyildir ki, Yan Amos Komenski hələ XVI əsrdə məktəbi "İnsanlıq emalatxanası" adlandırmışdır. Təhsilin humanistləşdirilməsi təlim prosesində öyrənənin hərtərəfli inkişaf etdirilməsini, özünü reallaşdırmasını, öyrənmə prosesində motiv və marağın yaradılmasını, təhsil müəssisələrində sağlam, şəffaf və bir şəxsiyyət kimi özünü təsdiq etməsi üçün münbit şəraitin yaradılmasını nəzərdə tutur.

Təhsilin humanistləşdirilməsi birmənalı olaraq orta ümumtəhsil müəssisələrindən başlamalıdır. Pedaqoji prosesdə müəllimin fəaliyyəti, hərəkəti, davranışı, qarşılıqlı anlaşma və kommunikativ bacarığı, öyrənənlərlə insani münasibəti, rəftarı, eyni zamanda təhsili idarəetmənin humanist məzmun kəsb etməsi tələb olunur.

İnsan şəxsiyyəti birbaşa dünyanın humanist dərki ilə bağlıdır. Şəxsiyyətin inkişafı mürəkkəb proses olduğundan bu prosesdə keyfiyyət və kəmiyyət dəyişikliyi baş verir. İnsanın mənəvi mədəniyyəti ilə əlaqəli olan dialoji mədəniyyət prosesində meydana gələn humanizm anlayışı çoxparametrli olmaqla bərabər, mürəkkəb hadisədir. Deyə bilərik ki, humanizm insanın bütün həyatı boyu can atdığı ən müqəddəs mənəvi ideallardan biridir. Bir qrup tədqiqatçı təlim prosesinin humanistləşdirilməsinin yolu-

nun təhsilin humanitarlaşdırılmasından keçdiyini qeyd edirlər. Hətta onlar qeyd edirlər ki, humanitarlaşdırma yolu ilə öyrənənlərin həm təfəkkürünü, həm mənəvi, həm də mədəni aləmini zənginləşdirmək və həyata münasibətini dəyişdirmək mümkündür. Humanitarlaşdırıma da öz növbəsində təhsilin məzmununun dəyişdirilməsini tələb edir. Yəni öyrənənlərin əqli, ruhi, əxlaqi inkişafına yönəlmiş humanitar məzmun təlim prosesində humanist hisslərin formalaşmasına şərait yaradır. Ş.A. Amonaşvilinin fikrincə təlim prosesinin humanistləşdirilməsi yalnız öyrənənlərə uğur, sevinc, birlik, tərbiyəlilik və yaradıcılıq gətirir. O qeyd edir ki, təlim prosesinin humanistləşdirilməsinin açarı müəllimlə şagirdin, yaxud tələbənin mənəvi birliyindədir. Bu o deməkdir ki, pedaqoji prosesin mənəvi əsası təhsilin humanistləşdirilməsidir. Təhsilin humanistləşdirilməsi həm əxlaq norması, həm də mənəvi dəyərdir desək yerinə düşər.

Azərbaycan Respublikasının Təhsil Qanununda da təhsilin humanistləşdirilməsi prinsipinin vacibliyi göstərilir, bütün ümumtəhsil və ali təhsil müəssisələrində bu prinsipin həyata keçirilməsi tələb olunur. Bu o deməkdir ki, təhsil prosesi humanistləşdirilərsə, mühazirə və seminar məşğələlərinin missiyası tələbələrə insanpərvərlik, mərhəmətlilik, xeyirxahlıq, mülayimlik, səxavətlilik, əliaçıqlıq kimi müsbət əxlaqi keyfiyyətlərin təbliğinə yol açar, təlimin məzmunu zənginləşər. Maddi və mənəvi köməyə ehtiyac duyan tələbələrə təhsil haqqının ödənilməsində köməklik göstərilərsə o tələbələrin xalqına, millətinə, Vətəninə, insanlara olan münasibəti sevgiyə çevrilər, ona edilən humanist yardımı görən tələbə özü də kiməsə kömək etməyə çalışar. Tələbələrin mənəvi inkişafında müəllimlərin rolu çox böyükdür. Belə ki, təlim prosesində tələbələrdə humanist hisslərin formalaşdırılması üçün hər cür şərait vardır. Odur ki, humanist hisslərin konkretliyi, orijinallığı, elmiliyi daima diqqət mərkəzində olmalıdır. (2. s. 362)

Tələbələrə onu da başa salmaq lazımdır ki, əsl dostluğu, yoldaşlığı müqəddəs bilən insanlar humanist olmağı da bacarırlar. Mənəvi saflıq, təmizlik insan həyatının gözəlliyidir. Bu gözəllikləri görmək, onu qiymətləndirmək tələbələrin gələcəyin ən yaxşı müəllimi, mütəxəssisi kimi formalaşmasında mühüm rol oynayır. Onlara aşılanan sevgi hissləri, dostluq, xeyirxahlıq, əməksevərlik, sadəlik, qarşılıqlı yardım ən vacib mənəvi keyfiyyətlərdir və bu nəcib insani hisslər, ümumbəşəri davranış normaları, yüksək əxlaqi şüur mənəvi təcrübənin göstəricisidir.

Doğru danışıq vərdişləri, ata-anamı sevmək, onların əməyini qiymətləndirmək, qonşularla mehriban olmaq, qohumun işinə yaramaq, əmanətə xəyanət etməmək, ədalətli və adil olmaq, yalandan, riyadan uzaq dayanmaq, qayğı göstərmək, qocalara, xəstələrə, uşaqlara kömək əli uzatmaq, harama nifrət etmək, namuslu, ləyaqətli olmaq insanın malik olduğu mənəvi dəyərlərdir. Bunu İslam dininin müqəddəs kitabı olan "Qurani-Kərim" təbliğ edir və insanları bu mənəvi gözəlliyə sahib olmağa çağırır. Bütün dünya artıq bilir ki, Azərbaycan təhsili birmənalı olaraq ümumbəşəri və milli-mənəvi dəyərlərdən bəhrələnir. Bu həm Konstitusiyamızın bir çox maddələrində, həm də himnimizdə, bayrağımızda, gerbimizdə öz əksini tapmışdır. Humanizm elə bir hissdir ki, insan mənəviyyatını zənginləşdirir, həyatı daha da gözəlləşdirir, həm də insanlara, bizi əhatə edən mühitə baxışımızı dəyişdirir.

Bütün Azərbaycan gəncliyi dərk etməlidir ki, millilik və ümumbəşərilik təhsil sistemimizin əsasında dayanır və onun ayrılmaz hissəsidir.

Bu nəcib, humanist hissləri indiki tələbə gənclərə aşılamaqla onların mənəvi dünyasına bir növ işıq tutmuş oluruq. Müstəqilliyini yeni qazanmış Azərbaycan Dövləti üçün mənəviyyatca saf, təmiz, dünyagörüşü zəngin olan Vətəndaşlar yetişdirməliyik. Azərbaycanın gələcəyi bu mənəvi keyfiyyətlərə malik olan gənclərin tərbiyə edilməsindən asılıdır.

Nəticə. Gəldiyimiz nəticə onu deməyə əsas verir ki, təhsilin humanistləşdirilməsi birmənalı olaraq orta ümumtəhsil müəssisələrindən başlamalıdır. Pedaqoji prosesdə müəllimin fəaliyyəti, hərəkəti, davranışı, qarşılıqlı anlaşma və kommunikativ bacarığı, öyrənənlərlə insani münasibəti, rəftarı, eyni zamanda təhsili idarəetmənin humanist məzmun kəsb etməsi tələb olunur.

Problemin aktuallığı. Təlim-tərbiyə proseslərinin təkmilləşdirilməsi, demokratikləşdirilməsi və humanistləşdirilməsi istər ümumtəhsil müəssisələrinin, istərsə də ali təhsil müəssisələrinin pedaqoji kollektivləri qarşısında mühüm vəzifə kimi dayanır. Azərbaycan gəncliyi dərk etməlidir ki, millilik və ümumbəşərilik təhsil sistemimizin əsasında dayanır və onun ayrılmaz hissəsidir, ona görə də mövzu indiki dövr üçün aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılmasına qayğı ilə yanaş-

maq, təlim-tərbiyə prosesinin, seminar, mühazirə məşğələlərinin, auditoriyadankənar tədbirlərin səmərəli keçirilməsinə nail olmaq və milli-mənəvi dəyərlərə əsaslanmaq təhsilin qarşısında mühüm tələblər qoyur ki, bu nəcib, humanist hissləri indiki tələbə gənclərə aşılamaqla onların mənəvi dünyasına bir növ işıq tutmuş oluruq.

Problemin praktik əhəmiyyəti. Humanizm insanın bütün həyatı boyu can atdığı ən müqəddəs mənəvi ideallardan biridir. Müstəqilliyini yeni qazanmış Azərbaycan Dövləti üçün mənəviyyatca saf, təmiz, dünyagörüşü zəngin olan Vətəndaşlar yetişdirməliyik. Azərbaycanın gələcəyi bu mənəvi keyfiyyətlərə malik olan gənclərin tərbiyə edilməsindən asılıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu// 19 iyun 2009-cu ildə qəbul edilmişdir. Bakı, –2010. –79 s.
2. Азадалиева Ш.М. (2015) Основные направления диверсификации и развития высшего педагогического образования в Азербайджане (1921–1991 гг.) // Annales – Analiza Istrske in Mediteranske Študije. Series Historia et Sociologia. – Koper (Slovenia), 2015. – S. 359–368. (Web of Science)
3. Azadaliyeva Sh.M. (2023) The role of Heydar Aliyev in the development of education in Azerbaijan // Proceedings of the 4th International Conference on Humanities and Social Sciences (ICSHRS). – Dubai, April 14–16, –p. 115–120
4. Əhmədov, H.M. XX əsr Azərbaycan məktəbi / H.M. Əhmədov. –Bakı: Maarif, –2000. –362 s.

Redaksiyaya daxil olub: 07.04.2026

UOT 372.3/.4

Хафиз Мамедгусейн оглы Алиев
доцент Бакинского Славянского Университета,
доктор философии по педагогике
https://orcid.org/0009-0005-6564-5437
E-mail: hafiz.eliyev.52@mail.ru

Кенюль Назим гызы Алиева
преподаватель Бакинского Славянского Университета,
доктор философии по филологии
https://orcid.org/009-009-4570-9981
E-mail: kyenul-85@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).56-61

РОЛЬ УЧИТЕЛЯ В РАЗРЕШЕНИИ СПОРНЫХ ВОПРОСОВ И РАЗРЯДКЕ УЧЕБНЫХ СИТУАЦИЙ СРЕДИ МЛАДШЕКЛАССНИКОВ

Hafiz Məmmədhüseyn oğlu Əliyev
Bakı Slavyan Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru

Könül Nazim qızı Əliyeva
Bakı Slavyan Universitetinin müəllimi,
filologiya üzrə fəlsəfə doktoru

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ ARASINDA MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ VƏ TƏLİM SİTUASİYALARININ GƏRGİNLİYİNİN ARADAN QALDIRILMASINDA MÜƏLLİMİN ROLU

Hafiz Magomedhuseyn Aliyev
associate professor at Baku Slavic University,
doctor of philosophy in pedagogy

Kenul Nazim Aliyeva
lecturer at Baku Slavic University,
doctor of philosophy in philology

THE ROLE OF THE TEACHER IN RESOLVING CONFLICT ISSUES AND EASING LEARNING SITUATIONS AMONG PRIMARY SCHOOL STUDENTS

Аннотация. В центре внимания статьи – учитель. Он является главным лицом в учебном процессе и воспитании младшеклассников. Учитель – это прежде всего руководитель детского коллектива, наставник молодёжи. Автором перечислены основные функции урока как главной формы в образовании. Затем осуществлён переход к основным права и обязанностям учителя, которые непосредственно реализуются в деле предотвращения конфликтов. Цель учителя состоит в том, чтобы предупредить их возникновения, а при необходимости не доводить до создания стрессовых ситуаций.

Ключевые слова: *учитель, методика, начальное образование, стадии конфликта, факторы предупреждения стрессов*

Xülasə. Məqalənin mərkəzində müəllim dayanır. O, təlim prosesində və ibtidai sinif şagirdlərinin tərbiyəsində əsas sima kimi təqdim olunur. Müəllim, ilk öncə, uşaq kollektivinin rəhbəri, gənc nəslin tərbiyəçisidir. Təhsildə əsas forma olan dərsin başlıca funksiyaları sadalanır. Daha sonra münaqişələrin qarşısının alınması işində birbaşa həyata keçirilən müəllimin əsas hüquq və vəzifələrinə keçid edilir. Müəllimin məqsədi münaqişələrin yaranmasının qarşısını almaq, zərurət olduqda isə onların stress vəziyyətlərinin formalaşmasına gətirib çıxarmasına yol verməməkdir.

Açar sözlər: *müəllim, metodika, ibtidai təhsil, münaqişənin mərhələləri, stressin qarşısının alınması amilləri*

Abstract. The article focuses on the teacher, presenting them as the key figure in the educational process and the development of elementary school students. A teacher is, first and foremost, a leader of a group of children and a mentor to young people. The article outlines the key functions of the lesson as the primary form of education. It then moves on to the teacher's fundamental rights and responsibilities, which are directly implemented in conflict prevention. The teacher's goal is to prevent conflicts from arising and, if necessary, to avoid creating stressful situations.

Keywords: *teacher, methodology, primary education, stages of conflict, factors of stress prevention*

Человечество перешагнуло второе десятилетие XXI века, и эпоха глобализации с присущими ей колоссальными возможностями налагает на учителей азербайджанских школ большую ответственность за воспитание подрастающего поколения. На их плечи также ложится серьёзная задача по разрешению конфликтов различного рода. То, что это негативное явление, к сожалению, примыкает к реалиям сегодняшнего дня в нашем обществе, ни у кого из трезвомыслящих людей не вызывает сомнений. Следовательно, ведущими азербайджанскими, русскими и европейскими исследователями подчёркнуто, что традиционная триада – рождение, развитие и угасание конфликта в его первой и второй указанных стадиях особенно тяжело проходят у младшеклассников. Понятно, что такое положение дел предъявляет ряд требований к учителям в деле их подготовки по разрешению конфликтов. Тем более на стадии его зарождения в целях недопущения развития тяжёлых стрессовых ситуаций. И как в любом оркестре существует дирижёр, точно также и в учебно-воспитательном процессе в школах у руля должен обязательно стоять руководитель. Осветить роль учителя в этом процессе – главная задача нашей статьи.

Во-первых, учителя должны симптоматично учитывать отдельные моменты из школьной жизни, с которыми впервые пришлось столкнуться малышам. Во-вторых, выяснить для самих себя, на базе каких конкретных событий неожиданно могла возникнуть конфликтная ситуация. В-третьих, любой школьный конфликт – это неизменно срыв в расписании уроков, нарушение привычного ритма работы. За ними, как правило, следуют неприятные разборки в поведении отдельных учеников начальных классов. В-четвёртых, опытный учитель обязан внимательно изучить морально-психологический климат в начальных классах.

Одной из задач учителя на современном этапе в обозначенном нами направлении является снятие скованности в поведении ребенка. Этот сугубо психологический момент не менее важнее, чем методический, то есть поиска всевозможных форм, средств, методов или приёмов в деле разрешения конфликтных ситуаций. Так, замечено, что в школьной практике среди младшеклассников встречаются такие случаи, когда один учащийся чувствует себя явно скованно, неуверенно перед другим. Такой ученик по вполне понятным причинам боится брать инициативу «в свои руки», не стремится лишний раз задавать вопросы, высказывать собственные точки зрения. И это при том условии, что он в своей среде может быть «хорошистом» или даже «отличником». Но такие ученики, как правило, несмотря на достаточно высокий для своего детского возраста уровень, чувствительны к интеллекту других, могут даже завидовать силе или эмоциональности партнеров. Иногда учащиеся позволяют себя сбить с толку, теряются в несложных ситуа-

циях. Отсутствие эмоциональной разрядки – это инвестиции в сплочённость коллектива и, следовательно, психологический барьер конфликту.

Какова же роль учителя в разруливании такой ситуации? Попробуем разобраться. Именно он обязан выбрать нужные в каждом конкретном случае наиболее удачные и благоприятные формы, способы и приёмы в разрешении конфликтов. Обобщая суждения ведущих методистов, возьмём на себя смелость дать несколько рекомендаций. Прежде всего, опытный учитель должен изучить различные типы поведения детей. Это может быть мобильный тип, ригидный, экстравертный и интровертный – соответственно. Каждый из этих типов представляет собой отдельный объект сугубо психологического (или психиатрического) исследования, что, понятно, выходит за рамки нашей работы. Поэтому нам важно подчеркнуть, что в целях предотвращения любого нарастающего конфликта в школе среди младшеклассников учитель сам должен хорошо изучить главные черты и параметры разных типов поведения. Об этом имеется большая специальная литература.

По нашему твёрдому мнению, характерным признаком основательной профессиональной подготовленности учителя к грамотному управлению конфликтами могут, к примеру, выступать некоторые компетенции. В целом и общем, как верно подчёркивает И.В. Рахманов, в современном начальном образовании в Азербайджане они характеризуются такими признаками, как «справедливость, идейность, открытость, наблюдательность, честность, доброжелательность, прямота суждений, выдержка, воля, самообладание, терпимость к нарушениям школьного распорядка, то есть режима, объективность, самоконтроль, интуиция, наконец, профессионализм» [2, 35-36].

Интересное перечисление признаков, препятствующих возникновению или разжиганию конфликтов в школах. Если учитель наших дней уделяет этим признакам и качествам характера внимание, то он, конечно же, прокладывает себе путь к ликвидации любых конфликтов. Чаще всего опытный учитель младших классов активно взаимодействует с учениками путем разрешения различных педагогических ситуаций. Перед ним периодически достаточно чётко и основательно встаёт задача управления работоспособностью своих учеников. При её выполнении учитель должен уметь вовремя поставить себя на их место, стилизовать их рассуждения. А для этого перед возникновением конфликтов в среде младшеклассников учителю прежде всего следует ясно осознавать, как его ученики воспринимают данную ситуацию и по какой причине он поступил именно так, а не иначе.

В современной методической и педагогической литературе, в том числе и в азербайджанской, немало пишут и говорят об ответственности учителей за правильное решение конфликтных ситуаций, за их грамотное выруливание. Что же они собою представляют? Поясним. Среди некоторых младшеклассников нередко возникает такая типологическая ситуация, при которой взаимодействие субъекта и объекта, то есть в нашем случае ученика и учителя разворачивается на фоне потребностей детей элементарно находиться рядом со своим учителем. Чаще всего это происходить по той причине, что ребёнок, в первую очередь, видит в нём духовного наставника. Ведь дети – младшеклассники раскрыты для учителей, и в отличие от старшеклассников, они реже подвержены конфликтным педагогическим ситуациям (в сущности, дело до этого открытого противостояния просто чаще не доходит). А если конфликт всё же неизбежен, то в его основе лежит страсть учащихся лишний раз привлечь к себе внимание учителей. И это, по нашему убеждению, никоим образом нельзя рассматривать как выраженный эгоизм; напротив вполне естественное желание детей. В таком ключе к наиболее значимым особенностям детского возраста отнесём слабый контроль ребят над своими действиями. Это прежде всего выражается в неосознанных реакциях на ряд возникших ситуаций, порою в форме неожиданных даже для самих детей поступков, как-то: плач, обида, недопонимание, зависть, но иногда, правда, и восторг.

Вот все эти оттенки настроений должен чутко улавливать опытный классный настав-

ник. Скажем конкретнее: личность учителя в педагогическом процессе при разрешении разного рода спорных моментов, конечно же, играет очень большую роль. Правильно на этот счёт подчёркивал академик Л.С. Выготский: «Руководителю класса надо знать не только тех детей, которые испытывают определённые трудности в общении и адаптации, но также и тех, кто как бы на интуитивном уровне чувствует скрытую враждебность» [1, 201-202]. Из слов выдающегося учёного прошлых лет тем не менее ясно следует, что невнимание к таким сложностям со стороны учителя может обернуться серьёзным фиаско. От мелочных обид у малышей нить протянется к открытой неприязни. Это уже есть кратчайший путь к возникновению и разжиганию конфликтов. Так что большая ответственность учителей за порученное дело – их первостепенная задача.

Очень важно помнить учителям азербайджанских школ, что у детей возрастные и индивидуально-психологические особенности между собою тесно взаимосвязаны, находятся в постоянном движении и изменении. Это и обязывает учителя наших дней пристально следить за постоянным развитием каждого школьника, формированием его культуры и дисциплинированности в поведении. Знание этих основ, безусловно, поможет учителю отбирать более удачные способы педагогического воздействия и на отдельных учащихся, и на детский коллектив.

Но чтобы лучше разобраться в этом вопросе, нам следует временно вернуться к мысли, высказанной нами ранее, о важности профессиональной подготовки учителя начальных классов. Например, в школе (с учащимися I по IV классы) часто можно столкнуться со следующими обстоятельствами. Начинающий учитель нередко представляет себе методику привития детям основ культуры поведения и сознательной дисциплины для младше-классников как специфический набор педагогических приемов, знание которых обеспечивает твёрдый успех. Но оказывается, такой искусственный набор признаков не спасает существа дела.

Отметим и такой весьма существенный, на наш взгляд, факт. С сожалением вынуждены сегодня констатировать, что некоторые педагоги в азербайджанских школах по старинке пользуется учебниками и учебными пособиями, написанными, главным образом, в советское время. Большинство из них создавалось коллективом российских учёных, педагогов, психологов, языковедов, литераторов, историков, теоретиков-методистов. Этому есть разумное объяснение. Данное положение подтверждается целым рядом работ азербайджанских учёных. В их трудах многократно подчёркивается, что азербайджанская культура в целом органично вобрала в себя культуру фактически всех бывших союзных республик и настоящий процесс порою приобретал масштабный характер.

Даже краткий обзор этой специальной педагогической и методической литературы выходит за рамки нашей статьи. Нам важно указать, что в любом случае всё отмеченное упирается в грамотность учителей, в их подлинный профессионализм. Поэтому при хорошо отлаженной работе, психологически собранном и здоровом коллективе и молодой, начинающий учитель вскоре обретает уверенность и достигает определённых успехов, если он знает своё дело и достаточно добросовестно к нему относится. Далее, как показывает репродуктивный опыт лучших современных бакинских школ, большой успех воспитания сознательной дисциплины, культуры поведения в целом в целях предотвращения конфликтов в детской среде обеспечивается при соблюдении нескольких педагогических условий. Отметим, на наш взгляд, наиболее существенные: дружного педагогического и ученического коллективов; гуманистического стиля отношений в школьной жизни; чёткого единого распорядка в школе; высокого авторитета каждого учителя; неукоснительного соблюдения эргономических условий.

Настоящий профессионализм учителя в деле предотвращения детских конфликтов проявляется не только в том, чтобы соблюдать эти условия, как говорится, на бумаге, в официально-циркулярном порядке. Наставник молодёжи в первую очередь обязан предварительно обсуждать их по частям в разных аудиториях: с активом учащихся и с другими учителями, своими коллегами, а также техническими служащими и с активом родителей.

Само собой разумеется, что могут иногда возникнуть и споры по тому или иному положению. В расчёт принимается, скорее, лишь та формулировка, которая устраивает всех.

Убеждены, что диалоги опытных учителей с родителями всегда должны проходить миролюбиво, носить толерантный характер. По нашему мнению, в начале учебного года по утверждённой учебной программе для начальных классов азербайджанских школ «Единые требования» лучше всего обсудить на педагогическом совете школы, а затем уже его и принять как школьный нормативный документ.

С какой целью разрабатываются эти документы? Прежде всего укажем на то, что с введением чёткого режима школьной жизни дисциплина повышается. Так, заметно сокращаются опоздания в школу, постепенно уходят на убыль прогулы, исчезают в среде младше-классников лишние крики и беготня в коридорах. Лишь на первый взгляд это может показаться малозначительным. На самом деле фактор важный для этого раннего возраста. Надо непременно помнить: как театр начинается с вешалки, так и дисциплина начинается со спокойной обстановки в холле школ.

Следующий разумный шаг со стороны учителей – это правильное распределение прав и обязанностей младшеклассников. Нередко от учителей можно слышать такой справедливый упрёк, что малыши хорошо знают о собственных правах (и, между прочим, заявляют о них), но, как правило, плохо осведомлены о своих прямых обязанностях в школе. Жизнь, как говорится, берёт своё. Ещё К. Чуковский мудро предупреждал что к малым детям нужно относиться порою и как к взрослым, уважая их мнение. Великий детский писатель любил повторять: «В беседах с детьми следует не столько опускаться до их уровня, чуть ли не до лепета, сколько поднимать их сознание до своего – взрослого» [3, 55-56]. Поэтому, вводя единые требования, опытные учителя, как правило, не стремятся только к запретам. В единых требованиях надо в первую очередь видеть оптимальные условия для достижения поставленных целей: борьба за высокое качество знаний и максимальное своевременное снятие конфликтов.

В некоторых начальных азербайджанских школах на современном этапе истории в борьбу за сознательную дисциплину учителя включают старые добрые традиции. Не всё, конечно же, из классического советского наследия следует безвозвратно выбросить «за борт». Можно при этом, как говорится, «с водой выплеснуть и живого ребёнка». Так, в некоторых национальных школах возрождается популярный журнал конца XX столетия «Хочу все знать». В Азербайджане также и в наши дни младше-классники перед началом занятий поют гимн республики, во многих школах сохраняется отчасти также и церемония первого звонка для первоклассников, последнего звонка для выпускников и т. д.

В отдалённые от нас 1970-80-ые годы бытовало сомнительное мнение, что сознательную дисциплину внедряют в практику исключительно педагоги со «стажем». Конечно, никто не имеет морального права оспаривать значение репродуктивно накопленного опыта. В то же самое время надо уделять больше внимания и молодым учителям. Они порою не хуже, но напротив, острее понимают проблемы младшеклассников, чем отдельные пожилые учителя. Всё зависит от подходов к детям начальных классов. Следовательно, и конфликтов в школе будет меньше.

Наша статья была бы неполной, если бы мы не сказали несколько слов о типичных ошибках учителей при разрешении конфликтных ситуаций. Так, объективно рассуждая, профессионализм учителей, уровень их IQ всё же различен. Пусть редко, но всё-таки случаются на практике такие их действия, которые идут вразрез с интересами детей. Обычно конфликт складывается из того печального, но при этом вполне естественного в стенах начальной школы обстоятельства, когда младше-классники плохо успевают по конкретным предметам. Таких детей учителя называют «трудными». Не секрет, что в ряде школ Азербайджана у педагогов, что называется, «руки не доходят» лишний раз пообщаться с такими детьми. Действуют рецидивы бывшей советской школы переломных 1990-х годов, в которой иной раз огромное значение придавалось количественным показателям в ущерб качеству. Отрадно, что с этим негативизмом бо-

рются в Азербайджане. Реформирование школьной системы в XXI столетии в нашей республике также ориентирует передовых учителей на проявление к таким «трудным» детям дополнительного внимания. Корректное обращение с такими детьми прежде всего упирается в вопрос подготовки учителя, которая предполагает сформированность системы знаний и умений в области конфликтологии, равно как установления индивидуально-педагогического стиля поведения, развития культуры мышления педагога в сфере разрешения возникающих конфликтов между субъектами.

Заключение. Таким образом, роль учителя в разрешении спорных вопросов и предупреждении конфликтных ситуаций среди младшеклассников в современных условиях значительно возрастает. Именно учитель выступает не только организатором учебного процесса, но и тонким психологом, наставником, посредником в межличностных отношениях детей. От его профессиональной подготовки, педагогического такта, умения учитывать возрастные и индивидуальные особенности учащихся во многом зависит создание благоприятного морально-психологического климата в начальных классах.

Научная новизна проблемы заключается в комплексном рассмотрении роли учителя начальных классов в предупреждении и разрешении конфликтных ситуаций среди младшеклассников в условиях современной азербайджанской школы.

Актуальность проблемы обусловлена возрастающей необходимостью совершенствования психолого-педагогической работы по предупреждению и разрешению конфликтных ситуаций среди учащихся начальных классов в современных условиях развития системы образования.

Практическая значимость проблемы. Результаты исследования могут быть использованы при разработке учебно-методических пособий, программ повышения квалификации учителей, а также в преподавании дисциплин педагогического и психологического цикла в высших учебных заведениях.

Литература

1. Выготский, Л.С. Детская психология [Электронный ресурс]: Собрание сочинений в 6 томах. Т 4. Москва: Говорящая книга, – 2004. – 433 с.
2. Рахманов, И.В. Методика и языкознание // Иностранные языки в школе, –1953, № 1, – с 30-41.
3. Чуковский, К.И. От двух до пяти / –М.: Детская литература, –1979. – 238 с.
4. Шейнов, В.П. Управление конфликтами /– Москва: Питер, –2014. – 576 с.
5. Məmmədova, S.M. İbtidai siniflərdə psixoloji mühitin formalaşdırılması // S.M. Məmmədova. –Bakı: Müəllim, –2020. –224 s.
6. Vəliyev, İ.H. Təlim-tərbiyə prosesində konfliktlərin idarə olunması // İ.H. Vəliyev. –Bakı: Elm, –2017. – 184 s.
7. Козырева, О.А. Педагогическая конфликтология // О.А. Козырева. –Москва: Академия, –2015. – 240 с.
8. Kozaner, Ç., Ölçer S., Erdem Y. Teaching social skills in primary school: an action research // Education and Science. – 2025, 50(223), –p. 27-54.
9. Şekerci, H. Use of Evidence-Based Activities within the Scope of Authentic Learning Approach in Primary School Social Studies Lesson // Education and Science, – 2021, 46(207), – p. 85-125. https://educationandscience.ted.org.tr/article/view/1983

Redaksiyaya daxil olub: 17.06.2026

UOT 372.3/.4

Şəhla Zal qızı Süleymanova
Naxçıvan Müəllimlər İnstitutunun dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2499-7197
E-mail: shahla.suleymanova@bk.ru
https://doi.org/10.69682/arti.2026.93(4).62-65

BƏDİİ YARADICILIQ QABİLİYYƏTİ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ESTETİK TƏRBİYƏSİNDƏ MÜHÜM AMİL KİMİ

Shahla Zal Suleymanova
associate professor at Nakhchivan Teachers' Institute,
doctor of philosophy in pedagogy

ARTISTIC CREATIVITY AS AN IMPORTANT FACTOR IN THE AESTHETIC EDUCATION OF PRIMARY SCHOOL STUDENTS

Шахла Зал гызы Сулейманова
доцент Нахчыванского Института Учителей,
доктор философии по педагогике

ХУДОЖЕСТВЕННО-ТВОРЧЕСКИЕ СПОСОБНОСТИ КАК ВАЖНЫЙ ФАКТОР ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

Xülasə. Məqalədə ibtidai sinif şagirdlərində bədii yaradıcılığın inkişafı probleminin öyrənilməsinin aktuallığı ortaya qoyulur, onlarda yaradıcılığın inkişaf səviyyələrini müəyyən etmək üçün müəyyən səmərəli yollar təqdim edilir, uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün ailənin, məktəbin üzərinə düşən öhdəliklər göstərilir. Həmçinin bədii yaradıcılıq qabiliyyətinin estetik tərbiyənin inkişafında mühüm əhəmiyyəti təhlil edilir.
Açar sözlər: *estetik tərbiyə, məktəb, ailə, şagird, bədii yaradıcılıq, ibtidai sinif*

Abstract. The article highlights the relevance of studying the problem of developing artistic creativity in primary school students. It presents effective methods to determine the levels of creativity in children and outlines the responsibilities of both the family and school in fostering artistic creativity. The article also analyzes the significant role of artistic creativity in the development of aesthetic education.
Keywords: *aesthetic education, school, family, student, artistic creativity, primary school*

Аннотация. В статье раскрывается актуальность изучения проблемы развития художественного творчества у учащихся начальных классов, предлагаются эффективные методы определения уровней развития творческих способностей у детей, а также обозначаются обязанности семьи и школы по развитию художественных способностей детей. Кроме того, анализируется важное значение художественного творчества в развитии эстетического воспитания.
Ключевые слова: *эстетическое воспитание, школа, семья, ученик, художественное творчество, начальные классы*

İbtidai sinif şagirdlərinin estetik inkişafı, onların yaradıcı təfəkkürünün, təxəyyülünün, qabiliyyətlərinin formalaşması müəyyən mənada şəxsiyyət yetişdirməkdə əsas məqamlardan biridir. Bir insanın hərtərəfli yetişməsində təlim dövrü çox mühüm rol oynayır. Xüsusilə də 6-10 yaş dövrü kiçik məktəblinin həyatında əhəmiyyətli dönüş yaradır. Həmçinin ibtidai sinifdə

keçirilən fənlərin tədrisi buna çox imkanlar ortaya qoyur. Təlim dövründə həm öyrənib, həm də tətbiq etmək önəmlidir. Əsasən də şagirdlərin bədii yaradıcılığını inkişaf etdirən bu fənlər müəllimlərin rəhbərliyi altında müsbət nəticələnə bilər. Müəllim bu prosesdə istiqamətləndirici olmalı və dəstək göstərməlidir. Bu proses fənlərə, mövzulara uyğun həyata keçirilməlidir. Bu zaman fənlərin tədrisində mövzuların öyrədici tərəfi ilə yanaşı, mənimsənilə bilən, bacarığa yönələn istiqamətləri dəyərləndirmək lazımdır. Həmçinin, interaktiv dərs metodları, layihə əsaslı öyrənmə, multimediya və texnologiyadan istifadə, oyunlar vasitəsilə bədii yaradıcılığı stimullaşdırmaq olar. Məs. Şagirdlərə müəyyən mövzular verərək, o mövzulara uyğun rəsm, musiqi və s. əsərini yaratmaları tapşırıla bilər. Musiqi vasitəsilə rəsm çəkmək kimi fəaliyyətlər təşkil oluna bilər. Dinlənilən musiqinin insanda yaratdığı duyğulara əsasən rəsm əsərinin ortaya çıxmasını görmək olar. İbtidai sinif şagirdlərinin bədii yaradıcılığının üzə çıxmasına yönələn bu fəaliyyətlər onların yaş və fərdi xüsusiyyətlərinə uyğun olmalıdır. Vizual, eşitmə və hərəkət əsaslı fəaliyyətlər göz önündə saxlanımalıdır.

Bədii yaradıcılıq şagirdlərdə duyğu və estetik zövqün incəliyini aşılayır. Şagirdlər gözəlliyə qarşı həssas olur, daxili dünyalarında olan zərifliyi göstərə bilirlər. Onlarda empatiya formalaşır, təşəbbüskar olurlar. Mənəvi dəyərlərə qarşı həssaslıq nümayiş etdirirlər, yüksək mənəvi keyfiyyətlərə malik olurlar, zövqləri formalaşır. Elmi – pedaqoji ədəbiyyatın təhlili də bu barədə müəyyən fikirlər formalaşdırır.

Estetik tərbiyə elmi – pedaqoji ədəbiyyatlarda insanda estetik hisslərin, zövqün və bədii mühakimənin təşəkkül tapıb möhkəmlənməsinə səbəb olan (3, s. 209), incəsənət və həyatdakı gözəlliklərin qavranmasına, estetik zövq və qabiliyyətlərin inkişafına yönələn təsirlərin məcmusu kimi, (4, s. 305), estetika bir elm kimi tərbiyədə, ictimai həyatda və insan fəaliyyətində hadisələrin inkişafının estetik mahiyyət və qanunauyğunlunu öyrənən (8, s. 443), estetik tərbiyə insanların fərdi davranış və fəaliyyətində, həmçinin cəmiyyətdə, təbiətdə və incəsənətdə olan gözəlliklərin təmkinlə duyulması, şüurlu qavranılması və düzgün qiymətləndirilməsi bacarığının inkişaf etdirilməsi, formalaşdırılması və vərdişlərə çevrilməsi prosesi kimi (9, s. 490) xarakterizə edilmişdir. Estetik təhsil isə, bir şeyin gözəl tərəfini görməyi deyil, bir şeyin artıq mövcud olan gözəlliyini görməyi hədəfləyir (6, s. 259), estetik tərbiyə gözəllik hisslərini oyadır və tərbiyə edir (7, s. 371), estetik tərbiyə insanda, həyatda, təbiətdə, incəsənətdə gözəllik və ülviliyi görmək, duymaq, qavramaq, düzgün başa düşmək, sevmək, qiymətləndirmək, yaratmaq bacarığının əldə olunmasına və təkmilləşdirilməsinə yönəlmiş tədbirlər sistemidir (1, s. 299).

Estetik tərbiyə aşağıdakılara yönəldilmiş müəyyən məqsəd və vəzifələri ehtiva edir:

- qavrayışın inkişafı (gözəlliyi onun hər hansı təzahürlərində: təbiətdə, incəsənətdə, insanlar arasında münasibətlərdə görmək qabiliyyətinin inkişafı);
- hisslərin inkişafı (emosional səviyyədə gözəlliyin qiymətləndirilməsi);
- ehtiyacların ödənilməsi (təfəkkür, təhlil və gözəlliyin yaradılması yolu ilə estetik təcrübələr almaq istəyi və ehtiyacı);
- zövqlərin formalaşması (ətraf aləmin təzahürlərini onun estetik norma və ideallara uyğunluğu baxımından qiymətləndirmək və təhlil etmək bacarığı);
- idealların təsdiqi (ətrafdakı dünyadakı gözəllər, insan, sənət haqqında şəxsi fikirlər).

Estetik tərbiyənin yollarından biri də ailədə olmalıdır. Bu deyilənlərdən yol alsaq deyə bilərik ki, insanın ilk formalaşmağa başladığı mühit ailəsi olduğundan valideynlərin bu barədə rolu danılmazdır. Valideynlər uşaqlarda zövq və təfəkkürün inkişafı üçün onlara şans verməlidirlər. Məsələn, geyim və ya otaq bəzəyi seçərkən uşaqların fərdi zövqlərini nəzərə alaraq onlara müxtəlif seçimlər təklif edə bilərlər. Həmçinin, evdə hər hansı dizayn işləri varsa onların fikrini də ala bilərlər. Həmçinin uşaqlarda bədii yaradıcılıq qabiliyyətinin olub – olmamasını da yoxlaya bilərlər, uşaqlarda bədii istedadın olmasını müşahidə edirlərsə onlarla məşğul olmalıdırlar. Əgər uşaq tədris prosesində, fərdi yaradıcılığı zamanı qeyri-adi uğurlar qazanırsa, öz yaşıdlarından fərqlənirsə, deməli, o, istedadlıdır (10, s. 106). Həmçinin onlara fərqli zövqlərin, fərqli mədəniyyətlərin mövcudluğu barədə məlumat verilərək onlarda empatiya hissinin güclənməsinə şərait yarada bilərlər.

Estetik tərbiyə həm də daxilən insan hisslərinin başa düşülməsi, onlarda olan duyğuların ifadəsidir. Bununla insan emosional, zehni

cəhətdən inkişaf edir, stimul olunur. Məsələn, rəsm və musiqi kimi fəaliyyətlər uşağın hisslərini ifadə etməyə kömək edir. Uşaqlar ailədə estetik və zövq anlayışının sadəcə görmə qabiliyyəti ilə məhdudlaşmadığını, həyatın hər sahəsində gözəlliyi tapmağa yönəlmələri lazım olduğunu öyrənməlidirlər. Ailədə gözəllik tərbiyəsi, uşaqların həyatında sağlam zehniyyət və yüksək estetik hissiyyatın formalaşmasına kömək edir. Uşaqların şəxsi və sosial inkişafında estetik qiymətləndirmənin də rolu əvəzsizdir. Görkəmli pedaqoq V. A. Suxomlinski yazırdı: "Uşaqlar gözəllik, oyunlar, nağıllar, musiqi, rəsm, fantaziya, yaradıcılıq dünyasında yaşamalıdırlar".

Uşağın estetik zövqünü inkişaf etdirmək üçün aşağıdakılar lazımdır:

1. Uşaqda müşahidə etmək, görmək, araşdırmaq, gördükləri barədə ağlabatan məlumat vermək bacarığını inkişaf etdirmək. (Məsələn, yarpaqlara diqqət yetirin, payızda tünd qırmızı, ağcaqayın yarpaqları qızılı olur və s.)

2. Uşağı sistemli şəkildə müşahidələr aparmağa, obyektlərin formasının, quruluşunun və rənginin xarakterik xüsusiyyətlərini, ona yaxşı məlum olan digər obyektlərlə fərqlərini və oxşarlıqlarını mümkün qədər başa düşməyə təşviq etmək.

3. Uşaqların diqqətini özəlliklərə: ətrafdakı ayrı-ayrı tikililərin gözəlliyinə, onların fərqliliyinə, təşkil olunan bayram tədbirlərinin parlaqlığına və orada istifadə olunan detalların rənginə cəlb etmək:

4. Uşağın gündəlik həyatda istifadə etdiyi əşyaları zövqlə seçmək. Məsələn, istifadə etdiyi fincanın rəng və naxış baxımından gözəl olduğunu bilmək uşağın onunla daha diqqətli davranmasına səbəb olur.

5. Uşağa məzmun və məqsəd baxımından oxşar bir neçə şey arasından ən çox bəyəndiyi şeyi seçmək hüququ vermək.

Bu istiqamətdə görüləcək işlər məktəblərdə müsbət geri dönüşlər yarada bilər. Çünki, incəsənət yaradıcılığa təşviq edir, problem həll etmə bacarıqlarını təkmilləşdirir, emosional zəkanın inkişafına təkan verir, estetik qavrayışı artırır, mədəni şüuru artırır və sosial bacarıqları təkmilləşdirir. Həm də uşaqlar müəyyən qaydalara və standartlara riayət etməklə yaratmağı öyrənir. Buna görə uşaq istədiyi şəkildə deyil, düzgün şəkildə rəsm çəkməyə, heykəltəraşlıq etməyə və ya sənətkarlıq etməyə çalışacaq. Beləliklə, incəsənətlə məşğul olan uşağın orijinal düşüncə qazanır və tənqidi düşünmə bacarıqları formalaşır.

Uşaqlarda incəsənətə maraq iki yolla yarana bilər. İlk növbədə uşağın xüsusi istedadına uyğun rəssam kimi yetişdirilməsindən, bədii fəaliyyətlə intensiv maraqlanmasından, fəaliyyətlə bağlı dərslər keçməsindən danışmaq olar. Belə bir təcrübə üçün uşağın nə ilə maraqlandığı müəyyən edilməlidir. Çünki sənətkar olmaq uzun və tələbkar bir yoldur.

İkinci yol, fəaliyyət vasitəsilə uşağın həyatında incəsənətin olmasıdır. Rəsm, musiqi, rəqs və teatr kimi fəaliyyətlər uşağın dünyasına böyük töhfə verir. Bu fəaliyyətlər uşağa aşağıdakı keyfiyyətləri qazanmağa imkan verir: özünü tanımağa kömək edir, təxəyyül dünyasını inkişaf etdirir, duyğularını asanlıqla ifadə etməyə imkan verir, fərqli perspektivləri inkişaf etdirməyə kömək edir, bədənə, ağıl və ruh sağlamlığına müsbət təsir göstərir, müsbət özünü dərk etməyə imkan verir, özünə inamı artırır, sosial bacarıqları təkmilləşdirir, emosional zəkanı qidalandırır, məktəbdə təlimdə uğura müsbət təsir göstərir, güclü şəxsiyyətin inkişafına kömək edir.

Uşaqların yaradıcı və məhsuldar olmasının birinci şərti onların sərbəst olması, ixtiyarında olan alətlərdən çəkinmədən və qorxmadan istifadə edə bilmələridir. Vuk (11) qeyd edir ki, incəsənət təhsili şagirdlərdə yaradıcı düşüncə və problemlərə yaradıcı yanaşma qabiliyyətini inkişaf etdirir. Yaradıcılıq, yaradıcı təfəkkür, incəsənət təhsili və onların faydaları barədə valideynlərə və pedaqoqlara məlumat verilməsi, təhsilin bütün pillələrində bədii təhsilə önəm verilməsi, uşaqları əzbərçilikdən xilas etmək, uşaqların maraq və qabiliyyətlərinə uyğun proqramlar hazırlamaq, valideynlər və pedaqoqların birgə işləməsi tövsiyə oluna bilər. Yaradıcılığı fəallaşdırmaq üçün ilk addım şagirdin yaradıcı qabiliyyətlərini kəşf etmək və bu sahə üzrə onu inkişaf etdirməkdən başlayır (2, s.163).

Bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması şagirdlərə sərbəst ifadə imkanları yaratmaqla yanaşı, onların estetik zövqünün, estetik mədəniyyətinin inkişafına da töhfə verir. Burada azad ifadənin necə təşviq edildiyini başa düşmək bizə bu sahənin əhəmiyyətini daha yaxşı anlamağa kömək edir. Estetik tərbiyənin inkişafında şagirdlərin bədii yaradıcılığının inkişafı, onların istedadlarının inkişafı yönündə təşviqi əhəmiyyətli nəticələr almağa şərait yaradır.

Müasir dövrdə istedad və yaradıcılıq potensialı cəmiyyətin milli sərvəti və strateji ehtiyatıdır. Bu potensialın aşkarlanaraq dəstəklənməsi, inkişaf etdirilib səmərəli şəkildə cəmiyyətin xeyrinə gerçəkləşdirilməsi hər bir müstəqil dövlətin milli strateji probleminə çevrilmişdir (5, s. 95).

Problemin aktuallığı. hazırkı təhsil islahatları çərçivəsində yaradıcı yanaşmaların, fəaliyyətə dayanan tədrisin təşviqi mövzunun aktuallığını göstərir. İbtidai təhsil təkcə bilik verməklə kifayətlənməməli, həm də şagirdlərin estetik tərbiyəsini, yaradıcı təfəkkürünü inkişaf etdirməlidir. Bədii yaradıcılıq qabiliyyətinin inkişafı bu məqsədə nail olmaq üçün mühüm vasitədir.

Problemin elmi yeniliyi. məqalədə bədii yaradıcılıq və estetik inkişaf arasında əlaqə təhlil olunmuşdur. Yaradıcı təfəkkürün inkişaf etdirilməsi baxımından bədii yaradıcılığın istedadlı şagirdlərin inkişafındakı rolu ilə bağlı yeni yanaşmalar göstərilmişdir.

Problemin praktik əhəmiyyəti. kiçik məktəbyaşlı şagirdlərin estetik inkişafına istiqamətlənmiş tədris prosesində bədii yaradıcılıq qabiliyyətinin inkişafı yönündə səmərəli yolların tətbiqi müəllimlər tərəfindən istifadə oluna bilər.

Ədəbiyyat

1. Abbasov, A. Pedaqogika / A. Abbasov. – Bakı: Mütərcim, – 2013. – 360 s.
2. Abdullayeva, K. Elmi-pedaqoji ədəbiyyatlarda şagirdlərin yaradıcı müstəqil işinin təşkili məsələləri. Scientific Works of the Institute of Education of the Republic of Azerbaijan, 2025, 92(5), s. 162–167.
3. Əliyev, İ. Pedaqogika / İ. Əliyev. – Naxçıvan: Əcəmi, – 2017. – 280 s.
4. İbrahimov, F.N. Pedaqogika. Dərslik: [2 cilddə] / F.N. İbrahimov, R.L. Hüseynzadə. – Bakı: Mütərcim, – c. 2. – 2012. – 548 s.
5. Mirzəzadə, V. İstedadlı uşaqların inkişaf etdirilməsi təlimin önəmli vəzifələrindən biri kimi. Scientific Works of the Institute of Education of the Republic of Azerbaijan, 2022, 89(6), s. 94–100.
6. Özbal, N., & Aydoğan, İ. (2017). Eğitimde estetiğin gerekliliği ve oluşumu üzerine bir inceleme. Kırıkkale Üniversitesi Sosyal Bilimler Dergisi, 7(2), 249–260.
7. Paşayev, Ə.X. Pedaqogika. Yeni kurs. Pedaqoji institutların və ali məktəblərin tələbləri üçün dərs vəsaiti / Ə.X. Paşayev, F.A. Rüstəmov. – Bakı: Çaşıoğlu, – 2002. – 512 s.
8. Qasımova, L.N. Pedaqogika. Mühazirə kursu / L.N. Qasımova, R.M. Mahmudova. – Bakı: BDU, – 2003. – 535 s.
9. Sadıqov, F. Pedaqogika. Dərs vəsaiti / F. Sadıqov. – Bakı: Adiloğlu, – 2009. – 600 s.
10. Səfərova, E., Pəniyeva, S. İstedadlı şagirdlərlə işin təşkili // Scientific Works of the Institute of Education of the Republic of Azerbaijan, 2024, 91(2), s. 105–108.
11. Vuk, Sonja. (2023). Development of creativity in elementary school. Journal of Creativity. 33. 100055. 10.1016/j.yjoc.2023.100055.

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 372.3/.4

Səbinə Həmzə qızı Seyidli
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0006-1552-7499
E-mai:sabinasq77@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).66-70

İNKİŞAFETDİRİCİ TƏLİMİN İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ MÜSTƏQİLLİYİN FORMALAŞMASINDA ROLU

Sabina Hamza Seyidly
doctorial student in the program of doctor of philosophy
of Azerbaijan State Pedagogical University

THE ROLE OF DEVELOPMENTAL LEARNING IN DEVELOPING INDEPENDENCE IN PRIMARY SCHOOL STUDENTS

Сабина Хамза гызы Сеидли
докторант по программе доктора философии
Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ В ФОРМИРОВАНИИ САМОСТОЯТЕЛЬНОСТИ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

Xülasə. Məqalədə ibtidai siniflərdə riyaziyyat təliminin inkişafetdirici əsaslar üzərində təşkili və bu prosesdə şagird müstəqilliyinin formalaşdırılması məsələləri araşdırılır. Tədqiqatda inkişafetdirici təlimin mahiyyəti, onun ənənəvi təlim sistemindən fərqli cəhətləri və kiçik yaşlı məktəblilərin idrak fəallığının inkişafına təsiri təhlil olunur. Müəllif qeyd edir ki, inkişafetdirici təlim şagirdləri hazır biliklərin passiv mənimsənilməsindən uzaqlaşdıraraq onları axtarış fəaliyyətinə, problem situasiyalarının həllinə və müstəqil nəticə çıxarmağa istiqamətləndirir. Riyaziyyat təliminde kəmiyyət anlayışının formalaşdırılması, ədəd anlayışının mərhələli şəkildə mənimsədilməsi, mətn məsələlərinin analizi və həndəsi materialların öyrədilməsi prosesində şagirdlərin məntiqi təfəkkürünün inkişafı mühüm amil kimi dəyərləndirilir.
Açar sözlər: *inkişafetdirici təlim, ibtidai təhsil, riyaziyyat təlimi, müstəqil təfəkkür, idrak fəallığı, nəzəri biliklər, riyazi inkişaf*

Abstract. This article examines the organization of mathematics education in elementary grades based on developmental principles and the development of student independence in this process. It analyzes the essence of developmental education, its differences from the traditional education system, and its impact on the development of cognitive activity in primary school students. The author notes that developmental education distracts students from the passive assimilation of existing knowledge and directs them toward research activities, solving problem situations, and formulating independent conclusions. Important factors in mathematical education include the development of the concept of quantity, the gradual assimilation of the concept of numbers, the analysis of word problems, and the development of students' logical thinking during the learning of geometric material.
Keywords: *developmental education, primary education, mathematics education, independent thinking, cognitive activity, theoretical knowledge, mathematical development*

Аннотация. В статье рассматриваются вопросы организации математического образования в начальных классах на основе развивающих принципов и формирования самостоятельности учащихся в этом процессе. Анализируется сущность развивающего образования, его отличия от традиционной системы образования и влияние на развитие познавательной деятельности младших школьников.

Автор отмечает, что развивающее образование отвлекает учащихся от пассивного усвоения готовых знаний и направляет их к поисковой деятельности, решению проблемных ситуаций и формулированию самостоятельных выводов. В математическом образовании важными факторами считаются формирование понятия количества, постепенное усвоение понятия чисел, анализ текстовых задач и развитие логического мышления учащихся в процессе обучения геометрическому материалу. Кроме того, использование буквенных и пространственно-графических моделей способствует развитию абстрактного мышления у детей и осознанному усвоению знаний.

Ключевые слова: *развивающее образование, начальное образование, математическое образование, самостоятельное мышление, познавательная деятельность, теоретические знания, математическое развитие*

İbtidai riyaziyyat təhsilinin yeniləndirilməsi prosesinin başlanması hələ keçmiş sovetlər məkanında 50-ci illərin sonu 60-cı illərin əvvəlinə təsadüf edir. Məhz həmin illərdə ibtidai siniflərdə riyaziyyat dərslərinin intensivliyinin yüksəldilməsi yollarının fəal surətdə axtarışına başlanıldı və bu axtarışlar əsasən şagirdlərin idrak fəaliyyətinin fəallaşmasına və əsasən də onlarda müstəqil fikirlərin irəli yürüdülməsinə, onların yoxlanılmasına, təsdiq olunmasına yönəldilmişdir. Bu axtarışlar əyani-illüstrativ və inkişafetdirici təlim adlanan iki təlim sisteminin bərqərar olmasına gətirib çıxardı. Bu iki sistem arasında əsas fərqləndirici xüsusiyyətlər şagird fəaliyyətinin xarakterində və müəllimlə dialoq əsasında şagird müstəqilliyinin daim mərkəzdə olması və inkişaf etdirilməsi idi.

İnkişafetdirici təlim ilk növbədə şagirdləri axtarışa sövq edir, onların müstəqil işi bütün idrak fəaliyyətini əhatə etdiyindən axtarış xarakteri alır. Belə təlim fəaliyyəti isə elmi-nəzəri biliklərin və ümumiləşdirilmiş fəaliyyət qabiliyyətlərinin formalaşmasına zəmin yaradır.

İbtidai riyazi təhsilin məqsədlərindəki üstün istiqamətlərin dəyişməsi ilə bağlı əsaslı yeniləşmə 90-cı illərin əvvəllərində başlandı. Bu proses isə təlimin inkişafetdirici funksiyasının ön plana çəkilməsi tələbini qarşıya bir məqsəd kimi qoydu. Bu tələb ilk növbədə kiçik yaşlı məktəblilərin şəxsiyyət kimi formalaşması, onların fərdi qabiliyyətlərinin elementlərinin aşkar edilməsi zəruriyyəti ilə bağlı idi.

Bu istiqamətdə ən mühüm yenilik 1991-1992-ci tədris ilindən bütün məktəblərdə Elkonin-Davıdov sistemi adlanan münasibətin kütləvi sınaqları oldu. Bu sistem məzmunca ənənəvi sistemlərdən ilk növbədə tədrisin inkişafetdirici məqsədlərinin reallaşdırılması imkanları ilə fərqlənirdi. Belə ki, bu sistem ibtidai sinif şagirdlərinin nəzəri şüurunun və təfəkküründün inkişafına yönəldilməklə nəzəri biliklərin təlim fəaliyyəti formasında mənimsənilməsinə əsaslanırdı. Deməli, tədris prosesində kiçik yaşlı məktəblilərin təlim fəaliyyəti onların hərtərəfli inkişafı üçün əsas qəbul edilir və bu zaman təlim fəaliyyəti uşağın fəallığının əsas forması kimi başa düşülür. Başqa sözlə desək, bu təlim sistemi uşağın təlimin subyektinə çevrilməsi üçün zəruri şərtlərin təmin edilməsinə geniş meydan açır.

Elkonin-Davidov konsepsiyasında inkişafetdirici təlim özünəməxsus yeni məzmun kəsb edir. Bu konsepsiyaya görə inkişafetdirici təlimin əsasını onun məzmunu kəsb edir. Təlimin təşkili metodları məhz bu məzmunun törəməsidir. Elkonin-Davidov konsepsiyasına görə təlim fəaliyyətinin inkişafetdirici xarakteri ibtidai sinif şagirdləri üçün aparıcı fəaliyyət kimi onunla xarakterizə olunur ki, onun məzmununu nəzəri biliklər təşkil edir. Ənənəvi təlimdə müəllimin başlıca diqqəti uşağın təlim fəaliyyəti prosesinə deyil, onun nəticələrinə yönəlir. Bu halda ən başlıca nəticə müəyyən həcmdə biliklər və faktlar toplusunun mənimsənilməsi hesab olunur. İnkişafetdirici təlimdə isə əsas tələb elmi biliklərin şagirdlər tərəfindən mənimsənilməsi üsullarına da yiyələnmədir. İnkişafetdirici təlimin mühüm əlamətlərindən biri də onun intensivliyidir. İstənilən təlim prosesində şagirdin inkişafı lazımdır. Lakin inkişafetdirici təlim prosesində şəxsiyyətin inkişafı sıçrayışla baş verir və bu sıçrayış kifayət qədər gözə çarpan olur.

Beləliklə, Elkonin-Davidov sistemində inkişafetdirici təlimə elə tələblər verilir ki, bu tələblərə görə təlimin formaları, metodları, üsul və vasitələri, təkcə bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə deyil, həm də uşaq fəaliyyətinin intensiv inkişafına, biliklərin mənimsənilməsi üsullarına, onun yaradıcılıq fəallığının inkişafına yönəldilməlidir.

Bu yeni konsepsiyaya görə, inkişafetdirici təlimin həm də özünəməxsus strategiyası var.

Bu strategiyaya görə uşaq psixologiyası funksiyalarının tam kamilləşməsini, yetişməsini gözləmədən, psixologiyanın müəyyən inkişaf səviyyəsinə uyğun təlim tapşırıqları üzərində uşağı çalışdırmaqla, inkişafın daha yüksək səviyyəsinə keyfiyyət sıçrayışını tezləşdirmək olmaz [6, s.194].

Bir sıra pedaqoq və psixoloqların fikrincə, ənənəvi proqram müasir riyaziyyat elminin əsas prinsip və anlayışlarını əhatə etmir, şagirdlərin riyazi təfəkküründün tələb olunan səviyyədə inkişafını təmin etmir, ibtidai və orta məktəbdə nəzərən tələb olunan səviyyədə tələblərinə cavab vermir. Bu proqramın tələblərinə görə nəzəri-idraki yadda saxlanması tələbi ön plana çəkilir. Bir sıra qabaqcıl ölkələrdə və beynəlxalq təşkilatlarda da riyazi təlimə belə yanaşma prinsipi tənqid edilir. Riyazi təlimin səmərəli təşkilinə və proqramların təkmilləşdirilməsinə aid çoxlu təkliflər irəli sürülür. Bu baxımdan Elkonin-Davidov sistemi xüsusilə diqqəti cəlb edir. Bu sistemdə riyaziyyat tədrisinin məzmununa verilən əsas tələbləri aşağıdakı kimi sistemləşdirmək olar:

- Məktəbdə riyaziyyatın öyrənilməsi prosesində şagirdlər tərəfindən həqiqi ədəd konsepsiyasının əsaslarının dərk edilməsinə artıq ibtidai siniflərdən başlamaq lazımdır. Belə ki, bu konsepsiyaya görə artıq ibtidai məktəbdə başlamaq lazımdır. Belə ki, bu konsepsiyaya görə artıq ibtidai məktəblərdə kəmiyyət anlayışı konkretləşdirilməlidir: Bunun isə əsas yolu ədəd anlayışının çoxobrazlılığı ilə uşaqların tanış edilməsini hesab edir:

- həqiqi ədəd konsepsiyasının əsas ideyalarının mənimsədilməsi kəmiyyət anlayışının və kəmiyyətin xassələrinin öyrənilməsindən başlanmalıdır. Riyazi təlimin məzmunu ilə bağlı bu mülahizələr Elkonin-Davidov eksperimental proqramın quruluşu da müəyyən mənada qarşıya qoyulur.

Bu problem ibtidai sinif riyaziyyat tədrisinin əsas vəzifələrinin özünəməxsus sisteminin təklif edilməsi ilə bağlı olub, aşağıdakı təlim vəzifələri sistemini müəyyən etməyə imkan verir:

- uşaqları kəmiyyət münasibətləri sferasına daxil etməklə, onlarda riyazi kəmiyyət mücərrəd anlayışını formalaşdırmaq;

- kəmiyyətlərin bölünən münasibətini ədədin ümumi forması kimi balaca yaşlı məktəblilərə açıqlamaqla onlarda mücərrəd ədəd anlayışını formalaşdırmaq;

- kiçik yaşlı məktəbliləri ardıcıl olaraq ədədlərin müxtəlif növləri çoxluğuna (natural, kəsr, mənfi ədədlər) daxil etməklə, onlarda bu ədədlər haqqında müəyyən konkret şəraitdə kəmiyyətlərin ortaq bölünən münasibətinin təzahürlərindən biri kimi anlayış formalaşdırmaq;

- riyazi əməliyyatların strukturunun birqiymətliliyini (əməliyyatın iki elementinin qiymətləri məlum olduqda onlar vasitəsilə üçüncü elementin qiymətini birmənalı təyin etmək olar) kiçik yaşlı şagirdlərə açıqlamaq [1, s.207].

Şərh olunan bu dörd tədris məsələlərinin qısa xarakteristikasını verək.

Birinci məsələ kiçik yaşlı məktəblilərin müəyyən praktik əməllərin köməyi ilə obyektlər arasında üç münasibət (bərabərdir, böyükdür, kiçikdir) ayırd etmək bacarığını tələb edir. Bundan sonra bu münasibətləri açıq düsturların (simvolların) köməyi ilə ifadə edirlər. Bu da "bərabərdir" və "bərabər deyil" münasibətləri ilə onları təbii şəkildə öyrənməyə imkan verir. Bərabərsizliklərdən bərabərliyə keçid şərtlərini və onların xassələrini (məsələn, transitlik) öyrənməklə kiçik yaşlı şagirdlər gələcəkdə ədədin ümumi forması ilə tanış olduqdan sonra ədədi sıranın xassələrini öyrənirlər.

İkinci təlim məsələsinin əsas məzmunu şagirdlər tərəfindən kəmiyyətlərin bölünmə münasibətinin tərifi vasitəsilə ədədin ümumi şəklinə yüklənməsindən ibarətdir. Bu halda şagirdlər tədricən başa düşməlidirlər ki, kəmiyyətlərin bölünmə münasibəti ilkin anlayış kimi, ədəd anlayışı isə kəmiyyətin ölçüsü kimi çıxış edir.

Sonrakı təlim vəzifələrinin qoyuluşu zamanı müəllim elə tədris situasiyası yaratmalıdır ki, bu situasiyada şagirdlərdən bir yox, ardıcıl olaraq artan bir sıra ölçülərdən istifadə edilməsini tələb etsin. Çünki ölçü vahidi ilə ölçülən kəmiyyət arasında fərq kifayət dərəcədə gözə çarpan olur.

İbtidai sinif şagirdləri ölçülər sırasından istifadə etdikdə sonrakı ölçünün əvvəlki ölçüyə sabit nisbətinin təyin edilməsi zərurəti yaranır. Ölçmə nəticələrinin yazılışı mövqeli ədədlər şəklini (formasını) alır. Bu forma ölçülərin sabit nisbətinin qiymətindən asılı olaraq hər bir say sisteminə, o cümlədən bu nisbət 10 dəfə çox olduqda onluq say sisteminə aid edilə bilər [3, s.86].

Təsvir olunan təlim konsepsiyasına görə, artıq birinci sinifdə oxuyan şagird üçün çoxrəqəmli ədəd anlayışı daxil edilə bilər. Bəzi situa-

siyalarda ölçü vahidi ölçülən obyekt üzərinə tam ədəd dəfə yerləşməyə bilər. Bu halda ölçünün böyüdülməsinə deyil, kiçildilməsinə müraciət edilir. Belə vəziyyətdə uyğun ölçmə əməliyyatının nəticəsi kəsr ədədlə təsvir olunur. Şagirdlərin təlim fəaliyyətinin sonrakı dəyişməsi və zənginləşdirilməsi (məsələn, onların istiqamətli kəmiyyətlərlə tanış olması) onlara ölçmə zamanı ölçmənin nəticəsinin müsbət və ya mənfi ədədlərin köməyi ilə işarə edilməsinə imkan yaradacaqdır. Şagirdlərin kəmiyyətlərin ümumi xassələrinin öyrədilməsindən onların ədəd formasına malik xüsusi növlərinə keçmələri riyaziyyatın təsvir olunan eksperimental təliminin quruluşunun başlıca tədris xəttini təşkil edir.

Birinci sinif şagirdləri tərəfindən toplama və çıxma əməllərinin komponentlərinin qarşılıqlı əlaqələrini başa düşmək məqsədilə məsələ həlli zamanı onlar əvvəlcə komponentlər üzərində uyğun əməllərlə tanış olur, onları fəza-qrafik sxemlər və hərfi düsturlar (ifadələr) vasitəsilə fiksə edirlər. Sonra isə parçaları qurarkən əməlin xassələrini onun birqiymətli strukturu kimi aydınlaşdırırlar. Bu, verilən bərabərlik əsasında bir neçə tənliyin qurulmasına imkan verir. Uşaqlar müəyyən edirlər ki, belə tənliklərin sayı $x + a = c, c - x = a, c - a = x$ bərabərliklərinə daxil edilmiş elementlərin sayına bərabər olmalıdır.

Şərh olunan konsepsiyaya görə, uşaqlar tərəfindən mətn məsələləri bəzi ümumi qanunauyğunluqların ifadəsinin xüsusi halı kimi qurulur. Məhz birinci sinifdə toplama və çıxmaya aid, ikinci sinifdə isə vurma və bölməyə aid sadə məsələlər meydana gəlir. Sadə məsələlərdən mürəkkəb məsələlərin qurulması ikinci siniflərdə icra edilir. Uşaqlarda mürəkkəb mətn məsələlərinin qurulması ikinci siniflərdə icra edilir. Uşaqlarda mürəkkəb mətn məsələlərinin analizi bacarıqlarına üçüncü sinifdə diqqət yetirilir. Üçüncü sinifdə mənfi ədədlərin daxil edilməsi şagirdlərə məsələlərdə cəbri həll üsullarının tətbiq edilməsi imkanı verir [7].

Elkonin-Davidov təcrübi proqramına görə həndəsə elementlərinin də öyrənilməsi nəzərdə tutulur. Həndəsi material ədədlərin və hesab əməllərinin öyrənilməsi ilə əlaqələndirilir. Bəzi hallarda sırf həndəsi məsələlərin həllinə də yer verilir. Həndəsi fiqurların forması və fəzadakı vəziyyətinin təhlili ilə bağlı çalışmalar uşaqlarda mühakimə yürütmə bacarığı və elementlər fəza təsəvvürlərinin inkişafına, onlarda bunlara qarşı müstəqil fikir söyləməyə kömək edir [4, s. 45].

Proqramın mühüm nəticələrindən biri bizim təcrübi müşahidələrimizə görə, hərfli modellərin əhəmiyyətinin ön plana çəkilməsidir. Belə modellər üzərində çevirmələrin icra olunması təlim vəzifələrindən biri kimi qoyulmasıdır. Hərfi modellərdən başqa riyazi anlayışların formalaşdırılması məqsədilə fəza-qrafik modellər də mühüm rol oynayır. Onların əsas xüsusiyyətləri onlarda əşya-əyaniliyi ilə mücərrəd mənanın birləşdirilməsidir.

İbtidai sinif şagirdlərinin idrak fəaliyyəti, məlumatların təhlili və müstəqil nəticə çıxarma bacarıqları ilə bağlı aparılmış tədqiqatlarda göstərilir ki, şagirdlər təsvir etmə, təqdimetmə və məlumatları şərh etmə sahələrində daha yüksək nəticələr göstərsələr də, məlumatların ümumiləşdirilməsi, orta göstəricinin müəyyənləşdirilməsi və variasiyanın izahı zamanı çətinliklərlə qarşılaşırlar. Tədqiqat nəticələri həmçinin göstərir ki, şagirdlər hazır qrafik üzərində işləmədə daha uğurlu olduqları halda, məlumatların müstəqil şəkildə müxtəlif formalarda təqdim edilməsində və məlumatlardan kənar nəticələr çıxarmaqda daha az uğur qazanırlar. Bu isə inkişafetdirici təlimin ibtidai sinif şagirdlərində analitik düşüncə, müstəqil qərarvermə və yaradıcı yanaşmanın formalaşdırılmasında mühüm rol oynadığını təsdiqləyir. [9]

Beləliklə qeyd edək ki, ənənəvi ibtidai təlimdə təlim materiallarının mücərrədləşdirilməsi (xüsusi halda, hərfi simvollar vasitəsilə) müəyyən bölmə üzrə təlim işi başa çatdıqdan sonra meydana çıxır. Təsvir etdiyimiz təcrübi təlimdə işə belə yanaşma tədrisin başlanğıcından həyata keçirilməyə başlayır.

Nəticə. Aparılan təhlillər göstərir ki, inkişafetdirici təlim ibtidai riyaziyyat təhsilinin müasirləşdirilməsində və şagird şəxsiyyətinin formalaşdırılmasında mühüm pedaqoji əhəmiyyətə malikdir. Bu təlim sistemi şagirdlərin yalnız hazır bilikləri mənimsəməsinə deyil, həm də biliklərin əldə olunması yollarını dərk etməsinə, müstəqil düşünmə və problem həll etmə bacarıqlarının inkişafına şərait yaradır. İnkişafetdirici təlimdə şagird təlim prosesinin passiv iştirakçısı deyil, fəal subyekti kimi çıxış edir ki, bu da onun idrak fəallığını, yaradıcılıq qabiliyyətini və məntiqi təfəkkürünü gücləndirir.

Nəticə etibarilə qeyd etmək olar ki, ibtidai riyaziyyat təlimində inkişafetdirici təlim konsepsiyasının tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin intellektual inkişafının sürətləndirilməsi və onların gələcək təlim fəaliyyətinə hazırlanması baxımından mühüm perspektivlər açır. Buna görə də müasir ibtidai təhsil sistemində inkişafetdirici təlim metod və texnologiyalarının daha geniş tətbiqi pedaqoji baxımdan məqsədəuyğun hesab edilməlidir.

Problemin aktuallığı. Mövzunun aktuallığı onunla şərtlənir ki, müasir ibtidai təhsil proqramlarında şagirdyönlü və fəaliyyətəsaslı yanaşmaların tətbiqi prioritet istiqamətlərdən biri hesab olunur. Bu şəraitdə inkişafetdirici təlimin ibtidai sinif şagirdlərinin nəzəri təfəkkürünün, müstəqil düşünmə və yaradıcı fəaliyyət bacarıqlarının formalaşdırılmasına təsirinin öyrənilməsi elmi və praktik baxımdan mühüm əhəmiyyət kəsb edir.

Problemin elmi yeniliyi ibtidai siniflərdə riyaziyyat təliminin inkişafetdirici təlim konsepsiyası əsasında təhlil olunması və bu prosesdə şagird müstəqilliyinin formalaşdırılması imkanlarının sistemli şəkildə araşdırılması ilə müəyyən edilir.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədə irəli sürülən nəzəri müddəalar və metodik yanaşmalar ibtidai siniflərdə riyaziyyat tədrisinin daha səmərəli təşkilinə kömək edə bilər. İnkişafetdirici təlim prinsiplərinin tətbiqi şagirdlərin müstəqil düşünmə, problem həll etmə, məntiqi mühakimə yürütmə və yaradıcı fəaliyyət bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaradır.

Ədəbiyyat

1. Adıgözəlov, A.Ş. Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası / A.Ş. Adıgözəlov, X.S. Həsənova. – Bakı, – 2011. – 305 s.
2. Həmidov, S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası / S.S.Həmidov. – Bakı, – 2004. – 204 s.
3. Qəhrəmanova, N.M. Riyaziyyat-IV / N.M. Qəhrəmanova, C.S. Əsgərova. – Bakı: Radius, – 2020. – 168 s.
4. Namazov, M.B. Riyaziyyatdan didaktik materiallar (4-cü sinif üçün vəsait) / M.B. Namazov, S.İ. Məmmədova, Y.Q. Hümbətova [və b.]. – Sumqayıt: Bilik, – 2014. – 128 s.
5. Məcidova, A.Ə. Riyaziyyatdan didaktik materiallar (I-IV siniflər) / A.Ə. Məcidova. – Bakı, 2013.
6. Rzayev, M.T. İbtidai siniflərdə şagirdlərin idrak fəallığının inkişafında qeyri-standart və əyləncəli məsələlərin rolu // AR Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, – Bakı, – 2010. №4, – s.194-199
7. Гусев, В.А. Психолого-педагогические основы обучения математике / В.А. Гусев. – М.: Вербум, – 2003. – 430 с.
8. Uyanık, C, Bayır Ö.G., Mehmet G. Flipped learning model practices in social studies course in primary school // Education and Science, –2025. 50(224), –p. 23-74. https://educationandscience.ted.org.tr/article/view/2577
9. Yılmaz, N. An Investigation of 4th Grade Students' Statistical Thinking // Education and Science, – 2023. 48(216), –p. 39-66. https://educationandscience.ted.org.tr/article/view/2110

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 378 (06)

Abbas İlham oğlu Babayev
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3939-9237
E-mail: abbas.babayev@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(4).71-75

MİLLİ KVALİFİKASİYALAR ÇƏRÇİVƏSİNİN SƏMƏRƏLİLİYİNİ ƏNGƏLLƏYƏN AMİLLƏR VƏ ONLARIN ALİ TƏHSİLDƏ ÖMÜRBOYU TƏHSİLİN TƏŞKİLİNƏ TƏSİRİ

Abbas İlham Babayev
doctorial student in the program of doctor of philosophy
at the Institute of Education of the Republic of Azerbaijan

FACTORS HINDERING THE EFFECTIVENESS OF THE NATIONAL QUALIFICATIONS FRAMEWORK AND THEIR IMPACT ON THE ORGANIZATION OF LIFELONG LEARNING IN HIGHER EDUCATION

Аббас Ильхам оглы Бабаев
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ФАКТОРЫ, СНИЖАЮЩИЕ ЭФФЕКТИВНОСТЬ НАЦИОНАЛЬНОЙ РАМКИ КВАЛИФИКАЦИЙ И ИХ ВЛИЯНИЕ НА ОРГАНИЗАЦИЮ ОБУЧЕНИЯ НА ПРОТЯЖЕНИИ ВСЕЙ ЖИЗНИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

Xülasə. Bu məqalədə Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin (AzMKÇ) ölkədə ömürboyu təhsil sisteminin yaradılmasında effektiv siyasət vasitəsinə çevrilməsinə mane olan amillər və onun ali təhsil müəssisələrinin (ATM-lərin) ömürboyu təhsilin təşkili sahəsində fəaliyyətinə təsiri nəzərdən keçirilir. Tədqiqatın ali təhsil səviyyəsinə fokuslanmasının səbəbi, ATM-lərin ömürboyu təhsilin təşkilində rolunun həm milli, həm də beynəlxalq səviyyədə tanınması ilə bağlıdır. Bu tədqiqatda tədqiqat metodları kimi yerli ATM-lərin nümayəndələri, elm və təhsil sahəsində dövlət sektorunda çalışan şəxslər, eləcə də müstəqil ekspertlərlə aparılmış müsahibələr və nəzəri təhlildən istifadə edilmişdir.
Açar sözlər: *ömürboyu təhsil, ali təhsil, Milli Kvalifikasiyalar Çərçivəsi, kvalifikasiya səviyyələrinin deskriptorları, qeyri-formal və informal təhsilin tanınması, kredit toplanması və transferi sistemi*

Abstract. This article examines the shortcomings that prevent the Azerbaijan National Qualifications Framework (AzNQF) for lifelong learning from becoming an effective policy tool in the creation of lifelong learning infrastructure in the country and its impact on the activities of higher education institutions (HEIs) in the organization of lifelong learning. The reason for focusing on the higher education level is due to the recognition of the role of HEIs in the development of lifelong learning at both the national and international levels. This study used interviews with representatives of local HEIs, individuals working in the public sector in the field of science and education, as well as independent experts, and content analysis as research methods.
Key words: *lifelong learning, higher education, National Qualifications Framework, descriptors of qualification levels, recognition of non-formal and informal learning, credit accumulation and transfer system*

Аннотация. В данной статье рассматриваются недостатки, препятствующие Национальной рамке квалификаций Азербайджана (АзНРК) для непрерывного обучения стать эффективным инструментом политики в создании инфраструктуры непрерывного образования в стране, и ее влияние на деятельность высших учебных заведений (ВУЗов) по организации непрерывного обучения. Причина акцента на уровне высшего образования обусловлена признанием роли ВУЗов в развитии непрерывного обучения как на национальном, так и на международном уровне. В данном исследовании в качестве методов исследования использовались интервью с представителями местных ВУЗов, лицами, работающими в государственном секторе в сфере науки и образования, а также независимыми экспертами, и контент-анализ.

Ключевые слова: *обучение на протяжении всей жизни, высшее образование, Национальная рамка квалификаций, дескрипторы уровней квалификаций, признание неформального и неофициального обучения, система накопления и перевода кредитов*

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi məqsədilə ölkəmizdə ilk dəfə olaraq 2018-ci ilin 18 iyul tarixində ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (bundan sonra – AzMKÇ) təsdiq edilmişdir [5, 7, s.1]. AzMKÇ-nin təsdiqindən ötən altı illik bir müddət ərzində adıçəkilən sənədin ölkədə ömürboyu təhsilin təşviqi üzrə işlək bir alətə çevrilmədiyi müşahidə edilir. Belə ki, Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən Azərbaycanın ali təhsil müəssisələrində (ATM-lərdə) ömürboyu təhsil səriştənin tətbiqinin araşdırılması zamanı müəyyən olunmuşdur ki, əksər ATM-lər ömürboyu təhsil istiqamətində işlərini təşkil və xidmətlərini təklif edərkən AzMKÇ-nə istinad etmirlər və həmin sənədin məzmunu, məqsədləri və digər elementləri ilə hələ kifayət qədər tanış deyillər [4]. Bundan əlavə, AzMKÇ-də göstərilən bəzi tədbirlərin hələ də icra edilməməsini, məsələn, milli kvalifikasiyalar reyestrinin hazırlanmamasını, qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş səriştələrin tanınması mexanizmlərinin tam qurulmamasını (hazırda yalnız peşə təhsili üzrə belə mexanizmlər qurulub) və s. işləri sözügedən sənədin işlək bir alətə çevrilmədiyini göstərən digər nümunələrə aid etmək olar. Yuxarıda qeyd olunanları nəzərə alaraq, bu məqalədə əsas məqsəd AzMKÇ-nin ömürboyu təhsilin təşviqində effektiv siyasi alətə çevrilməməsini əngəlləyən çatışmazlıqların və həmin çatışmazlıqların ali təhsil müəssisələrinin ömürboyu təhsilin təşkili istiqamətində fəaliyyətləri üzərindəki təsirinin öyrənilməsidir. Çünki ATM-lərin ömürboyu təhsilin dəstəklənməsində rolu həm ölkə, həm də beynəlxalq səviyyədə tanınmışdır [3, 13, s.10]. Problemin araşdırılması üçün məlumat toplama üsulları kimi kontent-analizdən və yerli ATM-lərin nümayəndələri, elm və təhsil sahəsində dövlət sektorunda çalışan şəxslər, habelə müstəqil ekspertlər ilə müsahibələrdən istifadə edilmişdir.

Məqalə çərçivəsində qoyulan sualların cavablandırılması hissəsinə keçid etmədən öncə, kvalifikasiyalar çərçivələrinin tarixçəsinə və məqsədlərinə nəzər yetirmək məqsədəuyğun olacaqdır. Birləşmiş Krallıq, Yeni Zelandiya, Avstraliya, Cənubi Afrika kimi ölkələr tərəfindən hələ 1980-1990-cı illərdə kvalifikasiyalar çərçivələri qəbul edilsə də, belə çərçivələrin təsdiq edilməsi geniş populyarlıq qazanmış trendə XXI əsrin ilk onilliyində çevrilmişdir [11]. Burada xüsusi rolu Bolonya prosesi çərçivəsində 2005-ci ildə qəbul edilmiş Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi (AATMKÇ) oynamışdır [7, s.2]. Belə ki, 2005-ci ildən öncə Avropanın yalnız üç ölkəsində – Birləşmiş Krallıq, İrlandiya və Fransada kvalifikasiyalar çərçivələri mövcud idi [14, s.8]. Lakin, 2005-ci ildə yuxarıda qeyd olunan AATMKÇ-nin və daha sonra 2008-ci ildə ömürboyu təlim üzrə Avropa Kvalifikasiyalar Çərçivəsinin (ÖTAKÇ) təsdiqindən sonra Avropa İttifaqının bütün ölkələri tərəfindən milli kvalifikasiyalar çərçivələri qəbul edildi [14, s.9]. Beynəlxalq və regional təşkilatların təşviqi və dəstəyi ilə milli kvalifikasiya çərçivələrinin təsdiqi tədricən qlobal təhsil trendinə çevrildi və araşdırmalara əsasən, bu gün dünyanın 150-dən çox ölkəsində kvalifikasiya çərçivələri mövcuddur [15, s.104].

Kvalifikasiya çərçivələrinin hazırlanması zərurətinə gəldikdə isə, belə çərçivələrin populyarlıq qazanmasının əsas səbəbləri arasında sürətli qloballaşma fonunda işçi qüvvəsinin beynəlxalq və regional mobilliliyinin artması ilə əlaqədar insanların sahib olduqları bilik və bacarıqların daha aydın müqayisə edilə bilinmə-

si üçün mexanizmin yaradılması (hər bir kvalifikasiya səviyyəsi üzrə əldə olunması gözlənilən bilik və bacarıq səviyyəsini, başqa sözlə, deskriptorları müəyyənləşdirməklə), təhsil pillələri və səviyyələrinin, habelə müxtəlif təhsil formalarının (formal, qeyri-formal və informal) birbiri ilə əlaqələndirilməsinin və inteqrasiyasının təmin edilməsi, təhsil sistemində əmək bazarının gözləntilərinin daha yaxşı nəzərə alınması ehtiyacları xüsusilə vurğulanır [15, s.104-105].

Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinə nəzər yetirsək, onun daha çox yuxarıda qeyd olunan birinci kateqoriyaya aid, yəni kommunikasiya məqsədli kvalifikasiya çərçivəsi olduğunu müəyyən edə bilərik. Belə ki, tədqiqat çərçivəsində müstəqil ekspertlər ilə keçirilmiş müsahibələr zamanı AzMKÇ-nin qüvvədə olan normativ hüquqi aktlara, xüsusilə Təhsil haqqında Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırıldığı və mövcud kvalifikasiya sistemində hər hansı bir yenilik təqdim etməyi nəzərdə tutmadığı bildirilmişdir. Beləliklə, kommunikasiya məqsədli kvalifikasiya çərçivələrində olduğu kimi, AzMKÇ-nin də başlıca məqsədi ölkədəki mövcud kvalifikasiya səviyyələri barədə məlumatlılığı artırmaqdır. Bu məqam sənədin üçüncü maddəsində də aydın şəkildə əks etdirilmişdir [7, s.4].

AzMKÇ-nin ölkədə ömürboyu təhsili təşviq edən alətə çevrilməsinə mane olan amillərə və belə vəziyyətin ali təhsil müəssisələrinin sözügedən istiqamətdə fəaliyyətlərinə təsirinə gəldikdə isə, burada bir neçə məqamı vurğulamaq olar. Bu çətinliklər, ilk növbədə, AzMKÇ-yə ömürboyu təhsili dəstəkləyən təhsil infrastrukturunun yalnız bir elementi kimi yox, ayrıca bir sənəd kimi yanaşmadan qaynaqlanır. Belə ki, tədqiqat çərçivəsində həm həyata keçirilmiş müsahibələrdən əldə olunmuş məlumatlar, həm də mövzu üzrə ədəbiyyatın təhlili onu deməyə əsas verir ki, Milli Kvalifikasiya Çərçivəsi ömürboyu təhsil infrastrukturunun yalnız bir elementidir və bu elementin səmərəli bir alətə çevrilməsi üçün infrastrukturun digər elementləri də formalaşdırılaraq işlək vəziyyətə gətirilməlidir [13, s. 36]. Ömürboyu təhsili dəstəkləyən təhsil infrastrukturunun digər elementlərinə isə ədəbiyyatda əsasən qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması mexanizmlərinin qurulması, kredit toplanması və transferi sisteminin tətbiqi, yaşlılar və qeyri-ənənəvi öyrənənlər (tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmamış şəxslər) üçün ali təhsil müəssisələrinə alternativ qəbul imkanlarının yaradılması aid edilir [15, s.69-130]. Ölkəmizdə yuxarıda qeyd olunan elementlərin tətbiqinə nəzər yetirdikdə, çatışmazlıqların olduğunu müşahidə edə bilərik. Belə ki, qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması mexanizmlərinin qurulması istiqamətində son illər əhəmiyyətli işlər görülsə də, hazırda belə mexanizmlər yalnız ilk peşə təhsili səviyyəsi üzrə mövcuddur [1, 16].

Kvalifikasiyalararası keçidlərin təşviqində və tənzimlənməsində əsas mexanizmlərdən biri kimi hesab olunan kredit toplanması və transferi sistemi də hazırda yalnız ali təhsilin bakalavriat və magistratura səviyyələrində, habelə yüksək texniki peşə və orta ixtisas səviyyələrində tətbiq olunur. Kredit toplanması və transferi sisteminin natamam tətbiqi müxtəlif təhsil səviyyələrində və pillələrində kreditlərin əldə edilməsinə və həmin kreditlərin növbəti təhsil pilləsinə keçid zamanı istifadə edilməsinə (tanınmasına) şərait yaratmayaraq insanların kvalifikasiya səviyyələri arasında keçidlərinə mənfi təsir göstərir və əvvəlki kreditlər nəzərə alınmaqla öyrənənlər üçün daha qısaldılmış və sərfəli təhsil proqramlarının təklif edilməsinə imkan vermir [13, s.36].

Ali təhsil müəssisələrinə alternativ qəbul yollarının yaradılmasına gəldikdə isə, hazırda əsas qəbul mexanizmini tam orta təhsili başa vurmuş şəxslərin Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan mərkəzləşdirilmiş qəbul imtahanında iştirakı təşkil edir [6]. Bu müxtəlif ölkələrin təhsil sistemlərinə xas olan bir hal olsa da, alternativ qəbul imkanlarının məhdud olması (tam orta təhsilini bitirmiş şəxslərə əlavə olaraq ali təhsil müəssisələrinə qəbul olmaq hüququna yüksək texniki peşə və orta ixtisas təhsilini (hər ikisinin məzunları subbakalavr hesab olunur), habelə ali təhsili bitirmiş şəxslər malikdirlər) formal təhsilin, daha dəqiq desək, ali təhsilin müxtəlif əhali qrupları üçün əlçatanlığına və beləliklə, ömürboyu öyrənmənin təşviqinə mane olur [13, s.55]. Qeyd olunanlara əsaslanaraq belə qənaətə gəlmək olar ki, AzMKÇ-nin ömürboyu öyrənməni təşviq edən effektiv bir alətə çevirmək ömürboyu təhsil infrastrukturunu dəstəkləyən digər alətlərin formalaşdırılması zəruridir.

AzMKÇ-nin ömürboyu təhsilin təşviqində səmərəli alətə çevrilməsinə mane olan digər bir çatışmazlıq kimi kvalifikasiya deskriptorlarının hazırkı təsvir edilmə qaydası müəyyən olunmuşdur. Belə ki, tədqiqat çərçivəsində müsahiblər tərəfindən müxtəlif kvalifikasiya səviyyələri üzrə deskriptorların çox geniş formada yazıldığı və beləliklə, kvalifikasiya səviyyələri üzrə gözlənilən təlim nəticələrinin bir-birindən fərqləndirilə bilinməsində çətinlik yaratdığı vurğulanmışdır. Məsələn, 6-cı səviyyədə qərarlaşan, yəni bakalavr diplomuna malik şəxsin bilik və anlama üzrə deskriptorlarında onun "təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, qaydalar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli təsəvvürə malik" olduğu, 7-ci səviyyədə qərarlaşanın, yəni magistr diplomuna malik şəxsin müvafiq deskriptorlarında isə onun "təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli ümumi təsəvvürə və geniş biliyə malikdir" olduğu qeyd olunmuşdur [7, s.9]. Deskriptorların yuxarıda qeyd olunan kimi, yəni ümumiləşdirilmiş formada təsvir olunması müxtəlif təhsil proqramları üzrə kurikulumların hazırlanması zamanı həmin deskriptorları rəhbər tutaraq konkret təlim nəticələrinin ortaya qoyulmasına mane olur [10].

Kvalifikasiya deskriptorlarının ümumiləşdirilmiş formada təsvir olunmasının və onlardan müxtəlif təhsil səviyyələri çərçivəsində təhsil proqramları üzrə gözlənilən təlim nəticələrinin müəyyənləşdirilməsində istifadə edilə bilinməməsinin digər bir mənfi təsiri təhsildə keyfiyyətin təminatı mexanizmlərinin işləkliyi üzərində hiss olunur [8]. Ali təhsildə keyfiyyət təminatı mexanizmlərinin qurulması nümunəsi üzərindən baxsaq, nəzəri olaraq müvafiq kvalifikasiya səviyyələrinin deskriptorları rəhbər tutularaq ali təhsil pilləsinin müxtəlif ixtisasları üzrə təlim nəticələri müəyyənləşdirilməli, daha sonra ixtisaslar üzrə müəyyənləşdirilmiş təlim nəticələri həmin ixtisaslar çərçivəsində tədris olunacaq fənlər üzrə konkret təlim nəticələrinin formalaşdırılmasına və bu təlim nəticələrinin də müvafiq qaydada fənn sillabuslarında əksini tapmalarına xidmət etməlidir. Bu da öz növbəsində fənlər üzrə təlim nəticələrinin müvafiq kvalifikasiya səviyyəsinin ümumi deskriptorları ilə uyğunlaşdırılmasına və tədris olunan hər bir fənnin kvalifikasiya deskriptorunun əldə edilməsinə necə xidmət edəcəyinin aydınlaşdırılmasına, bütün bunlarda ali təhsil müəssisələrində proqram akkreditasiyası prosesinin AzMKÇ ilə ahəngdar şəkildə icrasına və qiymətləndirmə prosesinin keyfiyyətinə müsbət təsir edəcəkdir, habelə ali təhsil müəssisələrinin proqram akkreditasiyası prosesinin şəffaflığını və keyfiyyətini artıracaqdır [2]. Lakin kvalifikasiya deskriptorlarının aydın formada müəyyənləşdirilməməsi həmin deskriptorların ixtisaslar və fənlər üzrə təlim nəticələrinin formalaşdırılmasında və nəticə etibarilə təhsildə keyfiyyətin təminatı prosesləri çərçivəsində istifadə edilməsinə imkan vermir. Bu da öz növbəsində AzMKÇ-nin təhsildə keyfiyyət təminatı çərçivəsi kimi istifadəsini əngəlləyir [7, s.5].

Müxtəlif təhsil səviyyələri üzrə təlim nəticələrinin qeyri-müəyyən qalması təhsil pillələri və səviyyələri arasında qarşılıqlı əlaqənin və varisliyinin təmin edilməsinə də çətinlik yaradır. Çünki təhsil pillələri və səviyyələri arasında varisliyin təmin edilməsi dedikdə, hər növbəti təhsil pilləsi və səviyyəsi üzrə əldə olunan bilik və bacarıqların ondan öncəki pillə və səviyyə üzərində qurulması və beləliklə, vahid, bir-biri ilə inteqrasiya edilmiş təhsil yolunun formalaşdırılması nəzərdə tutulur [9]. Başqa sözlə desək, hər bir kvalifikasiya səviyyəsi üzrə təlim nəticələri ondan əvvəlki və sonrakı səviyyələrlə aydın şəkildə uyğunlaşdırıldıqda, təhsil müəssisələri öyrənənlərin təhsillərinin növbəti pilləsinə hazır olmalarını təmin edir. Əlavə olaraq, aydın təlim nəticələrinin müəyyənləşdirilməsi öyrənənlərin hər bir kvalifikasiya səviyyəsini tamamladıqda nəyi bilməli, başa düşməli və bacarmalı olduqlarını anlamağa kömək edir və hər bir kvalifikasiya səviyyəsinin mahiyyətinin daha dərindən başa düşülməsinə şərait yaradır. Bu işəgötürənlərin də mövcud vakansiyalara hansı kvalifikasiya səviyyələrində olan şəxslərin daha uyğun gəldiyini başa düşmələrini asanlaşdırır [7, s.3-4].

AzMKÇ-yə yanaşma və sənədin özü ilə bilavasitə bağlı yuxarıda qeyd olunan məqamlar sənədin ölkədə ömürboyu təhsilin təşviqi üzrə effektiv alətə çevrilməməsinin səbəblərini başa düşməyə əsas verir. Belə olan halda AzMKÇ-nin ali təhsil müəssisələri tərəfindən ömürboyu təhsilin təşkili istiqamətində fəaliyyətləri zamanı da istifadə imkanları məhdudlaşır.

Problemin aktuallığı. Ömürboyu öyrənməni dəstəkləyən təhsil infrastrukturunun əsas komponentlərindən biri kimi Milli Kvalifikasiyalar Çərçivələrinin əhəmiyyəti beynəlxalq səviyyədə tanınmışdır.

Azərbaycanda ömürboyu təhsil infrastrukturunun yaradılmasının təhsil sahəsi üzrə strateji hədəflərdən biri kimi qarşıya qoyulduğunu nəzərə alaraq, AzMKÇ ilə bağlı cari boşluqların öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. AzMKÇ-nin ölkədə ömürboyu təhsil infrastrukturunun yaradılmasında effektiv bir alətə çevrilməsini əngəlləyən çatışmazlıqların və belə vəziyyətin ali təhsil müəssisələrinin ömürboyu təhsil istiqamətində fəaliyyətləri üzərindəki təsiri ilk dəfədir ki, elmi nöqteyi-nəzərdən araşdırılmışdır.

Problemin praktiki əhəmiyyəti və tətbiqi. Tədqiqat həm AzMKÇ-nin ömürboyu təhsilin təşviqi istiqamətində işləkliyinin artırılması baxımından, həm də Milli Kvalifikasiyalar Çərçivələri üzrə beynəlxalq elmi ədəbiyyata Azərbaycanın da təcrübəsini əlavə edərək onun zənginləşdirilməsi baxımından əhəmiyyətlidir.

Ədəbiyyat

1. "İlk dəfə olaraq qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması üzrə sertifikatlar təqdim olunub" / "Azərbaycan müəllimi" qəzeti. – Bakı, - 2020.
2. Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları / 30 sentyabr 2022-ci ildə təsdiq edilmişdir. – Bakı, 2022.
3. Ali təhsil pilləsinin dövlət standartı və proqramı / 23 aprel 2010-cu ildə təsdiq edilmişdir. – Bakı, 2010.
4. ATM-lərin ömürboyu təhsil konsepsiyasının tətbiqi təcrübələri / Azərbaycan Respublikasının Təhsil İnstitutu. – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, - 2022, - 33 s.
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası / 24 oktyabr 2013-cü ildə təsdiq edilmişdir. – Bakı, 2013.
6. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları / 8 fevral 2017-ci ildə təsdiq edilmişdir. – Bakı, 2017.
7. Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi / 18 iyul 2018-ci ildə təsdiq edilmişdir. – Bakı, 2018.
8. European Association for Quality Assurance in Higher Education. Quality Assurance and Learning Outcomes. – Helsinki: European Association for Quality Assurance in Higher Education, - 2010. – 29 p.
9. European Centre for the Development of Vocational Training. Learning outcomes going global: A multifaceted phenomenon. – Thessaloniki: European Centre for the Development of Vocational Training, - 2024. – 28 p.
10. European Centre for the Development of Vocational Training. Using Learning Outcomes – European Qualifications Framework Series: Note 4. - Thessaloniki: European Centre for the Development of Vocational Training, - 2011. – 50 p.
11. Organisation for Economic Co-operation and Development (OECD). Qualifications Systems: Bridges to Lifelong Learning. – Paris: OECD Publishing, - 2007. – 242 p.
12. Raffe, D. What is the evidence for the impact of National Qualifications Frameworks? – Comparative Education, 49 (2), - 2012. – 143-162 p.
13. UNESCO Institute for Lifelong Learning and Shanghai Open University. International trends of lifelong learning in higher education. – Hamburg: UNESCO Institute for Lifelong Learning, - 2023. – 68 p.
14. UNESCO Institute for Lifelong Learning. Global Inventory of Regional and National Qualifications Frameworks – Volume I: Thematic Chapters. – Hamburg, UNESCO Institute for Lifelong Learning, - 2015. – 66 p.
15. UNESCO Institute for Lifelong Learning. Making lifelong learning a reality: A handbook. – Hamburg: UNESCO Institute for Lifelong Learning, - 2022. – 199 p.
16. Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası / 5 avqust 2020-ci ildə təsdiq edilmişdir. – Bakı, 2020.

Redaksiyaya daxil olub: 22.06.2026

UOT 378 (06)

Turanə Fazil qızı İsmayılova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org//0000-0001-6462-7759
E- mail:turanta283@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).76-79

ALİ TƏHSİLDƏ İDRAK FƏALLIĞININ İNKİŞAFINDA TƏLİM TEXNOLOGİYALARININ NƏZƏRİ PARADİQMASI

Turana Fazil Ismayilova
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan

THE THEORETICAL PARADIGM OF INSTRUCTIONAL TECHNOLOGIES IN THE DEVELOPMENT OF COGNITIVE ACTIVITY IN HIGHER EDUCATION

Турана Фазиль гызы Исмаилова
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ТЕОРЕТИЧЕСКАЯ ПАРАДИГМА ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В РАЗВИТИИ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

Xülasə. Məqalədə ali təhsildə, xüsusilə tarix təlimi prosesində müasir təlim texnologiyalarının idrak fəallığının inkişafındakı rolu nəzəri aspektdən təhlil edilir. Müasir innovativ texnologiyalar tarixi bilik və bacarıqların daha effektiv, interaktiv və maraqlı formada öyrədilməsini təmin edən metod, vasitə və yanaşmalar sistemi kimi xarakterizə olunur. Bu texnologiyaların tətbiqi tələbələrin idrak fəallığının yüksəldilməsinə, analitik və tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasına, tarixi hadisə və proseslərin səbəb-nəticə əlaqələrinin dərindən mənimsənilməsinə imkan yaradır. İnformasiya-kommunikasiya texnologiyaları, interaktiv metodlar, layihə və problem əsaslı təlim yanaşmaları tarix dərslərinin dinamikliyini və təlimin səmərəliliyini artırır. Nəticədə tələbələr passiv dinləyici mövqeyindən fəal öyrənən subyektə çevrilir, müstəqil tədqiqat aparmaq və əldə etdikləri bilikləri praktik fəaliyyətdə tətbiq etmək bacarığı qazanırlar. Bu baxımdan, innovativ təlim texnologiyalarının ali təhsildə tətbiqi pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət daşıyır.
Açar sözlər: *Ali təhsil, təlim texnologiyaları, idrak fəallığı, tarix təlimi, analitik və tənqidi düşünmə, interaktiv metodlar, pedaqoji innovasiya, pedaqoji texnologiya*

Abstract. The article theoretically analyzes the role of modern instructional technologies in the development of cognitive activity in higher education, particularly in the process of teaching history. Modern innovative technologies are characterized as a system of methods, tools, and approaches that ensure a more effective, interactive, and engaging acquisition of historical knowledge and skills. The application of these technologies contributes to enhancing students' cognitive activity, fostering analytical and critical thinking skills, and promoting a deeper understanding of cause-and-effect relationships in historical events and processes. The use of information and communication technologies, interactive methods, project-based and problem-based learning increases the dynamism of history classes and the overall effectiveness of the educational process. As a result, students move from the position of passive listeners to active learners, acquiring the ability to conduct independent research and apply acquired knowledge in practical activities. In this regard, the implementation of innovative instructional technologies in higher education plays a significant role in improving the quality of the pedagogical process.

Keywords: *Higher education, instructional technologies, cognitive activity, history education, analytical and critical thinking, interactive methods, pedagogical innovation, pedagogical technology*

Аннотация. В статье с теоретической точки зрения анализируется роль современных образовательных технологий в развитии познавательной активности в системе высшего образования, в частности в процессе обучения истории. Современные инновационные технологии характеризуются как система методов, средств и подходов, обеспечивающих более эффективное, интерактивное и интересное усвоение исторических знаний и умений. Применение данных технологий способствует повышению познавательной активности обучающихся, формированию аналитического и критического мышления, а также более глубокому осмыслению причинно-следственных связей исторических событий и процессов. Использование информационно-коммуникационных технологий, интерактивных методов, проектного и проблемного обучения повышает динамичность учебных занятий по истории и эффективность образовательного процесса. В результате обучающиеся переходят от позиции пассивного слушателя к роли активного субъекта обучения, приобретают навыки самостоятельного исследования и практического применения полученных знаний. В этом контексте внедрение инновационных образовательных технологий в высшем образовании имеет важное значение для повышения качества педагогического процесса.

Ключевые слова: *высшее образование, образовательные технологии, познавательная активность, обучение истории, аналитическое и критическое мышление, интерактивные методы, педагогическая инновация, педагогическая технология*

Tarix təlimi sahəsində müasir innovativ texnologiyalar, tarixi biliklərin və bacarıqların daha effektiv, interaktiv və maraqlı şəkildə şagirdlərə çatdırılması məqsədi ilə tətbiq olunan yeni metod, vasitə və yanaşmalar sistemidir. Bu texnologiyalar ənənəvi təlim üsullarından fərqli olaraq, rəqəmsal resurslardan, multimedia, virtual və artırılmış reallıq, interaktiv platformalardan istifadə etməklə dərsin keyfiyyətini və şagirdlərin fəal iştirakını artırır. Azərbaycanda rəqəmsal təhsilin inkişafı son illərdə dövlət səviyyəsində aparılan islahatlar strateji sənədlərlə sürətlənmişdir. Xüsusilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (2013) və Rəqəmsal transformasiya" ilə bağlı qəbul olunan yeni yanaşmalar təhsildə texnologiyadan istifadəyə geniş imkanlar yaratmışdır [1].

Müasir innovativ texnologiyalar tarix təlimində təkcə faktların yığılması deyil, həmçinin analitik düşüncənin, tənqidi yanaşmanın və mədəniyyətlərarası əlaqələrin dərk olunmasının inkişafına yönəlmişdir.

III minillikdə rəqəmsal dünyada informasiya cəmiyyətində yaşayırıq. Bir çox peşələr tarixə qovuşur, yeniləri yaranır. Bəşəriyyətin bütün fəaliyyət sahələrində innovativ texnologiyalardan istifadə edilir[2].

Ali təhsilin məqsədi yalnız tələbəni savadlı etmək deyil. Müstəqil düşüncə və müdriklik kimi yüksək hədəflər, hər zaman olduğu kimi, keyfiyyətli təhsilin həlledici vəzifələridir. Tələbələrin idrak fəaliyyəti onların idrak fəaliyyətinə münasibətdə özünü göstərir. Bundan əlavə, fəaliyyət təlim prosesinin ən vacib nəticələrindən biri kimi çıxış edir, həm də bir növ işə salma mövqeyini ifadə edir [3,s.141].

Anisimov .N. M. qeyd edir ki, "İnnovativ təlim texnologiyaları yalnızca şagirdlərin yaradıcı fəaliyyətini aktivləşdirmir, həm də onların öz inkişafını dəstəkləyir, bu da innovativ düşüncənin formalaşmasının əsas aspektidir" [4].

"İnnovativ təlim texnologiyaları yeni yaradıcı düşüncənin inkişafının əsas aspektidir." Müasir müəllimlər üçün vacib olan texnoloji bacarıqları aşağıdakı kimi qruplaşdırmaq olar: a) Təlim texnologiyalarından istifadə bacarığı; b) Rəqəmsal platformalarla işləmək bacarığı; c) Multimedia və kontent yaradılması; d) Rəqəmsal təhlükəsizlik və etik qaydalar.

1. Pedaqoji innovasiya –Bu, pedaqoji fəaliyyətin inkişafı və təkmilləşdirilməsi məqsədilə yaranan yeni yanaşma və üsullardır. 2. Pedaqoji texnologiya –Burada innovasiya konkret texnologiya şəklində sistemləşir və praktik olaraq tətbiq olunur.

İnnovasiya (ing. Innovation) – bu, təhsil, təlim, elmi fəaliyyət və digər sahələrdə yeni forma, metod, texnologiya və bacarıqların tətbiqi ilə bağlı anlayışdır. Termin "innovasiya" sözü Latın dilindən gəlir, orijinal forması innovatio, "yenilik etmək" mənasını verir. Bu sözün yaranması 17-ci əsrin ortalarına təsadüf edir [5].

Tərsinə öyrənmə ənənəvi təlim modelindən fərqli olaraq, nəzəri materialın dərsdən əvvəl müstəqil şəkildə mənimsənildiyi, dərs vaxtının isə müzakirə, tətbiq, problem həlli və anali-

tik fəaliyyətə həsr olunduğu innovativ təlim texnologiyasıdır. Bu model ali təhsildə tələbələrin idrak fəallığının inkişafında xüsusilə səmərəli hesab olunur .Bu, tərs sinif strategiyasına qısa və praktik girişdir[6].

Komanda əsaslı öyrənmə ali təhsildə tələbələrin kiçik qruplar (komandalar) şəklində məqsədyönlü əməkdaşlıq etməsinə əsaslanan, idrak fəallığını və məsuliyyətli öyrənməni inkişaf etdirən innovativ təlim texnologiyasıdır. Bu yanaşma xüsusilə analitik, tənqidi düşünmə və problem həlli bacarıqlarının formalaşdırılmasında yüksək səmərəliliyə malikdir . Araşdırılan bu məqalə komanda əsaslı öyrənmənin prinsiplərini müzakirə edir və komanda əsaslı öyrənmə ilə sübutlara əsaslanan tədrisin yaxşı təcrübələri arasındakı uyğunluğu görməyə kömək edir [7].

İzləyici cavab sistemləri ali təhsildə tələbələrin dərs prosesində fəal iştirakını təmin edən, operativ geribildirim yaradan və idrak fəallığını artıran rəqəmsal təlim texnologiyalarıdır. Bu sistemlər vasitəsilə tələbələr mobil telefon, planşet və ya kompüterdən istifadə edərək dərs zamanı verilən suallara real vaxt rejimində cavab verirlər. Araşdırılan bu məqalədə Auditoriya Cavab Sistemləri (ARS) üzrə 67 məqalənin icmalını tapa bilərik. Bu, ARS-dən istifadə zamanı müəllimlər üçün əsas faydaları və çətinlikləri anlamağa kömək edir [8].

Ali təhsildə tədris və öyrənmə prosesinin təkmilləşdirilməsi tələbələrin təlim texnologiyalarına cəlb olunması ilə sıx bağlıdır. Müəyyən təlim texnologiyalarının tədris prosesinə inteqrasiyası tələbələrin idrak fəallığını artırır və daha dərin öyrənmə nəticələrinin əldə olunmasına şərait yaradır [9].

Müasir texnologiyalar ali təhsil tələbələrinin idrak inkişafı ilə müsbət və əhəmiyyətli əlaqəyə malikdir. Rəqəmsal sosial dəstək bu əlaqədə vasitəçi rol oynayaraq texnologiyaların idrak inkişafını stimullaşdırdığını sübut edir[10].

Tədris mövcudluğu, sosial və idrak mövcudluğu onlayn kurslarda tələbələrin fəallığının əsas göstəriciləridir. Bu amil göstərir ki, texnologiya vasitəsilə həyata keçirilən səmərəli təlim üçün idrak cəlbediciliyi mühüm əhəmiyyət daşıyır [11].

Oyunlaşdırma idrak yükünü azaltmaqla yanaşı tələbələrin motivasiyasını artırır və nəticə etibarilə ali təhsil mühitində idrak fəallığının yüksəlməsinə səbəb olur [12].

Süni intellekt vasitəsilə qurulan dialoq alətlərinin tələbələrdə dərin idrak fəallığını, problem həll etmə, tənqidi düşünmə və özünütəhlil kimi yüksək səviyyəli idrak bacarıqlarını inkişaf etdirdiyi müəyyən edilmişdir [13].

Rutten və digərləri (2024) K–12 müəllimlərinin planlaşdırılmamış çətin mövzulu anları necə anladıqlarını araşdırmış və müəllimlərin bu anlarda tətbiq etdikləri yanaşmaların tədris prosesində əhəmiyyətini vurğulamışlar [14].

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi ali təhsildə, xüsusilə tarix təlimi kontekstində müasir təlim texnologiyalarının idrak fəallığının inkişafına təsirinin nəzəri-paradiqmal əsaslarla sistemli şəkildə təhlil edilməsindən ibarətdir. Bu yanaşma tarix təlimində innovativ texnologiyaların tətbiqinə dair mövcud nəzəri təsəvvürləri zənginləşdirir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri ali təhsil müəssisələrində tarix fənninin tədrisi prosesində müasir təlim texnologiyalarının məqsədyönlü tətbiqi üçün praktik tövsiyələrin hazırlanmasına imkan yaradır. Məqalədə irəli sürülən nəzəri müddəalar və yanaşmalar müəllimlərin dərs prosesində interaktiv metodlardan, informasiya-kommunikasiya texnologiyalarından, layihə və problem əsaslı təlim modellərindən səmərəli istifadə etməsinə kömək edə bilər. Bu isə tələbələrin idrak fəallığının artırılmasına və təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Problemin aktuallığı. Müasir dövrdə ali təhsildə şəxsiyyətyönlü və səriştəəsaslı təlim modelinə keçid, tələbələrin idrak fəallığının və müstəqil düşünmə bacarıqlarının inkişafını zəruri edir. Bu baxımdan, müasir təlim texnologiyalarının idrak fəallığının inkişafındakı rolunun araşdırılması pedaqoji elmin və təhsil praktikasının aktual problemlərindən biri kimi çıxış edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (2013-2023). –Bakı: Elm və Təhsil Nazirliyi, –2013.
2. Əliquliyev, R.M. İnformasiya cəmiyyətinin formalaşmasının multidistplanar elmi-nəzəri problemləri / R.M. Əliquliyev, R.S. Mahmudov // İnformasiya cəmiyyəti problemləri – Bakı: 2016. №3, –s.3-18

3. İsmayılova T. Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsində interaktiv təlim metodlarından istifadə yolları // - Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2022. №2, –s.141.
4. Анисимов Н. М. Технология обучения изобретательской и инновационной деятельности. –М.: 1997.
5. Арцев, М. Н. Учебно-исследовательская деятельность учащихся: методические рекомендации для учащихся и педагогов // Завуч. – 2005. № 6.
6. Milman, N. B. (2012). The flipped classroom strategy: What is it and how can it best be used? Distance Learning, 9(3), 85–87.
7. Michaelsen, L. K., Sweet, M. (2011). Team-based learning. New Directions for Teaching and Learning, №128, 41–51. https://doi.org/10.1002/tl.467
8. Kay, R. H., LeSage, A. (2009). Examining the benefits and challenges of using audience response systems: A review of the literature. Computers & Education, 53(3), 819–827. https://doi.org/10.1016/j.compedu.2009.05.001
9. Bond, M., Bedenlier, S., Marín, V. I., & Händel, M. (2025). Engaging students in higher education with educational technology. Education and Information Technologies, 30(1), 1–25.
10. Khan, A., Zeb, I., Zhang, Y., & Khan, S. (2023). Impact of emerging technologies on cognitive development: The mediating role of digital social support among higher education students. International Journal of Educational Research and Innovation, №19, 1–15.
11. Garrison, D. R., Anderson, T., & Archer, W. (2000). Critical inquiry in a text-based environment: Computer conferencing in higher education. The Internet and Higher Education, 2(2–3), 87–105.
12. Dichev, C., & Dicheva, D. (2017). Gamifying education: What is known, what is believed and what remains uncertain. International Journal of Educational Technology in Higher Education, 14(9), 1–36.
13. Lee, J., Kim, Y., & Park, S. (2024). AI-mediated dialogue tools and their impact on higher-order cognitive skills in higher education. Computers & Education: Artificial Intelligence, 5, 100155.
14. Rutten, L., Butville, D., Wolkenhauer, R., & Dvir, B. (2024). When difficult topics emerge: How K–12 teachers make sense of unplanned difficult-topic moments // Empirical Research in Teaching and Learning, 30, 259–274. https://doi.org/10.1080/01626620.2024.2430771

Redaksiyaya daxil olub: 17.06.2026

UOT 004.8

Basti Enver Huseynzade
trainer at the Center for Methodological Support and Professional Development,
teacher at General Secondary School of Western University
https://orcid.org/0009-0005-1620-4467
E-mail:bastihuseynzade201@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).80-85

AI INTEGRATION IN SECONDARY SCHOOLS: EFFECTS ON STUDENT ENGAGEMENT AND ACHIEVEMENT

Bəsti Ənvər qızı Hüseynzadə
Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin təlimçisi
Qərbi Kaspi Universitetinin tam orta məktəbinin müəllimi

ORTA MƏKTƏBLƏRDƏ SÜNİ İNTELLEKTİN İNTEQRASİYASI: ŞAGİRDLƏRİN CƏLB OLUNMASINA VƏ AKADEMİK NAİLİYYƏTLƏRİNƏ TƏSİRİ

Басти Анвар гызы Гусейнзаде
тренер -преподаватель Центра Методической Поддержки и Профессионального Развития,
учитель полной средней школы Западно-Каспийского Университета

ИНТЕГРАЦИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В СРЕДНИЕ ШКОЛЫ: ВЛИЯНИЕ НА ВОВЛЕЧЕННОСТЬ УЧАЩИХСЯ И АКАДЕМИЧЕСКИЕ ДОСТИЖЕНИЯ

Abstract. Across the world, secondary schools are experimenting with artificial intelligence (AI) to personalize instruction, automate feedback, and augment teachers' capacity. Early evidence suggests AI can boost certain forms of engagement and achievement especially through intelligent tutoring systems (ITS), adaptive practice, and teacher-facing assistants. Yet risks remain around shallow learning, inequity, and student data protection. This article synthesizes research on the impact of AI on secondary students' engagement (behavioral, emotional, cognitive) and achievement (course grades, standardized tests, mastery), and also contrasts traditional ITS findings with new evidence on generative AI. I propose a practical implementation blueprint covering pedagogy, staffing, procurement, safety, and evaluation, along with a responsible use and governance checklist aligned to recent policy guidance (e.g., UNESCO) [1] and regulation (e.g., EU AI Act)[2]. Overall, we can conclude that schools can realize gains if they couple AI with clear learning goals, teacher capacity-building, and robust measurement plans.

Keywords: *artificial intelligence in education, intelligent tutoring systems, generative AI, student engagement, academic achievement, secondary school, policy, EU AI Act, UNESCO guidance*

Xülasə. Dünyanın müxtəlif ölkələrində orta məktəblər tədrisi fərdiləşdirmək, geribildirimi avtomatlaşdırmaq və müəllimlərin imkanlarını genişləndirmək məqsədilə süni intellektdən (AI) istifadəni sınaqdan keçirirlər. İlkin nəticələr göstərir ki, xüsusilə intellektual tədris sistemləri (ITS), adaptiv məşq alətləri və müəllimlər üçün nəzərdə tutulmuş köməkçi sistemlər vasitəsilə AI şagirdlərin müəyyən növ cəlb olunmasını və akademik nailiyyətlərini artıra bilər. Bununla yanaşı, səthi öyrənmə, bərabərsizlik və şagird məlumatlarının qorunması kimi risklər də mövcuddur. Bu məqalədə AI-nin orta məktəb şagirdlərinin cəlb olunmasına (davranış, emosional və koqnitiv) və nailiyyətlərinə (fənn qiymətləri, standartlaşdırılmış imtahanlar, biliklərin mənimsənilməsi) təsiri üzrə tədqiqatlar ümumiləşdirilir, həmçinin ənənəvi ITS nəticələri ilə generativ AI

üzrə yeni sübutlar müqayisə olunur. Məqalədə həmçinin pedaqogika, kadr təminatı, satınalma, təhlükəsizlik və qiymətləndirməni əhatə edən praktik tətbiq modeli, eləcə də məsuliyyətli istifadə və idarəetmə üzrə yoxlama siyahısı təqdim olunur. Bu yanaşma UNESCO kimi qurumların siyasət tövsiyələri və EU AI Act kimi normativ çərçivələrlə uyğunlaşdırılmışdır. Ümumilikdə belə nəticəyə gəlmək olar ki, məktəblər süni intellektdən fayda əldə edə bilərlər, əgər onu aydın təlim məqsədləri, müəllimlərin peşəkar inkişafı və güclü qiymətləndirmə mexanizmləri ilə birlikdə tətbiq etsələr.

Açar sözlər: *təhsildə süni intellekt, ağıllı repetitorluq sistemləri, generativ süni intellekt, şagirdlərin cəlb olunması, akademik nailiyyət, orta məktəb, siyasət, AB Süni intellekt Qanunu, UNESCO rəhbərliyi*

Аннотация. Средние школы по всему миру экспериментируют с использованием искусственного интеллекта (ИИ) для персонализации обучения, автоматизации обратной связи и расширения возможностей учителей. Первые результаты показывают, что ИИ, особенно с помощью интеллектуальных обучающих систем (ИТС), адаптивных инструментов коучинга и систем помощи учителям, может повысить некоторые виды вовлеченности учащихся и их успеваемость. Однако существуют и риски, такие как поверхностное обучение, неравенство и защита данных учащихся. В этой статье обобщаются исследования влияния ИИ на вовлеченность учащихся средних школ (поведенческую, эмоциональную и когнитивную) и успеваемость (оценки по предметам, стандартизированные тесты и усвоение знаний), а также сравниваются результаты традиционных ИТС с новыми данными о генеративном ИИ. В статье также представлена практическая модель внедрения, охватывающая педагогику, подбор персонала, закупки, безопасность и оценивание, а также контрольный список для ответственного использования и управления. Этот подход соответствует рекомендациям по политике таких учреждений, как ЮНЕСКО, и нормативно-правовым рамкам, таким как Закон ЕС об искусственном интеллекте. В целом, можно заключить, что школы могут извлечь выгоду из использования ИИ, если будут внедрять его в сочетании с четкими целями обучения, профессиональным развитием учителей и эффективными механизмами оценивания.

Ключевые слова: *ИИ в образовании, интеллектуальные системы обучения, генеративный ИИ, вовлеченность учащихся, академическая успеваемость, средняя школа, политика, Закон ЕС об ИИ, руководство ЮНЕСКО*

1) Introduction:

Generative AI and long-standing AI techniques are rapidly entering secondary classrooms. Policymakers, teachers, and families ask two urgent questions: (1) Will AI increase students' participation, interest, and mental effort? (2) Will AI improve its mastery of curriculum standards and performance on assessments? The answers are mixed but promising: evidence from ITS and personalized learning shows meaningful gains when AI complements sound pedagogy; evidence on generative AI is newer and reveals both benefits and pitfalls, especially when tools short-circuit thinking. 2

This article offers a scholar-practitioner view from Azerbaijan, aimed at school leaders and teachers who want to integrate AI responsibly. I first define how we should measure engagement and achievement, then review what works and what doesn't, and finally propose a blueprint that any secondary school can adapt within its context.

2) What exactly are we trying to improve?

2.1 Engagement: behavioral, emotional, cognitive

A widely cited framework [1, pp.59-63] organizes student engagement into three dimensions:

• Behavioral: participation, attendance, time on task;

• Emotional: interest, belonging, value;

• Cognitive: investment, strategy use, self-regulation.

This multidimensional view matters because AI may affect these components differently. For example, an adaptive platform might increase behavioral engagement (more minutes practiced), while a dialogic AI tutor could influence cognitive engagement (metacognition), and a creative co-writer might raise emotional engagement (enjoyment, confidence).

2.2 Achievement: outcomes that really count

Achievement can be measured through course grades, standardized tests, mastery of standards or skills, and performance tasks. To attribute gains to AI, schools need pre-/post-measures, matched comparisons or randomization, and process data to explain how outcomes changed. The strongest evidence in education

typically comes from multi-site RCTs and systematic reviews.

3) How AI could improve engagement and achievement ?(the theory of change) AI can create learning value via 5 mechanisms:

1. Personalization at scale: adaptive sequencing and hints align task difficulty to each learner's level, maximizing productive struggle and minimizing frustration.

2. Feedback acceleration: AI can give timely, targeted feedback, compressing the formative assessment loop that drives learning gains.

3. Time-on-task expansion: automation of routine tasks (grading, item generation) frees teachers to coach more, increasing high-value instructional time.

4. Metacognitive scaffolding: conversational tools can nudge self-explanation and strategy use if prompts are designed for it.

5. Motivation and belonging: gamified practice and immediate progress signals can raise persistence and perceived competence (especially for struggling learners), though this effect depends on design quality.

These mechanisms are not automatic; they materialize only when AI is embedded in a teacherled, standards-aligned model with clear guardrails.

4) What does the evidence say?

4.1 From ITS to personalization: a long evidence base

Meta-analyses and reviews of intelligent tutoring systems show consistent positive effects on K-12 achievement: across 50 controlled evaluations, students using ITS outperformed peers in conventional settings.

Classic reference points include Bloom's "2-sigma problem" (one-to-one tutoring vastly improves outcomes) and VanLehn's review comparing human tutoring with computer tutoring (step-based systems approach the effectiveness of human tutors for certain domains). While Bloom's effect sizes are aspirational, they motivate designs that approximate tutoring through step-wise guidance and mastery learning cycles. [2, pp. 4-16]

Large-scale work on personalized learning also reports gains. RAND's studies found students in personalized models made statistically significant improvements, particularly in mathematics, though effect sizes varied and implementation maturity mattered. [3, pp.8-17]

4.2 Teacher-facing AI: supporting, not replacing

Emerging randomized studies show promise when AI supports tutors/teachers rather than replaces them. Stanford's Tutor CoPilot (AI that whispers evidence-based "next moves" to human tutors) improved short-term math performance and increased tutor effectiveness across ~1,800 K-12 students. This suggests a high-leverage strategy for schools with limited expert tutors. [4]

4.3 Generative AI with students: benefits and cautions

The newest and most debated evidence concerns LLM-based tutoring. A preregistered, large RCT in a high school math setting (1,000 students) found that while generative AI tutors improved performance on practice problems, students performed worse on follow-up tests without AI. When prompts were engineered to scaffold learning (the "GPT Tutor" variant), harmful effects were reduced but not eliminated. The headline: generative AI must be designed to teach thinking, not merely deliver answers. [5, pp. 6-24]

At the same time, studies in writing and other subjects report positive outcomes when AI provides structured feedback and when usage is integrated into a coherent pedagogy. Results vary by context, task, and the way feedback is framed. [6. pp. 8-14]

4.4 Engagement effects: what do we know so far?

Systematic reviews indicate that AI (including ChatGPT-like tools) can increase behavioral engagement (more submissions, more revisions) and sometimes emotional engagement (confidence, interest), but cognitive engagement depends on prompts and teacher oversight. Gamification and adaptive practice often raise participation and persistence in secondary math and science, though quality and alignment to learning goals matter.

Surveys of teens show rising interaction with AI tools in and out of school, but also skepticism and uneven adoption. Some national surveys report weekly use of chatbots among teens; others find high curiosity and optimism paired with concerns about accuracy and

privacy, which underscores the need for explicit digital literacy instruction.

5) Risks and constraints: learning, equity, and safety

1. Shallow learning. If AI supplies solutions too quickly, students may bypass sensemaking and encode fewer durable schemas, hurting test performance when AI is removed.

2. Unequal access. Powerful AI features can be costly and bandwidth-intensive, risking wider achievement gaps unless districts fund equitable access to devices, connectivity, and teacher training.

3. Quality variance. Not all AI is evidence-based; WWC reviews of some early algebra tutors showed no discernible effects in certain contexts, reminding us that implementation quality drives outcomes. [7]

4. Privacy & safety for minors. UNESCO and national bodies call for human-centric, rights-respecting AI in schools. In the EU, the AI Act bans emotion recognition in schools and treats many educational uses as high-risk, requiring transparency, risk management, and human oversight. Schools must vet vendors carefully and avoid prohibited practices. [8, pp. 7-15]

5. Wellbeing concerns. Youth often use AI for academic help and emotional support. This dual use raises duty-of-care questions and the need for clear boundaries, disclosures, and escalation protocols.

6) What works in secondary schools: design principles

Principle A - Keep teachers at the center.

AI is an assistant, not a replacement. Prioritize teacher-facing tools that save time and tutorassist tools like CoPilot models that raise instructional quality. [9, pp.12-19]

Principle B - Favor step-based tutoring & formative loops.

Adopt tools that provide graded hints and require student self-explanations. Build frequent check-ins to adapt instruction and verify retention.

Principle C - Engineer for cognitive engagement.

Use prompt templates that push students to explain reasoning, compare strategies, and critique outputs. For writing, require reflection on AI suggestions. For math/science, include error analysis and non-calculator steps.

Principle D - Tie AI use to standards and rubrics.

Every AI-mediated task should align with clear learning objectives and rubrics. Achievement gains come from tighter cycles of goal -- practice -- feedback -- revision, not from AI novelty.

Principle E - Build equity in from day one.

Budget for devices, broadband, accessibility features, and training so all learners benefit. Monitor subgroup outcomes and adapt supports.

7) Implementation blueprint for a secondary school 7.1 Timeline (12 months) Phase 0: Readiness (Month 1–2)

• Create an AI Steering Group (teachers, students, parents, IT, counselors).

• Approve an AI use policy: permissible use, disclosures (“You are interacting with AI”), assessment rules, and data protection commitments aligned to UNESCO guidance and (if applicable) EU AI Act categories [8].

• Select priority subjects and define targets: engagement.

Phase 1: Pilot (Month 3–6)

• Deploy teacher-facing AI (lesson differentiation; formative feedback) and one studentfacing ITS for math with step-based hints and mastery tracking.

• Train staff on prompt patterns that build thinking.

• Establish guardrails for generative AI tutors: default to “explain-then-hint,” hide final answers and require student reflections.

• Run a structured evaluation (see §8): matched classes; pre/post; process metrics. Phase 2: Scale-up (Month 7–12)

• Expand to science and languages; add writing feedback tools that provide comments tied to rubric traits rather than wholesale rewrites.

• Introduce tutor-assist (e.g. CoPilot) for after-school tutoring, prioritizing struggling learners. [9]

• Share transparent reports with the community (usage, outcomes, student voice) and iterate.

7.2 Roles & Professional development

• Teachers: Learn AI-assisted planning, scaffolding prompts, and formative analytics. Weekly PLCs review dashboards and adjust instruction.

• AI Leads (two teachers per department): curate prompts, coach peers, monitor equity.

• Counselors: incorporate digital wellbeing lessons (privacy, healthy use, misinformation).

• IT/Data Protection Officer: model update/change logs; incident response.

7.3 Procurement & safety checklist (secondary schools)

• Evidence: RCTs/WWC/peer-reviewed results? Internal A/B plan?

• Pedagogical design: step-based feedback; student explanations; visibility for teachers.

• Data protection: data minimization; student pseudonymization; no training on minors' data; clear retention/deletion.

• Compliance: if in the EU/EEA, confirm no emotion recognition, transparency for chatbots, and high-risk obligations (risk management, human oversight).

• Accessibility: multilingual, screen reader support, offline modes.

8) How to measure impact (and convince skeptics) 8.1 Engagement instrumentation (based on Fredricks et al.)

• Behavioral: attendance; class participation logs; minutes in practice; assignment completion; revision counts.

• Emotional: brief Likert items on interest, perceived competence, and value (administer pre/post each unit).

Cognitive: self-explanation frequency, metacognitive reflections ("what changed in your thinking?"), strategy use checklists.

8.2 Achievement metrics

• Curricular: unit tests, common performance tasks with blind scoring.

• External: standardized assessments or vendor-neutral benchmark tests.

• Mastery: skill proficiency progression within ITS (but always validate with external measures to avoid "teaching to the platform").

8.3 Suggested evaluation designs

• Matched comparison: pilot classes vs. similar classes.

• Crossover: Class A uses AI in Term 1 then switches; Class B vice-versa.

• Process analytics: instrument prompts (e.g. frequency of self-explanations) to connect engagement mechanisms to achievement changes.

9) Practical use-cases for secondary subjects

• Mathematics: Step-based ITS with mastery paths; structured "wrong-answer" analysis; teacher dashboards flag misconceptions. Combine with an AI-assisted tutor for tutors to scale expert moves in interventions.

• Writing/Language Arts: AI feedback on clarity, evidence, organization. Require a revision memo explaining which AI suggestions were accepted or rejected (metacognition).

• Science: AI-generated lab pre-questions and safety checks; simulations with prompts that ask students to predict, test, and explain; rubric-linked feedback on CER (ClaimEvidence-Reasoning).

• Social Studies: AI-assisted primary-source questioning; bias detection exercises; structured debates in which students must critique AI outputs.

• Languages: Conversational practice with role-play prompts; automated formative feedback on grammar with teacher oversight; authentic audience tasks (letters, scripts).

10) Policy, ethics, and governance

• Human-centric design: UNESCO's guidance urges that AI in education be learner centered, equitable, and transparent. Schools should disclose AI use to students and parents and align with professional ethics. [7]

• Regulatory realities: The EU AI Act (the world's first comprehensive AI law) bans emotion recognition in schools and treats many educational tools as high-risk. Even outside the EU, these norms influence global vendors and best practices.

• Teacher profession: International organizations (OECD, NEA) emphasize AI as a means to strengthen the teaching profession, calling for investment in teacher learning and school culture. [10, pp.5-17]; [11, pp.10-28]

Wellbeing & digital citizenship: Given teen reliance on AI for information and even companionship, schools must teach AI literacy, healthy boundaries, and escalation pathways for risk.

11) A model unit: Grade 9 Algebra (3 weeks)

Objective: Students master solving systems of linear equations and justify methods (substitution, elimination, graphing).

AI integration:

• Daily practice in ITS with stepwise hints and mastery checks; guardrail LLM available only for "explain-then-hint," not final answers.

• Formative feedback: AI drafts targeted comments tied to the rubric; teachers edit and personalize.

• Metacognition: Students submit a short revision memo after each checkpoint explaining

the error they fixed and the strategy they now prefer.

• Assessment: Common unit test, plus a performance task where students must critique an AI solution.

Evaluation plan: Randomize two sections to receive AI hints during practice; two sections use standard practice. Compare growth controlling for baseline. Track time on task, hint depth, and revision memo quality.

2) Conclusion

AI is neither a miracle nor a menace; it is a multiplier of the instructional design we choose. Evidence from ITS and teacher-assist tools supports cautious optimism: when AI increases time on task, accelerates formative feedback, and scaffolds metacognition, both engagement and achievement improve. The newest generative tools can either amplify learning or erode it, depending on guardrails and pedagogy. Secondary schools should move forward by empowering teachers, protecting students, and measuring what matters.

13) Relevance of the article and problem discussed

The relevance of this article is primarily justified by the fact that schools around the world have already begun integrating AI solutions into teaching and learning processes, yet the real impact of these technologies on student engagement, motivation, and academic achievement remains insufficiently explored. Existing studies indicate that intelligent tutoring systems and adaptive platforms can improve learning outcomes in certain contexts, while uncontrolled use of generative AI may lead to superficial learning, academic dependency, and weakened critical thinking skills [6] Therefore, the issue is highly relevant from both pedagogical and ethical perspectives.

The topic is also highly relevant for the Azerbaijani education system. Digital transformation, STEAM education, expansion of e-learning resources, and the development of innovative school models are among the country's strategic priorities. Thus, the relevance of this article lies in its systematic examination of how artificial intelligence affects student engagement and academic achievement in secondary schools, while also presenting international best practices and a practical implementation framework for Azerbaijan. For this reason, the study has both theoretical significance and practical value.

References

1. Fredricks, JA, Blumenfeld, PC, və Paris, AH. Məktəbin cəlb olunması: Konsepsiyanın potensialı // Sübutların vəziyyəti. Təhsil Tədqiqatlarının İcmalı, Cild 8 №9, –2004. –p. 59-109. https://doi.org/10.3102/00346543074001059
2. Bloom, B.S. The 2 Sigma Problem. Educational Researcher //*Soheil Sibdari* –1984. Cild 5 №13, –pp. 4-16.
3. RAND. Personalized Learning reports on math/reading effects // International Journal of TESOL & Education 2(4):1-20, 2015–2017. –p.8-17.
4. Stanford HAI. AI Index Report – Education chapter: / –2024. https://hai.stanford.edu/ai-index/2024-ai-index-report/educatio
5. European Schools. Legal and Pedagogical Guidelines for the Educational Use of Generative AI / –2025. – p.6-24
6. Bastani, H., et al. Generative AI without guardrails can harm learning: Evidence from high school mathematics // Proceedings of the National Academy of Sciences 122(26). – 2025. –p. 8-14.
7. WWC/IES. Cognitive Tutor Intervention Reports:/ https://ies.ed.gov/ncee/wwc/Docs/InterventionReports/wwc_cognitivetutor_062116.pdf
8. UNESCO Guidance for Generative AI in Education and Research / –p. 7-15. 2023/2024. https://unesdoc.unesco.org/ark:/48223/pf0000386693
9. Tutor CoPilot RCT. A Human-AI Approach for Scaling Real-Time Expertise // Preprint + coverage. –2024. –p. 12-19. https://arxiv.org/abs/2410.03017
10. NEA. Task Force on Artificial Intelligence in Education (policy and ethics) / –2024. –p. 5-17. https://www.nea.org/sites/default/files/2024-06/report_of_the_nea_task_force_on_artificial_intelligence_in_education_ra_2024.pdf
11. OECD (). AI and education working papers; What should teachers teach… in a future of powerful AI? / –2024–2025. –p.10-28. https://www.oecd.org/en/publications/education-policy-outlook-2024_dd5140e4-en.html
12. Zawacki-Richter, O., Marín, V. I., Bond, M., & Gouverneur, F. Systematic Review of Research on Artificial Intelligence Applications in Higher Education. International Journal of Educational Technology in Higher Education, 16(39). –2019. –p. 1-24. https://dialnet.unirioja.es/servlet/articulo?codigo=7288782

Redaksiyaya daxil olub: 08.05.2026.

UOT 004.8

Gülnar Rüstəm qızı İsmayılova
Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunun müəllimi
https://orcid.org/0009-0004-0045-961X
E-mail: gulnarqebeyeva@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).86-91

SÜNİ İNTELLEKT DÖVRÜNDƏ MÜƏLLİM NÜFUZUNUN TRANSFORMASİYASI

Gulnar Rustam Ismayilova
lecturer at the Military Institute of the Internal Troops of the Ministry of Internal Affairs

TRANSFORMATION OF TEACHER AUTHORITY IN THE ERA OF ARTIFICIAL INTELLIGENCE

Гюльнар Рустам гызы Исмаилова
преподаватель Военного Института Внутренних Войск МВД

ТРАНСФОРМАЦИЯ АВТОРИТЕТА УЧИТЕЛЯ В ЭПОХУ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

Xülasə. Məqalədə süni intellekt texnologiyalarının təhsil sisteminə geniş nüfuz et-məsi şəraitində müəl-lim nüfuzunun transformasiyası və bu prosesin pedaqoji münasibətlərə təsiri araşdırılır. Ənənəvi pedaqoji modeldə müəllim biliklərin əsas mənbəyi və sinifdə vahid nüfuzlu fiqur kimi çıxış edirdisə, müasir rəqəmsal mühit-də bu rol əhəmiyyətli dəyişikliklərə məruz qalır. Süni intellekt əsaslı sistemlər şagirdlərin məlumat əldə etmə imkanlarını genişləndirərək müəllimin məlumatlanma funksiyasını məhdudlaşdırır, lakin onun istiqamət-ləndirici (moderator) və mentor rolunu ön plana çıxarır. Tədqiqatın nəticələri göstərir ki, müəllim nüfuzu tama-milə itmir; əksinə, o, yeni kommunikativ və pedaqoji məzmun qazanaraq transformasiya olunur. Bu təkamül pedaqoji münasibətlərin daha interaktiv və əməkdaşlıq yönümlü olmasına şərait yaradır.
Açar sözlər: *Süni intellekt, müəllim nüfuzu, pedaqoji münasibətlər, təhsil transformasiyası, rəqəmsal təhsil, müəllim-şagird münasibətləri, pedaqoji model*

Abstract. The article explores the transformation of teacher authority and its impact on pedagogical relationships in the context of the widespread integration of Artificial Intelligence (AI) technologies into the education system. In the tradition-nal pedagogical model, the teacher acted as the primary source of knowledge and the sole authoritative figure; however, in the modern digital environment, this role is undergoing significant changes. AI-based systems limit the teacher's information-sharing function by expanding students' access to data, yet they simultaneously highlight the teacher's role as a moderator and mentor. The results of the research indicate that teacher authority is not disappearing entirely; rather, it is being transformed by acquiring new communicative and pedagogical content. This evolution fosters more interactive and collaboration-oriented pedagogical relationships.
Keywords: *Artificial intelligence, teacher authority, pedagogical relationships, educational transformation, digital education, teacher-student relationships, peda-gogical model*

Аннотация. В статье исследуется трансформация авторитета учителя в условиях широкого внедрения технологий искусственного интеллекта в систему образования и влияние этого процесса на педагогические отношения. Если в традиционной педагогической модели учитель выступал как основной источник знаний и единая авторитетная фигура, то в современной цифровой среде эта роль претерпевает значительные изменения. Системы на базе искусственного интеллекта, расширяя возможности учащихся по получению информации, ограничивают информативную функцию учителя, но при этом выдвигают на первый план его роль как педагогического направляющего и ментора. Результаты исследования показывают, что авторитет учителя не ис-чезает полностью;

напротив, он трансформируется, обретая новое коммуни-кативное и педагогическое содержание. Эта эволюция создает условия для того, чтобы педагогические отношения стали более интерактивными и ори-ентированными на сотрудничество.

Ключевые слова: *искусственный интеллект, авторитет учителя, педагогические отношения, трансформация образования, цифровое образование, отношения учитель-ученик, педагогическая модель*

Giriş: XXI əsr informasiya cəmiyyəti şəraitində təhsil sisteminin rəqəmsallaşması və rəqəmsal məlumatlara (datalara) əsaslanması yeni pedaqoji yanaşmaların formalaşmasına gətirib çıxarmışdır. Süni intellekt texnologiyalarının sürətli inkişafı təhsil sahəsində yeni imkanlar açmaqla yanaşı, bir sıra nəzəri və praktik sualları da ortaya qoyur. Holmes, Bialik və Fadel (2019) qeyd edirlər ki, süni intellekt təhsildə həm öyrənmə prosesini fərdiləşdirmək, həm də müəllimlərin iş yükünü azaltmaq potensialına malikdir. ChatGPT, virtual təlim platformaları, adaptiv öyrənmə sistemləri və avtomatlaşdırılmış qiymətləndirmə vasitələri kimi texnologiyalar artıq təhsil prosesinin ayrılmaz hissəsinə çevrilməkdədir. Bu dəyişikliklər həm təlimin texniki aspektlərinə, həm də pedaqoji münasibətlər sisteminə, xüsusilə müəllim-şagird qarşılıqlı əlaqəsinə ciddi təsir göstərir. Ənənəvi pedaqoji yanaşmada müəllim əsas bilik mənbəyi, istiqamətverici və sinifdəki əsas avtoritet fiqur kimi çıxış edirdi. Müəllimin avtoriteti onun bilik səviyyəsi, pedaqoji bacarıqları, təcrübəsi və sosial nüfuzu ilə formalaşırdı. Lakin süni intellekt texnologiyalarının təhsil mühitinə daxil olması ilə bu modeldə nəzərəçarpacaq dəyişikliklər müşahidə olunur. Şagirdlər artıq məlumatı müəllimlə bərabər rəqəmsal mənbələrdən və süni intellekt əsaslı sistemlərdən də əldə edə bilirlər. Bu isə müəllimin "yeganə bilik mənbəyi" funksiyasını zəiflədir və onun rolunun yenidən şərh edilməsini (interpretasiyasını) aktuallaşdırır.

Belə bir şəraitdə müəllim avtoritetinin mahiyyəti dəyişərək, onun rolu daha çox yönləndirici, fasilitator və öyrənmə prosesini təşkil edən subyektə çevrilir. Bu transformasiya pedaqoji münasibətlərə də birbaşa təsir göstərir: müəllim və şagird arasındakı iyerarxik münasibətlər tədricən daha əməkdaşlıqyönlü və interaktiv modelə keçid edir. Bununla belə, bu proses birmənalı getmir və müəyyən pedaqoji, psixoloji, eləcə də sosial problemlər yaradır. Məsələn, müəllim nüfuzunun zəiflə-məsi, şagirdlərdə məlumatı tənqidi qiymətləndirmə bacarıqlarının kifayət qədər formalaşmaması və texnologiyadan asılılıq kimi risklər ortaya çıxa bilər.

Mövzunun aktuallığı da məhz bu ziddiyətli proseslərlə bağlıdır. Bir tərəfdən süni intellekt təhsili daha əlçatan, çevik və fərdiləşdirilmiş vəziyyətə gətirir , digər tərəfdən isə ənənəvi pedaqoji münasibətlərin strukturunu dəyişdirir. Bu dəyişikliklərin mahiyyətini anlamaq, müəllim avtoritetinin hansı istiqamətdə transformasiya olunduğunu müəyyənləşdirmək və onun pedaqoji prosesə təsirini araşdırmaq müasir pedaqogikanın mühüm vəzifələrindən biridir.

Məqalənin əsas məqsədi süni intellekt texnologiyalarının yayılması şəraitində müəllim avtoritetinin transformasiya xüsusiyyətlərini təhlil etmək və bu prosesin pedaqoji münasibətlərə təsirini araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün müəllim avtoritetinin ənənəvi modeli, süni intellektin təhsilə gətirdiyi yeniliklər və pedaqoji münasibətlərdə baş verən dəyişikliklər kompleks şəkildə nəzərdən keçirilir.

Süni intellekt və təhsil mühiti

Müasir elmi tədqiqatlar göstərir ki, süni intellekt təhsil sahəsində həm texnoloji vasitə, həm də didaktik alət kimi, eyni zamanda pedaqoji münasibətlərin strukturunu və öyrənmə prosesinin təşkilini dəyişdirən fundamental faktor kimi çıxış edir [6, s. 5-9]. Bu yanaşmaya görə, süni intellekt "texnoloji determinizm" çərçivəsində müəllim rolunu əvəz edən deyil, əksinə, "pedaqoji transformasiya" yaradan bir mexanizm kimi qiymətləndirilir [4, s. 20-24].

Azərbaycan təhsil mühitində də oxşar tendensiyalar müşahidə olunur. Elektron jurnal sistemləri (məsələn, "e-məktəb" platforması), "Virtual Məktəb" layihəsi və rəqəmsal tədris resurslarının geniş tətbiqi müəllimin idarəedici funksiyasını gücləndirmişdir. Eyni zamanda, müəllim artıq yalnız dərs keçən subyekt deyil, şagirdlərin fərdi öyrənmə trayektoriyasını izləyən, onların akademik inkişafını tənzimləyən və rəqəmsal mühitdə yönləndirici rol oynayan "mentor müəllim" modelinə doğru transformasiya olunmaqdadır [8, s. 14-19]. Bu dəyişiklik təhsildə "hibrid pedaqoji model"in formalaşdığını göstərir ki, burada insan müəllim və süni intellekt sistemləri qarşılıqlı tamamlayıcı funksiyalarla çıxış edirlər [7, s. 63-70].

Süni intellekt texnologiyalarının təhsil prosesinə inteqrasiyası müəllimin peşə fəaliyyətini ənənəvi üç əsas funksional istiqamət – bilik ötürülməsi, sinif idarəetməsi və qiymətləndirmə – üzrə nəzərəçarpacaq dərəcədə transformasiya etmişdir. Müasir pedaqoji yanaşmalarda bilik ötürülməsi funksiyası artıq qismən adaptiv öyrənmə sistemləri, intellektual tyutorlar və rəqəmsal tədris platformaları tərəfindən avtomatlaşdırılmış və fərdiləşdirilmiş məzmun təqdimatı formasında icra olunur ki, bu da "fərdiləşdirilmiş öyrənmə" konseptinin güclənməsinə gətirib çıxarmışdır [6, s. 10-14]. Müasir sinif mühitində müəllim nizam-intizamı təmin edir, eyni zamanda öyrənmə motivasiyasını tənzimləyən, inklüziv təhsil mühitini formalaşdıran və şagirdlərin psixososial inkişafını dəstəkləyən "pedaqoji fasilitator" rolunu icra edir [12, s. 1025-1030].

Qiymətləndirmə sahəsində isə süni intellekt əsaslı analitik sistemlərin və adaptiv alqoritmlərin tətbiqi genişlənmişdir. Bu sistemlər öyrənənlərin potensialını real vaxt rejimində izləyərək "öyrənmə analitikası" vasitəsilə daha obyektiv və çoxölçülü qiymətləndirmə imkanları yaradır [10, s. 252-254]. Azərbaycan təhsil sistemində də bu qlobal tendensiyaların analoqları müşahidə olunur və rəqəmsal texnologiyaların tətbiqi müəllimin fəaliyyət strukturunu yenidən formalaşdırır.

Lakin qeyd etmək vacibdir ki, bu transformasiya müəllim avtoritetinin zəifləməsi kimi deyil, əksinə, onun funksional spektrinin genişlənməsi və daha mürəkkəb pedaqoji rol modelinə keçidi kimi qiymətləndirilməlidir [5, s. 90-96].

Müəllim nüfuzunun transformasiyası: funksional və struktur dəyişikliklər

Müəllim nüfuzunda baş verən transformasiya prosesi onun sosial və pedaqoji funksiyalarının tənəzzülü (deqradasiyası) kimi deyil, bu funksiyaların məzmun və struktur baxımından yenidən təşkil olunaraq daha mürəkkəb, çoxkomponentli və dinamik sistemə çevrilməsi kimi interpretasiya olunmalıdır. [1, s. 20-24]. İnformasiya bolluğu şəraitində müəllimin funksional statusu dəyişərək, biliklərin sadə ötürülməsindən daha çox onların seçilməsi, sistemləşdirilməsi və təlim subyektləri üçün mənalandırılması prosesinə yönəlmiş fasilitator rolunu ön plana çıxarır. [4, s. 18-22]. Bu kontekstdə müəllim avtoritetinin transformasiyası üç əsas istiqamət üzrə izah oluna bilər: epistemoloji (biliklə bağlı), kommunikativ (ünsiyyətlə bağlı) və funksional (rol və fəaliyyətlə bağlı).

Cədvəl 1. *Ənənəvi və müasir pedaqoji modeldə müəllim avtoritetinin müqayisəli təhlili*

Meyar	**Ənənəvi model**	**Müasir (Sİ əsaslı) model**
Bilik mənbəyi	Müəllim əsas və yeganə mənbə	Müəllim + rəqəmsal və Sİ sistemləri
Avtoritet tipi	Formal və iyerarxik	Funksional və əməkdaşlıq yönümlü
Müəllim rolu	Məlumat ötürücü	Fasilitator, mentor, analitik
Şagird rolu	Passiv qəbul edən	Aktiv iştirakçı və öyrənən
Ünsiyyət forması	Monoloji	Dialoji və interaktiv
Qiymətləndirmə	Subyektiv və yekun	Analitik, davamlı və obyektiv

Cədvəldən göründüyü kimi, müasir dövrdə müəllim nüfuzu daha çox onun pedaqoji səriştəsi, kommunikativ bacarıqları və öyrənmə prosesini idarə etmə qabiliyyəti ilə müəyyən olunur. Bu isə müəllimin sosial nüfuzunun yeni əsaslar üzərində formalaşdığını göstərir [9, s. 90-95].

Epistemoloji baxımdan müəllim artıq biliklərin daşıyıcısı olmaqla bərabər on-ların interpretatoru (şərhçisi) və tənzimləyicisi rolunu oynayır. Şagirdlərin müxtəlif mənbələrdən əldə etdiyi informasiyanın təhlili və prosesin düzgün istiqamətləndirilməsi müəllimin əsas funksiyalarından birinə çevrilmişdir [6, s. 11-13]. Kommunikativ baxımdan isə, müəllim-şagird münasibətləri daha demokratik xarakter alır. Müəllim nüfuzu artıq məcburetmə və nəzarət üzərində deyil, qarşılıqlı hörmət, etimad və əməkdaşlıq prinsipləri üzərində qurulur [8, s. 15-18]. Bu isə pedaqoji münasibətlərin humanistləşməsi və fərdiləşməsi ilə nəticələnir.

Funksional baxımdan müəllimin fəaliyyəti genişlənərək yeni istiqamətləri əhatə edir. Müasir müəllim:

- öyrənmə prosesinin təşkilatçısı;
- şagirdlərin inkişafını izləyən analitik;
- fərdi yanaşmanı təmin edən mentor;
- rəqəmsal mühitdə yönləndirici rolunu icra edən fasilitator kimi çıxış edir [11, s. 25-28].

Bu transformasiya prosesi süni intellekt texnologiyalarının təhsildə tətbiqi ilə birbaşa bağlıdır və müəllim nüfuzunun daha dayanıqlı və adaptiv xarakter almasına şərait yaradır. Beləliklə, müəllim nüfuzu zəifləyən deyil, yeni şəraitə uyğun olaraq təkamül edən (yenidən formalaşan) sosial-pedaqoji kateqoriya kimi çıxış edir.

Müəllim-şagird münasibətlərinin transformasiyası və interaktiv pedaqoji mühit

Süni intellekt texnologiyalarının təhsil sisteminə inteqrasiyası müəllim nüfuzunun mahiyyətini müəllim-şagird münasibətlərinin strukturunu da köklü şəkildə dəyişdirmişdir. Ənənəvi pedaqoji modeldə bu münasibətlər əsasən iyerarxik xarakter daşıyırdı; burada müəllim məlumat ötürən, şagird isə onu mənimsəyən tərəf kimi çıxış edirdi. Müasir rəqəmsal təhsil mühitində isə bu münasibətlər daha çox əməkdaşlıq, qarşılıqlı subyekt-subyekt fəaliyyəti və interaktivlik prinsipləri üzərində qurulur [8, s. 16-19].

Müasir tədqiqatlar göstərir ki, süni intellekt əsaslı sistemlərin tətbiqi öyrənmə prosesini daha açıq və dinamik hala gətirərək, şagirdlərin təlim prosesində aktiv iştirakını təmin edir [6, s. 14-17]. Bu şəraitdə şagird artıq passiv bilik resipienti (qəbul edəni) deyil, öyrənmə prosesinin fəal iştirakçısı və hətta müəyyən mənada onun həmmüəllifinə çevrilir. Bu isə müəllim–şagird münasibətlərində simmetrikliyin artmasına və pedaqoji interaksiyanın demokratikləşməsinə gətirib çıxarır [9, s. 92-96].

Rəqəmsal texnologiyalar vasitəsilə qurulan təhsil mühitində kommunikasiya formaları da əhəmiyyətli dərəcədə dəyişir. Ənənəvi monoloji təlim forması yerini dialoji və çoxkanallı kommunikasiya modellərinə verir. Müəllim və şagird arasında qarşılıqlı fikir mübadiləsi, müzakirə və birgə problem həlli prosesi daha geniş imkanlar qazanır. Bu isə təlim prosesinin effektivliyini artırmaqla yanaşı, müəllim nüfuzunun yeni əsaslar üzərində bərqərar olmasına (formalaşmasına) şərait yaradır [10, s. 252-254].

Cədvəl 2. *Ənənəvi və müasir pedaqoji münasibətlərin müqayisəli xarakteristikası*

Meyar	**Ənənəvi model**	**Müasir (Sİ əsaslı) model**
Münasibət tipi	İyerarxik	Əməkdaşlıq yönümlü
Şagirdin rolu	Passiv	Aktiv və təşəbbüskar
Müəllimin rolu	Nəzarətçi	Fasilitator və mentor
Kommunikasiya	Biristiqamətli	Çoxtərəfli və interaktiv
Öyrənmə prosesi	Standart	Fərdiləşdirilmiş
Motivasiya	Xarici (qiymət, nəzarət)	Daxili (maraq, iştirak)

Cədvəldən göründüyü kimi, müasir pedaqoji münasibətlər modeli daha çox əməkdaşlıq və qarşılıqlı təsir üzərində qurulmuşdur. Bu isə müəllimin həm idarəedici, həm də psixoloji və sosial dəstək funksiyalarını gücləndirir. Müəllim təlim prosesində öyrənənlərin akademik motivasiyasını stimullaşdıran, onların fərdi-psixoloji və koqnitiv xüsusiyyətlərini diferensiallaşdırılmış yanaşma əsasında nəzərə alan, eyni zamanda inklüzivlik prinsiplərinə əsaslanan pedaqoji mühitin formalaşdırılmasını təmin edən əsas didaktik subyekt kimi çıxış edir. [11, s. 26-29]. Eyni zamanda, süni intellekt texnologiyalarının təhsil mühitinə inteqrasiyası öyrənənlərin müstəqil öyrənmə (self-directed learning) imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir və fərdiləşdirilmiş təlim trayektoriyalarının formalaşmasına şərait yaradır. Müasir pedaqoji paradiqma çərçivəsində müəllim artıq bilik transmissiyası (ötürülməsi) ilə məhdudlaşmayan, əksinə, öyrənmə fəaliyyətinin planlaşdırılması, təşkili və effektiv idarə olunmasını həyata keçirən "pedaqoji lider" statusu qazanır. Bununla yanaşı, pedaqoji münasibətlər sistemində baş verən bu tip transformasiyalar texnoloji asılılıq, alqoritmik qərəzlilik və pedaqoji nəzarətin zəifləməsi kimi kompleks risk faktorları ilə də müşayiət olunur. Şagirdlərdə rəqəmsal texnologiyalardan həddindən artıq istifadə (hiperistifadə) meyillərinin güclənməsi, sosial-interaktiv kompetensiyaların zəifləməsi və müəllim nüfuzunun formal-institusional müstəvidə nisbi qiymətdən düşməsi (devalvasiyası) kimi tendensiyalar müşahidə oluna bilər. Bu kontekstdə müəllimin funksional rolu təkcə didaktik fəaliyyətin təşkili ilə məhdudlaşmır; o, eyni zamanda sosiallaşma prosesinin idarə olunması, dəyərlərə əsaslanan (dəyər-oriyentasiyalı) təlimin həyata keçirilməsi və etik-normativ çər-

çivələrin formalaşdırılması istiqamətində daha yüksək əhəmiyyət kəsb edən pedaqoji subyekt (actor) kimi çıxış edir.

Problemin aktuallığı. Süni intellekt texnologiyalarının təhsil sisteminə sürətli inteqrasiyası müəllim nüfuzunun mahiyyətinin yenidən dəyərləndirilməsini zəruri edən əsas amillərdən biri kimi çıxış edir. Rəqəmsal mühitdə informasiya resurslarına çıxışın genişlənməsi və şagirdlərin müstəqil öyrənmə imkanlarının artması ənənəvi pedaqoji münasibətlərin strukturunu dəyişdirərək müəllimin rolunu transformasiyaya uğratmışdır. Bu baxımdan, müəllim nüfuzunun yeni şəraitdə funksional xüsusiyyətlərinin tədqiqi və pedaqoji prosesdəki yerinin müəyyənləşdirilməsi müasir pedaqogikanın prioritet problemlərindən biri hesab olunur.

Problemin elmi yeniliyi. Məqalədə müəllim nüfuzunun süni intellekt dövründə transformasiya xüsusiyyətləri kompleks şəkildə təhlil edilmiş, onun ənənəvi və müasir modelləri müqayisəli yanaşma əsasında sistemləşdirilmişdir. Tədqiqat nəticəsində müəllim nüfuzunun epistemoloji, kommunikativ və funksional aspektləri üzrə dəyişmə tendensiyaları elmi əsaslarla izah olunmuş, onun "bilik ötürücüsü" funksiyasından fasilitator və mentor roluna keçidi konseptual şəkildə əsaslandırılmışdır.

Problemin praktik əhəmiyyəti. Araşdırmanın nəticələri müəllimlərin pedaqoji fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması baxımından mühüm praktik əhəmiyyət kəsb edir. Təklif olunan yanaşmalar və elmi nəticələr təhsil müəssisələrində müəllim hazırlığı proqramlarının təkmilləşdirilməsində, pedaqoji fəaliyyətin təşkilində və rəqəmsal təhsil mühitində effektiv müəllim-şagird münasibətlərinin qurulmasında tətbiq oluna bilər. Bu isə təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə və daha interaktiv və əməkdaşlığa əsaslanan pedaqoji mühitin formalaşmasına xidmət edir.

Nəticə. Aparılan elmi təhlil göstərir ki, süni intellekt texnologiyalarının təhsil sisteminə inteqrasiyası müəllim nüfuzunun mahiyyətində fundamental dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi pedaqoji modeldə müəllim əsas bilik mənbəyi və dominant nüfuz fiquru kimi çıxış etdiyi halda, müasir rəqəmsal mühitdə bu status transformasiya olunaraq daha çevik, funksional və çoxölçülü xarakter kəsb etmişdir. Müəllim artıq yalnız informasiya ötürən subyekt deyil, həm də öyrənmə prosesini təşkil edən, istiqamətləndirən və fərdiləşdirən fasilitator və mentor kimi fəaliyyət göstərir.

Tədqiqat nəticələri sübut edir ki, süni intellekt müəllim nüfuzunu zəiflədən deyil, əksinə, onu yeni məzmun və funksiyalarla zənginləşdirən amildir. Müəllimin pedaqoji rolu informativ funksiyadan daha çox analitik, kommunikativ və sosial-emosional sferaya yönəlmişdir. Bu isə müəllim-şagird münasibətlərində iyerarxik modeldən əməkdaşlıq və interaktivlik əsaslı modelə keçidi şərtləndirmişdir.

Eyni zamanda müəyyən edilmişdir ki, bu transformasiya prosesi birmənalı xarakter daşımır və bir sıra çağırışlarla müşayiət olunur. Şagirdlərin informasiyaya sərbəst çıxışı müəllim nüfuzunun nisbi zəifləməsinə, texnologiyadan asılılığın artmasına və tənqidi düşüncə bacarıqlarının yetərincə inkişaf etməməsi riskinə səbəb ola bilər. Bu baxımdan, müəllimin rolu daha da aktuallaşır və o, bilik ötürməklə yanaşı, informasiyanın düzgün seçilməsini və qiymətləndirilməsini təmin edən əsas pedaqoji subyekt kimi çıxış edir [3, s. 58-60].

Araşdırma nəticəsində belə qənaətə gəlmək mümkündür ki, gələcəyin təhsil modeli insan (müəllim) və süni intellekt sistemlərinin qarşılıqlı tamamlayıcı fəaliyyəti əsasında formalaşacaqdır. Bu modeldə müəllim avtoritetinin əsasını onun texnoloji biliklərindən daha çox pedaqoji ustalığı, etik dəyərləri, kommunikativ bacarıqları və şagirdlərlə qurduğu keyfiyyətli münasibətlər təşkil edəcəkdir.

Beləliklə, süni intellekt dövründə müəllim nüfuzu itmir, əksinə, yeni pedaqoji reallıqlara uyğun olaraq yenidən formalaşır və daha yüksək səviyyəli, adaptiv və dayanaqlı xarakter alır. Bu transformasiyanın düzgün idarə olunması isə təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi və insan kapitalının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Əhmədov, H. Ümumtəhsil məktəblərində dərsdə müasir təlim metodlarından istifadə rəqabətəqabil təhsil məkanının təmin edilməsi vasitəsi kimi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2025. – № 5. – s. 53–57.
2. Fullan, M., Langworthy M. A Rich Seam: How New Pedagogies Find Deep Learning. – London: Pearson, –2014. – 80 s.
3. Hattie, J. Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement. – London: Routledge, –2009. – 378 s.
4. Holmes, W., Bialik M., Fadel C. Artificial Intelligence in Education: Promises and Implications for Teaching and Learning. – Boston: Center for Curriculum Redesign, –2019. – 48 s.
5. Luckin, R. Machine Learning and Human Intelligence: The Future of Education for the 21st Century. – London: UCL Institute of Education Press, –2018. – 256 s.

6. Luckin, R., Holmes W., Griffiths M., Forcier L.B. Intelligence Unleashed: An Argument for AI in Education. – London: Pearson Education, –2016. – 52 s.
7. Məmmədova, L. Təhsildə rəqəmsal transformasiya və müəllimin yeni rolu // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2024. – №3. – s. 45–52.
8. Mishra, P., Koehler M.J. Technological Pedagogical Content Knowledge: A Framework for Teacher Knowledge // Teachers College Record. – 2006. – Vol.108, №6. – s.1017–1054.
9. OECD. AI in Education: Challenges and Opportunities for Sustainable Development. – Paris: OECD Publishing, –2021. – 120 s.
10. Quliyeva, S. Təhsildə süni intellekt texnologiyalarının tətbiqi // Təhsil İnstitutunun Elmi əsərləri. – 2022. – №4. – s. 25–31.
11. Redecker, C. European Framework for the Digital Competence of Educators (DigCompEdu). – Luxembourg: Publications Office of the European Union, –2017. – 95 s.
12. Rzayeva, A. Rəqəmsal mühitdə pedaqoji münasibətlər // Təhsil İnstitutunun Elmi əsərləri. – 2023. – №1. – s. 12–19.
13. Selwyn, N. Should Robots Replace Teachers? AI and the Future of Education. – Cambridge: Polity Press, –2019. – 172 s.
14. Siemens, G., Baker R.S. Learning Analytics and Educational Data Mining: Towards Communication and Collaboration // Proceedings of the 2nd International Conference on Learning Analytics and Knowledge. – 2012. – s.252–254.
15. UNESCO. AI and Education: Guidance for Policy-Makers. – Paris: UNESCO Publishing, –2021. – 94 s.
16. Zawacki-Richter, O., Marín V.I., Bond M., Gouverneur F. Systematic Review of Research on Artificial Intelligence Applications in Higher Education // International Journal of Educational Technology in Higher Education. – 2019. – Vol.16, №1. – s.1–27.

Redaksiyaya daxil olub: 15.05.2026

UOT: 37.01(075.8).

Gülmira Sahib qızı Əsədova
Naxçıvan Müəllimlər İnstitutunun müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1914-8163
E-mail:gulmirahaciyeva90@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).92-96

NAXÇIVAN MAARİFÇİLİK MÜHİTİNDƏ ŞƏXSİYYƏT TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ: TARİXİ ƏNƏNƏ VƏ MÜASİR METODOLOJİ YANAŞMALAR

Gulmira Sahib Asadova
lecturer at the Nakhchivan Teachers' Institute,
doctor of philosophy in pedagogy

ISSUES OF PERSONALITY EDUCATION IN THE NAKHCHIVAN ENLIGHTENMENT ENVIRONMENT: HISTORICAL TRADITIONS AND MODERN METHODOLOGICAL APPROACHES

Гюльмира Сахиб гызы Асадова
преподаватель Нахчыванского Института Учителей,
доктор философии по педагогике

ВОПРОСЫ ВОСПИТАНИЯ ЛИЧНОСТИ В НАХЧЫВАНСКОЙ ПРОСВЕТИТЕЛЬСКОЙ СРЕДЕ: ИСТОРИЧЕСКИЕ ТРАДИЦИИ И СОВРЕМЕННЫЕ МЕТОДОЛОГИЧЕСКИЕ ПОДХОДЫ

Xülasə. Məqalədə Naxçıvan maarifçilik mühitinin şəxsiyyət tərbiyəsi məsələlərinə dair tarixi təcrübəsi və bu irsin müasir metodoloji paradiqmalarla sintezi təhlil olunur. Tədqiqatda M.T. Sidqinin "Məktəbi-Tərbiyə" modelində uşaq psixologiyası, ailə-məktəb vəhdəti və ana dili amili, həmçinin "Molla Nəsrəddin" məktəbinin vətəndaşlıq mövqeyi və ictimai məsuliyyət prinsipləri araşdırılır. Müasir dövrün çağırışları fonunda sərişt*əə*saslı təlim, emosional intellekt və rəqəmsal vətəndaşlıq kimi innovativ yanaşmaların tarixi ənənələrlə vəhdəti əsaslandırılır. Nəticə etibarilə, milli ruhlu və qlobal rəqabətə davamlı şəxsiyyətin yetişdirilməsində tarixi varisliyin qorunmasının və müasir pedaqoji innovasiyaların tətbiqinin zəruriliyi vurğulanır.
Açar sözlər: *Naxçıvan maarifçiliyi, şəxsiyyət tərbiyəsi, Məhəmməd Tağı Sidqi, vətəndaşlıq mövqeyi, emosional intellekt* sərişt*əə*saslı *təlim, rəqəmsal vətəndaşlıq*

Abstract. The article analyzes the historical experience of the Nakhchivan enlightenment environment regarding personality education and the synthesis of this heritage with modern methodological paradigms. The study explores child psychology, the unity of family and school, and the factor of the mother tongue in M.T. Sidqi's "Mektebi-Terbiye" model, as well as the principles of civic position and social responsibility within the "Molla Nasreddin" school. Against the backdrop of contemporary challenges, the integration of historical traditions with innovative approaches such as competency-based education, emotional intelligence, and digital citizenship is substantiated. In conclusion, the necessity of preserving historical continuity and applying modern pedagogical innovations in fostering a personality that is both nationally rooted and globally competitive is emphasized.
Keywords: *Nakhchivan enlightenment, personality education, Mohammad Taghi Sidqi, civic position, emotional intelligence, competency-based education, digital citizenship*

Аннотация. В статье анализируется исторический опыт нахчыванской просветительской среды в вопросах воспитания личности и синтез данного наследия с современными методологическими парадигмами. В исследовании рассматриваются детская психология, единство семьи и школы, а также роль родного языка в модели «Мектеби-Тарбия» М.Т. Сидги, наряду с принципами гражданской позиции и общественной ответственности школы «Молла Насреддин». На фоне вызовов современности обосновывается единство исторических традиций с инновационными подходами, такими как компетентностно-ориентированное обучение, эмоциональный интеллект и цифровое гражданство. В результате подчеркивается необходимость сохранения исторической преемственности и применения современных педагогических инноваций в воспитании личности, обладающей национальным духом и конкурентоспособной в глобальном мире.

Ключевые слова: *нахчыванское просветительство, воспитание личности, Мухаммед Таги Сидги, гражданская позиция, эмоциональный интеллект, компетентностно-ориентированное обучение, цифровое гражданство*

Naxçıvanın çoxəsrlik mədəniyyət tarixi Azərbaycan intellektual fikrinin inkişafında müstəsna yeri var. Bu region təkcə coğrafi deyil, həm də strateji bir mədəniyyət qovşağı olaraq, əsrlər boyu elmi həmçinin fəlsəfi düşüncənin mərkəzi kimi çıxış etmişdir. Xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərində bu bölgədə formalaşan maarifçilik hərəkatı, sadəcə savadlılıq səviyyəsinin artırılması və kütləvi təhsilin təşkili deyil, həm də mahiyyət etibarilə milli kimliyin qorunması, özünüdərk prosesinin sürətlənməsi və modern şəxsiyyətin formalaşması məqsədini güdürdü. [2, s. 77] Bu dövrün maarifçiliyi fərdi kütlə halından çıxarıb, onu öz hüquqlarını bilən, vətəndaşlıq məsuliyyətini dərk edən "yeni insan" modelinə çevirmişdir.

Müasir dövrdə qloballaşmanın gətirdiyi sürətli mədəni transformasiyalar, milli dəyərlərin qlobal standartlarla toqquşması və rəqəmsal mühitin yaratdığı yeni sosiokültural reallıqlar fonunda bu zəngin tarixi təcrübənin dərindən öyrənilməsi həyatı əhəmiyyətlidir. Bu tarixi irs sadəcə keçmişin xatirəsi deyil, eyni zamanda müasir təhsil sistemimiz üçün fundamental bir dayaq nöqtəsi olmuşdur. Buna görə də, klassik maarifçilik ənənələrinin müasir metodologiya xüsusilə subyekt-subyekt münasibətlərində, emosional intellektin inkişafı və kompetensiya əsaslı təlim modelləri ilə sintez edilməsi xüsusi aktualdır. Belə bir sintez, gənc nəslin həm milli köklərinə sadiq qalmasını, həm də dünya elminin və qlobal dəyərlərin tələblərinə cavab verən intellektual şəxsiyyət kimi yetişməsini təmin edən yeganə elm yoldur.

Məhəmməd Tağı Sidqi və Şəxsiyyətin Harmonik İnkişafı: Naxçıvan maarifçiliyinin sütunu sayılan Məhəmməd Tağı Sidqi üçün şəxsiyyət tərbiyəsi ailə və məktəbin ortaq məhsuludur. Sidqi pedaqoji prosesi vahid bir sistem kimi görür; və o inanırdı ki, ailədə qoyulan mənəvi təməl məktəbdə elmi biliklərlə cilalanmalı, məktəbin verdiyi tərbiyə isə ailə mühiti tərəfindən dəstəklənilməlidir. O, 1894-cü ildə əsasını qoyduğu "Məktəbi-Tərbiyə" vasitəsilə təcrübi şəkildə sübut etdi ki, uşaq psixologiyasını, onun yaş xüsusiyyətlərini və fərdi meyllərini nəzərə almadan aparılan hər hansı tərbiyəvi təsir formal xarakter daşıyır və şəxsiyyətin daxili aləmində kök sala bilmir. [3, s. 59]

Maarifçiyə görə, müəllim uşağın ruhuna nüfuz etməyi bacarmalı, təlimi quru nəsihətçilikdən çıxarıb canlı, psixoloji amillərə söykənən bir prosesə çevirməlidir.

Sidqinin metodologiyasında şəxsiyyətin "əxlaqi saflığı" onun "elmi dərki" ilə eynilk təşkil edir. O, intellektual inkişafı mənəviyyatdan ayırmırdı; hesab edirdi ki, yüksək elmi biliyə sahib olan, lakin əxlaqi dəyərlərdən məhrum olan fərd cəmiyyət üçün faydalı şəxsiyyət ola bilməz. Bu vəhdət onun tədris proqramlarında dünyəvi elmlərlə etik davranış normalarının paralel aşılanmasında özünü büruzə verməkdə idi. Eyni zamanda, o hesab edirdi ki, ana dilini mükəmməl bilməyən, öz dilinin incəliklərinə həmçinin ifadə qüdrətinə bələd olmayan fərd milli kimlik qazanmış şəxsiyyət ola bilməz.[4, s. 145]

Dil Sidqi üçün sadəcə ünsiyyət vasitəsi olmayıb, şəxsiyyətin milli özünüdərkinin təməl daşı və onun tarixi yaddaşına bağlanan ən güclü bağ idi. Bu səbəbdən o, ana dilində təhsilin və ana dili sevgisinin aşılanmasını şəxsiyyət formalaşmasının ilkin şərti kimi irəli sürürdü.

Mollanəsrəddinçi Tərbiyə Sistemi və Vətəndaşlıq Mövqeyi: Cəlil Məmmədquluzadə və

onun məsləkdaşlarının Naxçıvan mühitində formalaşmış ideyaları şəxsiyyət tərbiyəsində "ictimai məsuliyyət" faktoru kimi ön plana çıxardı. Mollanəsrəddinçilərin tərbiyə sistemi klassik pedaqogikadan fərqli olaraq, fərdi sadəcə qapalı məktəb mühitində deyil, birbaşa geniş ictimai-siyasi reallıqlar daxilində nəzərdən keçirilirdi. Bu məktəbin nümayəndələri hesab edirdilər ki, tərbiyənin əsas qayəsi insana xalqın dərdini öz dərdi kimi hiss etdirmək və onu passiv müşahidəçidən fəal qurucuya çevirməkdir. Burada şəxsiyyət mənəvi ədalətə və nadanlığa qarşı mübarizə aparmalı, mövhumatın qaranlığından elmin işığına can atmalı, öz fundamental hüquqlarını tanıyan və ən əsası, cəmiyyətin ümumi tərəqqisi üçün çalışan aktiv subyekt olmalıdır.

Mollanəsrəddinçi tərbiyə metodologiyasında tənqidi təfəkkürün formalaşdırılmasında mərkəzi yer tuturdu. Onlar şəxsiyyəti "müti" (itaətkar) olmaqdan çıxarıb, ətrafda baş verən hadisələrə analitik nəzərlə baxa bilən "hürr" (azad) vətəndaş kimi yetişdirməyi qarşıya məqsəd qoyurdu.

Cəlil Məmmədquluzadənin "Məktəb" hekayəsində və digər publisistik yazılarında irəli sürdüyü ideyalar göstərirdi ki, vətəndaşlıq mövqeyi şəxsiyyətin ali keyfiyyətidir. Bu sistemdə şəxsiyyətin yetkinliyi onun fərdi uğurları ilə deyil, mənsub olduğu cəmiyyətin oyanışına və milli tərəqqiyə verdiyi uğurlar ilə ölçülürdü. Beləliklə, Naxçıvan mühitində formalaşan bu tərbiyə modeli Azərbaycan pedaqoji fikrinə "ictimai faydalılıq" və "milli təəssübkeşlik" prinsiplərini əsas götürərək, müasir vətəndaş tərbiyəsinin elmi-tarixi bünövrəsini yaratmışdır.

Müasir dövrün tələbləri şəxsiyyət tərbiyəsində sadəcə biliyin mexaniki şəkildə ötürülməsini deyil, həmin biliyin həyat fəaliyyətinə transformasiya olunmasını təmin edən bacarıq və dəyərlərin (səriştələrin) formalaşmasını tələb edir. [7, s. 34]

Bu yanaşma təhsilin məzmununu "nəyi bilmək" prinsipindən "necə tətbiq etmək" və "hansı dəyərlərə sahib olmaq" müstəvisinə keçirilir. Bu gün Naxçıvanın təhsil müəssisələrində tətbiq olunan yenilikçi yanaşmalar göstərir ki, şəxsiyyət artıq tərbiyənin passiv "obyekti" deyil, öz inkişaf trayektoriyasını müəyyən edən, yaradıcı və təşəbbüskar "subyekti"dir. [1, s. 42] Bu münasibətləri şagird və tələbənin özünürealləşdırma imkanlarını genişləndirir, təhsil alanın fərdi rəyini və seçimini ön plana çıxararaq onu təhsil prosesinin mərkəzi fiquruna çevirir.

Emosional İntellekt: Müasir metodologiya fərdin öz hisslərini tanımasını, onları effektiv şəkildə idarə etməsini və sosial mühitdə konstruktiv münasibətlər qurmasını şəxsiyyətin yetkinlik göstəricisi hesab edir.[6, s. 210]

Emosional intellekt artıq sadəcə bir psixoloji xüsusiyyət deyil, şəxsiyyətin sosial adaptasiyasını həmçinin uğurunu təmin edən fundamental bir kompetensiyadır. Gənclərin öz daxili dünyasını dərk etməsi, emosional vəziyyətlərini tənzimləməsi və başqaları ilə sağlam empatiya qurması bu gün təlim-tərbiyə prosesinin ayrılmaz və zəruri hissəsidir. Bu proses gənclərdə stressə davamlılıq, qərar qəbul etmə məsuliyyəti və sosial liderlik kimi keyfiyyətləri inkişaf etdirib, onları qloballaşan dünyanın mürəkkəb sosial münasibətlərinə hazırlayır.

Araşdırmalardan görə bilərik ki, şəxsiyyət tərbiyəsində müvəffəqiyyət bu üç amilin ailə, məktəb və cəmiyyətin ayrılmaz vəhdətindən və qarşılıqlı koordinasiyasından asılıdır. Şəxsiyyətin formalaşması prosesi bu üç sosial institutun hər birinin özünəməxsus funksiyalarını yerinə yetirilmiş vahid bir mühitdə baş verir.

Naxçıvanda ailə institutu tarixən güclü və mühafizəkar (müsbət mənada dəyərləri qoruyan) bir struktur olduğu üçün milli-mənəvi dəyərlərin, adət-ənənələrin və etik normaların nəsildən-nəslə ötürülməsində ciddi bir boşluq və ya problem müşahidə olunmayıb hal hazırdada nəzərə çapmır. Ailə burada şəxsiyyətin mənəvi fundamentini qoyan ilkin və ən təsirli məktəb rolunu tutur.

Rəqəmsallaşma ailədaxili ünsiyyət modellərini transformasiyaya uğradır və gənclərin dəyərlər sisteminə nəzarət olunmayan virtual mənbələrdən təsirlər gətirib çıxarır. Bu müdaxilə fonunda "Rəqəmsal Vətəndaşlıq" tərbiyəsi şəxsiyyətin formalaşmasında strateji əhəmiyyət kəsb edir. Müasir metodologiya tələb edir ki, şəxsiyyət rəqəmsal mühitdə özünü təhlükəsiz hiss etməli, etik qaydalar çərçivəsində davranmalı və virtual dünyanın manipulyasiyalarına qarşı mənəvi immunitet qazanmalıdır. Bu məqsədlə, ailənin tarixi təcrübəsi ilə yanaşı məktəbində təqdim etdiyi media savadlılığı və cəmiyyətin dəstəklədiyi sosial nəzarət mexanizmləri birləşərək, rəqəmsal dövrün təhdidlərini şəxsiyyətin inkişafı üçün imkanlara çevirməlidir.

Naxçıvan maarifçilik mühitində şəxsiyyət tərbiyəsi həm zəngin tarixi köklərə, eyni ilə də çevik müasir metodologiyaya malikdir. Bu mühit əsrlər boyu formalaşmış pedaqoji irsi qoruyub saxlamaqla yanaşı, dövrün tələblərinə uyğun olaraq özünü yeniləməyi bacaran dinamik bir struktur olmuşdur. Tarixi təcrübə – xüsusilə klassik maarifçilərimizin irəli sürdüyü milli qürur, ana dili sevgisi, əxlaqi saflıq prinsipləri – bugünkü innovativ təlim üsulları (interaktiv metodlar, layihə əsaslı öyrənmə, rəqəmsal maarifçilik) ilə sintez olunduqda, milli ruhlu şəxsiyyətlərin yetişməsi həm daha effektiv, həm də daha davamlı olur.

Bu sintez prosesi gənc nəslin yalnız qlobal texnoloji yenilikləri mənimsəməsini deyil, həm də bu yenilikləri milli maraqlar və dəyərlər süzgəcindən keçirməsini əsas tutur. Şəxsiyyət tərbiyəsində tarixi varisliyin qorunması gənclərin milli köklərinə bağlanmasını təmin edən və bir növ "mənəvi lövbər" rolunu oynayır. Müasir metodoloji yanaşmalar isə həmin gənclərin qlobal rəqabətə davamlı, açıq fikirli və yaradıcı fərdlər kimi formalaşmasına yol açır. Beləliklə, Naxçıvanın pedaqoji mühiti göstərir ki, tərəqqi keçmişi inkar etmək üçün yox, onun üzərində müasir dünyagörüşünü inşa etməkdir.

Nəticə. Nəticə etibarilə, milli ruhlu və qlobal rəqabətə davamlı şəxsiyyətin yetişdirilməsində tarixi varisliyin qorunması və müasir pedaqoji innovasiyaların tətbiqinin zəruriliyi vacib məsələlərdən biridir. Naxçıvan maarifçilik mühitində formalaşmış şəxsiyyət tərbiyəsi sistemi Azərbaycan pedaqoji fikir tarixində mühüm yer tutur və bu irs müasir təhsil yanaşmaları üçün də aktual elmi-metodoloji əhəmiyyət daşıyır. Araşdırma göstərir ki, Məhəmməd Tağı Sidqinin "Məktəbi-Tərbiyə" modeli, mollanəsrəddinçilərin vətəndaşlıq mövqeyi və ictimai məsuliyyət ideyaları şəxsiyyətin milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasına xidmət etmişdir. Bu ənənələrdə ailə, məktəb və cəmiyyətin qarşılıqlı vəhdəti əsas prinsip kimi çıxış etmiş, şəxsiyyətin həm əxlaqi, həm də intellektual inkişafı vahid sistem daxilində nəzərdən keçirilmişdir. Müasir dövrdə isə qloballaşma, rəqəmsallaşma və sosial dəyişikliklər şəxsiyyət tərbiyəsinə yeni yanaşmalar tələb edir.

Beləliklə, Naxçıvan maarifçilik mühiti sübut edir ki, şəxsiyyət tərbiyəsində davamlı inkişaf yalnız tarixi varisliyin qorunması və müasir pedaqoji yeniliklərin qarşılıqlı sintezi əsasında mümkündür. Bu yanaşma həm milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsinə, həm də müasir dünyanın çağırışlarına uyğun çevik və düşünən vətəndaşların yetişdirilməsinə geniş imkan yaradır.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Naxçıvan maarifçilik mühitində şəxsiyyət tərbiyəsinə dair klassik pedaqoji ideyalar müasir metodoloji yanaşmalar kontekstində sistemli şəkildə təhlil edilmişdir. Tədqiqatda ilk dəfə olaraq Məhəmməd Tağı Sidqinin "Məktəbi-Tərbiyə" modelində ailə-məktəb vəhdəti, ana dili amili və uşaq psixologiyasına əsaslanan tərbiyə prinsipləri sərişdəsaslı təlim, emosional intellekt və rəqəmsal vətəndaşlıq kimi müasir pedaqoji konsepsiyalarla müqayisəli şəkildə əlaqələndirilmişdir.

Problemin aktuallığı. Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və sürətli sosial-mədəni dəyişikliklər şəxsiyyət tərbiyəsi məsələsini pedaqoji elmin ən aktual problemlərindən birinə çevirmişdir. Gənc nəslin milli-mənəvi dəyərlərə bağlı, eyni zamanda müasir dünyanın tələblərinə uyğun çevik düşüncəli, yaradıcı və sosial məsuliyyətli şəxsiyyət kimi formalaşdırılması təhsil sisteminin əsas prioritet istiqamətlərindən hesab olunur. Bu baxımdan, Azərbaycan maarifçilik tarixində mühüm yer tutan Naxçıvan maarifçilik mühitinin pedaqoji irsinin öyrənilməsi və onun müasir metodoloji yanaşmalarla əlaqələndirilməsi xüsusi aktuallıq kəsb edir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədə irəli sürülən nəzəri müddəalar və metodoloji yanaşmalar müasir təlim-tərbiyə prosesində şəxsiyyətin formalaşdırılması istiqamətində praktik tətbiq imkanlarına malikdir. Naxçıvan maarifçilik mühitinin tarixi təcrübəsinin öyrənilməsi müəllimlərin pedaqoji fəaliyyətində milli-mənəvi dəyərlərə əsaslanan tərbiyə modelinin daha səmərəli qurulmasına kömək edir.

Ədəbiyyat

1. Əlizadə, Ə.Ə. Yeni pedaqoji təfəkkürün metodoloji prinsipləri / Ə.Ə. Əlizadə. –Bakı: ADPU Nəşriyyatı, –2016. –248 s.
2. Hacıyev, İ.M. Naxçıvanın intellektual tarixi və maarifçi mühiti / İ.M. Hacıyev. –Naxçıvan: Əcəmi NPB, –2018. –320 s.
3. Hüseynzadə, R. Pedaqoji prosesin psixologiyası / R. Hüseynzadə. –Bakı: Nurlar, –2017. –312 s.

4. Məmmədov, K. Azərbaycan maarifçilik hərəkatında Naxçıvan mütəfəkkirlərinin yeri / K. Məmmədov.–Bakı: Elm və Təhsil, –2020. –276 s.
5. Səfərov, R. "Müasir şəxsiyyət tərbiyəsində emosional intellekt və sosiallaşma" // Azərbaycan Məktəbi jurnalı, –2022. № 3, –s. 45-56.
6. Seyidov, S.İ. Şəxsiyyət psixologiyası və tərbiyənin müasir problemləri // –Bakı: Təhsil, –2014. –384 s.
7. Veysova, Z. Fəal öyrənmə və tərbiyədə innovasiyalar / Z. Veysova. –Bakı: Müəllim nəşriyyatı, –2019. –196 s.
8. Mammadzade, R.R. Teoría y problemas actuales de la formación moral de los estudiantes // Universidad y Sociedad, Tendencias de las nuevas economías: la importancia de sus publicaciones para alcanzar el desarrollo sostenible. Parte I vol. -17 Núm. – 2025 https://rus.ucf.edu.cu/index.php/rus/article/view/5019
9. Məmmədzadə, R.R. Tərbiyə texnologiyaları ilə fəaliyyətin psixoloji məsələləri // - Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi əsərləri, 2025. № 5, –s. 152-156 https://journals.arti.edu.az/journal?id=31-volume-92-No5-2025

Redaksiyaya daxil olub: 15.05.2026

UOT: 37.01(075.8).

Xanım Hüseyn qızı Qədimova
Bakı Dövlət Universitetinin müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-5398-0386

Aysel Azər qızı Qədimova
Dermotoloji klinikada tərcüməçi
https://orcid.org/0009-0001-3269-986X
https://doi.org/10.69682/arti.2026.93(4).97-100

ANTİK ROMADA TƏHSİL VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASI

Khanim Huseyn Kadimova
lecturer at Baku State Universit
doctor of philosophy in pedagogy

Aysel Azar Kadimova
translator at the Dental Clinic

EDUCATION AND PERSONALITY DEVELOPMENT IN ANCIENT ROME

Ханым Гусейн гызы Гадимова
преподаватель Бакинского Государственного Университета,
доктор философии по педагогике

Айсель Азер гызы Гадимова
переводчик Дермотологической клинике

ОБРАЗОВАНИЕ И ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ В ДРЕВНЕМ РИМЕ

Xülasə. Qədim Romada təhsil cəmiyyətin ayrılmaz hissəsi hesab olunur və fərdlərin ictimai həyata inteqrasiyasına xidmət edirdi. “Educatio” anlayışı Roma vətəndaşının fiziki, mənəvi və intellektual inkişafına yönəlmiş ilkin tərbiyəni, “humanitas” isə gəncliyin sonrakı dövrlərində verilən mənəvi və mədəni təhsili ifadə edirdi. Roma cəmiyyətində ailə və aqrar dəyərlər əsas yer tutur, “pietas” və “mos maiorum” kimi anlayışlar tərbiyənin əsasını təşkil edirdi. İlk tərbiyə ailədə, xüsusilə ana və ata tərəfindən verilirdi; ata övladını əmək, savad, hüquq bilikləri və ictimai həyata hazırlayırdı. Bu təhsil modeli romalıların fəal siyasi və ictimai həyatında iştirakını təmin edirdi.
Açar sözlər: *Qədim Roma, təhsil, fiziki inkişaf, intellektual inkişaf, ailə tərbiyəsi, aqrar dəyərlər, ata tərbiyəsi, əmək tərbiyəsi*

Abstract. Ancient Roman education was regarded as an integral part of society and served to integrate individuals into public life. The concept of educatio referred to the initial upbringing of the Roman citizen aimed at physical, moral, and intellectual development, while humanitas denoted the moral and cultural education provided during the later stages of youth. In Roman society, family and agrarian values occupied a central place, and concepts such as pietas and mos maiorum formed the foundation of upbringing. Early education was provided within the family, especially by the mother and father; the father prepared the child for labor, literacy, knowledge of law, and participation in public life. This educational model ensured the active involvement of Romans in political and social life.
Keywords: *Ancient Rome, education, physical development, intellectual development, family upbringing, agrarian values, paternal education, labor education*

Аннотация. Древнеримское образование считалось неотъемлемой частью общества и служило интеграции личности в общественную жизнь. Понятие «educatio» обозначало первоначальное воспитание римского гражданина, направленное на его физическое, нравственное и интеллектуальное развитие, тогда как «humanitas» выражало нравственное и культурное образование, получаемое в более поздние периоды юности. В римском обществе важное место занимали семейные и аграрные ценности, а такие понятия, как «pietas» и «mos maiorum», составляли основу воспитания. Первоначальное воспитание осуществлялось в семье, прежде всего матерью и отцом; отец приучал ребёнка к труду, обучал грамоте, правовым знаниям и готовил к участию в общественной жизни.

Ключевые слова: *Древний Рим, образование, физическое развитие, семейное воспитание, аграрные ценности*

Antik dövr təxminən eradan əvvəl XI əsr və eranın V əsrinə qədərki dövrü əhatə edir. Antiklik əsasən, iki qədim dövlət – Yunanıstan və Roma ilə təmsil olunurdu. Qədim Roma Aralıq dənizi-subtropik iqlim qurşağında, əlverişli təbii zonada yerləşirdi. Roma e.ə. 753-cü ildə salınmışdır. Qədim Romada siyasi və sosial həyat çox fəal idi və romalılar üçün təhsil cəmiyyətə aid bir hadisə sayılırdı; bu təhsil fərdləri şəhərin ictimai həyatına inteqrasiya edirdi.

Latın mənşəli əcdadların bu təlimlərinin bir çoxu müasir dövrdə də faydalı hesab olunur. Siseron oğluna tövsiyə edirdi ki, cəmiyyətdə hər zaman xoş davranışlı olsun ki, insanlar tərəfindən qəbul edilsin. Latın dilində "educatio" (təhsil, tərbiyə) termini Roma vətəndaşının ilkin tərbiyəsini ifadə edirdi və bu tərbiyə onun fiziki, mənəvi və intellektual qabiliyyətlərinin inkişafına yönəlmişdi.

"Humanitas" termini isə sonrakı mərhələdə verilən əsl mədəni təhsili bildirirdi. Bu, mənəvi dəyərlərə əsaslanan, daha incə və kamil bir təhsil olub gəncliyin sonrakı illərinə aid edilirdi.

Roma cəmiyyətinin əsasında aqrar (kənd təsərrüfatına əsaslanan) xarakter daşıyan quruluş dayanırdı və bu cəmiyyətdə ev və ailə dəyərləri üstünlük təşkil edirdi. Tərbiyə olunan əsas hiss "pietas" adlanan duyğu idi ki, bu anlayış valideynlərə, əcdadlara, Vətənə və ilahi qüvvələrə hörməti ifadə edən geniş məzmunlu bir anlayışdır. Din də mühüm, əsas tərkib hissələrindən biri idi.

Bu dəyərlərin cəmi "mos maiorum" adlanırdı ki, bu da əcdadlardan gələn nümunə və ənənələr deməkdir.

Ailədə ilk tərbiyəçi ana idi. Uşaq yeddi yaşına çatdıqdan sonra ata (pater familias) onun birbaşa tərbiyəçisi olurdu. Atanın nümunəsi ilə oğul işləməyi və ya təsərrüfatı idarə etməyi, həmçinin Roma forumunda açıq şəkildə baş verən ictimai həyata qatılmağı öyrənirdi. Romalılar şəhər üçün ən mühüm qərarları birgə və açıq şəkildə müzakirə edən ilk sivilizasiyalardan biri olmuşlar və qədim Romada demokratiyanın mahiyyəti də məhz bundan ibarət idi. Beləliklə, ata övladına kənd təsərrüfatı üzrə ilkin bilikləri, ilk savadlanmanı və hüquq anlayışlarını öyrədirdi. Bu biliklər Qədim Romada xüsusilə mühüm idi, çünki onlar ictimai həyatda iştirak etməyə və dövlət vəzifələri tutmağa imkan verirdi.

Oğlan uşağı 14 yaşına çatdıqda, etrusk adətinə görə, kənarları qırmızı haşiyəli olan "toga praetexta" geyimini (latınca toga "örtmək" mənasını verir, yun və ya digər parçadan olan böyük və uzun paltar, kişi Roma vətəndaşları üçün rəsmi geyim kimi tanındı) çıxarır və tamamilə ağ rəngli "toga libera" geyinirdi. Bununla da o, siyasi hazırlığını təkmilləşdirmək məqsədilə Senatda əyləşmək hüququ qazanır, yaşlı senatorların müzakirələrini izləyir və beləliklə öz ictimai-siyasi təcrübəsini keçirdi. Göründüyü kimi, Roma vətəndaşının formalaşması hələ yeniyetməlik dövründən başlayırdı, çünki həmin dövrdə həyat sürətlə keçirdi və cəmiyyət daim müharibə şəraitində yaşayırdı.

Hərbi xidməti başa vurduqdan sonra gənc öz siyasi həyatına başlaya bilərdi və çox vaxt atasına və ya ailəsinə dostluq münasibətləri ilə bağlı olan bir şəxsin himayəsi altında fəaliyyət göstərirdi.

E.ə. 451-ci ildən etibarən Roma Forumunda Roma şəhərinin əsas qanunlarının həkk olunduğu bürünc lövhələr – "On iki cədvəl" nümayiş etdirilirdi. Hər kəs onları oxuya və ya asanlıqla öyrənə bilirdi. Qanunlar olduqca sadə idi və "mos maiorum"u (ataların adət-ənənələrini) ümumiləşdirirdi. Bu dəyərlərə aşağıdakılar daxil idi:

1. Roma ənənələrinə mütləq hörmət;
2. "pietas" – yəni mənəvi və dini qaydalara, mənşəyindən gələn adət-ənənələrə riayət etmək;
3. əxlaqi ciddilik;
4. qanuna itaət.

Qız övladları əsasən evdə qalır, məişət işlərini öyrənirdilər. Həmin dövrdə nə maşınlar, nə elektrik, nə axar su, nə də avtomobillər mövcud olmadığından, ev işləri ailənin və ev təsərrüfatının davamlılığı üçün son dərəcə vacib idi. Bu səbəbdən qadınlar təkcə öz evlərini deyil, bütövlükdə Roma cəmiyyətini də idarə edib yaşadırdılar. Bu, Roma cəmiyyətinin ən qədim ənənəsi idi. Lakin Roma dövlətinin gücünün artması və ərazilərinin genişlənməsi ilə bu ənənələrdə də bir sıra dəyişikliklər baş verdi.

Yunanıstanın fəthindən sonra, məsələn, incəsənət və mədəniyyətin daha inkişaf etmiş və zərif olduğu, romalıların "fəlsəfə" ilə tanış olduqları bir mühitdə Roma mədəniyyəti bundan güclü şəkildə təsirləndi. Çünki ellinistik düşüncə cərəyanları təhsilin mərkəzinə insanı, onun fərdiliyini qoyurdu, halbuki romalılarda əsas olan dövlət anlayışı – "res publica", yəni ictimai iş, ümumi mənafe idi.

Eramızdan əvvəl III əsrdən etibarən, Roma hakimiyyətinin genişlənməsi ilə təhsil sistemi dəyişməyə başladı və varlı ailələr övladlarının tərbiyəsini savadlı azad edilmiş köləyə – "pedagogus"a həvalə edirdilər. "Liberto" ağasının verdiyi icazə ilə azadlıq əldə etmiş kölə idi.

İmperiyanın inkişafı ilə qızlar da oxumağa başlayır, mahnı oxumağı, rəqs etməyi, rəsm çəkməyi və incəsənətin digər sahələrini öyrənirdilər.

Mark Porsiy Katon, "Senzor" ləqəbi ilə tanınan bu şəxs, həmin dəyişiklikləri tənqid edir və romalıları ata-babadan qalma qədim ənənələrə qayıtmağa çağırır; bu ənənələrdə ata öz övladlarının təbii tərbiyəçisi hesab olunurdu.

O, "Libri ad Marcum filium" əsərində kənd təsərrüfatı, tibb və ritorika ilə bağlı nəsihət və bilikləri toplayır. Katon natiqliyi vətəndaşlıq fəziləti kimi qiymətləndirir, lakin onu etik və siyasi dəyərlərlə sıx əlaqədə görür. Natiq danışığında ədalətli, ənənələrə sadiq, cəsarətli olmalı və ictimai həyatda fəal iştirak etməyi bacarmalıdır.

Katon sonralar "Liber de agri cultura" ("Kənd təsərrüfatı haqqında kitab") əsərini yazır və bu əsərdə tarlalarda görülən əməyi ticarət fəaliyyəti ilə müqayisə edərək ona qarşı qoyur və üstün tutur. Katona görə, bu fəaliyyətlər düzgün siyasi istiqamətləndirmə ilə həyata keçirildiyi təqdirdə Roma dövlətini böyüdə və qüdrətli edə bilər.

Mark Tulli Siseron dövlət xadimi, filosof və yazıçı olmuş, latın ədəbiyyatına mühüm təsir göstərmişdir. Siseron Roma cəmiyyətində yunan-ellin mədəniyyətinin yayılmasında həlledici rol oynamışdır; bu mədəniyyət romalılarınkından daha incə və inkişaf etmiş hesab olunurdu. O, yunan fəlsəfəsinin Romada tanıdılmasına və yayılmasına töhfə vermişdir. Siseron ali təhsilə xüsusi diqqət yetirir və bildirir ki, natiqin formalaşması üçün ədəbiyyat, fəlsəfə, hüquq və etik biliklər zəruridir. O hesab edirdi ki, dövlətin rifahı vətəndaşın yaxşı tərbiyəsindən asılıdır və natiqin yetişdirilməsi güclü siyasi əhəmiyyət daşıyır. Mark Tulli Siseron dialoq formasında yazılmış "De oratore" ("Natiq haqqında") əsərində ritorika və natiqlik sənətini araşdırır və onun əsas mərhələlərini müəyyənləşdirir. Siserona görə ideal natiq geniş biliklərə malik olmalı, lakin təkəbbürlü olmamalı, öz biliklərini nümayiş etdirməməli, əksinə, dürüst və sadə həyat tərzi sürən bir insan olmalıdır. Bu gün də natiqlik (oratorluq) sənəti Siseron tərəfindən müəyyən edilmiş prinsiplər əsasında öyrənilir.

İbtidai təhsil yeddi yaşından başlayırdı. Bu mərhələdə "magister" və ya "litterator" adlanan müəllimlər oxumağı və yazmağı öyrədirdilər. "Calculator" isə riyaziyyat müəllimi idi və hesab aparmağı öyrədirdi. Bu təlim çox mühüm sayılırdı, çünki bir çox şagirdlər təhsili yarımçıq qoyaraq tacir olurdular. Müəllimlər və təlimçilər cəza tədbirləri kimi bədənə yönəlmiş cəzalardan da istifadə edirdilər: düyünlü taxta qamışdan ibarət "ferula" və ya dəri zolaqlardan hazırlanmış qamçı – "scutica" və ya "virgula". Birinci təhsil mərhələsinin sonunda Roma oğlanları oxumağı və yazmağı bacarırdılar ki, bu da həmin dövr üçün olduqca qeyri-adi bir hal idi.

Orta təhsilə yalnız varlı ailələrdən olan oğlanlar qəbul edilirdi. Burada üç il ərzində qrammatika, məntiq, ritorika, musiqi və astronomiya, həmçinin həndəsə, arifmetika və memarlıq fənləri tədris olunurdu.

Ritorika Siseron tərəfindən əsaslandırılmışdı və natiqlik sənəti siyasi həyatda istifadə olunduğuna görə fundamental əhəmiyyət daşıyırdı.

Ritorika dərsləri söz sənətinin peşəkarı olan, eyni zamanda mənəvi baxımdan nümunə sayılan bir müəllimin rəhbərliyi altında keçirilirdi.

Lusi Anney Seneka isə "*Lusiliyaya məktublar*" əsərində əxlaqi baxımdan özünü təkmilləşdirməyin zəruriliyini vurğulayır və fəzilətli insanların nümunəsini izləməyi tövsiyə edirdi.

Demək olar ki, qədim romalılar təhsilə böyük önəm verirdilər və ilk illərdə bu vəzifə əvvəlcə ana, sonra isə ata tərəfindən şəxsən yerinə yetirilirdi. Daha sonra Romanın ərazisinin genişlənməsi və yunan mədəniyyəti ilə təmaslar nəticəsində bu iş peşəkar müəllim və tərbiyəçilərə həvalə olunmuşdur.

Problemin aktuallığı. Antik Romada təhsil və şəxsiyyətin formalaşması məsələsinin öyrənilməsi müasir pedaqogika və təhsil nəzəriyyəsi üçün mühüm əhəmiyyət daşıyır. Qədim Roma cəmiyyətində formalaşmış "educatio", "humanitas", "pietas" və "mos maiorum" kimi anlayışlar fərdin yalnız bilik əldə etməsini deyil, həm də onun mənəvi, sosial və vətəndaşlıq keyfiyyətlərinin inkişafını hədəfləyirdi. Bu isə müasir dövrdə şəxsiyyətyönlü təhsil konsepsiyaları ilə səsləşir.

Problemin yeniliyi. Tədqiqatın yeniliyi Antik Romada təhsil və şəxsiyyətin formalaşması prosesinin yalnız tarixi fakt kimi deyil, həm də müasir pedaqoji yanaşmalar kontekstində kompleks şəkildə təhlil olunması ilə bağlıdır. Xüsusilə "educatio", "humanitas", "pietas" və "mos maiorum" kimi anlayışların qarşılıqlı əlaqədə araşdırılması, onların fərdin sosiallaşmasında və vətəndaş kimi yetişməsində oynadığı rolun sistemli şəkildə təqdim edilməsi elmi yenilik kimi çıxış edir.

Problemin praktik əhəmiyyəti. Antik Romada təhsil və şəxsiyyətin formalaşması modelinin öyrənilməsi müasir təhsil sistemləri üçün mühüm praktik nəticələr verir. İlk növbədə, ailənin tərbiyədə aparıcı rolunun vurğulanması göstərir ki, uşağın şəxsiyyət kimi formalaşmasında məktəbdən əvvəl ailədaxili dəyərlər sistemi həlledici əhəmiyyət daşıyır. Bu yanaşma müasir dövrdə valideynlərin təlim-tərbiyə prosesinə daha fəal cəlb olunmasının vacibliyini əsaslandırır.

Ədəbiyyat

1. Abbasov, A.N. "COP 29: Çox dəyərli tədbir, şagirdlərdə və tələbələrdə ekoloji mədəniyyətinin formalaşması vasitəsi kimi" // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2024. № 3 .
2. Soylu, A., Kaysılı A., Sever M. "Refugee Children and Adaptation to School: An Analysis Through Cultural Responsiveness" // Education and Science, –2020; 45(201), – s. 313-334.
3. Beare, W. "The Roman Stage A Short History of Latin Drama in the Time of the Republic" Methuen (Methuen & Co.) London, –1964, –s.129
4. Owens, E.J. "The city in the greek and Roman world" Routledge, –London, 1991. –s.94
5. Howard, H. Scultard. A history of the Roman World from 753 to 146 BC Methuen & Co Ltd, London, –1980. –s.258.
6. Mary Beard (Hardcover) Laughter in Ancient Rome // Universyit of California Press. Kaliforniya, – Berkeley, 2014. – s.247

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 378.147

İlahə Füzuli qızı Hüseynova
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində
Sənaye və Texnologiya Kollecinin müəllimi
https://orcid.org/0009-0009-2169-8552
E-mail: ilahe.huseybova1110@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).101-107

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA MULTİKULTURALİZM

Ilaha Fuzuli Huseynova
lecturer at the College of Industry and Technology
at the Azerbaijan State University of Oil and Industry

MODERN MULTICULTURALISM IN AZERBAIJAN

Илаха Физули гызы Гусейнова
преподаватель Колледжа промышленности и технологий при
Азербайджанском Государственном Университете Нефти и Промышленности

МУЛЬТИКУЛЬТУРАЛИЗМ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

Xülasə. Məqalədə müasir dövrdə Azərbaycanda multikulturalizm siyasətinin nəzəri əsasları, sosial mahiyyəti və siyasi nəticələri tədqiq edilmişdir. Araşdırmada multikulturalizm anlayışının formalaşma xüsusiyyətləri, onun tolerantlıq və mədəni müxtəliflik prinsipləri ilə qarşılıqlı əlaqəsi elmi-nəzəri aspektdən təhlil olunmuşdur. Qeyd edilmişdir ki, qloballaşma proseslərinin sürətlənməsi və beynəlxalq münasibətlərin genişlənməsi şəraitində multikulturalizm siyasəti bir çox dövlətlər üçün mühüm strateji istiqamətə çevrilmişdir. Tədqiqat zamanı Azərbaycanın tarixən formalaşmış tolerantlıq ənənələrinin müasir mərhələdə dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsi məsələləri araşdırılmışdır. Müəyyən edilmişdir ki, Azərbaycanda müxtəlif etnik və dini qrupların hüquqlarının qorunması, onların sosial və mədəni inkişafına şərait yaradılması ölkədə ictimai sabitliyin və milli həmrəyliyin möhkəmlənməsinə müsbət təsir göstərir. Məqalədə təhsil sistemində multikultural dəyərlərin təbliği, beynəlxalq forumların təşkili və mədəniyyətlərarası dialoqun inkişafı da təhlil edilmişdir. Araşdırmanın nəticələri göstərir ki, multikulturalizm siyasəti Azərbaycanda yalnız mədəni müxtəlifliyin qorunmasına deyil, həm də milli təhlükəsizliyin təmin edilməsinə, radikalizm və dini ekstremizm meyillərinin qarşısının alınmasına xidmət edir. Bununla yanaşı, qloballaşma, informasiya təsirləri və mədəni assimilyasiya kimi amillərin multikulturalizm siyasəti qarşısında müəyyən çağırışlar yaratdığı müəyyən edilmişdir. Məqalədə bu istiqamətdə maarifləndirmə tədbirlərinin və tolerantlıq siyasətinin gücləndirilməsinin vacibliyi əsaslandırılmışdır.
Açar sözlər: *multikulturalizm, tolerantlıq, Azərbaycan modeli*

Abstract. The article examines the theoretical foundations, social essence, and political outcomes of multiculturalism policy in modern Azerbaijan. The study analyzes the formation features of the concept of multiculturalism and its relationship with the principles of tolerance and cultural diversity from a scientific and theoretical perspective. It is noted that in the context of accelerating globalization processes and the expansion of international relations, multiculturalism policy has become an important strategic direction for many states. During the research, the development of Azerbaijan's historically formed traditions of tolerance at the level of state policy in the modern period was investigated. It was determined that the protection of the rights of various ethnic and religious groups in Azerbaijan, as well as the creation of conditions for their

social and cultural development, positively affects the strengthening of social stability and national solidarity in the country. The article also analyzes the promotion of multicultural values in the education system, the organization of international forums, and the development of intercultural dialogue. The results of the research show that multiculturalism policy in Azerbaijan serves not only to preserve cultural diversity but also to ensure national security and prevent tendencies toward radicalism and religious extremism. At the same time, it has been determined that factors such as globalization, information influences, and cultural assimilation create certain challenges for multiculturalism policy. The article substantiates the importance of strengthening educational measures and tolerance policy in this direction.
Keywords: *multiculturalism, tolerance, Azerbaijan model*

Аннотация. В статье исследованы теоретические основы, социальная сущность и политические результаты политики мультикультурализма в современном Азербайджане. В исследовании с научно-теоретической точки зрения проанализированы особенности формирования понятия мультикультурализма, а также его взаимосвязь с принципами толерантности и культурного разнообразия. Отмечается, что в условиях ускорения процессов глобализации и расширения международных отношений политика мультикультурализма стала важным стратегическим направлением для многих государств. В ходе исследования были рассмотрены вопросы развития исторически сложившихся традиций толерантности в Азербайджане на уровне государственной политики в современный период. Установлено, что защита прав различных этнических и религиозных групп, а также создание условий для их социального и культурного развития положительно влияют на укрепление общественной стабильности и национальной солидарности в стране. В статье также проанализированы пропаганда мультикультурных ценностей в системе образования, организация международных форумов и развитие межкультурного диалога. Результаты исследования показывают, что политика мультикультурализма в Азербайджане служит не только сохранению культурного разнообразия, но и обеспечению национальной безопасности, предотвращению тенденций радикализма и религиозного экстремизма. Вместе с тем установлено, что такие факторы, как глобализация, информационное воздействие и культурная ассимиляция, создают определённые вызовы для политики мультикультурализма. В статье обоснована важность усиления просветительских мероприятий и политики толерантности в данном направлении.
Ключевые слова: *мультикультурализм, толерантность, азербайджанская модель*

Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi, beynəlxalq münasibətlərin intensivləşməsi və müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirinin genişlənməsi multikulturalizm məsələsini dünya miqyasında aktual sosial-siyasi və mədəni problemlərdən birinə çevirmişdir. Müxtəlif etnik, dini və milli qrupların birgə yaşayış prinsiplərinin qorunması, tolerantlıq mühitinin formalaşdırılması və mədəni müxtəlifliyin təmin olunması müasir dövlətlərin inkişaf strategiyalarında mühüm istiqamət kimi çıxış edir. Bu baxımdan Azərbaycan Respublikası multikulturalizm siyasətini dövlət idarəçiliyinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmiş və bu sahədə özünəməxsus inkişaf modeli formalaşdırmışdır [1, s.45].

Azərbaycan tarixən müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşadığı məkan olmuşdur. Ölkədə formalaşmış tolerantlıq ənənələri müasir mərhələdə dövlət siyasəti səviyyəsinə yüksəldilmiş, multikultural dəyərlərin qorunması və təşviqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Müxtəlif etnik və dini icmaların hüquqlarının qorunması, onların sosial-mədəni inkişafına şərait yaradılması, həmçinin təhsil və mədəniyyət sahəsində multikultural dəyərlərin təbliği Azərbaycanın beynəlxalq müstəvidə multikulturalizm modeli kimi tanınmasına səbəb olmuşdur [2, s.54].

Müasir mərhələdə multikulturalizmin inkişafı yalnız sosial və mədəni aspektlərlə məhdudlaşmır, eyni zamanda siyasi sabitliyin, milli təhlükəsizliyin və ictimai həmrəyliyin qorunmasında mühüm rol oynayır. Xüsusilə qlobal miqyasda dini və etnik zəmində baş verən qarşıdurmalar fonunda Azərbaycanda mövcud olan tolerantlıq mühiti və multikultural dəyərlərin qorunması beynəlxalq elmi ictimaiyyət tərəfindən də maraqla araşdırılır [6, s.205].

Tədqiqatın əsas məqsədi müasir dövrdə Azərbaycanda multikulturalizm siyasətinin mahiyyətini, onun sosial-mədəni və siyasi əsaslarını, həmçinin cəmiyyətin inkişafına təsir istiqamətlərini araşdırmaqdan ibarətdir. Məqalədə Azərbaycanın multikulturalizm modeli, tolerant-

lıq ənənələri və bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas xüsusiyyətləri elmi-nəzəri aspektdən təhlil edilir.

Multikulturalizm müasir ictimai-siyasi və fəlsəfi fikirdə müxtəlif mədəniyyətlərin, dillərin, dinlərin və etnik qrupların bir cəmiyyət daxilində qarşılıqlı hörmət və tolerantlıq prinsipləri əsasında birgə mövcudluğunu ifadə edən konsepsiya kimi xarakterizə olunur. Bu anlayış xüsusilə XX əsrin ikinci yarısından etibarən qloballaşma proseslərinin sürətlənməsi və beynəlxalq miqrasiyanın artması nəticəsində daha geniş elmi və siyasi aktuallıq qazanmışdır. Müasir dövrdə multikulturalizm yalnız mədəni müxtəlifliyin qorunması deyil, həm də sosial inteqrasiyanın və ictimai sabitliyin təmin olunmasının mühüm vasitəsi hesab edilir [2, s.34].

Nəzəri baxımdan multikulturalizm fərqli mədəni identikliklərin vahid siyasi sistem çərçivəsində harmonik şəkildə inkişafını nəzərdə tutur. Bu konsepsiya assimilyasiya siyasətindən fərqli olaraq müxtəlif xalqların və etnik qrupların öz milli-mədəni xüsusiyyətlərini qorumaq hüququnu tanıyır. Multikultural yanaşmada əsas məqsəd fərqliliklərin aradan qaldırılması deyil, onların qarşılıqlı əməkdaşlıq və tolerantlıq şəraitində inkişaf etdirilməsidir [1, s.67].

Elmi ədəbiyyatda multikulturalizmin formalaşmasına təsir edən əsas amillər sırasında qloballaşma, beynəlxalq miqrasiya, demokratik dəyərlərin inkişafı və insan hüquqlarının qorunması xüsusi qeyd edilir. Müasir cəmiyyətlərdə etnik və dini müxtəlifliyin artması dövlətlərin idarəetmə siyasətində yeni yanaşmaların meydana çıxmasına səbəb olmuşdur. Bu baxımdan multikulturalizm sosial müxtəlifliyin tənzimlənməsi və ictimai münasibətlərin balanslaşdırılması mexanizmi kimi qiymətləndirilir [4, s.91].

Multikulturalizmin nəzəri əsasları tolerantlıq anlayışı ilə sıx bağlıdır. Tolerantlıq fərqli dini, milli və mədəni baxışlara hörmətlə yanaşmanı ifadə edir və multikultural cəmiyyətin formalaşmasının əsas şərtlərindən biri hesab olunur. Tolerantlıq prinsiplərinin zəiflədiyi cəmiyyətlərdə sosial qarşıdurmaların və diskriminasiya hallarının artması müşahidə edilir. Buna görə də müasir dövlətlər multikultural siyasətin həyata keçirilməsi zamanı tolerantlıq mühitinin qorunmasına xüsusi diqqət yetirirlər [10, s.102].

Azərbaycan multikulturalizmi də nəzəri baxımdan tolerantlıq, milli həmrəylik və mədəni müxtəlifliyin qorunması prinsiplərinə əsaslanır. Tarixi inkişaf prosesində müxtəlif xalqların və dini icmaların birgə yaşayışı ölkədə özünəməxsus multikultural mühitin formalaşmasına səbəb olmuşdur. Müasir mərhələdə bu ənənələr dövlət siyasəti səviyyəsində inkişaf etdirilir və sosial sabitliyin mühüm amili kimi qiymətləndirilir [5, s.95].

Müasir beynəlxalq münasibətlər sistemində multikulturalizm cəmiyyət daxilində mədəni müxtəlifliyin qorunmasını, fərqli etnik və dini qrupların hüquq və azadlıqlarının təmin edilməsini nəzərdə tutan mühüm ictimai-siyasi konsepsiya kimi çıxış edir. Qloballaşma proseslərinin sürətlənməsi, miqrasiya axınlarının artması və müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin genişlənməsi multikultural dəyərlərin qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirmişdir. Azərbaycan da tarixən müxtəlif xalqların və dini icmaların birgə yaşadığı coğrafi məkan kimi multikultural ənənələrin formalaşdığı ölkələrdən hesab olunur [1, s.52].

Azərbaycan multikulturalizminin əsas xüsusiyyətlərindən biri tolerantlıq ənənələrinin tarixi köklərə malik olmasıdır. Ölkə ərazisində əsrlər boyu azərbaycanlılarla yanaşı ruslar, yəhudilər, ləzgilər, talışlar, avarlar, udinlər və digər xalqlar qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşamışlar. Bu müxtəliflik Azərbaycan cəmiyyətində sosial harmoniyanın və milli birliyin formalaşmasına mühüm təsir göstərmişdir. Məhz bu səbəbdən müasir dövrdə multikulturalizm yalnız nəzəri konsepsiya deyil, həm də ictimai həyatın mühüm tərkib hissəsi kimi qəbul edilir [5, s.88].

Azərbaycanda multikulturalizm siyasətinin institusional əsasları dövlət tərəfindən sistemli şəkildə formalaşdırılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında milli, irqi və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlara malik olması təsbit edilmişdir. Dövlət səviyyəsində tolerantlıq mühitinin qorunması məqsədilə müxtəlif proqramlar və layihələr həyata keçirilir, dini konfessiyalar və etnik icmalar üçün əlverişli sosial şərait yaradılır. Bu istiqamətdə həyata keçirilən siyasət milli təhlükəsizliyin və ictimai sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayır [3, s.117].

Müasir mərhələdə Azərbaycanda multikulturalizm siyasətinin inkişafında təhsil sistemi xüsusi əhəmiyyət daşıyır. Təhsil müəssisələrində multikultural dəyərlərin təbliği, gənclərin tole-

rantlıq ruhunda formalaşdırılması və mədəni müxtəlifliyə hörmət prinsiplərinin aşılanması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ali məktəblərdə "Azərbaycan multikulturalizmi" fənninin tədris olunması, müxtəlif beynəlxalq forum və seminarların təşkili bu sahədə görülən işlərin əsas istiqamətlərindən biridir [11, s.57].

Azərbaycanın multikulturalizm modeli beynəlxalq səviyyədə də maraq doğurur. Bakı şəhərində keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, Humanitar Forumlar və digər beynəlxalq tədbirlər ölkənin multikultural dəyərlərin təşviqində aktiv rol oynadığını göstərir. Bu tədbirlər müxtəlif xalqlar arasında dialoqun inkişafına, tolerantlıq ideyalarının geniş yayılmasına və mədəniyyətlərarası əməkdaşlığın güclənməsinə şərait yaradır [4, s.92].

Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və qlobal informasiya məkanının genişlənməsi multikulturalizm siyasətinə həm müsbət, həm də mənfi təsirlər göstərir. Bir tərəfdən müxtəlif mədəniyyətlərin tanıdılması və qarşılıqlı əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaranır, digər tərəfdən radikalizm, dini ekstremizm və milli ayrı-seçkilik meyilləri də müəyyən təhlükələr formalaşdırır. Bu baxımdan Azərbaycanda tolerantlıq mühitinin qorunması və multikultural dəyərlərin təbliği strateji əhəmiyyət kəsb edir [8, s.76].

Azərbaycanda dini tolerantlıq mühiti də multikultural siyasətin mühüm istiqamətlərindən biridir. Ölkədə müxtəlif dini konfessiyaların sərbəst fəaliyyəti üçün hüquqi və sosial şərait yaradılmışdır. Məscidlər, kilsələr və sinaqoqların bərpası, dini icmaların fəaliyyətinə dövlət dəstəyi göstərilməsi cəmiyyətdə qarşılıqlı hörmət və anlaşma mühitinin formalaşmasına xidmət edir [10, s.95].

Multikulturalizmin cəmiyyətin sosial inkişafına təsiri də mühüm əhəmiyyətə malikdir. Bu siyasət müxtəlif etnik və dini qruplar arasında qarşılıqlı etimadı gücləndirir, sosial inteqrasiyanı möhkəmləndirir və vətəndaş həmrəyliyinin formalaşmasına şərait yaradır. Sosial sabitlik və milli birlik isə öz növbəsində ölkənin davamlı inkişafının əsas amillərindən biri hesab olunur [7, s.29].

Müasir mərhələdə Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti yalnız mədəni müxtəlifliyin qorunması məqsədi daşımır, eyni zamanda ölkədə sosial sabitliyin, siyasi təhlükəsizliyin və vətəndaş həmrəyliyinin təmin olunmasına xidmət edir. Qloballaşma şəraitində bir çox dövlətlərdə etnik və dini zəmində münaqişələrin artdığı müşahidə olunduğu halda, Azərbaycanda fərqli xalqlar və dini icmalar arasında qarşılıqlı anlaşma mühitinin qorunub saxlanılması dövlət siyasətinin effektivliyini göstərən əsas amillərdən biri hesab olunur [2, s.69].

Azərbaycanda multikulturalizm siyasətinin mühüm nəticələrindən biri sosial inteqrasiyanın güclənməsidir. Müxtəlif etnik və dini qrupların cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak etməsi ölkədə milli həmrəyliyin formalaşmasına müsbət təsir göstərir. Sosial inteqrasiya prosesinin uğurlu həyata keçirilməsi isə vətəndaşların dövlətə olan etimadını artırır və ictimai sabitliyi möhkəmləndirir. Bu baxımdan multikulturalizm cəmiyyət daxilində qarşıdurma risklərini azaldan mühüm sosial mexanizm kimi çıxış edir [7, s.27].

Müasir şəraitdə multikulturalizm siyasətinin effektiv həyata keçirilməsi üçün dövlət idarəçiliyi, təhsil sistemi, media və vətəndaş cəmiyyəti institutları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Azərbaycanda bu istiqamətdə həyata keçirilən siyasət cəmiyyət daxilində milli və dini harmoniyanın qorunmasına, tolerantlıq ənənələrinin möhkəmlənməsinə və sosial təhlükəsizliyin təmin edilməsinə müsbət təsir göstərir. Eyni zamanda multikultural dəyərlərin beynəlxalq səviyyədə təşviqi Azərbaycanın müasir dünyada tolerant ölkə imicinin formalaşmasına şərait yaradır [6, s.211].

Aşağıdakı cədvəldə Azərbaycanda multikulturalizm siyasətinin əsas sosial və siyasi nəticələri ümumiləşdirilmişdir.

Cədvəl 1. *Azərbaycanda multikulturalizm siyasətinin sosial və siyasi nəticələri*

İstiqamətlər	**Sosial və siyasi nəticələr**	**Təsir xüsusiyyətləri**
Sosial inteqrasiya	Müxtəlif etnik və dini qruplar arasında həmrəyliyin güclənməsi	Cəmiyyətdə qarşılıqlı etimad və əməkdaşlıq artır
Milli təhlükəsizlik	Radikalizm və dini ekstremizm risklərinin azalması	Sosial sabitlik və təhlükəsizlik mühiti möhkəmlənir

Təhsil siyasəti	Tolerantlıq və multikultural dəyərlərin təbliği	Gənclərdə multikultural düşüncə formalaşır
Beynəlxalq münasibətlər	Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi	Ölkənin multikultural model kimi tanınması güclənir
Mədəni əməkdaşlıq	Mədəniyyətlərarası dialoqun inkişafı	Müxtəlif xalqlar arasında qarşılıqlı anlaşma genişlənir
Dövlət idarəçiliyi	İnsan hüquq və azadlıqlarının qorunması	Demokratik idarəetmə prinsipləri güclənir
İnformasiya təhlükəsizliyi	Milli-mənəvi dəyərlərin qorunması	Xarici ideoloji təsirlərin mənfi nəticələri azalır

Aparılmış təhlillər göstərir ki, Azərbaycanda multikulturalizm siyasəti yalnız mədəni müxtəlifliyin qorunmasına xidmət etmir, həm də ölkədə sosial sabitliyin, milli təhlükəsizliyin və siyasi davamlılığın təmin olunmasında mühüm strateji mexanizm kimi çıxış edir. Bu siyasətin davamlı inkişaf etdirilməsi gələcək mərhələdə də Azərbaycanın ictimai-siyasi inkişafının əsas prioritet istiqamətlərindən biri olaraq qalacaqdır.

Azərbaycanda tolerantlıq mühitinin qorunması milli təhlükəsizlik baxımından da mühüm əhəmiyyət daşıyır. Müasir dövrdə radikalizm, dini ekstremizm və etnik separatizm kimi təhlükələrin geniş yayıldığı şəraitdə multikultural dəyərlərin təşviqi cəmiyyətdə qarşılıqlı hörmət və əməkdaşlıq münasibətlərinin inkişafına şərait yaradır. Dövlət tərəfindən həyata keçirilən dini tolerantlıq siyasəti müxtəlif konfessiyalar arasında münasibətlərin sabit saxlanılmasına və sosial gərginliyin qarşısının alınmasına xidmət edir [10, s.94].

Multikulturalizm siyasətinin siyasi aspektləri də xüsusi diqqət tələb edir. Azərbaycan beynəlxalq münasibətlər sistemində multikultural dəyərlərin təşviqini xarici siyasətin mühüm istiqamətlərindən birinə çevirmişdir. Bakı şəhərində keçirilən beynəlxalq forumlar, mədəniyyətlərarası dialoq tədbirləri və humanitar layihələr ölkənin beynəlxalq nüfuzunun güclənməsinə təsir göstərir. Bu tədbirlər vasitəsilə Azərbaycan həm Şərq, həm də Qərb mədəniyyətləri arasında körpü rolunu həyata keçirdiyini nümayiş etdirir [4, s.93].

Qloballaşma prosesləri multikulturalizm siyasəti qarşısında müəyyən problemlər də yaradır. Xarici informasiya axınlarının genişlənməsi, sosial şəbəkələrin təsiri və mədəni assimilyasiya meyilləri milli-mənəvi dəyərlərin qorunmasını çətinləşdirən amillər sırasındadır. Xüsusilə gənclər arasında xarici mədəni təsirlərin güclənməsi bəzi hallarda milli kimlik məsələlərinin zəifləməsinə səbəb olur. Bu baxımdan təhsil və maarifləndirmə siyasətinin gücləndirilməsi multikultural təhlükəsizliyin qorunmasında mühüm rol oynayır [9, s.45]. Təhlil göstərir ki, Azərbaycanda multikulturalizm siyasətinin davamlı inkişafı üçün təhsil sisteminin rolu daha da artırılmalıdır. Məktəb və ali təhsil müəssisələrində tolerantlıq, milli-mənəvi dəyərlər və mədəni müxtəlifliklə bağlı dərslərin tədrisi gənc nəslin multikultural düşüncə tərzində formalaşmasına mühüm təsir göstərir. Eyni zamanda media və informasiya resurslarının bu istiqamətdə düzgün istifadəsi cəmiyyətin ideoloji təhlükəsizliyi baxımından əhəmiyyətlidir [11, s.59].

Beləliklə, aparılmış təhlillər göstərir ki, Azərbaycanda multikulturalizm siyasəti sosial sabitliyin, milli təhlükəsizliyin və ictimai həmrəyliyin təmin edilməsində mühüm strateji vasitə kimi çıxış edir. Müasir dövrdə mövcud qlobal çağırışlar nəzərə alındıqda bu siyasətin daha da təkmilləşdirilməsi və davamlı şəkildə inkişaf etdirilməsi dövlət və cəmiyyət üçün prioritet məsələlərdən biri olaraq qalır.

Aparılmış tədqiqat göstərir ki, müasir dövrdə multikulturalizm siyasəti Azərbaycan Respublikasının dövlət idarəçiliyində mühüm strateji istiqamətlərdən biri kimi çıxış edir. Tarixi tolerantlıq ənənələrinə malik olan Azərbaycan müasir mərhələdə də müxtəlif etnik və dini qrupların qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində birgə yaşamasını təmin edən sosial-siyasi model formalaşdırmışdır. Bu model milli həmrəyliyin möhkəmləndirilməsi, sosial sabitliyin qorunması və cəmiyyət daxilində tolerant münasibətlərin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tədqiqat nəticələri göstərir ki, Azərbaycanda multikulturalizm siyasəti yalnız mədəni müxtəlifliyin qorunmasına xidmət etmir, eyni zamanda milli təhlükəsizliyin təmin olunması, radikalizm və dini ekstremizm meyillərinin qar-

şısının alınması istiqamətində də mühüm rol oynayır. Dövlət tərəfindən həyata keçirilən hüquqi, siyasi və sosial tədbirlər müxtəlif xalqlar və dini konfessiyalar arasında qarşılıqlı etimad mühitinin formalaşmasına müsbət təsir göstərir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, təhsil sistemi multikultural dəyərlərin cəmiyyətə inteqrasiyasında əsas mexanizmlərdən biri hesab olunur. Təhsil müəssisələrində tolerantlıq və mədəni müxtəliflik ideyalarının təbliği gənc nəslin milli-mənəvi dəyərlərə bağlı, multikultural düşüncəyə malik vətəndaş kimi formalaşmasına şərait yaradır. Bununla yanaşı, beynəlxalq forumların və mədəniyyətlərarası dialoq layihələrinin keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə və ölkənin multikultural model kimi tanınmasına səbəb olur.

Eyni zamanda qloballaşma, informasiya axınlarının sürətlənməsi və xarici mədəni təsirlərin artması multikulturalizm siyasəti qarşısında yeni çağırışlar yaradır. Bu baxımdan milli-mənəvi dəyərlərin qorunması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və ideoloji təhlükəsizliyin gücləndirilməsi mühüm vəzifələrdən biri kimi çıxış edir.

Beləliklə, Azərbaycanda multikulturalizm siyasəti müasir dövrdə sosial harmoniyanın, milli birliyin və siyasi sabitliyin qorunmasına xidmət edən mühüm dövlət strategiyası kimi qiymətləndirilə bilər. Bu siyasətin davamlı şəkildə inkişaf etdirilməsi ölkənin gələcək sosial-siyasi inkişafı və beynəlxalq mövqeyinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Problemin aktuallığı. Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi, beynəlxalq miqrasiyanın genişlənməsi və müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin artması multikulturalizm məsələsini dünya miqyasında mühüm sosial-siyasi problemlərdən birinə çevirmişdir. Bir çox ölkələrdə etnik və dini zəmində yaranan qarşıdurmalar tolerantlıq mühitinin qorunmasının vacibliyini daha da artırır. Bu baxımdan Azərbaycanda multikulturalizm siyasətinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Azərbaycan tarixən müxtəlif xalqların və dini icmaların birgə yaşadığı tolerant cəmiyyət modeli ilə seçilmiş və müasir mərhələdə bu siyasəti dövlət idarəçiliyinin əsas istiqamətlərindən birinə çevirmişdir. Ölkədə multikultural dəyərlərin qorunması, milli həmrəyliyin möhkəmləndirilməsi və sosial sabitliyin təmin olunması müasir şəraitdə elmi tədqiqat baxımından mühüm əhəmiyyət daşıyır.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi müasir dövrdə Azərbaycanda multikulturalizm siyasətinin sosial və siyasi nəticələrinin kompleks şəkildə təhlil olunması ilə bağlıdır. Tədqiqat zamanı multikulturalizm anlayışının nəzəri əsasları araşdırılmış, Azərbaycanın multikultural modelinin spesifik xüsusiyyətləri müəyyən edilmiş və bu siyasətin sosial inteqrasiya, milli təhlükəsizlik və ictimai sabitlik baxımından rolu təhlil edilmişdir. Eyni zamanda qloballaşma şəraitində multikulturalizm siyasətinə təsir edən müasir çağırışlar və problemlər sistemli şəkildə qiymətləndirilmişdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunmuş nəticələr multikulturalizm siyasətinin təkmilləşdirilməsi, tolerantlıq mühitinin qorunması və milli-mənəvi dəyərlərin inkişaf etdirilməsi istiqamətində istifadə oluna bilər. Məqalədə irəli sürülən elmi müddəalar və nəticələr ali təhsil müəssisələrində "Azərbaycan multikulturalizmi", "Sosiologiya", "Siyasi elmlər" və "Mədəniyyətşünaslıq" fənlərinin tədrisində əlavə elmi mənbə kimi tətbiq edilə bilər. Bundan əlavə, tədqiqat materiallarından dövlət qurumları və ictimai təşkilatlar tərəfindən multikultural siyasətin həyata keçirilməsi və maarifləndirmə tədbirlərinin təşkili zamanı istifadə olunması mümkündür.

Ədəbiyyat

1. Abdullayev, A. Azərbaycanda tolerantlıq və multikultural dəyərlər / A. Abdullayev. – Bakı: Elm və təhsil, –2021. – 256 s.
2. Cəfərov, T. Təhsil mühitində multikultural dəyərlərin formalaşdırılması / T. Cəfərov. – Bakı: Elm və təhsil, –2020. – 186 s.
3. Cəfərova, S. Təhsil sistemində multikultural dəyərlərin formalaşdırılması problemləri // Azərbaycan Təhsil İnstitutunun Elmi Xəbərləri. – Bakı, 2023. – №2(88). – s.73–81.
4. Əliyev H. Azərbaycan multikulturalizmi /H. Əliyev. – Bakı: Şərq-Qərb, –2015. – 312 s.
5. Həbibbəyli İ. Azərbaycançılıq və multikulturalizm ideologiyası / İ. Həbibbəyli. – Bakı: Elm, –2018. –240 s.
6. Hüseynov, S. Qloballaşma şəraitində milli-mənəvi dəyərlər və multikulturalizm / S. Hüseynov. – Bakı: Avropa, –2022. – 276 s.
7. Hüseynova, G. Multikulturalizm ideologiyasının tədris prosesində tətbiqi məsələləri // Azərbaycan Təhsil İnstitutunun Elmi Xəbərləri. – Bakı, 2024. – №3(91). – s.54–62.

8. İbrahimov, R. Multikultural təhlükəsizlik və sosial inteqrasiya problemləri / R. İbrahimov. – Bakı: ADPU nəşriyyatı, –2023. – 214 s.
9. Mehdiyev, R. Multikulturalizmə giriş / R. Mehdiyev. – Bakı: Təhsil, –2019. – 284 s.
10. Məmmədov N. Azərbaycanda etnik-mədəni müxtəliflik və dövlət siyasəti / N. Məmmədov. – Bakı: Zərdabi Nəşr, –2021. – 223 s.
11. Qasımov, M. Müasir dünyada multikulturalizm modeli və Azərbaycan təcrübəsi / M. Qasımov. – Bakı: Apostroff, –2020. – 198 s.
12. Səfərova, E. Azərbaycanda dini tolerantlıq ənənələri / E. Səfərova. – Bakı: CBS Polygraphic Production, – 2019. – 205 s.

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 372.891

Gülşən Ehtibar qızı Mikayılova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0000-3904-0999
E-mail:gulshan.mikayilova@asoiu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(4).108-112

MÜƏLLİMLƏRİN İKT SAVADLILIĞININ ARTIRILMASI VƏ ONUN TƏDRİSƏ TƏSİRİ

Gulshan Ehtibar Mikayilova
doctorial student in the program of doctor of philosophy at
Azerbaijan State Pedagogical University

INCREASING TEACHERS' ICT LITERACY AND ITS IMPACT ON TEACHING

Гюльшан Эхтибар гызы Микаилова
докторант по программе доктора философии
Азербайджанского Государственного Педагогического Университета

ПОВЫШЕНИЕ УРОВНЯ ИКТ-ГРАМОТНОСТИ УЧИТЕЛЕЙ И ЕЕ ВЛИЯНИЕ НА ПРЕПОДАВАНИЕ

Xülasə. Müəllimlərin İKT savadlılığının artırılması müasir təhsil sisteminin əsas prioritetlərindən biridir. Rəqəmsallaşmanın sürətlə inkişaf etdiyi bir dövrdə müəllimin yalnız fənn biliklərinə deyil, həm də informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə bacarıqlarına malik olmasi zəruridir. İKT savadlılığı müəllimə dərs prosesini daha çevik, interaktiv və şagirdyönümlü şəkildə təşkil etməyə imkan verir. Bu bacarıqlar elektron resurslardan istifadə, rəqəmsal təqdimatların hazırlanması, onlayn qiymətləndirmə vasitələrinin tətbiqi, məsafədən təhsilin təşkili və tədris materiallarinin vizuallaşdirilmasi kimi istiqamətlərdə özünü göstərir.
Açar sözlər: *müəllim, İKT savadlılığı, rəqəmsal bacarıqlar, tədris prosesi, təhsildə innovasiya, elektron resurslar, interaktiv təlim*

Abstract. Increasing teachers' ICT literacy is one of the main priorities of the modern education system. In an era of rapid digitalization, it is necessary for a teacher to have not only subject knowledge, but also the skills to effectively use information and communication technologies. ICT literacy allows a teacher to organize the teaching process in a more flexible, interactive and student-oriented way. These skills are manifested in such areas as the use of electronic resources, the preparation of digital presentations, the application of online assessment tools, the organization of distance learning and the visualization of educational materials.
Keywords: *teacher, ICT literacy, digital skills, teaching process, innovation in education, electronic resources, interactive learning*

Аннотация. Повышение уровня ИКТ-грамотности учителей является одним из главных приоритетов современной системы образования. В эпоху стремительной цифровизации учителю необходимо обладать не только предметными знаниями, но и навыками эффективного использования информационно-коммуникационных технологий. ИКТ-грамотность позволяет учителю организовы-

вать учебный процесс более гибко, интерактивно и ориентированно на ученика. Эти навыки проявляются в таких областях, как использование электронных ресурсов, подготовка цифровых презентаций, применение онлайн-инструментов оценивания, организация дистанционного обучения и визуализация учебных материалов.

Ключевые слова: *учитель, ИКТ-грамотность, цифровые навыки, учебный процесс, инновации в образовании, электронные ресурсы, интерактивное обучение*

Giriş. Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər müəllim fəaliyyətinə yeni tələblər irəli sürür. Qloballaşma, rəqəmsallaşma və informasiya cəmiyyətinin formalaşması tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının (İKT) rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Artıq müəllimdən yalnız nəzəri bilikləri şagirdlərə çatdırmaq deyil, həm də bu bilikləri müasir texnoloji vasitələrdən istifadə etməklə daha səmərəli, maraqlı və əlçatan formada təqdim etmək tələb olunur. Bu baxımdan müəllimlərin İKT savadlılığının artırılması təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amillərdən biri kimi çıxış edir.

İKT savadlılığı müəllimin kompüter, internet, interaktiv lövhə, elektron dərslik, təqdimat proqramları, onlayn platformalar və rəqəmsal qiymətləndirmə vasitələrindən məqsədyönlü və səmərəli istifadə bacarığını özündə birləşdirir. Bu bacarıqların formalaşması müəllimə yalnız texniki imkanlardan yararlanmaq deyil, həm də dərs prosesini daha çevik qurmaq, fərdi yanaşmanı təmin etmək, şagirdlərin öyrənmə motivasiyasını artırmaq və interaktiv mühit yaratmaq imkanı verir.

Müəllimlərin İKT savadlılığının artırılması istiqamətləri. Müasir təhsil mühitində müəllimin peşəkarlığı artıq yalnız fənn biliyi və metodik hazırlıqla məhdudlaşmır. Rəqəmsal mühitin genişlənməsi müəllimdən informasiya-kommunikasiya texnologiyalarını dərsin məqsədinə uyğun seçməyi, onlardan pedaqoji baxımdan səmərəli istifadə etməyi və şagirdlərin rəqəmsal bacarıqlarının formalaşmasına rəhbərlik etməyi tələb edir. UNESCO-nun müəllimlər üçün İKT səriştə çərçivəsi 18 kompetensiya və 64 məqsəd müəyyən edir; bu kompetensiyalar siyasətin anlaşılması, kurikulum və qiymətləndirmə, pedaqogika, rəqəmsal bacarıqların tətbiqi, təşkilatçılıq-idarəetmə və davamlı peşəkar inkişaf kimi istiqamətləri əhatə edir. Avropa Komissiyasının DigCompEdu çərçivəsi də müəllimlərin rəqəmsal səriştələrini 22 kompetensiya və 6 sahə üzrə sistemləşdirir. Bu yanaşmalar göstərir ki, İKT savadlılığının artırılması təkcə texniki bacarıq qazanmaq deyil, bütövlükdə müəllimin peşəkar fəaliyyətinin yenilənməsi deməkdir [1].

Birinci istiqamət – normativ və strateji əsasların formalaşdırılmasıdır. Müəllimlərin İKT savadlılığının yüksəldilməsi təsadüfi kurslar vasitəsilə deyil, vahid standartlar və səriştə çərçivələri əsasında qurulduqda daha səmərəli olur. OECD-nin 2023-cü il icmalına görə, müəllimlərin rəqəmsal kompetensiyalarının inkişafını formallaşdırmağın üç əsas yolu var: müəllim və şagirdlər üçün standartların müəyyənləşdirilməsi, fasiləsiz peşəkar inkişafın stimullaşdırılması və rəqəmsal təhsil üçün dəstək ekosisteminin yaradılması. Eyni mənbədə qeyd olunur ki, müqayisəli tədqiqatda iştirak edən 29 ölkə və yurisdiksiyadan 24-də müəllimlərin rəqəmsal səriştələrin inkişafı ilə bağlı milli qayda və ya təlimatlar mövcuddur. Bu isə göstərir ki, İKT savadlılığının artırılması fərdi təşəbbüsdən çox, təhsil siyasətinin tərkib hissəsi kimi qurulmalıdır.

İkinci istiqamət – ilkin müəllim hazırlığında rəqəmsal səriştələrin sistemli şəkildə daxil edilməsidir. Müəllim peşəsinə yeni başlayan şəxslər universitet mərhələsindən etibarən rəqəmsal təlim mühitində işləmə bacarıqları qazanmalıdırlar. Buraya elektron resurslarla işləmək, rəqəmsal təqdimat hazırlamaq, LMS platformalarında dərs qurmaq, onlayn ünsiyyət və təhlükəsiz rəqəmsal davranış vərdişləri daxildir. OECD vurğulayır ki, bir çox ölkədə yüksək səviyyəli qayda və standartlar olsa da, onlar həmişə müəllim hazırlığı proqramlarının məzmununa tam çevrilmir; Avropa Komissiyasının istinad edilən məlumatına əsasən, Avropa təhsil sistemlərinin təxminən yarısında müəllimlərin rəqəmsal səriştələrinə dair qaydalar formal şəkildə ilkin müəllim hazırlığı proqramları ilə əlaqələndirilir. Deməli, istiqamətlərdən biri də ali pedaqoji təhsildə rəqəmsal modulların formal və məzmunlu şəkildə yer almasıdır [2].

Üçüncü istiqamət – davamlı peşəkar inkişaf və ixtisasartırma mexanizmlərinin gücləndirilməsidir. Müəllimin İKT savadlılığı birdəfəlik əldə olunan bacarıq deyil; texnologiyalar dəyiş-

dikcə bu biliklər də yenilənməlidir. OECD-nin 2025-ci il materialında göstərilir ki, müəllimlər üçün rəqəmsal resurslarla bağlı peşəkar öyrənmə ən effektiv halda işə inteqrə olunmuş, məzmunyönlü, davamlı və əməkdaşlığa əsaslanan formada təşkil edilir. Həmin sənədə görə, sorğuda iştirak edən sistemlərin demək olar yarısı müəllimlərin rəqəmsal resurslardan istifadə üzrə həmkar öyrənməsini dəstəkləyir və MOOC-lar, mikrokvalifikasiyalar kimi yeni formatları tanıyır [3].

Nəticə olaraq, müəllimlərin İKT savadlılığının artırılması çoxşaxəli prosesdir və onun əsas istiqamətləri strateji standartların yaradılması, ilkin hazırlığın gücləndirilməsi, fasiləsiz peşəkar inkişaf, rəqəmsal resurslardan səmərəli istifadə, rəqəmsal pedaqogika, qiymətləndirmə, əməkdaşlıq, özünüqiymətləndirmə və etik-AI hazırlığı ilə bağlıdır. Bu istiqamətlər paralel şəkildə inkişaf etdirildikdə müəllim yalnız texnologiyadan istifadə edən şəxs deyil, onu tədrisin keyfiyyətini yüksəltmək üçün məqsədyönlü idarə edən peşəkar kimi formalaşır.

Müəllimlərin İKT savadlılığının tədris prosesinə təsiri. İKT savadlı müəllim ilk növbədə dərsin planlaşdırılmasını və təşkili üsulunu dəyişdirir. DigCompEdu-ya görə müəllim rəqəmsal resursları seçərkən təlim məqsədini, konteksti, pedaqoji yanaşmanı və şagird qrupunun xüsusiyyətlərini nəzərə almalıdır; həmçinin rəqəmsal vasitələri tədris prosesinə elə inteqrasiya etməlidir ki, bu, təlim müdaxilələrinin səmərəliliyini artırsın. Bu, müəllimə dərs materiallarını daha çevik qurmağa, məzmunu vizuallaşdırmağa, müxtəlif öyrənmə üsullarını bir dərs daxilində birləşdirməyə və ənənəvi izah üsulunu daha interaktiv formaya çevirməyə imkan verir. Nəticədə dərs daha sistemli, daha məqsədyönlü və şagird üçün daha anlaşıqlı olur [12].

Müəllimin İKT savadlılığının mühüm təsirlərindən biri şagirdlərin fəallığının və motivasiyasının artmasıdır. DigCompEdu rəqəmsal texnologiyaların şagirdlərin aktiv və yaradıcı iştirakını gücləndirməli olduğunu, onları əməkdaşlığa, özünütənzimlənən öyrənməyə və real həyat kontekstlərində problem həllinə cəlb etməli olduğunu qeyd edir. Rəqəmsal bacarığı yüksək olan müəllim interaktiv təqdimatlar, onlayn tapşırıqlar, birgə platformalar və multimedia resursları vasitəsilə şagirdi passiv dinləyicidən fəal iştirakçıya çevirir. Bu isə dərsdə marağın artmasına, öyrənmənin daha dərin baş verməsinə və şagirdin öyrənmə məsuliyyətini daha çox üzərinə götürməsinə şərait yaradır [4].

Beynəlxalq məlumatlar göstərir ki, texnologiyanın tədrisə müsbət təsiri avtomatik baş vermir. OECD-nin 2025-ci il ədəbiyyat icmalında qeyd olunur ki, təkcə texnologiyaya çıxış təhsil nəticələrinin yaxşılaşmasına zəmanət vermir; uğurlu rəqəmsallaşma üçün texniki deyil, eyni zamanda pedaqoji həllər lazımdır. OECD-nin müəllimlərin peşəkar inkişafı ilə bağlı materialında da göstərilir ki, OECD ölkələri üzrə müəllimlərin 53%-i 2018-ci ildə layihə və ya sinif işi üçün İKT-dən tez-tez istifadə etdiyini bildirsə də, yalnız 56%-i texnologiyanın tədrisdə istifadəsi üzrə təlim alıb, 43%-i peşəyə başlayanda özünü yaxşı hazır hesab edib və təxminən 18%-i bu sahədə hələ də yüksək peşəkar inkişaf ehtiyacı duyduğunu deyib. Bu göstəricilər göstərir ki, İKT savadlılığının tədrisə real təsiri üçün davamlı hazırlıq, metodik dəstək və məktəb səviyyəsində uyğun ekosistem vacibdir [10].

Nəticə etibarilə, müəllimlərin İKT savadlılığı tədris prosesinə çoxşaxəli təsir göstərir: dərsin planlaşdırılmasını təkmilləşdirir, şagird fəallığını artırır, qiymətləndirməni çevikləşdirir, fərdi yanaşmanı gücləndirir, inklüzivliyi dəstəkləyir və şagirdlərin rəqəmsal səriştələrin formalaşmasına xidmət edir. Lakin beynəlxalq çərçivələr və tədqiqatlar göstərir ki, bu təsirin dayanıqlı olması üçün müəllim hazırlığı yalnız "alətdən istifadə" səviyyəsində qalmamalı, rəqəmsal pedaqogika, təhlükəsiz istifadə, qiymətləndirmə və davamlı peşəkar inkişafla birləşdirilməlidir.

Müəllimlərin İKT savadlılığının artırılmasında mövcud problemlər. Müəllimlərin İKT savadlılığının artırılması müasir təhsil sisteminin prioritet istiqamətlərindən biri olsa da, bu proses bir sıra obyektiv və subyektiv çətinliklərlə müşayiət olunur. UNESCO-nun müəllimlər üçün İKT səriştə çərçivəsi göstərir ki, müəllimin rəqəmsal hazırlığı təkcə texniki alətlərdən istifadə ilə məhdudlaşmır; bu hazırlıq kurikulum, qiymətləndirmə, pedaqogika, təşkilatçılıq və davamlı peşəkar inkişafı da əhatə edir. DigCompEdu çərçivəsi isə müəllimlərin rəqəmsal səriştələrini 22 səriştə və 6 sahə üzrə sistemləşdirir və onların inkişafının altı fərqli səviyyədə getdiyini göstərir. Bu yanaşmaların özü sübut edir ki, problem yalnız "kompüterdən istifadə etməyi bilmək" deyil, rəqəmsal texnologiyanı pedaqoji baxımdan düzgün inteqrasiya etməkdir [9].

Mövcud problemlərin ilk böyük qrupu maddi-texniki baza və rəqəmsal bərabərsizlik ilə bağlıdır. Məktəblərdə cihazların sayı, internetin keyfiyyəti, proqram təminatının əlçatanlığı və texniki nasazlıqlar müəllimlərin İKT bacarıqlarını praktikada tətbiq etməsini birbaşa məhdudlaşdırır. OECD məlumatına görə, sosial-iqtisadi baxımdan üstün məktəblər rəqəmsal öyrənmə üçün daha yaxşı hazırlıqlıdır; PISA göstəricilərində 11 indikatorun 10-da üstün mövqedə olan məktəblərin rəqəmsal imkanları daha güclü görünür. Ayrı-ayrı OECD təhlillərində də göstərilir ki, 23 ölkə və iqtisadiyyatda imkanlı məktəblər rəqəmsal tədrisə dezavantajlı məktəblərdən daha yaxşı hazırdır. Bu fərq o deməkdir ki, müəllimin fərdi istəyi və hazırlığı olsa belə, bəzən işləyən internet, kifayət qədər cihaz və sabit platforma olmadığı üçün İKT savadlılığının artımı dayanıqlı nəticə vermir [6].

İkinci əsas problem ilkin müəllim hazırlığının yetərsizliyidir. OECD-nin TALIS və əlaqəli materiallarında göstərilir ki, OECD üzrə müəllimlərin yalnız 56 faizi tədrisdə İKT-dən istifadə üzrə formal hazırlıq aldığını bildirib, cəmi 43 faizi peşəyə başlayarkən özünü bu sahədə yaxşı və ya çox yaxşı hazır hesab edib. Bu göstəricilər göstərir ki, müəllimlərin böyük bir hissəsi peşəyə daxil olarkən rəqəmsal təlim üçün yetərli baza ilə gəlmir. Nəticədə məktəbə qəbuldan sonra onlar texnologiyanı sistemli pedaqoji alət kimi deyil, daha çox epizodik və texniki vasitə kimi istifadə edirlər. Bu isə sonradan təşkil olunan kursların yükünü artırır və İKT savadlılığının artırılması prosesini ləngidir.

Üçüncü problem ixtisasartırma və davamlı peşəkar inkişaf proqramlarının məhdud effektivliyi ilə bağlıdır. OECD-nin 2023 və 2025-ci il materialları göstərir ki, müəllimlər arasında rəqəmsal təlimlərdə iştirak artmış olsa da, bu iştirak həmişə dərin və davamlı öyrənməyə çevrilmir. OECD-nin 2023-cü il icmalına görə, orta təhsildə müəllimlərin təxminən 20 faizi əlavə rəqəmsal təlimə ehtiyac duyduğunu bildirir; halbuki həmin dövrdə təxminən 60 faiz müəllim son bir ildə bu sahədə təlim keçib. 2025-ci il OECD sənədində isə göstərilir ki, Avropa ölkələrində rəqəmsal təhsillə bağlı peşəkar öyrənmə fəaliyyətlərində iştirak edən müəllimlərin 40 faizi bu fəaliyyətlərə dörd gündən də az vaxt sərf edib. Bu faktlar onu göstərir ki, çox vaxt təlimlərin sayı var, amma dərinliyi, praktik yönümü və davamlılığı kifayət etmir [8].

Dördüncü problem texniki bacarıq ilə pedaqoji inteqrasiya arasında boşluğun qalmasıdır. Müəllim bəzən təqdimat hazırlamağı, platformaya daxil olmağı və ya onlayn test qurmağı bacarsa da, bu alətləri kurikulum məqsədləri, şagird fərqləri və qiymətləndirmə ehtiyacları ilə əlaqələndirməkdə çətinlik çəkir. UNESCO ICT CFT və DigCompEdu çərçivələri məhz buna görə texnologiya biliklərini ayrıca deyil, pedaqogika, qiymətləndirmə və öyrənənlərin güclləndirilməsi ilə birlikdə təqdim edir. Yəni əsas problem rəqəmsal aləti işlətmək yox, onu dərsin məzmununa uyğun, məqsədli və ölçülə bilən nəticə verəcək şəkildə tətbiq etməkdir. Təcrübədə isə bir çox hallarda İKT vizual bəzək elementi kimi qalır, tədrisin metodik nüvəsinə çevrilmir [7].

Beşinci problem zaman çatışmazlığı, iş yükü və institusional dəstəyin zəifliyidir. OECD-nin siyasət icmallarında vurğulanır ki, müəllimlərin peşəkar inkişafda iştirakını azaldan əsas maneələr arasında zaman məhdudiyyəti, yüksək xərclər və dəstək çatışmazlığı dayanır. Eyni mənbələrdə qeyd olunur ki, peşəkar inkişafın keyfiyyəti sistemlər arasında ciddi fərqlənir və xüsusilə dezavantajlı məktəblərdə çalışan müəllimlər daha çox ehtiyac duysalar da, belə imkanlardan daha az yararlana bilirlər. Bu o deməkdir ki, müəllimdən rəqəmsal dönüşüm tələb olunur, amma ona bunun üçün kifayət qədər zaman, metodik müşayiət, texniki yardım və məktəbdaxili əməkdaşlıq mühiti hər zaman verilmir. Belə şəraitdə İKT savadlılığının artırılması fərdi səylə məhdudlaşır və geniş miqyaslı dəyişiklik yaratmaq çətinləşir.

Nəticə. Beləliklə, müəllimlərin İKT savadlılığının artırılması müasir təhsilin keyfiyyətinin yüksəldilməsi üçün vacib şərtlərdən biridir. Mövzunun aktuallığı rəqəmsallaşan təhsil mühitinin tələblərindən, elmi yeniliyi problemin texniki deyil, pedaqoji və idarəetmə baxımından kompleks şəkildə araşdırılmasından, praktik əhəmiyyəti isə məktəblərdə tətbiq oluna bilən inkişaf proqramlarının hazırlanması imkanından irəli gəlir. Bu istiqamətdə qurulacaq məqsədyönlü proqramlar müəllimin peşəkar səriştələrin gücləndirə, dərsin keyfiyyətini artıra və ümumilikdə təhsilin modernləşməsinə real töhfə verə bilər.

Problemin aktuallığı. Müəllimlərin İKT savadlılığının artırılması müasir təhsil sistemində xüsusi aktuallıq kəsb edir. Təhsilin rəqəmsallaşması, elektron resursların geniş yayılması, onlayn və hibrid təlim modellərinin artması müəllimdən yalnız fənn biliyi deyil, həm də rəqəmsal vasitələri pedaqoji məqsədlə səmərəli tətbiq etmə bacarığı tələb edir.

Problemin elmi yeniliyi. Problemin elmi yeniliyi ondan ibarətdir ki, müəllimlərin İKT savadlılığı bu tədqiqatda yalnız texniki bacarıq kimi deyil, tədrisin keyfiyyətinə, qiymətləndirməyə, fərdiləşdirilmiş öyrənməyə və şagirdlərin rəqəmsal səriştələrinin formalaşmasına təsir edən kompleks pedaqoji fenomen kimi nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Hazırlanacaq proqramın praktik əhəmiyyəti ondan ibarətdir ki, o, müəllimlərin rəqəmsal bacarıqlarının inkişafı üçün tətbiq edilə bilən konkret istiqamətlər təqdim edir: ilkin diaqnostika, səviyyə üzrə təlim, məktəbdaxili mentorluq, rəqəmsal resurslardan istifadə, elektron qiymətləndirmə və təhlükəsiz rəqəmsal davranış vərdişləri.

Ədəbiyyat

1. UNESCO. *UNESCO ICT Competency Framework for Teachers* / UNESCO. – Paris: UNESCO, – 2018.
2. Redecker, C. *European Framework for the Digital Competence of Educators: DigCompEdu* / C. Redecker; red. Y. Punie. – Luxembourg: Publications Office of the European Union, – 2017.
3. OECD. *OECD Digital Education Outlook 2023: Towards an Effective Digital Education Ecosystem* / OECD. – Paris: OECD Publishing, – 2023. – 414 s.
4. OECD. *Preparing Teachers for Digital Education* / OECD. – Paris: OECD Publishing, – 2025. – 38 s.
5. Smestad, B. Examining dimensions of teachers' digital competence: A systematic review pre- and during COVID-19 / B. Smestad, O.E. Hatlevik, M. Johannesen [və b.] // *Heliyon*. – 2023. – Vol. 9, № 6. – e16677.
6. Claro, M. Systematic review of quantitative research on digital competences of in-service school teachers / M. Claro, C. Castro-Grau, J.M. Ochoa [və b.] // *Computers & Education*. – 2024. – Vol. 215. – 105030.
7. Süzer, E. Teachers' digital competency level according to various variables: A study based on the European DigCompEdu framework in a large Turkish city / E. Süzer, M. Koc // *Education and Information Technologies*. – 2024. – Vol. 29. – s. 22057–22083.
8. Demissie, E.B. Teachers' digital competencies and technology integration in education: Insights from secondary schools in Wolaita Zone, Ethiopia / E.B. Demissie, T.O. Labiso, M.W. Thuo // *Social Sciences & Humanities Open*. – 2022. – № 1.
9. Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası // Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. – Bakı, – 2025.
10. Orucova, İ.X. Məktəbəqədər təhsildə rəqəmsal texnologiyaların tətbiqi və istifadə yolları // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2022. – № 1. – s. 183–186.
11. İbrahimli, N.V. Rəqəmsal dövrdə müəllimin rolu və pedaqoji fəaliyyətin transformasiyası // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2025. – № 3. – s. 73–77.
12. Camalova, G.M. Fransız dili dərslərində rəqəmsal təlim: tədris və öyrənmə texnologiyaları // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2025. – № 5. – s. 127–134.

Redaksiyaya daxil olub: 10.04.2026

UOT 372.891

İradə İsa qızı Nağıyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar müəllim
https://orcid.org/0009-0008-7022-1243
E-mail: ii.nagiyeva@adpu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(4).113-117

COĞRAFİYADAN DİSTANT DƏRSLƏRİN TƏŞKİLİNDƏ FAYDALI İKT HƏLLƏRİ

Irada Isa Naghiyeva
senior lecturer at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy,
Honored teacher

USEFUL ICT SOLUTIONS IN ORGANIZING DISTANCE LEARNING IN GEOGRAPHY

Ирада Иса гызы Нагиева
старший преподаватель Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике,
Заслуженный учитель

ПОЛЕЗНЫЕ ИКТ-РЕШЕНИЯ ПРИ ОРГАНИЗАЦИИ ДИСТАНЦИОННЫХ УРОКОВ ПО ГЕОГРАФИИ

Xülasə. Məqalədə coğrafiya fənninin distant tədrisi prosesində informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi imkanları və perspektivləri təhlil edilir. Pandemiya dövründə tətbiq olunan onlayn təhsil platformalarının funksional xüsusiyyətləri, interaktiv xəritə və qiymətləndirmə alətlərinin coğrafiyanın əyani təbiətinin mənimsənilməsində rolu araşdırılır. Xüsusilə Microsoft Teams, Moodle və Google Earth kimi platformaların didaktik imkanları ümumiləşdirilir. Eyni zamanda müəllimlərin İKT bacarıqları, texniki təminat və informasiya təhlükəsizliyi ilə bağlı problemlər müəyyənləşdirilir və onların həlli istiqamətində təkliflər irəli sürülür. Tədqiqat nəticəsində distant mühitdə coğrafiyanın tədrisinin səmərəliliyinin artırılması yolları əsaslandırılır.
Açar sözlər: *distant təhsil, coğrafiya tədrisi, informasiya-kommunikasiya texnologiyaları, onlayn platformalar, interaktiv xəritələr, məkan təfəkkürü, elektron qiymətləndirmə, Microsoft Teams, Moodle*

Abstract. The article analyzes the opportunities and prospects of applying information and communication technologies (ICT) in distance geography education. It examines the functional features of online platforms used during the pandemic period and highlights the role of interactive mapping and assessment tools in developing students' spatial thinking skills. The didactic potential of platforms such as Microsoft Teams, Moodle, and Google Earth is summarized. The study also identifies challenges related to teachers' ICT competence, technical infrastructure, and information security, and proposes solutions to address these issues. The findings substantiate ways to improve the effectiveness of distance geography teaching.
Keywords: *distance education, geography teaching, information and communication technologies, online platforms, interactive maps, spatial thinking, e-assessment, Microsoft Teams, Moodle*

Аннотация. В статье анализируются возможности и перспективы применения информационно-коммуникационных технологий (ИКТ) в процессе дистанционного преподавания географии. Исследуются функциональные особенности онлайн-образовательных платформ, применявшихся в период пандемии, а также роль интерактивных карт и средств оценивания в усвоении наглядной природы географии. В частности, обобщаются дидактические возможности таких платформ, как Microsoft Teams, Moodle и Google Earth. Одновременно выявляются проблемы, связанные с ИКТ-компетенциями учителей, техническим обеспечением и информационной безопасностью, и предлагаются

пути их решения. В результате исследования обосновываются способы повышения эффективности преподавания географии в дистанционной среде.

Ключевые слова: *дистанционное обучение, преподавание географии, информационно-коммуникационные технологии, онлайн-платформы, интерактивные карты, пространственное мышление, электронное оценивание, Microsoft Teams, Moodle*

Coğrafiya fənninin distant formada tədrisi vizual materialların, xəritələrin, peyk təsvirlərinin və interaktiv modellərin geniş tətbiqini tələb edir. Müasir informasiya-kommunikasiya texnologiyaları (İKT) bu istiqamətdə müəllim və tələbələr üçün geniş imkanlar yaradır.

COVID-19 pandemiyası şəraitində distant tədris texnologiyalarından istifadənin perspektivləri mütləq aktuallıq kəsb etməyə başladı. Hələ əvvəlcədən mövcud olan bir çox onlayn görüş, telekonfrans, videokonfrans, mesajlaşma və ani ünsiyyət platformaları bu vəziyyətdə üstünlüyü ələ aldılar. Lakin bu böyük və dövlət təhsil siyasəti əhəmiyyətli bir məsələ olduğundan əksər dövlətlərdə, o cümlədən Azərbaycanda qısa zamanda dünyanın aparıcı onlayn distant tədris platformaları ilə sazişlərin imzalanmasına, təcrübə mübadiləsinə başlanıldı. Bu baxımdan distant təhsil texnologiyalarının, İKT həllərinin ən praktik və əyani ümumhəyati fənlərdən biri olan coğrafiyanın tədrisində açdığı imkanlar və perspektivlərin təhlili olduqca vacibdir [4].

Coğrafiya dərslərində istifadə olunan əsas platformalar. Azərbaycanda Covid-19 pandemiyası fonunda coğrafiyadan distant dərslərin təşkili üçün coğrafiya müəllimləri tərəfindən ilk olaraq "Whatsapp", ardınca, "Facebook", daha sonra nisbətən onlayn dərslər üçün daha funksional olan "Telegram" sosial şəbəkələrindən istifadə olunmağa başladılar. Bir qədər sonra isə professional videogörüş xidmətləri təklif edən "Skype" və "Zoom" platformalarının imkanlarından istifadə edilməyə başlanıldı [5].

Nəhayət, bu məsələdə Təhsil Nazirliyi dünyanın onlayn təhsil üzrə iki nəhəng şəbəkəsi olan "Moodle" və "Microsoft Teams" proqramları üzərində dayandı. Azərbaycan hökuməti ali və orta məktəblərdə tədrisin onlayn təşkili üçün Microsoft firması ilə müqavilə bağladı və nazirlik orta məktəblərdə onlayn təhsil portalı – www.virtual.edu.az-ı yaradaraq "Microsoft Teams"-lə inteqrasiya etdi.



Şəkil 1. *"Microsoft Teams" platformasında komandalar pəncərəsinin veb rejimdə görünüşü*

Proqramın telefon, kompüter tətbiqləri və sayt variantları var. Bu proqram sırf tədris və professional görüşlər üçün nəzərdə tutulub və bunun üçün bir çox funksiyalara və xeyli web alətlərlə inteqrasiya imkanlarına malikdir. Hər şeydən öncə proqram korporativ Microsoft elektron poçtu ilə bütün "Office 365" proqramları ilə onlayn əlaqədədir və müəllim və şagirdlər istənilən növ (kviz, mətn, cədvəl, audiovizual və s.) fayllar üzərində əməkdaşlıq rejimində real vaxt anında birgə çalışa bilərlər [2].

Şəkil 2. *Coğrafiyadan distant dərs görüntüsü*

Coğrafiya fənninin tədrisində "Microsoft Teams" platformasının imkanları olduqca genişdir. Sistemə inteqrasiya olunan web-2 alətlərinin sayı gündən-günə artmaqda davam edir. "Microsoft Teams"-də elektron təqvim, jurnal, davamiyyət statistikası ("İnsignt" proqramı), şagirdlərlə canlı videoünsiyyət, sıralama üçün əlqaldırma funksiyası, dərsi əyaniləşdirmək üçün ekran paylaşımı imkanları, o cümlədən onlayn "Microsoft Whiteboard" (Microsoft Bəyaz lövhə), tapşırıqlar əlavə etmək, onları

onlayn rejimdə avtoqiymətləndirmək və s. kimi xeyli funksiyalar vardır. Bəyaz lövhə vasitəsilə biz şagirdlə əməkdaşlıq şəraitində lövhədə müəyyən coğrafi hadisəni, hesablamanı təsvir edir, sonra isə, məsələnin davamını şagirdin etməsini istəyirik, şagird isə öz kompüterindən (yaxud smartfonundan) lövhədə bizim yazdıqlarımızı davam etdirir. Sanki canlı lövhə effekti yaranır. Dəyişikliklər bütün şagirdlərin monitorunda əks olunur. İstənilən şəxsin icra etdiyi əməliyyata düzəlişlər və əlavələr etmək, eyni zamanda bir neçə nəfərin eyni vaxta işləməsi də mümkündür. Biz lövhədə əməkdaşlıq rejimində qələm və kompüterdə yazma, rəsm çəkmə, sxem, foto, video, səs faylı əlavə etmə kimi funksiyalardan istifadə edə bilərik [6].



Şəkil 3. *"Microsoft Whiteboard" (Ms Bəyaz lövhə) proqramının iş masasının görünüşü*

Digər önəmli bir funksiya "Microsoft Teams"-ə inteqrasiya olunmuş və onlayn qiymətləndirmə vasitələrini hazırlamağa, şagirdlərə seçdiyimiz zaman intervalında təqdim olunub avtoqiymətləndirilməyə imkan verən "Microsoft Forms" proqramıdır. Bu proqramla hazırlanan tapşırıqlar istənilən tipdə tərtib edilə bilər (situasiya, reytinq, açıq və qapalı testlər, tarix, fayl yükləmə). Burada suallara video, foto, hiperlink əlavə etmək imkanları, hər bir sualda şagirdlə əks-əlaqə mesajı qoymaq və s. mümkündür [7].



Şəkil 4. *"Microsoft Forms" proqramının tapşırıqlar pəncərəsinin görünüşü*

Onlayn dərslərdə istifadə oluna və "Teams"-ə inteqrasiya oluna bilən digər əyləncəli öyrədici proqramlardan "Learning Apps" [9], vordval, flipgrid və s. də misal göstərmək olar. Bu platformalarda əyləncəli qiymətləndirmə oyunları, krossvordlar, quizlər təşkil etmək mümkündür.

Şəkil 5. *"LearningApps.org" platformasında öyrədici coğrafi oyun*

Bunlardan əlavə 3D virtual reallıq texnologiyaları və yaxşı işlənmiş coğrafi tədris və sənədli film və animasiyaları ilə distsant şəraitdə internet imkanları ilə şagirdlərin fəza təsəvvürləri və yaradıcı təfəkkürlərini yüksək səviyyədə inkişaf etdirmək mümkündür. Lakin təəssüf ki, bu sahədə Azərbaycan dilində zəngin informasiya bankımız hələ ki yoxdur. Müəyyən dövlət qurumlarının və fərdi müəllimlərin hazırlayıb internet resurslarda yerləşdirdiyi videodərslərlə kifayətlənirik.

Coğrafiyadan distant dərslər təşkil edərkən "Microsoft Teams"a inteqrasiya olunması nəzərə alınmadan xeyli müstəqil faydalı proqramlardan da istifadə etmək mümkündür. Bu cür alətlər içərisində veb səhifələrdə yerləşən, habelə mobil tətbiqlər kimi fəaliyyət göstərən interaktiv xəritəçilik proqramlarını misal göstərmək olar. Onlar arasında ən geniş yayılmışı heç şübhəsiz "Google Map" proqramıdır. Hər birimizin telefonunda mövcud olan bu proqram vasitəsilə asanlıqla dünyanın istənilən nöqtəsini seyr edə, həmin yerə qədər olan məsafəni, nəqliyyat məlumatlarını, ərazinin müxtəlif tipli xəritə layları ilə təsvirini, quşbaxışı görünüşünü və s. əldə etmək, məsafələri ölçmək mümkündür. Bu qəbildən olan "Google Earth", "Google Map VR", "Russian TopoMap" proqramları isə özündə ta-

rixiliyi, möhtəşəm səyahət və kəşf imkanlarını, dəqiq topoqrafik təsvirləri təqdim edir.

"Fields Area Measure" (Ərazi Ölçmə) proqramları ilə elektron xəritə üzərində istənilən məntəqələr arasında məsafəni və qapalı sahələri əllə və GPS vasitəsilə ölçmək mümkündür.

"AzNav" milli naviqasiya proqramında Azərbaycan üçün nəqliyyat naviqasiyası yardımı ala, məkanda hərəkət sürəti, ərazinin koordinantı, yüksəkliyi və s. göstəricilər haqqında məlumat almaq mümkündür. Bəzi interaktiv xəritə sayt və proqramlarında seçilmiş ərazilərin üçölçülü modelinə müxtəlif aspektdən nəzər salmaq olar [8].

Dünya xəritəsi üzərində müəyyən əlamətlərə görə fərqlənən ölkələri seçib xüsusi rənglərlə fərqləndirməyə imkan verən saytlar və mobil tətbiqlər geniş yayılmışdır.

Bütün bunlarla yanaşı çox zəngin çeşidli mobil və veb coğrafi oyun tətbiqləri, məlumat bazaları, animasiyalar mövcuddur ki, şagirdlər bu imkanlardan istifadə etməklə əllərində olan bir cihazla yeni əsrin dünyasında bir çox imkanlardan istifadə etmək vərdişləri qazana bilərlər [3].

Bununla belə burada göstərilən müxtəlif məqsədli tədrisə yararlı proqramların demək olar ki, hamısı xarici və ya beynəlxalq proqramlar olub heç də milli coğrafiya proqramlarına tam uyğun olan onlayn tədris əlavəsi kimi çıxış edə bilməz. Bu baxımdan bu resurslardan istifadə ilə yanaşı əvvəlki paraqrafda da qeyd olunduğu kimi milli onlayn coğrafi təhsil tətbiqləri və portalları yaradılmalı və istifadəyə verilməldir.

Problemlər və çətinliklər. Müxtəlif texniki və proqram İKT vasitələri istər əyani, istərsə də, onlayn öyrənmə mühitlərində coğrafiyanın tədrisi üçün xeyli yeni imkanlar açır. Lakin hər sahədə olduğu kimi burada da müəyyən problemlər özünü göstərir. Coğrafiya fənninin tədrisində İKT-nin tətbiqinin problemləri iki tərəflidir:

- fənnin yüksək əyani təbiətini mənimsətmək üçün olduqca böyük əmək tələb edən müxtəlif çeşidli və proqram təminatlı nəhəng coğrafi databazanın yaradılması problemi;
- müəllimlərin texniki, dil və proqramlarda işləmə bacarıqları problemi.

Təhlillərin nəticələrinə əsasən, ortaya çıxan problemlər:

- müəllimlərin texniki və proqram savadının çatışmazlığı;
- texniki vasitələrlə təminat;
- şagirdlərin kompüter və internet məhsullarından məqsədli istifadəsi problemi;
- onlayn tədris platformalarının imkanlarının ələxsus əyaniliyi təmin edən ekran paylaşımı, modelləşdirilmiş təsvirlərlə iş və s. baxımından müəllimlər tərəfindən kütləvi mənimsənilməməsi;
- onlayn şəraitdə əksər rayon və kəndlərdə internet və avadanlıq problemi;
- onlayn platformaların beynəlxalq transmilli korporasiyalara aid olması baxımından ölkənin təhsil infrastrukturunun məlumat bazasının və təhsilverən və təhsilalanların şəxsi informasiya təhlükəsizliklərinin şübhə altında qalmaları və s.

Təkliflər və perspektivlər. Bu problemləri həll etmək üçün əsas təkliflər:

- müəllimlər üçün kurslar (artıq müəyyən işlər görülür);
- texniki təminatı yaxşılaşdırmaq üçün layihələrin icrası, xüsusən dəqiq cihazqayırmanın inkişafı;
- Şagird cihazlarında onları zərərli informasiyalardan qoruyan filtrlərin quraşdırılması və xüsusi proqramların istifadəsi (məsələn, Youtube kids);
- Virtual reallıq əsasında fəza təsəvvürləri yaradan tədris elektron muzey, ekskursiya portallarının yaradılması;
- Telekommunikasiya infrastrukturunun gücləndirilməsi;
- Milli tədris platformalarının, güclü və etibarlı serverlərin yaradılması;
- Valideynlər arasında maarifləndirmə işinin təşkili [1].

Problemin aktuallığı. Müasir dövrdə rəqəmsallaşma prosesinin sürətlənməsi və xüsusilə COVID-19 pandemiyası şəraitində təhsilin distant formaya keçidi informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqini zəruri etmişdir. Coğrafiya fənni əyani və məkan təfəkkürü tələb edən xüsusi strukturuna görə distant mühitdə fərqli metodik yanaşmalar tələb edir. Bu baxımdan Microsoft Teams, Moodle, Google Earth kimi platforma və proqramların tədris prosesində rolu elmi cəhətdən araşdırılmağa ehtiyac duyur.

Mövzunun aktuallığı həm də milli onlayn coğrafi resursların çatışmazlığı, müəllimlərin İKT bacarıqlarının inkişaf etdirilməsi zərurəti və informasiya təhlükəsizliyi məsələlərinin aktuallaşması ilə şərtlənir.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi coğrafiya fənninin distant tədrisində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin sistemli və kompleks yanaşma əsasında təhlil edilmə-

sində ifadə olunur. Məqalədə ilk dəfə olaraq coğrafiyanın əyani və məkan yönümlü xüsusiyyətləri nəzərə alınmaqla onlayn platformaların funksional imkanları didaktik baxımdan ümumiləşdirilmiş və onların tədris prosesinə inteqrasiya mexanizmləri əsaslandırılmışdır. Xüsusilə Microsoft Teams və Moodle kimi platformaların coğrafiya dərslərində interaktivlik, əməkdaşlıq və operativ qiymətləndirmə baxımından yaratdığı imkanlar elmi müstəvidə sistemləşdirilmişdir.

Bununla yanaşı, interaktiv xəritə və virtual modelləşdirmə vasitələrinin, o cümlədən Google Earth proqramının şagirdlərdə məkan təfəkkürünün formalaşdırılmasına təsiri metodik baxımdan əsaslandırılmışdır. Mövcud problemlər (müəllimlərin İKT səriştəsi, texniki təminat, informasiya təhlükəsizliyi və milli resurs çatışmazlığı) vahid konseptual çərçivədə qruplaşdırılmış və onların aradan qaldırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, irəli sürülən metodik yanaşmalar və ümumiləşdirilmiş İKT həlləri ümumtəhsil və ali təhsil müəssisələrində coğrafiya fənninin distant və hibrid formada tədrisi zamanı birbaşa tətbiq oluna bilər. Məqalədə təhlil edilən platformaların, xüsusilə Microsoft Teams və Moodle sistemlərinin funksional imkanlarının konkret dərs ssenarilərinə inteqrasiyası müəllimlər üçün praktik fəaliyyət modeli təqdim edir.

İnteraktiv xəritə və virtual mühitlərdən, o cümlədən Google Earth proqramından istifadənin metodik əsaslandırılması şagirdlərdə məkan təfəkkürünün formalaşdırılması və coğrafi anlayışların daha dərindən mənimsənilməsi üçün real tətbiq mexanizmi yaradır. Eyni zamanda onlayn qiymətləndirmə alətlərinin sistemli istifadəsi bilik və bacarıqların operativ və obyektiv qiymətləndirilməsinə imkan verir.

Ədəbiyyat

1. Təhsilin informasiyalaşdırılması və distant təhsilin təşkili üzrə normativ sənədlər və metodik göstərişlər. – Bakı: [Təhsil Nazirliyi nəşri], – 2020. – 112 s.
2. Coğrafiyanın tədrisi metodikası üzrə müasir yanaşmalar / elmi red. M.C. İsmayılov. – Bakı: Təhsil, – 2019. – 184 s.
3. Google LLC. Google Earth and Google Maps: Educational Applications Guide. – Mountain View: Google Education Services, – 2022. – 42 s.
4. LearningApps. Interactive Learning Modules for School Education. Official methodological materials. – [Y.y.], – 2021. – 28 s.
5. Microsoft Corporation. Microsoft Forms in Educational Assessment: Practical Manual. – [Redmond], – 2021. – 22 s.
6. Microsoft Corporation. Microsoft Teams for Education: User Guide and Technical Documentation. – Redmond: Microsoft Press, – 2020. – 36 s.
7. Microsoft Corporation. Microsoft Whiteboard: Collaboration in Education Environment. Technical overview. – [Redmond], – 2021. – 18 s.
8. Ministry of Education of the Republic of Azerbaijan. Virtual məktəb layihəsi haqqında məlumat və hesabat materialları. – Bakı: [T.N.], – 2020. – 54 s.
9. UNESCO. Distance Learning Strategies in Response to COVID-19 School Closures. – Paris: UNESCO Publishing, – 2020. – 64 s.

Redaksiyaya daxil olub: 04.05.2026

UOT 378. 183

Huseyn Fizuli Aliyev
doctorial student in the program of doctor of philosophy at
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0000-1441-2362
E-mail: huseyn022023@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).118-122

EVALUATION OF THE EFFECTIVENESS OF THE BLOCK-BASED LEARNING MODEL IN EDUCATIONAL SYSTEMS

Hüseyn Fizuli oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı

TƏHSİL SİSTEMLƏRİNDƏ BLOK ƏSASLI TƏLİM MODELİNİN EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Гусейн Физули оглы Алиев
докторант по программе доктора философии
Азербайджанского Государственного Педагогического Университета

ОЦЕНИВАНИЕ ЭФФЕКТИВНОСТИ МОДЕЛИ БЛОЧНО-ОРИЕНТИРОВАННОГО ОБУЧЕНИЯ В ОБРАЗОВАТЕЛЬНЫХ СИСТЕМАХ

Abstract. Block-based learning has proven to be an innovative and increasingly effective teaching approach in modern teacher education. It is characterized by a structured, intensive, and modular organization of learning content. In contrast to traditional, linear, and fragmented lesson models, block-based learning allows prospective teachers to focus on specific pedagogical topics within clearly defined learning units. This purposeful activity aims to develop deeper understanding, increase knowledge retention, and strengthen the practical application of educational theories. Given ongoing educational reforms and increasing demands on teacher professionalism, evaluating the effectiveness of such models has become an important research focus. This study examines the impact of block-based learning on the development of pedagogical competencies, lesson planning, and classroom management among prospective teachers. The aim of the study is to determine whether structured learning blocks contribute to a more effective integration of theory and practice and support the professional development of future teachers.
Keywords: *block-based learning, teacher preparation, modular instruction, pedagogical competence, educational models*

Xülasə. Blok əsaslı təlim müasir müəllim təhsilində innovativ və getdikcə daha təsirli bir tədris yanaşması olduğunu sübut etmişdir. O, təlim məzmununun strukturlaşdırılmış, intensiv və modulyar təşkili ilə xarakterizə olunur. Ənənəvi, xətti və fraqmentləşdirilmiş dərs modellərindən fərqli olaraq, blok əsaslı təlim gələcək müəllimlərə aydın şəkildə müəyyən edilmiş təlim vahidləri daxilində müəyyən pedaqoji mövzulara diqqət yetirməyə imkan verir. Bu məqsədyönlü fəaliyyət daha dərin anlayış inkişaf etdirməyi, biliklərin yadda saxlanılmasını artırmağı və təhsil nəzəriyyələrinin praktik tətbiqini gücləndirməyi hədəfləyir. Davam edən təhsil islahatları və müəllim peşəkarlığına artan tələblər nəzərə alınmaqla, bu cür modellərin səmərəliliyinin qiymətləndirilməsi mühüm tədqiqat mərkəzinə çevrilmişdir. Bu tədqiqat blok əsaslı təlimin gələcək müəllimlər arasında pedaqoji səriştələrin inkişafına, dərs planlaşdırmasına və sinif idarəçiliyinə təsirini araşdırır.

Tədqiqatın məqsədi strukturlaşdırılmış təlim bloklarının nəzəriyyə və təcrübənin daha səmərəli inteqrasiyasına töhfə verib-vermədiyini və gələcək müəllimlərin peşəkar inkişafını dəstəkləyib-dəstəkləmədiyini müəyyən etməkdir.

Açar sözlər: *blok əsaslı təlim, müəllim hazırlığı, modul təlim, pedaqoji sərişta, təhsil modelləri*

Аннотация. Блочное обучение доказало свою эффективность как инновационный и все более действенный подход к преподаванию в современном педагогическом образовании. Оно характеризуется структурированной, интенсивной и модульной организацией учебного контента. В отличие от традиционных, линейных и фрагментированных моделей уроков, блочное обучение позволяет будущим учителям сосредоточиться на конкретных педагогических темах в рамках четко определенных учебных блоков. Эта целенаправленная деятельность ориентирована на развитие более глубокого понимания, повышение усвоения знаний и укрепление практического применения педагогических теорий. Учитывая продолжающиеся образовательные реформы и растущие требования к профессионализму учителей, оценивание эффективности таких моделей стала важным направлением исследований. В данном исследовании изучается влияние блочного обучения на развитие педагогических компетенций, планирование уроков и управление классом среди будущих учителей. Цель исследования – определить, способствуют ли структурированные учебные блоки более эффективной интеграции теории и практики и поддерживают ли они профессиональное развитие будущих учителей.

Ключевые слова: *блочное обучение, подготовка учителей, модульное обучение, педагогическая компетентность, образовательные модели.*

INTRODUCTION. Improving the quality of teacher education has become a central priority for modern education systems worldwide. Research shows that the quality of teacher education is directly linked to overall educational outcomes and student achievement [4, s. 296]. The modern educational environment is characterized by rapid changes in curriculum standards, technological advances, globalization, and the increasingly diverse needs of students. These rising expectations place high demands on teacher education institutions to revise and improve their teaching models. Traditional teacher education programs are frequently criticized for their fragmented, linear, and subject-specific course structures. Aliyev emphasizes that the structuring of instruction plays a crucial role in organizing the teaching process systematically and improving its effectiveness [6, s.114]. Such approaches often separate theoretical instruction from practical teaching experience, thus limiting the opportunities for a meaningful integration of knowledge and experience.

Block study in teacher education offers unique pedagogical advantages. Structured learning units enable prospective teachers to explore teaching strategies, lesson planning, classroom management, and assessment methods in an integrated manner.

Structured and interactive learning environments have been shown to significantly improve student engagement and learning outcomes [5, s.5].

Previous research has shown that modular and block-based approaches promote reflective practice, collaborative learning, and the application of theory in practice [3, s.210].

Also Quliyev highlights that the modernization of teaching methods contributes to the development of pedagogical innovation and enhances the overall quality of education [12, s.92].

While existing literature highlights its potential benefits, there is a need for a systematic evaluation of how block-based learning influences key aspects of teacher competence, including pedagogical knowledge, lesson planning, and classroom management. Closing this research gap is essential for evidence-based reforms in teacher education. Therefore, this study aims to investigate the impact of block-based instruction on teacher education, particularly with regard to the development of pedagogical competencies, lesson planning, and classroom management among student teachers.

Pedagogical knowledge is considered a key factor influencing teaching effectiveness and classroom practice [10, s. 915].

By examining both theoretical and practical insights, this study aims to contribute to the growing literature on innovative teaching

models and to provide recommendations for improving the quality and effectiveness of teacher training programs. [1, s.200]

LITERATURE REVIEW

Block learning in teacher education plays an important role in connecting theory and practice. Traditional models often separate lectures and practical training, thus limiting opportunities for direct application of pedagogical knowledge (Korthagen, 2010). Block models integrate theory, lesson planning, classroom management, and pedagogical practice into individual modules. For example, an active learning module might include a lecture on cooperative learning methods, a demonstration of micro-teaching in small groups, classroom observation, and a teacher-led reflective discussion. This integration allows prospective teachers to directly apply theoretical knowledge, observe results, and reflect on necessary improvements. Structured learning blocks encourage reflective and collaborative learning, which is essential for teachers' professional development. Schön (1983) explains: "Reflection in Action allows professionals to critically evaluate their own practices and to improve through active participation" (p. 68). In block-based teacher education programs, reflective practices such as lesson journals, peer assessment, and video analysis of lessons are integrated into the modules. For example, after a micro-lesson, preservice teachers can review lesson notes, discuss what went well and what could be improved, and receive feedback from colleagues and experienced teachers (Schön, 1983). Collaborative tasks within the modules promote both social and cognitive development and support reciprocal learning.

METHODOLOGY

Research Design – This study uses a mixed-methods research design that combines quantitative and qualitative approaches to comprehensively understand the impact of block programming on teacher preparation. Mixed-methods designs are particularly well-suited for evaluating complex educational interventions because they allow researchers to examine not only the outcomes to be measured, but also the processes and practices that underlie those outcomes. Specifically, a sequential explanatory design was chosen. In this design, quantitative data were collected primarily using structured questionnaires to measure changes in pedagogical competence, lesson planning, and classroom management skills.

Theoretical Basis – Block learning is based on the principles of modular instructional design based on sequential, purposeful, and intensive learning units. Cognitive load theory states that learning is most effective when information is presented in manageable chunks, thus reducing cognitive load. Block-based modules allow teachers to engage intensively with a particular subject and contribute to deeper understanding and long-term retention of pedagogical knowledge. Social constructivism emphasizes learning as an interactive and socially mediated process. Block modules include collaborative activities such as group discussions, microteaching, and peer feedback, which allow students to construct knowledge actively and reflexively. Reflective practice theory emphasizes the central role of reflection in professional development.

3.3 Participants – Sixty teachers from one university participated in the study. Participants were specifically selected to ensure that they had completed at least one block module in pedagogy, lesson planning, or classroom management. All participants had completed educational theory courses to provide a baseline for comparison. Carefully selected participants participated in the intervention in a manner that was appropriate for their diversity of experiences, motivations, and prior teaching skills. [5, s.132]

Data Collection – Quantitative Data: The structured questionnaire was based on validated competency frameworks for teachers. The following were assessed:

Pedagogical Knowledge: "I can effectively incorporate pedagogical theories into my lesson planning."

Lesson Planning Skills: "I can design lessons so that objectives, activities, and assessment are aligned."

Classroom Management: "I can maintain student participation and order in the classroom."

COURSES RELATED TO BLOCK PROGRAMMING (SQ5)

The results of this sub-question are detailed in Appendix B for each study. The courses related to block programming are:

Mathematics (8 courses), Natural Sciences (8 courses), Computer Science (6 courses), Physics (3 courses), Social Sciences and/or Humanities (2 courses), Programming Logic (1 course), English (1 course), Biology (1 course), and 1 interdisciplinary course. The classification of courses is based on the terminology used by the authors of the selected articles in this SMS. The activity was designed using a module and was based on Kolb's four stages of experiential learning (Concrete Experience, Reflective Observation, Abstract Conceptualization, and Active Exploration).

These phases consisted of five main activities: 1) Video Analysis (Concrete Experience): Videos are shown to help students understand the main topic of the activity and the mathematical concepts; 2) Reading Instruction (Reflective Observation): After watching the video, students deepen and expand their understanding using the concepts explained in the reading instruction. They also conduct an angle study to test their understanding by applying their newly acquired knowledge. This allows students to observe how a mathematical concept is used to determine direction. 3) Robot Component Assembly (Abstract Concept): Students think about how they can logically apply their newly acquired knowledge and assemble visual blocks into a block program. 4) Block Programming (Active Experience): Students conduct experiments and explore logic by changing angles and degrees. 5) Playing Robot Games: This module, developed by the authors, combines concepts such as angles (degrees), robots, visual programming, and games. [8, s.250]

The results show that the methodology used can effectively increase student engagement. Hutchins (2020) used design-based research (DBR) to develop, evaluate, and improve a collaborative computer-based STEM environment (C2STEM) using block programming in physics lessons. An evidence-based approach divided the entire curriculum into four modules: (1) one-dimensional land transport with constant acceleration and deceleration, (2) two-dimensional motion at constant speed for river transport, (3) two-dimensional accelerated motion (taking into account gravity) for drone package delivery, and (4) one- and two-dimensional motion under the influence of forces (including static and dynamic friction). Netsblox was used as the tool. The results of this experiment showed that students working with C2STEM had a better understanding of physics concepts and applications and computational thinking than students who followed the traditional curriculum. This suggests that activities that incorporate block programming into lessons can be more motivating and create a more enjoyable learning environment.

Actuality of the problem. The relevance of this study is determined by the increasing demands placed on modern education systems and teacher professionalism. Rapid changes in curriculum standards, technological advancements, and the growing diversity of learners require more effective and flexible approaches to teacher education. Traditional models, often characterized by fragmented and linear structures, are no longer sufficient to ensure the integration of theoretical knowledge with practical teaching skills. In this context, evaluating innovative instructional models such as block-based learning becomes essential for improving the quality and effectiveness of teacher training programs.

Innovation in this article. The novelty of this study lies in its comprehensive examination of block-based learning as an integrated instructional model within teacher education. Unlike traditional approaches, this study combines theoretical analysis with empirical investigation to assess the impact of structured learning blocks on pedagogical competence, lesson planning, and classroom management. The use of a mixed-methods research design provides a deeper understanding of both the outcomes and processes of learning, while also highlighting the role of modular instruction in bridging the gap between theory and practice.

Practical importance of the problem. The practical significance of this research is reflected in its potential to improve teacher education practices and instructional design. The findings provide evidence-based recommendations for the implementation of block-based learning in teacher training programs, contributing to the development of more effective teaching strategies and professional competencies. By supporting the systematic integration of structured learning models, the study offers practical guidance for educators, curriculum developers, and policymakers seeking to enhance the quality of teaching and learning processes in diverse educational contexts.

References

1. Abdi, A.A., Shultz, L., & Pillay, T. Decolonizing Global Citizenship Education / A.A. Abdi, L. Shultz, T. Pillay. – Rotterdam: Sense Publishers, – vol. 1. – 2015. – 200 p.
2. Alimova, F.A. Müasir müəllim təhsilində virtual sinif və simulyasiya texnologiyalarının rolu / F. A. Alimova. – Bakı,– 2020. – 152 s.
3. Darling-Hammond, L. The Professional Development of Teachers: International Perspectives / L. Darling-Hammond. – New York: Teachers College Press, – 2017. – 210 p.
4. Darling-Hammond, L. Teacher education around the world: What can we learn from international practice? / L. Darling-Hammond. – Teaching and Teacher Education, – 2017. – Vol. 61. – p. 291–309. – DOI: 10.1016/j.tate.2017.11.012
5. Əlizadə, R.İ. Strukturlaşdırılmış təlim modelləri və müəllim hazırlığı / R.İ.Əlizadə. – Bakı: Elm, – 2020. – 142 s.
6. Əliyev, R. Təlimin strukturlaşdırılması və effektiv təşkili məsələləri / R.Əliyev. – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2019. – №3. – s. 112–119.
7. Hsu, Y.C. The effects of integrated learning environments on student outcomes / Y.C. Hsu, Y.H. Ching // – Computers & Education, – 2014. – Vol. 71. – p. 1–12. DOI: 10.1016/j.compedu.2014.02.004
8. Huseynov, C. Strukturlaşdırılmış təlim modellərinin tətbiqi və qiymətləndirmə / C.Huseynov. – Bakı: Təhsil, – 2019. – 132 s.
9. Huseynov, C., & Məmmədov, A. Müəllim hazırlığında modul və mərhələli proqramların optimallaşdırılması / C. Huseynov, A. Məmmədov. – Bakı: Təhsil, – 2021. – 102 s.
10. König, J. Teachers' pedagogical knowledge: Definition, measurement and results / J. König, S. Blömeke. – Teaching and Teacher Education, – 2012. – Vol. 28, No. 7. – p. 911–922.
11. Mammadov, F., & Mammadov, R. Müasir müəllim təhsili və tədris planının optimallaşdırılması / F.Mammadov, R.Mammadov. – Bakı: Təhsil, – 2021. – 102 s.
12. Quliyev, T. Təlim metodlarının müasirləşdirilməsi və pedaqoji innovasiyalar / T. Quliyev. – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2019. – №2. – s. 90–97.
13. Zeynalova, A. Təhsildə çoxdillilik və qloballaşma: [1 c.] / A. Zeynalova. – Bakı: Təhsil, – c. 1. – 2023. – 250 s.

Redaksiyaya daxil olub: 18.05.2026

UOT 355.233

Chichak Vazir Badalova
head of the Foreign languages department at the
Military Institute named after Heydar Aliyev
https://orcid.org/0000-0001-6786-0900
E-mail.cbadalova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).123-129

THE DEVELOPMENT DYNAMICS AND STRATEGIC IMPORTANCE OF AZERBAIJAN'S MILITARY EDUCATION SYSTEM IN THE MODERN ERA

Çiçək Vəzir qızı Bədəlova
Heydər Əliyev adına Hərbi İnstitutun Xarici dillər kafedrasının rəisi

MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN HƏRBİ TƏHSİL SİSTEMİNİN İNKİŞAF DİNAMİKASI VƏ STRATEJİ ƏHƏMİYYƏTİ

Чичек Везир гызы Бедалова
заведующий кафедры Иностранных языков Военного Института имени Гейдара Алиева

ДИНАМИКА РАЗВИТИЯ И СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ СИСТЕМЫ ВОЕННОГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА В СОВРЕМЕННЫЙ ПЕРИОД

Abstract. In the article, the importance of forming Armed Forces capable of responding adequately to modern challenges as one of the main attributes of independent statehood is highlighted, and the strategic role of military science and the education system in this process is emphasized. By examining the dynamics of the formation and development of Azerbaijan's military education system, it is noted that the reforms implemented in recent years have contributed to updating the content of military education, creating effective management mechanisms, and improving the quality of personnel training. In the context of globalization and technological development, modern military education places particular importance on developing both professional competencies and 21st-century skills among officers. Likewise, increasing the share of military education in the structure of state expenditures is considered a strategically significant investment.
Keywords: *innovative curriculum of the military education, professional military personnel training, management mechanisms, modern challenges*

Ali pedaqoji təhsil sistemində informasiya texnologiyalarının tətbiqi və riyaziyyatın tədris keyfiyyətinin yüksəldilməsi mövzusu müxtəlif elmi araşdırmaların mərkəzində dayanmışdır. Mövcud tədqiqatlarda həm orta, həm də ali məktəblərdə riyazi fənlərin (riyazi analiz, analitik həndəsə, funksional analiz və s.) tədrisində innovativ metodlardan və rəqəmsal imkanlardan istifadəyə dair müəyyən yanaşmalar öz əksini tapmışdır. Lakin müasir təhsil mühitində cəbr kursunun İKT vasitəsilə mənimsədilməsi istiqamətində ciddi bir elmi boşluq müşahidə olunmaqdadır.

Hazırda ali təhsil ocaqlarında cəbrin tədrisi hələ də ötən əsrin ortalarından qalma metodikalarla həyata keçirilir. Unutmaq olmaz ki, müasir nəslin qavrama tərzi və dünyagörüşü əvvəlki dövrlərdən köklü surətdə fərqlənir. Bu fərqlilik fənnin tədrisində yeni konsepsiyaların və müasir metodoloji yanaşmaların tətbiqini zəruri edir. Xüsusilə cəbrin tətbiqi məsələlərində proqram təminatlarından istifadə qlobal təhsil sistemində geniş yayılsa da, ölkəmizin bir çox universitetlərində bu sahədə ləngimələr mövcuddur. Müasir riyaziyyat müəlliminə qoyulan peşəkar tələblərlə mövcud konservativ tədris sistemi arasında aşağıdakı fundamental ziddiyyətlər yaranmışdır:

* Rəqəmsal məzmunlu ziddiyyət: İnformasiya cəmiyyətinin irəli sürdüyü yüksək meyarlar ilə ali məktəblərin texnoloji təchizat səviyyəsi arasındakı fərq;

* Məzmun uyğunsuzluğu: Orta məktəb kurikulumundakı praktikyönlü riyaziyyatla ali məktəb cəbr kursunun nəzəri ağırlığı və bu iki mərhələ arasında varisliyin qırılması;

* Metodik gerilik: Beynəlxalq təhsil platformalarında tətbiq olunan qabaqcıl pedaqoji texnologiyalarla yerli universitetlərdəki ənənəvi, passiv təlim modelləri arasındakı ziddiyyət;

* Resurs və zaman disbalansı: Cəbrin müasir inkişaf dinamikasını əks etdirən geniş həcmli proqram materialı ilə ona ayrılan məhdud dərs saatları arasındakı uyğunsuzluq.

Bu problemlərin aradan qaldırılması üçün cəbr dərslərində kompüterin texniki potensialından maksimum istifadə edilməli və təhsil prosesi tələbənin fəallığına əsaslanan müasir texnoloji mühitə adaptasiya olunmalıdır.

Tədqiqatçılar Gaona J. və Arevalo-Meneses F. 2022-ci ilə qədər bütün Web of Science və Scopus bazalarında riyaziyyata aid olan tədqiqat işlərini araşdırmaqla maraqlı nəticələr əldə etmişlər. Onlar Latın Amerikası, Afrika, ABŞ və Avropa da daxil olmaqla 37 regional ərazidə biblioqrafik tədqiqat aparmış və riyazi təhsilin qiymətləndirilməsi baxımından çox əhəmiyyətli nəticələr əldə ediblər. Regional təhlil baxımından müəllim və tələbələr arasında müəyyən yaxınlaşma – konvergensiya olduğu qeyd edilir. Belə ki, cənub ölkələrində aparılan tədqiqatların əsas etibarilə müəllimlərə yönəldiyi halda, şimal ölkələrində tələbələrə yönəldiyi qeyd olunur. [1]

Cəbr riyazi təhsilin təməl daşı olmaqla yalnız vacib riyazi anlayışların mənimsədilməsi üçün imkan yaratmır, həmçinin ali təhsilə və müxtəlif peşə imkanlarına yol açır. İndoneziyalı tədqiqatçılar tərəfindən aparılan araşdırmada riyaziyyat təlimində tələbələrin məsələ və tənlik həllərində cavabın şərtə uyğunluğunu nə dərəcədə nəzərə aldıqları, ümumilikdə isə məsələ həllində tələbələrin səhvləri və öyrənmə çətinlikləri qeyd olunur. Tədqiqatda beş əsas maneə qeyd edilir. Bunlar:

* Məsələnin mənasını səhv başa düşmək;

* Məsələyə uyğun tənliyi səhv qurmaq;

* Qurulmuş tənliyi səhv həll etmək;

* Məsələnin konteksti baxımından səhv yekun cavablar almaq;

* Sınaq və səhv metodunu tətbiq edə bilməməkdir [2].

Müasir qloballaşma meyllərini və Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşma hədəflərini əsas götürərək, müxtəlif ölkələrin müəllim hazırlığı siyasətindəki inkişaf templərinin tədqiq edilməsi və qarşılıqlı müqayisəli analizinin aparılması böyük aktuallıq kəsb edir.

Azərbaycanlı tədqiqatçılar İbrahimov F. və Abdurahmanov İ. qeyd edirlər ki, təlim prosesinin baş tutmasının, onun mövcudluğunun əsas amili təhsilalanlarla təhsilverənlərin vahid məqsədlə bir araya gəlmələridir. Onlar müasir təlim sistemini formalaşdırmaq üçün yolları müəyyən edərək, bu yollardan biri kimi təhsilalanın bacarıqlarının inkişaf etdirilməsini qeyd edirlər. Bu zəmində təlim nəticələrinin düzgün müəyyən edilməsinin vacibliyi vurğulanır və motivasiyanın əhəmiyyəti də qeyd edilir [3].

Müasir pedaqogikada tədrisin müxtəlif modelləri, o cümlədən problemli, proqramlaşdırılmış və rəqəmsal əsaslı təlim növləri təsnif edilir. Xüsusilə kompüter dəstəkli təhsil metodları təlim-tərbiyə sisteminin müasir tələblər səviyyəsində yenidən formalaşdırılmasında həlledici əhəmiyyət kəsb edir. Elmi araşdırmaların nəticələrinə görə, yuxarı sinif şagirdlərinin böyük bir qismi (təxminən 60-70%-i) texnoloji və elmi yeniliklərə dair biliklərini ənənəvi müəllim mühazirələrindən deyil, daha çox internet resursları, elmi-populyar nəşrlər və multimedia vasitələrilə əldə edirlər.

Dünya praktikasında təhsilin keyfiyyətinin dəyərləndirilməsi mexanizmləri və onların həyata keçirilməsi istiqamətləri tədqiqatlarda nəzərdən keçirilir. Bu məqsədlə əsasən ABŞ, Birləşmiş Krallıqlarda, Rusiya Federasiyasında təhsilin idarə olunması və qiymətləndirilməsi məsələlərinə baxılır. Tədqiqatçılar bu sahədə vahid idarəetmə mexanizminin mövcudluğunun və təhsil siyasəti, təhsilin ciddiliyi və təhsil mühiti, plan və proqramlar, alim və müəllimlik fəaliyyəti, elmi qaynaqlar, kitabxana və s. meyarları əsas götürürlər [4].

Günümüzün inkişafetdirici təhsil paradiqması tələbənin fərdi yaradıcılığını və intellektual inkişafını stimullaşdıran müstəqiL bir öyrənmə mühitinin qurulmasını hədəfləyir. Riyaziyyat dərslərində İKT-nin tətbiqi hətta fənnə marağı az olan tələbələrin belə təlim prosesinə cəlb olunmasına imkan yaradır [5, s. 211]. Bu yanaşma eyni zamanda iki mühüm hədəfə xidmət edir: bir tərəfdən öyrənənlərin müasir texnologiyalara olan təbii marağı reallaşır, digər tərəfdən isə fənn üzrə nəzərdə tutulan biliklərin daha effektiv mənimsənilməsi təmin olunur.

Müasir dünyada informasiya və kommunikasiya texnologiyalarından (İKT) yan keçərək hər hansı bir sahədə tərəqqiyə nail olmaq qeyrimümkündür. İnformasiya cəmiyyətinin prioritet istiqamətlərindən biri məhz təhsil infrastrukturunun rəqəmsal alətlər üzərində yenidən qurulması və inkişaf etdirilməsidir. Bu bacarıqların formalaşma prosesi isə məhz ümumtəhsil pilləsindən start götürür. İbtidai siniflərdən etibarən informatikanın tədris proqramına daxil edilməsi şagirdlərdə rəqəmsal mədəniyyətin əsaslarını qoyur. Bu isə öz növbəsində, riyaziyyat üçün həyati əhəmiyyət kəsb edən analiz, sintez, müqayisə və məntiqi isbat kimi koqnitiv əməliyyatlarda texnologiyadan səmərəli istifadəyə zəmin yaradır. Ölkəmizdə bu strateji xəttin əsası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ildə təsdiqlədiyi, məktəblərin İKT ilə təminatına dair dövlət proqramı ilə qoyulmuşdur.

Riyaziyyat müəllimi hazırlığı müasir pedaqoji metodologiyaların müxtəlif variasiyalarından istifadəni tələb edir. Müəllimin peşəkar fəaliyyət dairəsi tədrisin planlaşdırılmasından tutmuş, tələbə fəallığının idarə olunmasına və hər bir mərhələdə nəticələrin obyektiv qiymətləndirilməsinə qədər geniş bir spektri əhatə edir. Riyazi biliklərin mənimsənilməsi isə tələbədən teoremləri, aksiomları və alqoritmləri sadəcə yadda saxlamağı deyil, həm də tədris vahidləri ilə sistemli işləmək bacarığını tələb edir.

Yekun olaraq vurğulamaq lazımdır ki, cəbr və informatika elmlərinin qarşılıqlı əlaqəsi məsələ həlli alqoritmlərinin daha sistemli və səmərəli qurulmasına, riyazi modelləşdirmə vasitəsilə verilənlər üzərində proqnozlaşdırma və analitik təhlil bacarıqlarının inkişafına, eləcə də innovativ texnoloji həllərin yaradılmasına şərait yaradır. Riyazi Elmlər üzrə Elmi-Tədqiqat İnstitutunun (MSRI) apardığı araşdırmalar da bu yanaşmanı təsdiqləyir [6]. Belə ki, riyaziyyatçı alimlər və proqramlaşdırma mütəxəssisləri arasında keçirilən rəy sorğusunun nəticələrinə görə, respondentlərin 80%-dən çoxu bu iki intellektual sahənin inteqrasiyasını zəruri hesab edir.

Problemin aktuallığı. Elmi yanaşmalarda pedaqoji texnologiyalar ümumi tədris texnologiyalarının tərkib hissəsi (altçoxluğu) kimi qəbul edilir. İnformasiya-kommunikasiya texnologiyaları isə tədris texnologiyalarının elə bir spesifik qoludur ki, o, öyrənmə prosesinin rəqəmsallaşdırılmasını, müasir axtarış sistemləri və internet resurslarından sərbəst yararlanmağı, habelə müxtəlif proqram təminatları və elektron cihazlar vasitəsilə təhsilin idarə olunmasını təmin edir. Bu da baxılan problemin aktual olduğunu göstərən əsas amildir.

Problemin elmi yeniliyi. Bu konseptual yanaşmaya əsaslanaraq, İKT-nin cəbr kursunda həm didaktik alət (tədris vasitəsi), həm də innovativ pedaqoji metodologiya kimi tətbiq olunması elmi cəhətdən əsaslandırılmış hesab edilir.

Problemin praktik əhəmiyyəti. Ali məktəblərdə riyazi biliklərin tədrisində innovativ tədris texnologiyalarının tətbiqi həm də riyaziyyatın digər elmlərlə inteqrasiyasını sürətləndirir. Müasir tələbə öyrəndiyi materialın praktiki əhəmiyyətini və gələcək fəaliyyətindəki rolunu dərk etməlidir. Xüsusilə riyaziyyat müəllimliyi ixtisası üzrə təhsil alanlar

cəbr, analiz və həndəsə kimi fənlərdə həddindən artıq vaxt tələb edən hesablamalarla qarşılaşırlar. İKT-dən istifadə bu rutin hesablamaları sürətləndirərək tələbələrə vaxta qənaət etmək, ümumi həll alqoritmləri üzərində daha dərindən düşünmək və yaradıcı məsələlərin həllinə fokuslanmaq imkanı verir.

Ədəbiyyat

1. Qaona, J., Fabiola, A. Thematic bibliometric analysis of 37 specialized journals in mathematical education research indexed in *Scopus* or *Web of Science* // - EURASIA J Math Sci Tech Ed, - 2024. Volume 20, Issue 5, Article No: em2446. https://doi.org/10.29333/ejmste/14577
2. Ario, M. Students' Errors and Learning Obstacles in Solving Algebraic Word Problems: Hermeneutic Phenomenology / M. Ario, Suhendra, A. Jupri, E. Nurlaelah // Indonesia: Education Sciences, –2025. 15(12), 1674. https://doi.org/10.3390/educsci15121674
3. İbrahimov, F, Abdurahmanov, V. Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin formalaşdırılması yolları // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2024. c. 91, № 5, –s. 133-140.
4. Müsəllimov, V.Z. Dünya praktikasında təhsilin keyfiyyətinin dəyərləndirilməsi mexanizmləri // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. c. 92, № 5, –s. 41-44.
5. Qasımova, L.N. Pedaqogika / L.N. Qasımova, R.M. Mahmudova, – Bakı: Çaşıoğlu, –2003. –536 s.
6. The Role of Mathematics in Computer Science Education: [Electronic resource] / 1 february, 2024. https://moldstud-com

Redaksiyaya daxil olub: 16.04.2026

UOT 37.01

Samirə Mahir qızı Seyidli
Şamaxı Dövlət Regional kollecin müəllimi
https://orcid.org/0009-0007-7428-5765
E-mail: fariwka2009@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).140-144

İLHAM ƏLİYEV TARİX YAZDI

Samira Mahir Seyidli
teacher at Shamakhi State Regional College

ILHAM ALIYEV WROTE HISTORY

Самира Махир гызы Сеидли
преподаватель Шамахинского
Государственного Регионального Колледжа

ИЛЬХАМ АЛИЕВ НАПИСАЛ ИСТОРИЮ

Xülasə. Bu məqalədə praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma, uzaqgörənlik və prinsipiallıq, yüksək idarəçilik qabiliyyəti – bütün bunlar məhz Prezident İlham Əliyevin xüsusiyyətləridir. O, Azərbaycanı zamanın çağırışlarına məharətlə uyğunlaşdıraraq, ölkəmizdə mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyi qoruyub saxlamışdır. Bu, Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirilir. İlham Əliyev, seçildiyi ilk gündən ulu öndər. Heydər Əliyevin siyasətini davam etdirəcəyinə söz vermişdi. O, hər bir vətəndaşın prezidenti olacağına və xalqın mənafeyini qorumağa söz vermişdi.
***Açar sözlə**r: uzaqgörənlik, şəxsiyyət, sərkərdə, xadimlər, liderlər, dövlətimiz, quruculuq*

Abstract. In this article, pragmatism, flexible and intelligent state policy, systematic and consistent approach, foresight and principledness, high management skills, all these belong to President Ilham Aliyev. He was able to skillfully adapt Azerbaijan to the call of the time. The preservation of the existing socio-political and socio-economic stability in our country is considered the most successful result of President Ilham Aliyev's activities. From the first day of his election, Ilham Aliyev promised to continue the policy of the great leader Heydar Aliyev. He promised to become the president of every citizen and protect the interests of the people.
***Key words:** prediction, personality, commander, figures, leaders, our state, construction*

Аннотация. В данной статье отмечается, что такие особенности как: прагматизм, гибкая и разумная государственная политика, системный и последовательный подход, дальновидность и принципиальность, высокие управленческие навыки присущи президенту Ильхаму Алиеву. Президент умело адаптировал Азербайджан к требованиям времени. Сохранение существующей социально-политической и социально-экономической стабильности в нашей стране считается наиболее успешным результатом деятельности президента Ильхама Алиева. С первого дня своего избрания Ильхам Алиев обещал продолжить политику великого лидера Гейдара Алиева. Он дал слово стать президентом каждого гражданина и защищать интересы народа.
***Ключевые слова:** предвидение, личность, главнокомандующий, деятель, лидеры, наше государство, строительство*

Azərbaycan dövləti uzun və zəngin tarixi inkişaf dövrü keçmişdir. Tarixi qərinələrə nəzər salsaq, xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, musiqisi və incəsənəti necə zəngin və təkrarsız olduğunu görə bilərik. Hər bir sahəyə nəzər saldıqda, bu rəngarəng və fərqli xüsusiyyətlərə malik bir ölkə və xalqın bu qədər qısqanılması və hədəfə çevrilməsinin səbəbləri aydın olur. Uzun tarixi yola malik dövlətlər öz sərkərdələri, xadimləri, liderləri ilə tanınmışdır. Bu şəxsiyyətlərin dövlətimizin qurulmasında rolu danılmazdır. Tariximizə əbədi iz qoyan şəxsiyyətlər Azərbaycan xalqının yaddaşında silinməz izlər buraxmışdır. Bu gün biz müstəqil bir ölkənin vətəndaşlarıyıqsa, bunu həmin liderlərə borcluyuq.

On altı il əvvəl, Azərbaycan zamanın yeni çağırışı ilə üzləşərkən xalqımız növbəti dəfə müdrik seçim edərək gələcək taleyini ulu öndər Heydər Əliyevin siyasi varisi İlham Əliyevə etibar etdi. Bu seçim, Heydər Əliyev kursunun uğuruna və onun varisinə olan inam və etimaddan qaynaqlanırdı. Praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli yanaşma, uzaqgörənlik, prinsipiallıq və yüksək idarəçilik qabiliyyəti Prezident İlham Əliyevin əsas xüsusiyyətləridir. O, Azərbaycanı zamanın çağırışlarına məharətlə uyğunlaşdırmış və ölkəmizdə ictimai-siyasi və sosial-iqtisadi sabitliyi qorumuşdur. İlham Əliyev, seçildiyi ilk gündən ulu öndər Heydər Əliyevin siyasətini davam etdirəcəyinə söz vermişdi. O, hər bir vətəndaşın prezidenti olacağına və xalqın mənafeyini qoruyacağına söz vermişdi. [1, s. 382]

Tarixə islahatçı lider, inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu kimi düşmüş Prezidentimizin həyat yolunu vərəqlədikdə, necə bir şəxsiyyətin başçılıq etdiyi dövlətin sakinləri olduğumuzu fəxrlə deyə bilərik. Onun dövründə Azərbaycan necə bir modern dövlətə çevrildiyini, yeni bir inkişaf dövrünə qədəm qoyduğunu, şəhərlərin inkişaf edərək tanınmaz dərəcədə dəyişdiyini görərik. Bu yenilənmə, xalqın rifahının yüksəlməsi, problemlərin bir qisminin həllini tapması, dövlətimizin vahid bir yumruq altında birləşməsi idi – "Dəmir yumruq". Bu yumruq xalqın gücünü, vəhdətini, mübarizliyini bütün dünyaya bəyan etdi.

Prezident İlham Əliyev öz əsas vəzifəsini xalqına xidmət etməkdə gördü. Xalqın dəyərlərini, birliyini və hüquqlarını qorumaqda. Xalq bu yumruq ətrafında birləşdi, gücləndi və mübarizləndi. Xalq bu yumruqla irəlilədi, fəxrləndi və qələbə qazandı.

Dövlətimiz 30 illik bir tarixi dəyişdirdi. 30 illik bir işğal tarixini sona yetirdi. 44 günlük müharibə nəticəsində Azərbaycan böyük bir zəfər qazandı. Xalq hər zaman öz liderinə dəstək göstərib, bir araya gəlib. Bu etimadı, inamı hər bir dövlət başçısı qazanmır, amma İlham Heydər oğlu Əliyev bunu bacardı. Azərbaycan tarixində heç vaxt bu qədər güclü, müstəqil, əzmli və azad olmamışdı. Bu, bir xalqın seçimi və inamının nəticəsidir. Bu inamı doğruldan prezident və xalqın vəhdəti oldu. Liderimizin qətiyyətinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan xalqı heç kimin qarşısında baş əymədi və sözünü cəsarətlə və inamla deyə bildi.

"Qarabağ Azərbaycandır" – bu cümlə təkcə bir deyim deyil, bir bildirişdir. Bu, beynəlxalq aləmə Azərbaycanın haqlı mövqeyini bəyan edən bir nöqtədir. Məhz "Dəmir yumruq" siyasətinin nəticəsidir ki, bu gün biz rahatlıqla deyə bilərik ki, "Qarabağ Azərbaycandır". Bu amal, bu istək xalqımızı birləşdirdi və hər bir dünya azərbaycanlısı Prezident İlham Əliyevlə qürur duyur. Onun illər əvvəl başlatdığı uğurlu yol siyasəti Azərbaycanı zirvələrə qaldırdı və bu gün biz güclü, müstəqil, abad və firavan yaşayan bir ölkə olduq.

Prezident İlham Əliyev Qarabağda başlatdığı dirçəliş layihələrini davam etdirir. 44 günlük müharibədən beş il sonra, Prezident İlham Əliyev Qarabağda görülən işlərin təkcə infrastrukturla məhdudlaşmadığını, həm də əraziyə yeni həyat verildiyini vurğulamışdır. "Zəngilanın Ağalı kəndində "ağıllı kənd" layihəsi başa çatıb və məcburi köçkünlər geri dönməyə başlayacaq" dedi Prezident. Qısa müddətdə azad edilmiş torpaqlarda görülən işlərdə gənclər fəal iştirak edir və bu işlər ölkəmizin gələcəyini təmin edir. Prezident İlham Əliyev gənclərin döyüşlərdə iştirakını və onların qələbəyə verdiyi töhfələri yüksək qiymətləndirir. Gənclərin qəhrəmanlığı yeni nəsil üçün örnək olmalıdır. Hər bir Azərbaycan gənci dövlətin və Vətənin xidmətində olmalı və öz əməlləri ilə gələcək nəsillərə nümunə olmalıdır. Prezidentimiz öz əsas vəzifəsini xalqına xidmətdə gördü. Xalqın dəyərlərini, birliyini, hüquqlarını qorumaqda gördü. Xalq bu yumruq ətrafında birləşdi, qüvvətləndi, mübarizləndi. Xalq bu yumruqla irəlilədi, fəxrləndi və qələbə çaldı. Dövlətimizin başçısı

İlham Əliyev müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü, gələcəyə hesablanmış siyasəti nəticəsində ölkəmizin bu günü üçün yaradılan möhkəm təmələ əsaslanaraq sualı belə cavablandırmışdı ki, həm asan, həm də çətin: "Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır. Əlbəttə, yəqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yolla getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Amma İlham Heydər oğlu Əliyev bunu bacardı. Haqq yolunda mübarizədə xalqı öz arxasıyca aparmağı bacardı. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, əzmli və azad olmayıb. Bu bir xalqın seçimi, bir xalqın inamı nəticəsində baş verdi. Bu inamı doğruldan prezident və xalq vəhdəti oldu. Liderimizin qətiyyətinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan xalqı heç kimin qarşısında baş əymədi, sözünü cəsarətlə və inamla deyə bilir.[2, .s 1152] Prezident İlham Əliyevin bu fikirləri sonrakı dövrdə görüləcək işlərin aydın mənzərəsini yaradırdı. Onun həyata keçirdiyi siyasətin strateji hədəfi güclü Azərbaycan dövlətinin formalaşdırılması, iqtisadiyyatın inkişaf etdirilməsi, müasir iqtisadi sistemin yaradılması, cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatların reallaşdırılması və sair kimi həlli vacib məsələlər idi. Son 17 ildə Azərbaycanın bütün sahələrdə qazandığı uğurları bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkün olsa da, birmənalı vurğulamaq olar ki, bugünkü Azərbaycan məhz görülən işlərin, əldə olunan uğurların təqdimatıdır. O Azərbaycan ki, artıq çoxəsrlik tarixinə yeni bir səhifəni-Zəfər Gününü yazdı. Təbii ki, əldə olunan hər bir uğuru şərtləndirən amillər mövcuddur. Dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətlərində daim bu fikri xüsusi qeyd edirdi ki, mən nəyi nə zaman edəcəyimi bilirdim. Ölkə Prezidenti, eyni zamanda, Azərbaycanın bu müddət ərzində daha da gücləndiyini, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi bazanın formalaşdığını bildirirdi.

Prezident İlham Əliyevin bütün çıxışlarının mahiyyətində bu amil dayanır ki, güclü dövlət, yüksək rifah həyata keçirilən siyasətin əsasını təşkil edir. Həmçinin bu məqam da diqqətə çatdırılır ki, 2003-cü ildə "Neft kapitalını insan kapitalına çevirək" tezisi irəli sürüləndə yalnız elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmirdi. Söhbət ondan gedirdi ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır. Dövlət məmurları insanların qayğıları ilə maraqlanmalı, daim onların yanında olmalıdırlar. Ölkə Prezidenti İlham Əliyev məmur-vətəndaş münasibətlərində, xalqla ünsiyyətdə öz şəxsi keyfiyyətləri və nümunəvi davranışı ilə ən mükəmməl örnək olmaqla yanaşı, haqlı olaraq dövlət idarəçiliyi sahəsində çalışan hər kəsdən də bunu tələb edir. Vətəndaş məmnunluğunun artırılması dövlətimizin başçısı İlham Əliyevin fəaliyyətinin əsasında dayanır. Bu isə öz növbəsində xalq-iqtidar birliyini daha da möhkəmləndirir, sarsılmaz edir. Prezident İlham Əliyev xalqa güvəndiyini, xalqdan güc aldığını hər zaman bəyan edir. Daim ictimaiyyətin arasında olan, irəli sürülən təşəbbüslərin, qəbul olunan qərarların icrası ilə yaxından tanış olub, onlar barədə xalqın dilindən eşitməyə çalışan liderə milyonların sevgisi şəksiz olacaq.

Dövlətimizin başçısı 2003-cü ildə hədəfləri açıqlayarkən əhalinin sosial müdafiəsinin prioritetliyini önə çəkərək bu məqamı xüsusi qeyd etmişdi ki, yoxsulluq deyilən sosial bəla aradan tamamilə götürülməlidir. Son 17 ildə yoxsulluq səviyyəsinin 49 faizdən 5 faizə enməsi düşünülmüş siyasətin, əhalinin sosial rifah halının yaxşılaşdırılması üçün uğurla həyata keçirilən sosial paketlərin nəticəsidir. Bu barədə söhbət açarkən təkcə son iki ilin statistikasına diqqət yetirmək kifayətdir. 2019 -cu ildə 4,2 milyondan artıq insanı əhatə edən iki sosial paket həyata keçirildi. Cari il üçün icra edilən sosial proqramlar da göz qabağındadır. Baxmayaraq ki, koronavirus infeksiyası dünya dövlətləri kimi, ölkəmizin də iqtisadiyyatına təsirsiz ötüşmür, amma dövlətimizin başçısı İlham Əliyev bir dənə də olsun sosial layihənin təxirə salınmayacağını bildirdi.[3, s. 320]

Prezident İlham Əliyev 2003-cü ildə bu hədəfi də açıqlamışdı ki, hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaq. Bu fikirlər ümummilli lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisinin davamı kimi dəyərləndirildi. Təkmil islahatlar fonunda yeni hədəflərin gündəmə gətirilməsi və həyata keçirilməsi istiqamətində atılan addımlar davamlı inkişafı şərtləndirir. Ölkə Prezidenti İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı da bu məqsəddən irəli gəlir. Sənədə əsasən, müxtəlif istiqamətləri əhatə edən yol xəritələri arasında əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edəcək addımlardandır. 2021-ci ilin dövlət büdcəsi layihəsi də sosialyönlülüyü ilə diqqət çəkir.

Prezident İlham Əliyev daim bildirir ki, qarşıdakı ilin dövlət büdcəsi arxada qalan ilin büdcəsindən kəmiyyət və keyfiyyət baxımından yüksək olmalıdır. Son 17 ilin hər bir uğuru ölkəmiz üçün əhəmiyyətli, qürurvericidir. Ərazi bütövlüyümüzün təmin olunması, artıq "Dağlıq Qarabağ münaqişəsi" terminin yoxluğu bu uğurların zirvəsidir. Bu parad müstəqillik tariximizin şanlı Qələbə paradıdır.[4, s.175] Zəfər paradındakı çıxışında 44 günün hər gününü tarixi qələbəmiz kimi dəyərləndirən cənab İlham Əliyev bildirdi ki, biz Qələbəni döyüş meydanında qazandıq. Zəfər paradında hər zaman olduğu kimi, 44 günlük müharibə dövründə də Azərbaycanın yanında olan, dünyaya "Azərbaycan tək deyil, Türkiyə yanındadır" mesajını ünvanlayan dost, qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan tarixi Qələbəmizdə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin qətiyyətini, rolunu xüsusi vurğulayaraq bildirdi: "Qardaşım İlham Əliyev beləliklə mərhum Heydər Əliyevin vəsiyyət etdiyi arzusunu da yerinə yetirib. Bu vəsilə ilə güclü Azərbaycanın təməllərini atan ümummilli lider Heydər Əliyevi buradan rəhmətlə anıram. Azərbaycan qardaşım İlham Əliyevin liderliyi altında dastan yazmağa davam edəcək."

Son 17 ilin uğurları, tarixə yazdığı möhtəşəm qələbələri, ən əsası Zəfər Günü bu ümumiləşdirməni aparmağa əsas verir ki, möhtərəm Prezidentimiz İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail oldu. Prezident İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan, etimad göstərdiyi alternativsiz Liderdir. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixə qızıl hərflərlə yazdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı, 44 günlük İkinci Qarabağ müharibəsinin əsl qəhrəmanına çevrildi. Dövlətimizin başçısı, Ali Baş Komandanımız İlham Əliyevə vətəndaşların ünvanladığı saysız-hesabsız minnətdarlıq və təşəkkür məktublarında da bu reallıq öz əksini tapır ki, ölkə Prezidenti "Milli Qəhrəman" "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq olan ən görkəmli şəxsiyyətdir. Bu gün hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentimizlə fəxr edir, belə güclü, qüdrətli dövlətin, məğrur, yenilməz xalqın nümayəndəsi olmağı ilə qürur duyur. Eşq olsun Müzəffər Ali Baş Komandana! Eşq olsun rəşadətli Azərbaycan Ordusuna! Zəfərin mübarək, Azərbaycan! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır. [5, s.280]

Müəlliflərin fikrincə, bu emosional yanaşma cəmiyyətin müharibəyə hazırlanması, səfərbər olunması və motivasiya edilməsində mühüm rol oynamışdır. Müharibədən sonrakı mərhələdə isə qələbə diskursu Azərbaycan xalqının qürur hissi ilə əlaqələndirilmişdir" [6, s. 365-383].

Nəticə olaraq, Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan mühüm siyasi, iqtisadi və hərbi uğurlar əldə etmişdir. Xalq-lider birliyi, məqsədyönlü dövlət siyasəti və milli həmrəylik ölkənin güclənməsinə və beynəlxalq nüfuzunun artmasına səbəb olmuşdur. Xüsusilə 44 günlük Vətən müharibəsində qazanılan Qələbə Azərbaycanın güclü dövlət modelini və Prezident İlham Əliyevin qətiyyətli liderliyini nümayiş etdirmişdir. Müharibədən sonra Qarabağda aparılan quruculuq və bərpa işləri isə dövlətin inkişaf strategiyasının davamlı xarakter daşıdığını göstərir. Beləliklə, Prezident İlham Əliyevin fəaliyyəti müasir Azərbaycanın inkişafı, milli

birliyi və dövlətçilik ideologiyasının möhkəmlənməsində mühüm rol oynamışdır.

Problemin aktuallığı. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar."

Problemin yeniliyi. Bu, bir tarixi hadisə idi və Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmayıb. Məhz 44 günlük Vətən Müharibəsində Azərbaycan dövləti və xalqı bütün dünyaya öz gücünü göstərdi. "Dəmir yumruq" birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqı qələbə, zəfər tarixi yazdı.

Problemin praktiki əhəmiyyəti. Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş gənclər öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olmalıdırlar".

Ədəbiyyat

1. Əliyev, İlham H. İnkişaf - məqsədimizdir [yüz qırx ikinci kitab] / –Bakı: Azərnəşr. –2025. –s.382.
2. Mustafazadə, T.T. Ümumi tarix: [I kitab] / –Bakı, 2009. –s. 1152.
3. Məmmədov, X., Məmmədov N. Erməni iddiaları və Azərbaycanlıların soyqırımı / – Bakı: –2008. –s.320.
4. Məmmədova, M.S. Tarix fənni və fənlərarası inteqrasiya // –Bakı: Bakı Universitetinin xəbərləri (Humanitar elmlər seriyası), –2021. № 2, –s. 45-54.
5. Orucova, L. Ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi probleminin tədqiqinə dair Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. №2, – s. 171-175.
6. Paşayev, T.S. Tarixin tədrisi: tarixilik və müasirlik: Monoqrafiya / T.S. Paşayev. -Bakı: Nurlan, –2006. –280 s.
7. Kosen, M.G., Erdogan, E. "Now We Are Whole:" Humiliation, Shame and Pride in Aliyev's Discourse on the 2020 Nagorno-Karabakh War // *Southeast European and Black Sea Studies*. – 2023. – Vol. 23, No. 3. – p. 365–383. DOI: 10.1080/14683857.2022.2132901.

Redaksiyaya daxil olub: 19.06.2026

UOT 372.857

Qəzənfər Musa oğlu Əliyev
Azərbaycan Respublikasının Genetik Ehtiyatlar İnstitutunun
aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru
hips//orcid.orq 0009-0002-4038-5967
E-mail: aliyev@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(4).145-149

BİOLOGİYANIN TƏDRİSİNDƏ İNSAN ORQANİZMİNİN HƏYAT FƏALİYYƏTİ ÜÇÜN LAZIM OLAN MADDƏLƏR HAQQINDA

Qazanfar Musa Aliyev
leading researcher
at the Genetic Institute of the Republic of Azerbaijan
doctor of philosophy in biology

ABOUT SUBSTANCES NECESSARY FOR THE VITAL ACTIVTIY OF THE HUMAN BODY, IN THE CONTEXT OF TEACHING BIOLOGY

Газанфар Муса оглы Алиев
ведущий научный сотрудник
Института Генетических Запасов Азербайджанской Республики,
доктор философии по биологии

О ВЕЩЕСТВАХ, НЕОБХОДИМЫХ ДЛЯ ЖИЗНЕДЕЯТЕЛЬНОСТИ ЧЕЛОВЕЧЕСКОГО ОРГАНИЗМА, В КОНТЕКСТЕ ПРЕПОДАВАНИЯ БИОЛОГИИ

Xülasə. Məqalədə mikronutriyenlərin (vitaminlər, vitaminəbənzər maddələr, mikroelementlər və digər bioloji aktiv komponentlər) və makronutriyenlərin insan orqanizminin normal fəaliyyətində oynadığı mühüm rol geniş şəkildə təhlil olunur. Göstərilir ki, mikroelementlər az miqdarda tələb olunsa da, biokimyəvi proseslərin tənzimlənməsi, fermentativ reaksiyaların həyata keçirilməsi, qan yaranması, immun müdafiə və sinir sisteminin fəaliyyəti üçün əvəzolunmazdır. Makroelementlər isə orqanizmin struktur əsasını təşkil edərək su-duz balansını, turşu-qələvi müvazinətini və sümük toxumasının formalaşmasını təmin edir.
Açaq sözlər: *zülallar, yağlar, vitaminlər, fotosintez*

Abstract. The article provides a comprehensive analysis of the important role of micronutrients (vitamins, vitamin-like substances, trace elements, and other biologically active components) and macronutrients in ensuring the normal functioning of the human body. It is shown that, although micronutrients are required in small amounts, they are indispensable for the regulation of biochemical processes, the implementation of enzymatic reactions, hematopoiesis, immune defense, and the functioning of the nervous system. Macronutrients, in turn, form the structural basis of the body, ensuring water-salt balance, acid–base equilibrium, and the formation of bone tissue.
Keywords: *proteins, fats, vitamins, photosynthesis*

Аннотация. В статье широко анализируется важная роль микронутриентов (витаминов, витаминоподобных веществ, микроэлементов и других биологически активных компонентов) и макронутриентов в обеспечении нормального функционирования организма человека. Показано, что микроэлементы, несмотря на их потребность в малых количествах, являются незаменимыми для

регуляции биохимических процессов, осуществления ферментативных реакций, кроветворения, иммунной защиты и функционирования нервной системы. Макроэлементы, в свою очередь, формируют структурную основу организма, обеспечивают водно-солевой баланс, кислотно-щелочное равновесие и формирование костной ткани.

Ключевые слова: *белки, жиры, витамины, фотосинтез*

İndiki dövrdə qida maddələrinin ən geniş yayılmış təsnifatı aşağıdakı kimidir:

Makronutriyenlər: zülallar; yağlar; karbonhidratlar

Mikronutriyenlər: vitaminlər; vitaminə oxşar maddələr; makroelementlər; mikroelementlər; zülal təbiətli mikroelementlər – aminturşular; polipeptidlər; lipid təbiətli mikronutriyenlər; – omeqa – 3 polidoymamış yağ turşuları; – qamma linolen turşuaus; –fosfolipidlər və lipotrop maddələr; fitoserinlər; karbohidrat təbiətli mikronutriyenlər; – qida lifləri; – həzm olunmayan oliqosaxaridlər (prebiotiklər); – polisaxarid adyuvantlar; canlı bağırsaq mikroorqanizmləri (probiotiklər); bitki mənşəli qida fermentləri; parafarmasevtlər; –qlikozidlər; alkaloidlər; indollar və izotiosinatlar; üzvi polisulfidlər; – fitoestoregenlər; saponilər; – fitosterinlər; –terpenlər və digəri (bilavasitə qida maddələrində aşkar olunmuş cəmi təqribən 1000 parafarmasevt).

Bioloji əhəmiyyətli elementlər (bioloji inert elementlərin əksi) – normal həyat fəaliyyətinin təmin edilməsi üçün insan, yaxud heyvan orqanizminə lazım olan kimyəvi elementlərdir. Bioloji əhəmiyyətli elementlər makroelementlərə (canlı orqanizmdə miqdarı 0,001%-dən çoxdur) və mikroelementlərə (miqdarı 0,001%-dən azdır) təsnif olunurlar.

İnsan orqanizmindəki minerallar makroelementlər və mikroelementlər adlandırılır, insan orqanizmində onların ümumi miqdarı 0,04-0,06% təşkil edir.

Mikroelementlər. Orqanizmində miqdarı az olan elementləri mikroelementlər adlandırırlar, lakin onlar biokimyəvi proseslərdə iştirak edirlər və canlı orqanizmlərə lazımdır. İnsan üçün mikroelementlərin tövsiyə olunan sutkalıq dozası 200 mq-dan azdır.

İnsanın mikroelementlərə olan tələbatı miqdarı cəhətdən makroelementlərə olan ehtiyacından olduqca azdır (400-500 dəfə), lakin bu məhz o haldır ki, "çəkisi yüngül, qiyməti ağırdır." Belə ki, fluor sümük və xüsusilə diş toxumasının sağlamlığı üçün vacibdir; sink, kobalt və mis – qanyaradan elementlərdir, manqan birləşmələri isə qanda xolesterinin çatışmamazlığı sinir pozğunluqlarının yaranmasına gətirib çıxarır. Sink, mis və kobaltın mənbəyi tərəvəzlər – kök, kələm, cəfəri və xüsusilə çuğundurdur.

Orqanizmin daxili mühitinin (homeostaz) sabitliyinin saxlanması ilk növbədə orqanizm toxumalarında fizioloji səviyyədə mineral maddələrin keyfiyyətinin və kəmiyyətinin qorunub saxlanmasını nəzərdə tutur.

Əsas ultramikroelementlər. Müasir məlumatlara görə, 30-dan çox mikroelement bitkilərin, heyvanların və insanın həyat fəaliyyəti üçün vacib hesab olunur. Onların içərisində aşağıdakılar vardır: brom, dəmir, yod, kobalt, manqan, mis, molibden, selen, fluor, xrom, sink. Orqanizmdə birləşmələrin miqdarı nə qədər azdırsa, elementin bioloji rolunu müəyyən etmək, onun əmələ gəlməsində iştirak edən birləşmələri identifikasiya etmək bir o qədər çətindir. Şübhəsiz mühüm elementlər sırasına vanadium, silisium, yod, manqan, selen və digərləri aiddir.

Makroelementlər. Canlı orqanizmlərin tərkibi bu elementlərdən ibarətdir. Tövsiyə olunan sutkalıq dozası 200 mq-dan çox olan elementləri makroelementlərə aid edirlər. Makroelementlər bir qayda olaraq insan orqanizminə qida ilə daxil olur.

Biogen elementlər: – karbon; – oksigen; – hidrogen; – fosfor; – azot; – kükürd.

Bu mikroelementlər biogen (orqanogen) elementlər, yaxud makronutriyentlər adlandırırlar. Əsaən zülallar, yağlar, karbohidratlar və nuklein turşuları kimi üzvi maddələr, makronutriyentlərdən təşkil olunmuşdur.

Digər makroelementlər. Bunlar kalium, kalsium, maqnezium, natrium, xlordur. Tövsiyə olunan sutkalıq dozası 200 mq-dan artıqdır.

İnsana lazım olan bütün makro və mikroelementlər qida rasionunda müəyyən qədər ciddi nisbətdə olmalıdır. Orqanizmdə müəyyən turşu-qələvi tarazlığı saxlanılmalıdır: natrium, kalium, kalsium (biokimyaçıların və fizioloqların "qələvi" elementlər adlandırdığı elementlər) kükürd, fosfor, xlor, fluor və və digər "turşu" elementlərinə nəzərən üstünlük təşkil etməlidir.

Qidada kalsiumun həzm olunmasına mane olan "düşmənlər" də var. Əsas antikalsiumçular

“-kalsiumu həzm olunmayan formaya” oksalat turşusu və fitindir. Oksalat (turşəng) turşusu ilə kalsium az həll olan kalsium oksalat əmələ gətirir, fitin isə kalsiumu kifayət qədər möhkəm saxlayır. Yarpaqlarında 0,1-0,5% oksalat turşusu turşəng və ispanaqdan olan yeməklərdən sui istifadə etməmək vacibdir. Tərəvəzlərdə və dənli bitkilərdə olan fitin qızdırılma zamanı parçalanır və buna görə də az zərər verir. Buna görə tərkibində fitinin miqdarı az olan çovdar çörəyi buğda çörəyindən faydalıdır.

Tibb alimləri hesab edirlər ki, qida ilə insan orqanizminə daxil olan kalsium və fosforun nisbətini ciddi şəkildə gözləmək lazımdır; bu elementlərin optimal nisbəti kütlə etibarilə 1:1 (bəzi hallarda 1:1,5) bərabər nisbət kimi qəbul edilmişdir. Fosforun miqdarı artıq olduqda hətta sümük toxumasının kalsiumunun itirilməsi (osteoporoz) mümkündür, bu sümüyün möhkəmliyinin azalmasına və tez-tez sınıqların baş verməsinə səbəb olur.

Maqnezium kalsium ilə bərabər ortofosfat şəklində sümük toxumasını əmələ gətirir. Bütün yaşıl tərəvəzlər onunla zəngindir; maqnezium xlorofilin tərkibinə daxildir. Təzə göyərtini il ərzində yeyin və siz öz orqanizminizin maqneziuma olan tələbatını təmin edəcəksiniz, ona olan sutkalıq tələbat 0,4 qramdır.

Kalium və natrium – orqanizmində su-duz mübadiləsinin iki tənzimləyicisidir: kalium suyu çıxarır, natrium isə suyu toplayır. Adətən bitki qidasında kaliumun miqdarı natriumdan 5-10 dəfə çoxdur, buna görə hipertoniya xəstəliyi və ödəmlər zamanı orqanizmdə artıq sudan xilas olmaq lazım gəldikdə həkimlər bitki dietası və duzsuz (natrium xloridsiz) dieta təyin edirlər.

İnsanın xlora tələbatı adətən xörək duzu NaCl hesabına təmin edilir. Xlor daim mədədə əmələ gələn hidrogen xlorid turşusunun HCl alınması üçün olduqca vacibdir. Natrium xlorid orqanizmdən insan tərlədikdə çıxdığına görə isti iqlimdə, yaxud isti sexlərdə işləyənlərdə xörək duzuna tələbat çoxdur. O, sutkada 20-25 qrama qədər artır.

Zülallar və onların insan orqanizmində rolu. Zülallar (proteinlər, polipeptidlər) – peptid rabitəsilə zəncirdə birləşən alfa-aminturşulardan ibarət yüksəkmolekullu üzvi birləşmələrdir. Canlı orqanizmlərdə zülalların aminturşu tərkibi genetik kodla müəyyən olunur. Zülalların sintezi zamanı əksər hallarda 20 standart aminturşudan istifadə olunur. Zülal molekulları α-φ-aminturşularından (monomer olan) və bəzi hallarda modifikasiya olunmuş əsas aminturşulardan (doğrudur, modifikasiya artıq zülalın sintezindən sonra ribosomda baş verir) ibarət xətti polimerlərdir. Aminturşuların işarələnməsi üçün elmi ədəbiyyatda bir, yaxud üç hərfli qısaltmalardan istifadə olunur. İlk baxışda belə görünə bilər ki, zülalların böyük əksəriyyətinin tərkibində “cəmi” 20 növ aminturşunun olması zülal quruluşunun müxtəlifliyini məhdudlaşdırır, lakin əslində variantların sayını qiymətləndirmək çətindir: S aminturşudan ibarət zəncir üçün bu üç milyondan çox təşkil edir, 100 aminturşudan (“kiçik zülal”) ibarət zəncir isə 10130-dan çox variantda təmsil oluna bilər, 2-dən bir neçə on aminturşu qalığına qədər uzunluğa malik molekulları peptidlər, polimerləşmə dərəcəsi, daha böyük olduqda isə zülallar adlandırırlar, baxmayaraq ki, bu bölgü olduqca şərtidir.

Peptid rabitəsinin əmələ gəlmə prosesinin sxematik təsviri verilir. Bu reaksiya zülalın əmələ gəlməsi üzrə molekulyar “maşında” – ribosomda baş verir.



Digər bioloji makromolekullar (polisaxaridlər, lipidlər) və nuklein turşuları kimi zülallar da canlı orqanizmlərin mühüm komponentidir, onlar hüceyrələrin həyati vacib proseslərin böyük əksəriyyətində iştirak edirlər. Zülallar maddələr mübadiləsini və enerji çevrilmələrini həyata keçirirlər.

Müxtəlif kimyəvi reaksiyaların katalizi – orqanizmində zülalların ən yaxşı mühüm olan roludur.

Zülalların quruluş funksiyası. Sitoskeletin quruluş zülalları bir növ armatura kimi hüceyrələrə və bir çox orqanoidlərə forma verir və hüceyrələrin formasının dəyişməsində iştirak edir. Quruluş zülallarının böyük əksəriyyəti filamentor zülallardır; məsələn, aktin və tubulin monomerləri – qlobulyar, həll olan zülallardır, lakin polimerləşmədən sonra onlar sitoskeletin ibarət olduğu, hüceyrə formasını saxlamağa imkan verən uzun iplər formalaşdırır. Kollagen və elastin – birləşdirici toxumanın (məsələn, qığırdaq) hüceyrələrarası maddəsinin əsas komponentləridir; saçlar, dırnaqlar, quşların lələkləri

və bəzi balıqqulağılar isə digər quruluş zülallarından – keratindən ibarətdir.

Zülalların qoruyucu funksiyası. Zülalların qoruyucu funksiyasının bir neçə növü mövcuddur:

1. Fiziki qoruma. Burada kollagen – birləşdirici toxumanın (o cümlədən, sümüklərin, qığırdağın, vətərlərin və dərinin dərin qatlarının) hüceyrələrarası maddəsinin əsasını əmələ gətirən zülal; buynuz qınları, saçları, lələkləri, buynuzları və epidermisin digər törəmələrini təşkil edən keratin iştirak edir.

2. Kimyəvi qoruma. Toksinlər zülal molekulları ilə bağlanması onların detoksikasiyasını təmin edə bilər. İnsanın detoksikasiyasında zəhərləri parçalayan, yaxud onların orqanizmdən sürətlə çıxmasına imkan verən həll olan formaya keçirən qaraciyər fermentləri xüsusilə mühüm rol oynayır.

3. İmmun qoruma. Qanın və digər bioloji mayelərin tərkibinə daxil olan zülallar həm yaralanmalar, həm də patogenlərin hücumuna qarşı orqanizmin qoruyucu cavab reaksiyasında iştirak edirlər. Koplement və antitel sisteminin zülalları (immuno-qlobulinlər) bakteriyaları, virusları, yaxud yad zülalları neytrallaşdıran zülallar qrupuna aiddir. İmmun sistemin tərkibinə daxil olan antitellər verilmiş orqanizm üçün yad olan maddələrə – antigenlərə birləşir və bununla da onları olduqları yerlərə istiqamətləndirməklə neytrallaşdırırlar.

Zülalların tənzimləyici funksiyası. Hüceyrələrin daxilində bir çox proseslər nə enerji mənbəyi olmayan, nə də hüceyrələr üçün tikinti materialı olmayan zülal molekulları tərəfindən tənzimlənir. Bu zülallar digər zülalların transkripsiyasını, translyasiyasını, eləcə də aktivliyini tənzimləyir. Zülalın aminturşu ardıcıllığı barədə informasiya DNT, yaxud RNT (RNT saxlayan orqanizmlər də) molekullarının nukleotid ardıcıllığında qeyd olunmuşdur.

Zülalların siqnal funksiyası. Zülalların siqnal funksiyası – zülalların toxumalar, hüceyrələr, yaxud, orqanizmlər arasında siqnalları ötürməklə siqnal maddəsi kimi xidmət etmək qabiliyyətidir. Çox vaxt siqnal funksiyasını tənzimləyici funksiya ilə birləşdirirlər, çünki bir çox hüceyrədaxili tənzimləyici zülallar da siqnalların ötürülməsini həyata keçirir.

Hormonlar qanla ötürülür. Heyvanların hormonlarının böyük əksəriyyəti zülallar, yaxud peptidlərdir.

Hüceyrələr bir-birilə hüceyrələrarası maddədən ötürülən siqnal zülalları vasitəsilə qarşılıqlı təsirdə olurlar. Belə zülallara, məsələn, sitokinlər və böyümə faktorlarını aid edirlər.

Sitokinlər – kiçik peptid informasiya molekullarıdır. Onlar hüceyrələr arasında qarşılıqlı təsiri tənzimləyir, onların yaşama qabiliyyətini müəyyən edir, hüceyrələrin artımını, fərqləndirilməsini, funksional aktivliyini stimullaşdırır, yaxud sakitləşdirir, immun, endokrin və sinir sisteminin fəaliyyətinin uzlaşmasını təmin edir. Sitokinlərə misal olaraq orqanizmin hüceyrələri arasında iltihabın olması barədə siqnal verən şiş nekrozu faktorunu göstərmək olar.

Zülalların ehtiyat (rezerv) funksiyası. Enerji mənbəyi və maddə kimi bitkilərin toxumlarında və heyvanların yumurta hüceyrələrində ehtiyat şəklində toplanan rezerv zülallar adlandırılan zülallar bu funksiyaya malikdir. Yumurtanın üçlü örtüyünün zülalları (ovalbuminlər) və südün əsas zülalı (kazlin) həmçinin əsas etibarilə qidalandırma funksiyasını yerinə yetirirlər. Bir sıra digər zülallar orqanizmdə aminturşu mənbəyi kimi istifadə olunurlar, onlar da öz növbəsində metabolizm proseslərini tənzimləyən bioloji aktiv maddələrin sələfləridir.

Zülalların reseptor funksiyası. Zülal reseptorları həm sitoplazmada ola bilər, həm də hüceyrə membranında qurula bilərlər. Reseptor molekulunun bir hissəsi siqnalı qəbul edir, buna bir çox hallarda kimyəvi maddə, bəzi hallarda isə işıq, mexaniki təsir (məsələn, dartılma) və digər stimullar xidmət edir. Siqanlın zülal-reseptor molekulunun müəyyən bir hissəsinə təsir zamanı onun konformasiya dəyişiklikləri baş verir. Siqnalın digər hüceyrə komponentlərinə ötürülməsini həyata keçirən molekulun bir hissəsinin konformasiyası dəyişir. Siqnalın ötürülməsinin bir neçə mexanizmi mövcuddur.

Zülalların motor (hərəki) funksiyası. Motor zülallarının bütöv bir sinfi orqanizmin hərəkətini (məsələn, əzələlərinin yığılmasını), eyni zamanda lokomosiyanı (miozin zülalı), hüceyrələrin orqanizmin daxilində yerdəyişməsini (məsələn, leykositlərin hərəkətini), ibtidailərdə kirpikciklərin və qamçıların hərəkətini, eləcə də aktiv və istiqamətləndirilmiş hüceyrədaxili nəqli (kazein, dinein zülalları) təmin edir.

Zülallar maddələr mübadiləsində. Mikroorqanizmlərin və bitkilərin böyük əksəriyyəti 20 standart aminturşu, eləcə də əlavə (qeyri-stan-

dart) amin turşuları, məsələn, sitrullin sintez edə bilər.

Zülallar həzm prosesində parçalanırlar, bu adətən zülalın turş mühitdə denaturasiyasından və sonra proteazalar adlandırılan fermentlərin köməyi ilə hidrolizindən başlanır. Həzm prosesi zamanı alınan aminturşuların bəziləri orqanizm zülallarının sintezi üçün istifadə olunur, qalanları isə qlükoneogenez prosesində qlükozaya çevrilir, yaxud

Zülalların mənbəyi və qidalanma. Qidada zülalın çatışmaması orqanizmin həyat fəaliyyətində özünü ağır şəkildə büruzə verir. İlk növbədə azot balansı pozulur – zülalın parçalanması onun sintezindən üstün olur. Orqanizm zülal çatışmazlığını hiss edərək öz toxumaları ilə "qidalanmağa" başlayır. Bunun baş verməməsi üçün orqanizmə daim qida ilə lazımi miqdarda zülal daxil etmək lazımdır.

Hamilə qadınlarda (5-9 ay dövründə) orta hesabla 100 qr zülal lazımdır ki, onun 60 qr-ı heyvan mənşəli olmalıdır. Süd verən analara orta hesabla 112 qr zülal, o cümlədən 67 qr heyvan mənşəli zülal tələb olunur. Bəzi alimlərin fikrincə zülallara sutkalıq tələbat aşağıdakı kimidir: 4 yaşlı uşaq üçün 30-50 qr., 12 yaşlı uşaq üçün 50-80 qr., yaşlı qadın üçün 50-90 qr., hamilə (hamiləliyin ikinci yarısında) və süd verən analar üçün 55-90 qr.. Heyvan mənşəli qida biloji qiymətli zülalın əsas mənbəyidir.

Orqanizmdə zülalın çatışmaması ürək-damar, tənəffüs və digər sistemlərin fəaliyyətinə mənfi təsir göstərir. Zülal defisiti iştahanı pisləşdirir, bu da öz növbəsində qida ilə zülalın axınını azaldır – çıxılmaz vəziyyət yaranır.

Əgər qidada ya mütləq miqdarına, ya da məsələn, ağır fiziki iş, yaxud xəstəlik nəticəsində orqanizmin zülala tələbatının artması səbəbindən zülal çatışmırsa, onda zülal çatışmazlığı yaranır. Zülal çatışmazlığının həddini aşmış mərhələsi "kvaşiorkar" adlandırılır, bu xəstəliyə daha çox uşaqlarda rast gəlinir (qidada zülalın miqdarı kifayət qədər olmadıqda uşaqlarda erkən yaşlarda inkişaf edən ağır distrofiyanın xüsusi növü). Bizim ölkədə kvaşiorkar müşahidə olunmur, lakin Asiyanın, Afrikanın, Mərkəzi və Cənubi Amerikanın inkişaf etməkdə olan ölkələrində tez-tez rast gəlinir.

Problemin aktuallığı. Müasir dövrdə qlobal ekoloji və iqtisadi böhranların dərinləşməsi, iqlim dəyişikliyi, atmosferin çirklənməsi, biomüxtəlifliyin sürətlə itirilməsi cəmiyyətin bütün sahələrində, o cümlədən istehsal olunan ərzaq və digər məhsulların ekoloji cəhətdən keyfiyyətinin aşağı düşməsi ilə əlaqədar biologiya müəllimləri tədris etdikləri fənlərdə insanların, eyni zamanda şagirdlərin sağlamlığı üçün bu vasitədən istifadə edilməsi məqsədə uyğundur. Müəllimlər insan orqanizminin həyat fəaliyyəti üçün lazım olan, ekoloji cəhətdən təmiz maddələr haqqında mütəmadi olaraq məlumat verməlidirlər.

Problemin praktik əhəmiyyəti. Biologiya müəllimləri ekoloji böhranın indiki dövrdə gücləndiyi bir vaxtda insanların sağlamlığının qorunması üçün ayrı-ayrı qida maddələrinin, o cümlədən insan tərəfindən qəbul edilmiş qida rasionuna əməl olunması yollarını göstərməlidirlər.

Ədəbiyyat

1. Əliyev Q. Təbiətin strukturu və biosferin təkamülü // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2021. №6,
2. Əliyev Q. İnsan genetikası mövzusunun öyrənilməsi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2018. №7,
3. Əliyev Q. "Genetikanın əsasları". Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi əsərlər cild 85 №5, –2018
4. Кирсев В. Высокомолекулярные соединения.. –М.: Выш.шк., –1992.
5. Бутин К.П. "Механизмы органических реакции, достижения и перспективы Рос.хиш.Жир. сер2. том XI V. – 2001 №2.

Redaksiyaya daxil olub: 14.05.2026

UOT 372.881.111.1

Fəridə Məşi qızı Hüseynova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0250-3467
E-mail: feridehuseynova21@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).150-154

İNGİLİS DİLİNDƏ SOSİAL EMOSİONAL ÖYRƏNMƏNİN DİSKURSİV BACARIQLARA TƏSİRİ

Farida Mashi Huseynova
senior lecturer
at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

THE IMPACT OF SOCIAL-EMOTIONAL LEARNING ON DISCURSIVE SKILLS IN ENGLISH

Фарида Маши гызы Гусейнова
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ВЛИЯНИЕ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОГО ОБУЧЕНИЯ НА НАВЫКИ ДИСКУРСА В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Xülasə. Məqalə ali təhsildə ingilis dilinin tədrisində sosial-emosional bacarıqların diskursiv sərişt ələrə təsirindən bəhs edir və bu yanaşmada bir sıra metodik üsulların tətbiqi yollarını şərh edir. Məqalədə ingilis dili öyrənənlər və müəllimlər sosial-emosional öyrənmənin mövcud təcrübələri haqqında yeni ideyalarla yaxından tanış olacaqlar. Məlumdur ki, sosial-emosional bacarıqların ingilis dilində inkişaf etdirilməsi tədrisdə bir sıra çətinliklərlə üzləşir, diskursiv sərişt ələr zəif inkişaf edir. Aydındır ki, müəllim və tələbələr ingilis dilini daha çox kitablardan, lüğətlərdən və bir sıra vasitələrdən öyrənməklə kifayətlənir, dilin diskursiv mahiyyətini çox az anlayırlar. Bu baxımdan məqalə müəllim və tələbələrin sosial mühitlərdə ünsiyyət qabiliyyətlərini inkişaf etdirmək üçün psixoloji aspektləri, strategiyaları təqdim edir.
Açar sözlər: *diskursiv bacarıqlar, sosial-emosional öyrənmə, strategiyalar*

Abstract. The article discusses the impact of socio-emotional skills on discursive competences in English language teaching in higher education and comments on the ways in which a number of methodological techniques can be applied in this approach. In the article, English learners and teachers will be closely acquainted with new ideas about the existing practices of social-emotional learning. It is known that the development of social-emotional skills in English faces several difficulties in teaching; discursive skills are poorly developed. It is obvious that teachers and students are content with learning English mostly from books, dictionaries, and several tools, and they understand very little about the discursive nature of the language. In this regard, the article presents psychological aspects and strategies for teachers and students.
Keywords: *discursive skills, social-emotional learning, strategies*

Аннотация. В статье рассматривается влияние социально-эмоциональных навыков на дискурсивную компетентность в преподавании английского языка в высших учебных заведениях и комментируются способы применения ряда методологических приемов в этом подходе. В статье студенты и преподаватели английского языка ознакомятся с новыми идеями о существующих практиках социально-эмоционального обучения. Известно, что развитие социально-эмоциональных навыков в английском языке сталкивается с рядом трудностей в преподавании, дискурсивные компетенции развиты слабо. Очевидно, что преподаватели и студенты довольствуются изучением английского языка в основном по книгам, словарям и различным средствам, и очень мало понимают о дискурсивной природе языка. В этой связи в статье представлены психологические аспекты и стратегии для преподавателей и студентов по развитию их коммуникативных навыков в социальной среде.
Ключевые слова: *навыки дискурса, социально-эмоциональное обучение, стратегии*

Giriş. İngilis dili tələbələrə digər insanlarla yaxşı və mənalı əlaqələr qurmağa və sosial vəziyyətlərdə onlarla düzgün şəkildə danışmağa kömək edir. Sosial mühitlərdə ingilis dilində danışarkən tələbələr bədən dilindən, jestlərdən və üz ifadələrindən istifadə etməyi sevirlər. Onlar sosial qaydalara necə əməl etməyi, hadisələrə başqalarının baxış bucağından baxmağı, düşündüklərini və hiss etdiklərini deməyi, sosial mübahisələri həll etməyi və ana dili ilə birlikdə işləməyi öyrənirlər. Məlumdur ki, sosial bacarıqların istifadəsində diskurs şəraitdə verbal ünsiyyət mühüm rol oynayır. Burada tətbiqi dilçilik və praqmatikadan irəli gələn ənənəvi diskurs səriştəsi ardıcıllığı, birliyi və uyğunluğu vurğulanır. Sosial şəraitdə tələblər danışarkən emosiyaları, niyyətləri və sosial dinamikanı oxumaq bacarığını inkişaf etdirir. Xarici dildən istifadə edənlər dialoq zamanı sözlərdən və səs tonundan istifadə etməklə söhbət qaydalarına əməl etməyi öyrənməli, növbə ilə danışmağı bacarmalı, istənilən mövzuda fikir söyləmək və ehtiyac duyduqları zaman mövzuya aydınlıq gətirməyi bacarmalıdırlar. Qeyri-verbal ünsiyyət zamanı bədən dilini, üz ifadələrini, jestləri və göz təmasını anlamaq və istifadə etməyi əhatə edir. Bu məqsədlə sosial bacarıqların inkişafında sosial-emosional öyrənmənin xüsusi rolu olduğu vurğulanır. İngilis dilinin tədrisində *Sosial-Emosional Öyrənmə (SEL)*, dil dərslərinə emosional zəka və sosial bacarıqların əlavə edilməsi deməkdir.

1.2. İngilis dilində sosial-emosional öyrənmə və diskursiv səriştə. İngilis dili təhsilində Sosial-Emosional Öyrənmədə diskursiv səriştə tələbələrin dildən istifadə edərək hisslərini anlamaları, idarə etmələri və göstərmələri, eləcə də başqaları ilə yola getmələri deməkdir. Bu səriştə hərəkət etməyə və mənalı söhbətlər aparmağa kömək edir.

F.M. Hüseynova, N.V. Popova, S.J.Savignon və P.V. Sysoyev öz araşdırmalarında qeyd edirlər ki, ingilis dilinin tədrisində sosial-emosional təlimin diskursiv səriştəyə təsiri daim hiss olunmaqdadır. Tələbələrə emosiyalarını necə idarə etmək və başqalarının hisslərini anlamaq kimi bacarıqları öyrədir ki, bu da onların növbə ilə necə davranmalarına, danışmalarına və reaksiya vermələrinə birbaşa təsir göstərir. Praktikada bu o deməkdir ki, tələbələr söhbətin yalnız qrammatik cəhətdən düzgün deyil, həm də gərgin, əməkdaşlıq və ya qeyri-rəsmi olub-olmamasından asılı olaraq danışıq tərzini dəyişə bilərlər [3; 5; 6]. Bu, öyrənənlərə cümlə səviyyəsindəki qrammatikadan kənara çıxaraq, düzgün əlaqələndirici sözlərdən istifadə etməklə, mövzunu düzgün şəkildə saxlamaqla və janrdan xəbərdar olmaqla mənalı esselər yazmağa, söhbətlər aparmağa və hesabatlar yazmağa kömək edir. Sosial-emosional təlimdə tələbələrin danışıq bacarıqları müxtəlif vəziyyətlərdə insanlarla necə danışmağı bilmək deməkdir. Bu dərs ingilis dilinin insanların başqalarının necə hiss etdiklərini və ətraflarındakı dünyanı necə gördüklərini anlamalarına kömək etdiyi fikrini gücləndirir. Bu, onlara nəzakətli, dolayı və ya iddialı olmaq qərarına gəlməyə kömək edir. J.Silver və J.Blu (2024) qeyd edirlər ki, sosial-emosional bacarıqlar bugünkü mürəkkəb və tez dəyişən mühitlərlə mübarizə aparmaq üçün çox vacibdir. Onlar həmçinin mövcud bacarıqlar kimi qəbul edilir. Sosial-emosional bacarıqlar oxumaq və yazmaq kimi savadlılığın əsas formasıdır [5, s. 44]. C.E. Domitroviç və başqaları (2017) izah edirlər ki, *"sosial-emosional səriştəni nümayiş etdirmək üçün lazım olan bilik, bacarıq və münasibətlər affektiv, idrak və davranış sistemləri arasında inteqrasiyanı zəruri edir*" [2, s.408]. Burada öyrənənlərin sosial-emosional və akademik bacarıqlarının inkişafına eyni dərəcədə diq-

qət yetirsək, onu və ya bütöv bir insanı tərbiyə etdiyimizi deyə bilərik. Bu, onların təkcə tədrisdə deyil, həm də şəxsi, sosial və peşəkar həyatlarında uğur qazanmağa hazır olmalarını təmin edəcəkdir.

Diskursiv olaraq ingilis dili təhsilinin əldə olunmasında sosial-emosional öyrənmə gələcək dünyanın tələblərinə cavab verən ən unikal dil yanaşmasıdır. Həmçinin, bu sahəni daha çox araşdıran alimlər sosial-emosional öyrənmənin müəllimlər və tələbələr üçün pedaqoji zərurət kimi tətbiqinin vacibliyini işıqlandırmağa başlayıblar. Bu məqsədlə, tələblər və müəllimlər üçün sosial-emosional bacarıqların inkişaf etdirilməsinə üstünlük verilməlidir.

Psixoloji aspektləri. İngilisdilli mühitlərdə sosial-emosional öyrənmə inkişaf etməklə öyrənənlərdə diskursiv mühitdə zehni sağlamlığı, akademik göstəriciləri və davranışı yaxşılaşdırmağı hədəfləyir. Psixoloji olaraq tələbələrdə özünüdərk, özünüidarəetmə, sosial şüur, münasibət bacarıqları və məsuliyyətli qərar qəbuletmə daha yaxşı inkişaf edir. Tədris auditoriyasını təhlükəsiz bir yerə çevirməklə, bu təlim tələbələrə emosiyalarını necə idarə etməyi, empatiya hiss etməyi və güclü olmağı öyrənməyə kömək edir. L. Pentón Herrera sübut edir ki, Sosial-Emosional Öyrənmədə özünütənzimləmə işləri daha aydın və daha ardıcıl gedir [4, s. 9]. Tələbələr hisslərini idarə edə bilən tapşırıqları daha yaxşı yerinə yetirə, fikirlərini təşkil edə və impulsiv və ya nizamsız şəkildə danışmaqdan çəkinə bilirlər. Bu, mübahisələri daha aydın edir və hekayələrin daha yaxşıını təmin edir.

Müasir dilin tədrisində tələbə rifahı və sosial-emosional öyrənmə arasında əlaqələr vardır. Aydındır ki, stress, əhval-ruhiyyə və özünəhörmət kimi əqli sağlamlıq problemləri tələbə rifahının bir hissəsidir. Sosial-emosional öyrənmə, digər insanlarla yola getmək üçün istifadə etdiyimiz bacarıqlar toplusudur. Psixoloji təsir kimi, sosial-emosional bacarıqları öyrətməyin effektiv yolunu beş əsas bacarıq təşkil edir:

Sosial və emosional öyrənmə yolu ilə aşağıdakı bacarıqlar əldə olunur:

- öz hisslərindən və onların necə davrandığına necə təsir etdiyindən xəbərdar olmaq (özünüdərk)
- özünüidarəetmə məqsədə çatmaq üçün hissləri idarə etmək qabiliyyəti;
- başqa insanların necə hiss etdiyindən və necə davrandığından xəbərdar olmaq (sosial məlumatlılıq)
- başqa insanlarla yaxşı münasibətlər qurmaq (münasibət bacarıqları)
- başqa insanlarla birlikdə olduğu zaman necə davranmaq barədə məsuliyyətli seçimlər etmək.

Bundan əlavə, neyroelmdəki son inkişaflar, prefrontal korteks və amigdala arasındakı qarşılıqlı təsirlər kimi emosiyaların tənzimlənməsində iştirak edən beyin sistemlərinin davranışa və öyrənməyə təsirini aydınlaşdırır. Bu öyrənmə eyni zamanda insan davranışında biologiyaya əsaslanan təhsil yanaşması təqdim olunur [2; 4].

1.3. Sosial-emosional öyrənmə savadlılıq bacarığı kimi

Təhsildə sosial-emosional səriştələrinə, başqaları ilə yaxşı işləmələrinə, vacib məqsədlər qoymalarına və ağıllı seçimlər etmələrinə kömək edən bacarıqlar, biliklər və münasibətlər kimi müəyyən edilir. Sosial-emosional təlimin diskurs səriştələrinə təsiri bu öyrənmənin savadlılığı şəraitində baş verir. J. Silver və J. Blu, E. Solova (2024) təsdiq edirlər ki, ingilis dilini öyrənmək, savadlılığın oxumaq və yazmaq qabiliyyətindən bir çox müxtəlif savadlılıq növlərini əhatə etməsi kimi dəyişir [7; 8]. Bu gün ingilis dilini öyrənmək yalnız lüğət, qrammatika və insanlarla necə danışmağı öyrənməklə bağlı deyil. Diskurs olaraq, sosial-emosional öyrənmə həm də dünya və ətrafımızdakı insanlarla əlaqə qurmaq üçün dildən istifadə etməklə bağlıdır. Bu gün uğurlu ingilis dilində danışan olmaq üçün şəxsi, sosial və iş həyatda mürəkkəb, texnologiya ilə zəngin və qloballaşmış vəziyyətləri idarə edə bilməlisiniz. Məsələn, T.T. Axundova qeyd edir ki, kommunikativ yanaşmada ingilis dilində danışan şəxs dil bacarıqlarından virtual komandada müxtəlif zaman zonalarından olan insanlarla işləmək, qlobal sənayedə müştəri xidmətləri məsələlərini həll etmək və ya beynəlxalq biznes mühitində real vaxt məlumatlarına baxmaq və onlara reaksiya vermək üçün istifadə edə bilər [1; s. 224]. Bu nümunələr göstərir ki, ingilis dili indi insanlarla danışmaq üçün sadəcə bir yol deyil; o, həmçinin müasir həyatın çətinliklərini dəf etmək üçün vacib bir vasitədir. Şübhəsiz ki, ingilis dili insanlar və texnologiya üçün birlikdə işləmək, problemləri həll etmək və daim dəyişən bir dünyada güclü qalmaq üçün bir yol halına

gəlib. Bu dəyişiklik o deməkdir ki, auditoriyalarda tələbələrimizin bu vəziyyətlərdə uğur qazanmaları üçün lazım olan sosial-emosional bacarıqlara daha çox diqqət yetirməliyik. Sosial-emosional bacarıqlar bugünkü mürəkkəb və tez dəyişən mühitlərlə mübarizə aparmaq üçün çox vacibdir. Onlar həmçinin mövcud və gələcək işçi qüvvəsi üçün vacib bacarıqlar kimi qəbul edilir [2; 6].

1.4. Sosial-emosional öyrənmənin tədrisi strategiyaları

Təlimdə sosial-emosional öyrənmənin diskursiv səriştələrə təsiri bir sıra strategiyaların tətbiqinə əsaslanır. Bunlara ilk olaraq, sosial mühiti yaratmaq, ünsiyyəti formalaşdıran vasitələrin istifadəsinə yer vermək, tədris proqramında sosial-emosional sahəyə daxil olan mövzuları tərtib etmək, qruplarda iş aparmaq, müzakirələr keçirmək daxil edilir. Tədris planına özünüdərk, münasibət bacarıqları və məsuliyyətli qərar qəbuletmə əlavə etməklə, Sosial-Emosional Öyrənmə (SEL) strategiyaları tələbələrin daha yaxşı nəticə göstərməsinə kömək edir. Gündəlik emosional yoxlamalar, kiçik qrup işi, refleksiv yazı və diqqətlilik məşqləri öyrənmə auditoriyalarını tələbələrin daha çox cəlb olunduğu və daha az hərəkət etmə ehtimalı olan təhlükəsiz və dəstəkləyici bir yerə çevirməyin yaxşı yollarıdır. Müəllimlər ümumi tədris prosesinə sosial-emosional strategiyalar daxil etməklə tələbələrin bütün ehtiyaclarını ödəyirlər. Burada emosional intellekt tipi də strategiyaların tətbiqinə yol açır. Emosional intellekt təhsil üçün faydalıdır, çünki daha müsbət və vahid təlim mühiti yaratmağa kömək edir. Həmçinin, bir-birinin şəxsi ehtiyaclarına hörmət etməklə tələbələr və müəllimlər arasında qarşılıqlı əlaqələri daha əlverişli edir. Bu, onların gələcəkdə həmkarları, ailəsi, dostları və tərəfdaşları kimi geniş insanlarla daha yaxşı münasibətlər qurmağa hazırlaşmasına kömək edir [1; 2]. Bundan əlavə, avtomatlaşdırma və süni intellekt (Sİ) adi tapşırıqlardan istifadə edən dil daşıyıcıları insanları Sİ və texnologiyanın hələ təkrarlaya bilmədiyi ünsiyyət, uyğunlaşma və əməkdaşlıq kimi bacarıqlara yiyələnməyə sövq etməklə sənaye sahələrini dəyişdirirlər. Bu sürətlə dəyişən iş bazarında, çoxfunksiyalı işçilər ingilis dilini yaxşı öyrənsələr, böyümə, aktiv iştirak və yeni ideyalar üçün imkanlar tapa bilərlər. Sənaye sahələri dəyişməyə davam etdikcə, ingilis dilində danışa bilmək və yaxşı sosial-emosional bacarıqlara sahib olmaq daha da vacib hala gəlir.

2. Sosial emosional öyrənmədə mədəni aspektlər

Sosial-Emosional Öyrənmə proseslərin mədəniyyətlər arasında necə dəyişdiyini göstərməyə çalışır. Müxtəlif ölkə kontekstlərindən olan dil mövzuları mədəni müxtəlifliklə əlaqəli olsa da, etnik, irqi, sosial-iqtisadi sinif və ehtimal ki, gender kontekstlərindəki fərqlərin araşdırılması oxşar uyğunsuzluqları aşkar edilmişdir. Dilin mənimsənilməsinin mədəni ölçüləri ilə sosial-emosional öyrənmə arasındakı əlaqənin əsasını anlamaq çox vacibdir. Bu proses iki sahənin birləşdirilməsinin müsbət və mənfi cəhətlərini və ingilis dilini öyrənən insanlar üçün nə qədər vacib olduğunu araşdıracaq. Mədəni cəhətdən həssas sosial-emosional öyrənmə tələbələrin müxtəlif mədəni mənşələrini tanıyır və şəxsi təcrübələri vasitəsilə öyrənmələrini asanlaşdırır. Bu metod öyrənmə məkanını hər kəsin özünü xoş qarşılandığı, daha çox iştirak etdiyi və digər mədəniyyətlər haqqında məlumat əldə etdiyi səmimi bir məkana çevirir. Müəllimlər auditoriyada tələblərin sosial emosiyaları üçün empatiyanı təşviq edə və onlara digər mədəniyyətləri anlamağa kömək edə bilərlər. Bunların hamısı ingilis dili vasitəsilə bugünkü qloballaşan dünyaya qədəm qoymaq üçün vacib bacarıqlardır. Sosial Emosional Öyrənmənin auditoriyalara inteqrasiyası sadəcə dil öyrənilməsi sahəsində yeni bir fikir deyil, eyni zamanda tələbələrə və müəllimlərə digər inancları tanımaq, empatik olmaq, müxtəlif coğrafiyaların verdiyi dəyərlərə hörmət etməyi tövsiyə edir.

Sosial Emosional Öyrənmə ingilis dili tədrisində "nəyi" və "nə üçün" öyrənilməsində diskursiv olaraq öyrənənləri həm mədəni cəhətdən həssas olmağa, həm də hər kəs zövqünü oxşayan şəkildə tətbiq etməyi öyrənəcəklər [5; 6]. Daha sonra, mədəniyyətlərin öyrənilməsi strategiyaları da bu təcrübəyə əlavə edilməsi sosial emosional öyrənməyə təsir edir. Tələbələrin dil və kimliyinin ünsiyyətə necə təsir etdiyini öyrənmək vacib şərt hesab olunur.

Nəticə etibarilə, Sosial-Emosional Öyrənmədə fərdlər akademik, peşəkar və sosial kontekstlərdə mənalı və konstruktiv diskursda iştirak etmək qabiliyyətlərini artırırlar. Sonda təhsillə sosial-emosional öyrənmənin əlavə edilməsi yalnız ünsiyyət bacarıqlarını inkişaf etdirmir,

həm də daha açıq və əməkdaşlıq qarşılıqlı əlaqələrini təşviq edir və şagirdləri daha çox əlaqəli bir dünyaya necə uyğunlaşa biləcəkləri barədə düşünməyə hazırlayır.

Problemin aktuallığı. İngilis dili dərslərində Sosial-Emosional Öyrənmə diskursiv olaraq öyrənənlərin dili necə anlaması, öz hisslərini başa düşməyi və idarə etməyi, dostlar qazanmağı və düzgün seçimlər etməyi üzrə öyrənmə prosesidir. Mövcud vəziyyətdə ingilis dilinin sosial məkanlarda istifadəsi daha çox təsadüf olunur və təhsil müəssisələrində, iş yerlərində və gündəlik həyatda daha vacib hala gəlmişdir, çünki ingilis dilinin sosial məzmunda istifadəsi, təkcə insanların necə hiss etmələrinə deyil, həm də necə işlətmələrinə və uğur qazanmalarına təsir göstərir.

Problemin elmi yeniliyi. Sosial-Emosional Öyrənmənin elmi yeniliyi, tələbələrin emosional və sosial bacarıqlarını akademik bacarıqları ilə birlikdə metodik olaraq araşdırmaq və inkişaf etdirmək üçün müxtəlif fənlərdən, xüsusən də psixologiya, nevrologiya və təhsil elmlərindən əldə edilən fikirlərin inteqrasiyasındadır.

Problemin praktik əhəmiyyəti. Məqalədə tədqiqatın nəticələri Sosial-Emosional Öyrənmənin diskurs səriştəsinin inkişaf etdirilməsində innovativ aspekti ünsiyyətin sırf linqvistik çərçivədən adaptiv və kontekstual məlumatlı çərçivəyə çevrilməsidir. Əvvəla, tədqiqatın nəticələri tələbələrin qrammatik cəhətdən düzgün cümlələr qura bildiklərini, lakin yenə də insanlarla danışmaqda çətinlik çəkdiklərini anlamağımıza kömək edir.

Ədəbiyyat

1. Axundova T. T. İngilis dilinin tədrisində tələbələrdə şifahi nitqin kommunikativyönümlü strateji səriştəsinin formalaşması ilə bağlı problemlər // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərlər jurnalı, –2026. Volume 93, №1, –s.122-125
2. Domitrovich, C. E., Durlak, J. A., Staley, K. C., & Weissberg, R. P. (2017). Social-emotional competence: An essential factor in promoting positive adjustment and reducing risk among schoolchildren. Child Development, 88(2), –408–416. https://doi.org/10.1111/cdev.12739
3. Huseynova F.M. Assessment of students' Reading Comprehension skills in teaching English // Web of Science -London-Cambridge Intechopen; –2023. № (1) –pp. 61-77/
4. Pentón Herrera, L. (2024). Introduction to social-emotional learning in English language education: Mapping the landscape and reflecting on the way forward. Anglica. An International Journal of English Studies, 33(1), 5–18. https://doi.org/10.7311/0860-5734.33.1.01.
5. Popova N.V. On the issue of developing discursive competence // Foreign languages at school. –2011. No. 7. –P. 74-80.
6. Savignon S.J., Sysoyev P.V. Cultures and comparisons: Strategies for learners // Foreign Language Annals. –2005. No. 38(3). –Pp. 357-365.
7. Silver, J., & Blue, J. (2024). Multiple literacies in the English language classroom. National Geographic Learning.
8. Solova E.N. Methods of teaching foreign languages: Basic course: Manual for students of pedagogical universities and teachers. – M.: Education, –2002. – 239

Redaksiyaya daxil olub: 27.05.2026.

UOT 372.881.111.1

Rövşən Urfan oğlu İsmayılov
Azərbaycan Dillər Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org 0009-0006-3296-0622
E-mail: rovshan.ismayilov.0218@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).155-160

İNGİLİS DİLİNDƏ NATİQLİK BACARIQLARININ İNKİŞAF EDİLMƏSİNDƏ AUTENTİK MATERİALLARIN LİNQVODİDAKTİK POTENSİALI

Rovshan Urfan Ismayilov
doctorial student in the program of doctor of philosophy at
Azerbaijan University of Languages

LINGUO DIDACTIC POTENTIAL OF AUTHENTIC MATERIALS IN DEVELOPING PUBLIC SPEAKING SKILLS IN THE ENGLISH LANGUAGE

Ровшан Урфан оглы Исмаилов
докторант по программе доктора философии
Азербайджанского Университета Языков

ЛИНГВОДИДАКТИЧЕСКИЙ ПОТЕНЦИАЛ АУТЕНТИЧНЫХ МАТЕРИАЛОВ ПРИ ФОРМИРОВАНИИ НАВЫКОВ ПУБЛИЧНЫХ ВЫСТУПЛЕНИЙ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

Xülasə. Bu məqalə ingilis dilində natiqlik bacarıqlarının inkişafında autentik materialların linqvodidaktik potensialını araşdırır. Mövzunun aktuallığı öz ideyalarını beynəlxalq arenada effektiv şəkildə təqdim etməyə qadir olan mütəxəssislərə artan tələbatdan, eləcə də ənənəvi təhsil mətnləri ilə real dünya dil təcrübəsi arasındakı boşluqdan irəli gəlir. Autentik materiallar ingilisdilli təmsilçilər tərəfindən başqa ingilisdilli təmsilçilər üçün yaradılmış və ilkin olaraq tədris məqsədləri üçün nəzərdə tutulmayan mətnlər kimi başa düşülür: siyasətçilərin ictimai nitqi, məşhur aparıcıların podkastları, müsahibələri, videoları və s. Autentik materialların müxtəlif təsnifatları onların mənşəyi, istifadəsi, həqiqiliyinin dərəcəsi və xarakteri kimi müxtəlif meyarlara əsasən nəzərdən keçirilir. Verbal və qeyri-verbal ünsiyyət komponentlərini birləşdirən orijinal materialların kompleks təsirinə xüsusi diqqət yetirilir.
Açar sözlər: *autentik materiallar, ingilis dili, kommunikativ yanaşma, natiqlik, natiqlik bacarıqları*

Abstract. The article examines the linguodidactic potential of authentic materials in the process of developing public speaking skills in the English language. The significance of this topic stems from the growing demand for professionals capable of effectively presenting their ideas on the international arena, as well as the gap between traditional textbooks and real-world language practice. Authentic materials are understood as texts created by native speakers for other native speakers and not originally intended for educational purposes: public speeches of politicians, podcasts, interviews, videos, and others. Various classifications of authentic materials are examined based on different criteria, such as their origin, their application, as well as the degree and nature of their authenticity. Special attention is paid to the comprehensive impact of authentic materials, which combine verbal and nonverbal components of communication.
Key words: *authentic materials, the English language, communicative approach, public speak-ing, public speaking skills*

Аннотация. Статья посвящена рассмотрению лингводидактического потенциала аутентичных материалов в процессе формирования навыков публичных выступлений на английском языке. Актуальность темы обусловлена растущей потребностью в специалистах, способных эффективно

представлять свои идеи на международной арене, а также разрывом между традиционными учебными текстами и реальной языковой практикой. Аутентичные материалы понимаются как тексты, созданные носителями языка для тех же носителей языка и не предназначенные изначально для учебных целей: публичные выступления политиков, подкасты, интервью, видео и другие. Рассмотрены различные классификации аутентичных материалов по разным критериям, таким как их происхождение, их применение, а также степень и характер их подлинности. Особое внимание уделено комплексному воздействию аутентичных материалов, сочетающих вербальный и невербальный компоненты коммуникации.

Ключевые слова: *аутентичные материалы, английский язык, коммуникативный подход, публичное выступление, навыки публичных выступлений*

Giriş. İngilis dilində natiqlik bacarıqlarının inkişafı bu gün xüsusilə vacibdir. İngilis dili, istər akademik konfrans, istər beynəlxalq investorlara startap təklifi, istərsə də transmilli korporasiyaya layihə təqdim etmək kimi beynəlxalq ünsiyyət dili kimi özünü möhkəm şəkildə təsdiq etmişdir. Danışıq ingilis dili artıq kifayət qədər rəqabət üstünlüyü deyil. İngilis dilindən tam hüquqlu təsir vasitəsi kimi istifadə edərək inandırmaq, ilhamlandırmaq və rəhbərlik etmək bacarığı getdikcə daha vacib olur. Bununla belə, müasir tədris təcrübələri çox vaxt dialoji nitqin inkişafı və ya monoloji nitqlərin hazırlanması ilə məhdudlaşır ki, bu da mahiyyət etibarı ilə ya mətnin təkrar izahını, ya da imtahan suallarına cavabı ifadə edir.

Müasir təhsilin qeyri-adiliyi ondan ibarətdir ki, tələbələri real həyat vəziyyətlərinə hazırlayarkən kurikulumlar reallıqdan ayrılmış materiallara əsaslanmağa davam edir. İngilis dili dərslikləri ideal mətnlər təklif edir ki, burada hər bir sətir qrammatik cəhətdən qüsursuzdur və leksik vahidlər ciddi şəkildə tələbənin səviyyəsinə uyğun seçilir. Belə bir sual yaranır: bəs real həyatda belə mükəmməl həmsöhbəti harada tapmaq olar? Burada adətən *autentik* və ya *orijinal materiallara* təbii maraq yaranır. Bunlar öyrənmə məqsədi üçün deyil, ingilisdilli təmsilçilər tərəfindən real həyat üçün yaradılmış şifahi fəaliyyətin məhsullarıdır (məs., siyasətçilərin ictimai nitqi, məşhur aparıcıların podkastları, müsahibələri, videoları və s.). Bu materiallar tələbələrin səviyyəsinə və ehtiyaclarına tam uyğun deyil, ona görə də onları başa düşmək üçün bir az səy göstərmək lazımdır və məhz bu, onların öyrənməsinə dəyər qatır.

Xarici ölkələrin mədəniyyətini öyrənmək insanın özünü dərindən dərk etməsi ilə ayrılmaz şəkildə bağlıdır. Bu proses milli adət-ənənələri və mentaliteti dərk etməklə, öz ölkəsinin tarixi reallıqlarını dəyərləndirməklə, ana dilinin linqvokulturoloji aspektlərini mənimsəməklə, müxtəlif sahələrin (filologiya, ölkəşünaslıq və s.) biliklərini inteqrasiya etməklə zənginləşir [5]. Tələbə öz adət-ənənələrini, mentalitetini və tarixini dərk etdikdə, başqa mədəniyyətlə fərqləri və oxşarlıqları görmək daha asan olur, çünki yad mədəniyyəti ayrı-ayrılıqda öyrənmək mümkün deyil. Buna nail olmaq üçün tədris prosesində "canlı" dil və real mədəniyyəti əks etdirən materiallar tələb olunur. Bildiyimiz kimi, 1970-ci illərin əvvəllərindən etibarən *kommunikativ yanaşmanın* inkişafı ingilis dili tədrisini daha real və praktiki etməyə yönəlmişdir. Diqqət dilçilik qaydaların ənənəvi öyrənilməsindən kənara çıxaraq ingilis dilində kommunikativ bacarıqların inkişafına yönəldilib. Bu dövrdən sonra dil materialları real xarici dil mənbələrinə və autentik məzmuna daha çox yer verməyə başladı. Nəticədə tələbələr ingilis dilini yaxşı başa düşmək və praktikada istifadə etmək üçün daha uyğun şəraitə malik oldular [6].

İngilis dilinin tədrisində *autentik materiallara* gəldikdə, ilk növbədə onların orijinal olması və təbii kommunikativ mühitdə istifadə edilməsi nəzərdə tutulur. Lakin bu anlayış sadə görünsə də, onun arxasında ziddiyyətlər, müxtəlif yanaşmalar və elmi mübahisələr dayanır. Elmi ədəbiyyatda *"autentik materiallar"* anlayışının hamı tərəfindən qəbul edilmiş vahid tərifi mövcud deyil. Bununla belə, tədqiqatçıların əksəriyyətinin razılaşdığı əsas məqam ondan ibarətdir ki, autentik materiallar ilkin olaraq tədris məqsədləri üçün yaradılmır. Onlar təbii kommunikativ şəraitlərdə ingilis dilini ana dili kimi istifadə edənlər tərəfindən həmin dilin daşıyıcıları üçün hazırlanır. Bu yanaşma bir çox elmi mənbələrdə təsdiq olunur və autentik materialların izahında əsas istinad nöqtəsi kimi qəbul edilir.

Autentik materialların tədris prosesinə geniş şəkildə daxil edilməsi ilə yeni bir problem meydana çıxmışdır. Xüsusilə I və II kurs bakalavr tələbələri çoxlu sayda tanış olmayan sözlər, söz birləşmələr və ya idiomlar, eləcə də mürək-

kəb sintaktik quruluşlar və mədəni istinadlarla qarşılaşırlar. Nəticədə bu materiallar onlar üçün çətin qavranılan və demək olar ki, anlaşılmaz olur. "Canlı" ingilis dilini öyrənməkdən gözlənilən müsbət emosiyalar əvəzinə tələbələrdə məyusluq yaranır və bu da autentik materialların bəzən onların motivasiyasına mənfi təsir göstərdiyini deməyə əsas verir. Professor Dilarə İsmayılova qeyd edir ki, tələbələr mürəkkəb və təbii şəraitdə xarici nitqi başa düşməyi öyrənsələr, real həyatda daha asan ünsiyyət qura biləcəklər, çünki təbii səslənən nitq effektiv ingilis dilinin öyrənilməsinin açarıdır [4].

Elmi metodoloji ədəbiyyatda *autentik materialların təsnifatına* bir neçə yanaşma mövcuddur. Qərb metodoloqlarının əsərlərində ən geniş yayılmış təsnifatlardan biri, ehtimal ki, Devid Nunanın adı ilə bağlıdır [12]. O, *mənşəyinə və istifadəsinə əsasən* dörd növ autentik materialı müəyyən edir:

Cədvəl 1. *D.Nunanın autentik materialların təsnifatı*

I. Autentik çap mətnləri	qəzet və jurnal məqalələri, kitablar, bloqlar, mesajlar, yazılar, şərhlər, menyular, reseptlər, rəylər
II. Autentik audio və video materiallar	televiziya proqramları, radio proqramları, mahnılar, xəbərlər, filmlər, mühazirələr, ictimai çıxışlar, müsahibələr
III. Autentik vizual materiallar	fotoşəkillər, rəsmlər, cizgi filmlər, qrafiklər, xəritələr, diaqramlar, infoqrafika, reklam afişaları
IV.Gündəlik istifadə üçün autentik materiallar (ing. "Realia")	pul vahidləri, bitkilər, telefonlar, dərman şüşələri, təqvimlər, divar saatları, bayraqlar, oyuncaqlar, gəlinciklər

Nunan tərəfindən edilən bu təsnifat ən çox yayılmışlardan biridir, amma yeganə deyil. Leo Van Lier isə fərqli təsnifat prinsipini təklif edir. O, autentik materialları daşıyıcının növünə görə deyil, onların *həqiqiliyinin dərəcəsi və xarakteri ilə* fərqləndirir [14]. Van Lier üç kateqoriya müəyyən edir və bu təsnifat autentik materialların dərs zamanı necə işləyəcəyini anlamaq üçün xüsusilə faydalıdır.

Cədvəl 2. *L.Van Lierin autentik materialların təsnifatı*

I. "Bona fide" materiallar	*"Bona fide"* latın ifadəsi *"əsl"*, *"real"* kimi tərcümə olunur. Bu cür mətnlər, video və ya audio yazılar həqiqətən bir-birinə nəyisə çatdırmaq istəyən insanlar arasında həqiqi ünsiyyət aktı kimi yaradılmışdır [7]. Gündəlik həyatda iki ingilisdilli təmsilçilər bir-biri ilə söhbət etdikdə, onların ünsiyyət aktı səmimi olur. Onlar xüsusi bir rol oynamırlar, öyrənmə tapşırığını yerinə yetirmirlər və dil nəzəriyyəsi biliklərini nümayiş etdirmək məqsədi güdmürlər. Məsələn: *The Guardian* gündəlik qəzeti, *BBC*, *CNN*, *Euronews* ictimai yayım xəbər kanalları, bir siyasətçinin ictimai çıxışı və s. ola bilər.
II. "Kvazi autentik" materiallar	Bunlar xüsusi olaraq təhsil məqsədləri üçün yaradılmış materiallardır, lakin onlar real həyat situasiyalarını təqlid edirlər. Onlar orijinal görünür və səslənir, amma əslində sadələşdirilmiş versiyalardır. Məsələn, tələbələr *"Job interview for the position of Teaching Assistant in Primary School"* situasiyasını canlandırırlar, amma fon səs-küyü olmadan yavaş və aydın danışırlar.
III.Pedaqoji materiallar	Bu materiallar sünidir və bu, onların mənfi cəhəti deyil, əksinə, üstünlüyüdür.

İngilis dilinin tədrisində *autentik* və *qeyri-autentik materiallar* məsələsi metodoloji ictimaiyyətdə müzakirələrə səbəb olan məsələlərdən biridir. Vidiya Fibrina öz tədqiqatında qeyd edir ki, autentik materiallar ingilis dilini və mədəniyyəti öyrənmək üçün çox zəngin və faydalıdır, amma onların dili mürəkkəb olduğu üçün tələbələr üçün çətin olur [8]. Digər tərəfdən, qeyri-autentik materiallar tələbələrin səviyyəsinə uyğunlaşdırıldığı üçün daha asan başa düşülür və xüsusilə ingilis dili öyrənənlər üçün daha münasibdir. Lakin bu materialların mənfi tərəfi odur

ki, onlar təbii səslənmir və ingilis dilinin real həyatda necə istifadə olunduğunu tam göstərmir.

Robert Qardnerə görə, xarici dilin öyrənilməsində uğurun əsas şərti *motivasiyadır* və onu həm bilik, həm duyğu, həm də fəaliyyət baxımından anlamaq lazımdır. Müəllif sübut edir ki, motivasiya tələbəyə yeni məlumatı mənimsəməyə, effektiv strategiyalar qurmağa və öyrənməni planlaşdırmağa kömək edir [9]. Digər tərəfdən, Metyu Pikokun apardığı tədqiqat göstərir ki, həm süni (qeyri-autentik), həm də orijinal (autentik) materialların öyrənmə prosesində özünəməxsus rolu vardır. Qeyri-autentik materiallar tələbələr üçün daha anlaşıqlı olsa da, bəzən maraqsız olur və qeyri-real təsir yaradır. Autentik materiallar isə əksinə, daha maraqlı, real və məlumatlandırıcıdır və tələbələrin dünyagörüşünü genişləndirir və motivasiyanı artırır. Lakin onların mürəkkəb dil strukturu xüsusilə başlanğıc səviyyəli öyrənənlər üçün çətinlik yaradır [13].

Müasir linqvodidaktika autentik materialların əhəmiyyətini qəbul edir, amma onların istifadəsi metodik olaraq nəzərə alınmalıdır. Məqsəd ingilis dili dərslikləri onlarla tam əvəz etmək deyil, materialları təlim prosesinə daxil etmək və tələbələrə qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq üçün lazımi alətlər təqdim etməkdir. M. Qəribova öz fəlsəfə doktoru dissertasiyasında qeyd edir ki, əgər real xarici dil mühiti yoxdursa, müəllim özü tələbələr üçün nümunə olmalıdır. Bu baxımdan, xarici dil müəllimi auditoriyada *"xaricdə tələbələrin nəyə ehtiyacı ola biləcəyini duyur və istifadə edilən autentik ünsiyyət ilə söhbətə canlanma gətirir"* [2, s. 93-94].

Bununla yanaşı, autentik materiallar *"reallıq effekti"* deyilən maraqlı bir hiss yaradır. Tələbələr anlayanda ki, onlar uydurma dialoqa yox, real insanın real auditoriya qarşısında danışığını dinləyirlər, mövzuya daha çox maraq göstərirlər. Bu zaman onlar hiss edirlər ki, öyrəndikləri ingilis dili sadəcə adi dərs mövzusu deyil. Bu xarici dil milyonlarla insanın istifadə etdiyi canlı bir vasitədir, çünki insanlar onunla danışır, zarafat edir, mübahisə edir, sevgi hisslərini ifadə edir və başqalarını inandırır. Bununla yanaşı, müəllim özü dərsin əhəmiyyətinə inanmalı və onu maraqlı, həvəsləndirici şəkildə təqdim etməlidir ki, tələbələr də dərsin dəyərini və vacibliyini dərk etsinlər. Müəllim mövzunu real həyatla əlaqələndirməli və sənətkarlıqla öyrətməlidir və bu yanaşma tələbələrin motivasiyasını və marağını artır [11].

İnsan danışmağa və ya nitqi başa düşməyə yalnız o zaman başlayır ki, bunun üçün müəyyən bir motiv (səbəb) və bu motivi yaradan müəyyən bir vəziyyət mövcud olsun [3]. Bu məqalənin kontekstində *natiqlik bacarıqlarını nümayiş etdirən autentik materiallar* xüsusi maraq kəsb edir. Bu materialların spektri olduqca genişdir. Bir tərəfdən, bunlara klassik siyasi çıxışlar – məsələn, Marqaret Tetçerin çıxışlarından başlayaraq ABŞ prezidentlərinin inauqurasiya nitqlərinə qədər – daxildir. Bu çıxışların əsas dəyəri onların peşəkar nitq müəllifləri tərəfindən hazırlanmış, dəqiqliklə işlənmiş və rəsmi şəkildə təsdiqlənmiş mətnlər olması ilə bağlıdır.

Maraqlıdır ki, hazırlanmış ictimai çıxışlardan fərqli olaraq, *müsahibələr* spontanlıq elementlərini saxlayır. Vəfa Kazdala görə, müsahibə üsulu tələbələrin ünsiyyət bacarıqlarını təbii və effektiv şəkildə inkişaf etdirən ən faydalı üsullardan biridir. Burada insanın gözlənilməz suallara necə reaksiya verdiyini, sözləri necə seçdiyini, öz səhvinin düzəltməsini, pauza doldurucu sözlərdən necə istifadə etdiyini müşahidə edə bilərik [1]. Bu, natiqlik bacarıqlarının təlimi üçün əvəzolunmaz materialdır, çünki məruzəçi nə qədər ciddi hazırlaşsa da, tamaşaçının çətin sual verməyəcəyinə heç bir zəmanət yoxdur. Belə şəraitdə özünü itirmədən və təqdimatın axınını qoruyaraq vəziyyəti idarə etmək bacarığı, başqalarının bu vəziyyətlərdə necə davrandığını müşahidə etməklə inkişaf etdirilə bilən mühüm bir bacarıqdır.

Natiqlik bacarıqlarının inkişaf etdirilməsi kontekstində autentik materiallar tələbələr üçün bir model rolunu oynayır və onlara nail olmaq istədikləri nümunəvi natiqlik obrazını təqdim edir. Təcrübəli bir natiqin çıxışa necə başladığını (məs., auditoriyaya sual verməklə və ya maraqlı bir statistika ilə), mövzunu necə izah etdiyini və nitqini necə bitirdiyini müşahidə edən tələbələr hazır bir "çərçivə" əldə edirlər. Sonra isə bu "çərçivəni" öz fikirləri və mövzuları ilə dolduraraq daha asan və effektiv şəkildə çıxış etməyi öyrənirlər. Məsələn, bir tələbə Brayan Treysinin sakit və inamlı çıxış tərzinə heyran qalaraq, şüuraltı şəkildə onun danışıq tempini və intonasiyasını təqlid edə bilər [15]. Başqa bir tələbə isə Natali Portmanın Harvard Universitetdə etdiyi ictimai çıxış zamanı nümayiş etdirdiyi

enerjili və emosional təsliminə üstünlük verə bilər [16].

Autentik materiallar adətən gözlənilməz olur, çünki tələbələr heç vaxt dəqiq bilmirlər ki, növbəti anda hansı söz, söz birləşməsi və ya idiom istifadə olunacaq və natiq hansı ifadəni işlədəcək. Bu qeyri-müəyyənlik beyni daim aktiv saxlayır, diqqəti artırır və insanı qabaqcadan düşünməyə vadar edir. Metodoloq Könül Hacıyeva öz elmi işində qeyd edir ki, tələbələrin lüğət ehtiyatını inkişaf etdirmək üçün müəllimlər və təhsil proqramını (kurikulumu) tərtib edənlər material seçərkən daha diqqətli olmalıdırlar. Materiallar yalnız maraqlı və ya mövzuya uyğun olmalıdır, eyni zamanda seçilən materiallarda tez-tez işlənən sözlər (gündəlik ünsiyyət üçün vacibdir), nadir sözlər (lüğəti zənginləşdirir), akademik sözlər (təhsil və rəsmi ünsiyyət üçün lazımdır) və ixtisas terminləri (müəyyən sahəyə aid bilik üçün vacibdir) mütləq olmalıdır [10]. Nəticədə tələbələr məlumatı sadəcə passiv şəkildə dinləmirlər – onu aktiv şəkildə qavrayır və üzərində düşünürlər.

Nəticə. Tədqiqat göstərir ki, autentik materiallar sadəcə dərs prosesində vaxtaşırı istifadə olunan əlavə mənbə deyil, əksinə, natiqlik bacarıqlarının hərtərəfli inkişafı üçün əsas təməl rolunu oynayır. Bu məqalədə ingilis dilinin tədrisində autentik və qeyri-autentik materialların rolu, onların tələbələrin motivasiyasına, mədəniyyət biliklərinin formalaşmasına və natiqlik bacarıqlarının inkişafına təsiri araşdırıldı. Əldə olunan nəticələr göstərir ki, autentik materiallar tələbələri real ingilis dili mühitinə yaxınlaşdırır və motivasiyanı artırır. Eyni zamanda, onların mürəkkəbliyinə baxmayaraq, dil bacarıqlarının inkişafı üçün effektiv vasitədir və ingilis dili müəlliminin düzgün yanaşması ilə metodik cəhətdən inteqrasiya olunduqda təlim prosesini daha məqsədyönlü və səmərəli edir.

Problemin aktuallığı bir neçə amillə şərtlənir. Birincisi, öyrənmə gözləntiləri dəyişir, yəni xarici dil proqramlarının məzunlarından təkcə tələffüz, orfoqrafiya, qrammatika və lüğət deyil, həm də beynəlxalq məkanlarda danışmaq, seminarlarda, müzakirələrdə, debatlarda, simpoziumlarda və ya konfranslarda iştirak etmək və öz fikirlərini təqdim etmək bacarığına malik olması gözlənilir. İkincisi, xarici dilin tədrisi metodikasının özü də yenilənməlidir. Monoloji nitqin öyrədilməsində köhnə yanaşmalar rəqəmsal texnologiyaların verdiyi yeni imkanları və real (autentik) materialların məzmununu nəzərə almır. Bununla yanaşı, anlamaq vacibdir ki, təkcə, məsələn, Devid Kemeronun çıxışının video yazısını və ya Harvard professorunun mühazirəsini dərs planına əlavə etmək kifayət etmir, çünki bunlar sadəcə maraqlı bir video çarx kimi yadda qalacaq və tələbələrin bacarıqlarını inkişaf etdirməsi üçün effektiv bir vasitəyə çevrilməyəcək.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, dinləyib anlama və ya oxu bacarıqlarını inkişaf etdirmək üçün autentik mətnlərin ənənəvi istifadəsindən ictimai nitqin öyrədilməsi vasitəsi kimi istifadəsinə keçməsi ilə müəyyən edilir. Əvvəllər bu cür materiallar, ilk növbədə, illüstrativ və ya təlim vasitəsi kimi xidmət edirdisə, elmi işdə təklif olunan yanaşma çərçivəsində onlar tələbələrin öz ritorik strategiyalarını qurulduğu analitik modelə çevirir.

Problemin praktiki əhəmiyyəti və tətbiqi ondan ibarətdir ki, təqdim edilən nəticələri həm nəzəri, həm də praktiki səviyyədə geniş tətbiq oluna bilər. Məqalədən orta ixtisas, orta ümumtəhsil və ali məktəblərinin xarici dil müəllimləri, psixoloqlar, pedaqoqlar, metodistlər, eləcə də bakalavr tələbələri, magistrantlar, doktorantlar və dissertantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Kazdal, V.T. İngilis dilinin tədrisində kommunikativ yanaşma və onun tətbiqinə təsir göstərən amillər: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2006. – 144 s.
2. Qəribova, M.N. İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2012. – 168 s.
3. Гусейнова, С.А. Аутентичные материалы как средство обучения диалогическому общению на английском языке учащихся V-VI классов: / Автореферат диссертации доктора философии по педагогике / – Баку, 2016. – 52 с.
4. Исмаилова, Д. Использование аутентичных диалогов для развития коммуникативной компетенции студентов начального этапа обучения в языковом вузе // Материалы II Республиканской научной конференции «Актуальные проблемы преподавания иностранных языков», посвященной «Году науки», Баку: АУЯ: – 21-22 мая 2009 года, с. 142-148.
5. Орехова, Е.Н., Салманова, Ж. Видеоконференция как ресурс развития языковой и межкультурной компетенций студентов вуза // Вестник Костромского государственного университета.

Серия: Педагогика. Психология. Социокинетика. – 2023. – Т. 29, № 4. – с. 110-116. https://doi.org/10.34216/2073-1426-2023-29-4-110-116
6. Adams, T.W. What Makes Materials Authentic / T.W. Adams. – ERIC Document Reproduction Service, – 1995. – ED 391389.
7. Aghayeva, J.Q. Authentic Materials and Authenticity in Foreign Language Learning // Педагогический Талант. – 2023. – с. 223-227. Retrieved from http://doi.sciencen.org/wp-content/uploads/%D0%9D%D0%98%D0%9A-313-Aghayeva-223-227.pdf
8. Febrina, W. Authentic vs Non-Authentic Materials in Teaching English as a Foreign Language (EFL) in Indonesia: Which One Matters More? // The Asian Conference on Education. – Kobe: IAFOR, – 2017. – p. 731-742.
9. Gardner, R.C. Motivation and Second Language Acquisition: The Socio-Educational Model / R.C. Gardner. – Peter Lang Publishing, – 2010. – 348 p.
10. Hajiyeva, K. Measuring the Lexical Richness in English Majors' Answers to Examination Papers // Journal for Language Teaching. – 2016. – Vol. 50, №1. – p. 29-51 http://dx.doi.org/10.4314/jlt.v50i1.2
11. Mammadova, M.F., & Quliyeva, A.A. Principles of the Pedagogical Profession // Proceedings of the 9th International Scientific Conference "Research Retrieval and Academic Letters" (May 15-16, 2025). – Olsztyn: University of Warmia and Mazury, – 2025.
12. Nunan, D. Second Language Teaching and Learning / D. Nunan. – Boston: Heinle and Heinle Publishers, – 1999. – 330 p.
13. Peacock, M. The Effect of Authentic Materials on the Motivation of EFL Learners // ELT Journal: English Language Teachers Journal. – 1997. – Vol. 51, №2. – p. 144-156. http://dx.doi.org/10.1093/elt/51.2.144
14. Van Lier, L. Interaction in the Language Curriculum: Awareness, Autonomy and Authenticity / L. Van Lier. – Routledge, – 2014. – 248 p.
15. Tracy, B. The Phoenix Seminar [Elektron resurs] / B. Tracy. – YouTube video materialı.
16. Portman, N. Harvard Commencement Speech [Elektron resurs] / N. Portman. – YouTube video materialı.

Redaksiyaya daxil olub: 16.04.2026

UOT 372.881.111.1

Tahirə Oruc qızı Xasməmmədova
Azərbaycan Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0003-0706-7518
E-mail:tahirexasmamedova66@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).161-164

İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV OXUNUN ƏLDƏ OLUNMASI YOLLARI

Tahira Oruj Khasmammadova
doctorial student in the program of doctor of philosophy
at the Institute of Education of the Republik of Azerbaijan

WAYS TO ACHIEVE COMMUNICATIVE READING IN ENGLISH

Тахира Орудж гызы Хасмамедова
диссертант по программе доктора философии
Азербайджанского Института Образования

СПОСОБЫ ДОСТИЖЕНИЯ КОММУНИКАТИВНОГО ЧТЕНИЯ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

Xülasə. Məqalə ümumtəhsil məktəblərində ingilis dilinin tədrisində kommunikativ oxunun qazanılması yollarından bəhs edir. İngilis dilində kommunikativ oxu oxunun mətn, müəllif və oxucularla qarşılıqlı əlaqəsinə yönəlmiş fəal, sosial fəaliyyətdir. Kommunikativ oxu ingilis dilinin ünsiyyətdə qazanılmasına xidmət edən bir yanaşmadır. Müasir tədris prosesinin təşkilində ingilis dilinin kommunikativ oxunun prinsipləri və strategiyalarını bilmədən bu yanaşmanın tətbiqi uğur qazana bilmir. Məlumdur ki, ingilis dilində ənənəvi oxu linqvistik qaydalar üzrə leksik prinsiplərin, fonemik bacarıqların və lüğətin istifadəsinə əsaslanmışdır. Bu yanaşma şagirdlərdə ünsiyyəti çox zəif formalaşdırır. Bu baxımdan məqalə ümumi təhsil məktəblərində ingilis dilinin müasir tədrisində kommunikativ oxunun təşkili yollarını təqdim edir. Məqalə həm müəllim və həmçinin şagirdlərə oxunun müasir metodika ilə öyrənilməsində hərtərəfli faydalı bir mənbə olmaqla, ingilis dilinin praktiki yolla qazanılmasına fayda verəcəkdir.
Açar sözlər: *kommunikativ oxu, yeni yanaşma, prinsiplər, strategiyalar*

Abstract. The article discusses ways to acquire communicative reading in English language teaching in secondary schools. Communicative reading in English is an active, social process aimed at the interaction among the reader, the text, and other readers. Communicative reading is an approach that serves the acquisition of the English language in communication. The application of this approach cannot be successful without knowing the principles and strategies of communicative reading of the English language in the organization of the modern educational process. It is known that traditional reading in English is based on the use of lexical principles, phonemic skills, and vocabulary according to linguistic rules. This approach forms communication very poorly in students. In this regard, the article presents ways to organize communicative reading in modern teaching of the English language in secondary schools. The article will be a comprehensive, useful source for both teachers and students in learning to read with modern methods, and will benefit them in acquiring English in a practical way.
Keywords: *communicative reading, new approach, principles, strategies*

Аннотация. В статье рассматриваются способы освоения коммуникативного чтения в преподавании английского языка в средних школах. Коммуникативное чтение на английском языке – это активная, социальная деятельность, направленная на взаимодействие читателя с текстом, автором и другими читателями. Коммуникативное чтение – это подход, служащий усвоению английского языка в контексте общения. Применение этого подхода не может быть успешным без знания принципов и стратегий коммуникативного чтения английского языка в организации современного

образовательного процесса. Известно, что традиционное чтение на английском языке основано на использовании лексических принципов, фонемных навыков и лексики по языковым правилам. Такой подход формирует коммуникативные навыки у учащихся крайне слабо. В связи с этим в статье представлены способы организации коммуникативного чтения в современном преподавании английского языка в средних школах. Статья станет всесторонним полезным источником как для учителей, так и для учащихся при изучении чтения современными методами и поможет им в практическом освоении английского языка.

Ключевые *слова: коммуникативное чтение, новый подход, принципы, стратегии*

Giriş. İngilis dilində oxu bacarıqları dilin qazanılmasında mərkəzdə yer alan mühüm dil bacarığıdır. Oxu bacarığı danışıq, yazı və dinləmə ilə yanaşı, dörd əsas dil bacarıqlarından biridir. Oxunun əsas məqsədi məzmunu ətraflı şəkildə anlamaq və ya onlardan məna çıxarmaqdır. Oxumaq eyni zamanda, yazılı mətnlər üzrə hərflər və simvolların mənasını anlamaq və mətn haqqında öz fikrini bildirməkdir. Anlayaraq oxumaq üçün inkişaf edən oxucular əvvəlcə oxu bacarığını mənimsəməli və sonradan oxunu diskursiv mühitdə tətbiq etməlidir. Bu baxımdan ingilis dilində oxunun kommunikativ yanaşmada tədrisi dilin hərtərəfli istifadəsini təmin etmiş olur.

Bütün bunlara baxmayaraq, ingilis dilinin tədrisində oxuyub-anlama bacarıqlarının formalaşması ənənəvi yollarla əldə olunur. Şagirdləri xarici dildə oxunu yalnız kitablardan, mətnlərdən və ya qəzet materiallarından əldə edir, uzun hekayələri tez bir zamanda oxumağa həvəsli olmur, qısa şəkildə anlamağa üstünlük verirlər. Bu hal onlarda ünsiyyəti zəif inkişaf etdirir və oxunun kommunikativ üsulla inkişaf etdirilməsi üzrə müəyyən metodlardan az məlumatlıdırlar. Bu məqsədlə tədqiqat məqaləsinin məqsədi ingilis dilində kommunikativ oxunun metodik baxımdan təşkili və tədrisi üzrə effektiv yanaşmaların tətbiqini təqdim etməkdir. Burada müxtəlif texnikaların istifadəsində ingilis dilinin kommunikativ yanaşmada qazanılması həm müəllim və həmçinin şagirdlərin də səmərəli ünsiyyət bacarıqlarını inkişaf etdirəcəkdir. Məqalənin digər məqsədi kommunikativ oxunun faydalarından bəhs etməkdir.

1.2. İngilis dilində kommunikativ oxunun tədrisi. Son bir neçə onillikdə ingilis dili tədrisinə kommunikativ yanaşma pedaqogikada dominantlıq təşkil etmişdir. Bu yanaşma praqmatik olmaqla ünsiyyəti dilin özündən daha çox öyrənmənin məqsədi edir.

İngilis dili tədrisində kommunikativ yanaşmanın daha çox istifadəsi müxtəlif təriflərə səbəb olmuşdur. J.F. Lee və B. Van Paten (1995) öz araşdırmasında qeyd edir ki, kommunikativ bacarıqların öyrədilməsi, qarşılıqlı əlaqəyə yönəlmiş dilin tədris üsuludur [5, s. 856]. Qarşılıqlı əlaqəyə əsaslanan öyrənmənin əsas məqsədi öyrənənin çox interaktivlik şəraitində olmasına kömək etməkdir. İngilis dilinin təd-risində kommunikativ oxu, sadəcə sözləri deşifrə etmək və ya cümlələri tərcümə etmək əvəzinə, mənalı, interaktiv bir fəaliyyət kimi qəbul edən oxu yanaşmasıdır. J. Riçardz (2005) sübut edir ki, şagirdlər məlumat, ideya, fikir və ya sadəcə zövq almaq üçün oxuyurlar. Mesajların oxunmasında hər sözün tərcümə edilməsi və ya mənasının araşdırılması onları dilin istifadəsinə sövq edir. Burada əsas məqsəd, öyrənənlərə mətnlərdən məlumatları real həyatda ünsiyyətdə anlamağa, şərh etməyə və istifadə etməyə kömək etməkdir [6, s. 24]. Müəllif oxunun kommunikativ şəkildə qazanılmasını öz mülahizələrində dəyərləndirir və bu bacarığı şagirdin akademik səyahətinin vacib bir hissəsi adlandırır. Məlum olur ki, oxuyub-anlamanın öyrədilməsi şagirdlərin akademik mətnləri hərtərəfli başa düşmək qabiliyyətinə təsir göstərir. Məqsəd şagirdlərə bəzi vacib ideyaları seçməyə, artıq bildiklərini istifadə etməyə, onları maraqlandıran məlumatlara diqqət yetirməyə və sonra hələ də nəyisə başa düşmədiklərini göstərəcək bir sual verməyə imkan verməkdir. Mətni oxumaq və anlamaq şagirdin hər bir fənn üzrə uğur qazanmasına səbəb olur. İngilis dilində oxunun ünsiyyətdə əldə olunması danışanla dinləyici arasında müəyyən bir qarşılıqlı əlaqə formasını nəzərdə tutur. Beləliklə, oxumaq ünsiyyətcil olmayan bir fəaliyyət kimi təlimdə tətbiq edilir.

Z. Dörneyi və N. Spada (2007) qeyd edir ki, kommunikativ oxunun tədrisində şagirdlər arasında səmərəli ünsiyyət yaranır. Sadə dildə desək, müəllim ilə şagirdlər arasında yazılı mətni sorğu-sual etməklə sözügedən dili öyrənməsinə imkan verən mexanizmlər mövcuddur [1; 7]. Bundan əlavə, kommunikativ dil tədrisi sinif

mühitindən kənarda da müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə yaradır.

1.3. Kommunikativ oxunun prinsipləri. Oxu bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif real situasiyaları təsvir edən metod və strategiyalar vasitəsilə qazanılır. F.M. Hüseynova oxunun qiymətləndirilməsi üzrə yazdığı məqalədə qeyd edir ki, kommunikativ oxuda əsasən orijinal materiallardan istifadə olunması şagirdləri real ünsiyyətə daha tez cəlb edir [2, s.64]. Bu baxımdan kommunikativ oxunun tətbiqində bir sıra prinsiplərin həyata keçirilməsi tələb olunur. Prinsiplərə uyğun olaraq kommunikativ oxunun

- *bir məqsədi olmalı,*
- *mətnlər maraqlı və öyrənənlər üçün uyğun olmalı,*
- *fəaliyyətlər real ünsiyyətə adaptasiya edilməli,*
- *başa verən səhvlər öyrənmənin bir hissəsinə çevrilməli*
- *sonda oxu səlisliyi və anlamanı inkişaf etdirməlidir.*

Məqsədli oxu: İngilis dilində oxu, sadəcə bir dilin istifadəsi deyil, bir məqsədi olan bir fəaliyyətdir. Bu fəaliyyət zamanı şagirdlər məlumat əldə etmək, problemləri həll etmək və əylənmək üçün istifadə edirlər.

Orijinal mətnlər və materiallardan istifadə etmək: Bu prinsipin tətbiqində sadələşdirilmiş dərsliklər əvəzinə, şagirdlər ingilis dilini daha çox onlayn mətnlərdən, e-poçtlardan, reklamlardan, müxtəlif veb-saytlardan və qısa yazılmış hekayələrdən öyrənirlər.

İnteraktiv və sosial proses yaratmaq: Kommunikativ oxu müəllim və şagird və eləcə də oxucu ilə mətn arasında qarşılıqlı əlaqə yaradır. Oxu üzrə dialoq təşkil edilir, məzmunu müzakirə etmək, debat keçirmək və ya həmyaşıdların qarşılıqlı təsiri vasitəsilə sorğular həyata keçirilir.

Kontekstuallaşdırılmış məna əldə etmək: Məlumdur ki, kommunikativ oxu lüğət və qrammatikanın təcrid olunması şəraitində praktik fəaliyyətdə oxu mətnlərinin kontekstdə öyrənilməsidir. Kontekstual dil bu baxımdan oxu mətnlərindən əldə edilmiş biliklər sayəsində kommunikativ şəkildə qazanılır.

Dil bacarıqlarının inteqrasiyasına əməl etmək: Təlim prosesindən aydın olur ki, ingiliscə mətnlər oxumaq şagirdlərə dilin real həyatda necə istifadə olunduğunu görməyə kömək etmək üçün danışıq, dinləmə və yazı kimi digər bacarıqlarla inteqrasiya olunur.

Oxu strategiyaları əsasında həyata keçirilir. Oxu strategiyaları kommunikativ oxunun uğurla və sistemli şəkildə qazanılmasına xidmət edir. Oxuculara mənanın qurulmasında proqnozlaşdırma, ümumiləşdirmə, nəticə çıxarma və vizuallaşdırma kimi strategiyalardan fəal şəkildə istifadə etmək öyrədilir.

Orijinal qiymətləndirmə: Kommunikativ oxuda qrammatik səhvlərin müəyyən edilməsi deyil, həm də öyrənənin mətni anlamaq, istifadə etmək və ya ona cavab vermək qabiliyyəti əldə olunur. Bu məqsədlə, hekayəni yenidən danışmaq, təlimatlardan tapşırığı yerinə yetirmək bacarıqlarının ölçən istiqamətverici qiymətləndirmə həyata keçirilir.

J. Riçardz öz mülahizələrində təsdiq edir ki, *"Kommunikativ oxu strategiyaları, oxumağı mənimsənilməli olan bir sıra bacarıqlar deyil, inteqrasiya olunmuş bir dil prosesi kimi qəbul edən bir təlimat texnikasıdır. Strategiyalar yazılı dildən məna qurma proseslərinin inteqrasiyasını asanlaşdırır*" [6, s. 21].

T.O. Xasməmmədova (2017) və H. Küçükoğlu (2013) səmərəli oxu strategiyalarını öz məqalələrində şərh edərək vurğulayırlar ki, kommunikativ oxu, dərsdə mətnlə işləmək, məlumat əldə etmək və onun şifahi və yazılı şəkildə şərh edilməsi, təhlili və müzakirəsinə yönəlmiş prosesdir [3; 4].

Dərsdə kommunikativ oxu üç mərhələyə bölünə bilər: oxudan əvvəl, oxu zamanı və oxudan sonra təşkil edilməklə həyata keçirilir. Bundan əlavə, səmərəli ünsiyyət üçün hər bir mərhələnin öz çalışmaları və fəaliyyətləri vardır. Belə bir mərhələ oxu dərsləri üçün olduqca tipikdir və dərsin daha strukturlaşdırılmasına kömək edir. Hər mərhələdə oxu strategiyalarını təqdim edən praktiki fəaliyyətlər vardır. Kommunikativ oxu zamanı şagirdlər bir-biriləri ilə qarşılıqlı əlaqə qurur, oxu mətnlərinin müzakirə edir, proqnozlaşdırır, suallar verir və fikirlərini bölüşürlər.

Oxudan əvvəlki fəaliyyətlərə oxu mətninin məzmunu haqqında ilkin təəssürat yaratmaq, şəkil və illüstrasiyalar haqqında müzakirələr aparmaq, sual-cavablar təşkil etmək, vizual vasitələrdən, əvvəlki biliklərdən və açar lüğətdən istifadə etmək daxildir. Şagirdlər mövzu haqqında proqnozlarını söyləyir və mövzunun real hə-

yatla əlaqəsini, yəni inteqrativ xüsusiyyətlərini izah edirlər. Bu mərhələdə şagirdləri audio mətnlərin dinləməsinə və ya qısametrajlı video filmlərin nümayişinə cəlb etmək lazımdır ki, müzakirənin əsas mövzusunu anlasınlar.

Oxu zamanı keçirilən fəaliyyətlər bir qədər uzun vaxt ərzində həyata keçirilir.

Bu mərhələdə şagirdlərdən mətndə əsas ideyanı tapmaq, yeni informasiyanı qeyd etmək, hissə-hissə oxuyaraq paraqraflara başlıqlar vermək, mətnin bütöv hissələrini adlandırmaq, mətni cədvəl və ya sxemlərdə şərh etmək, anlama suallarını cavablandırmaq, mətni qısaca öz sözləri ilə şərh etmək tələbə olunur və nəticədə oxunu kommunikativ fəaliyyətlərdə tətbiq etmək bacarıqları qazanırlar.

Oxudan sonrakı fəaliyyət yaradıcı mərhələ adlanır. Bu mərhələdə şagirdləri kommunikativ dialoqlara, rollu oyunlara, qısa müzakirələrə cəlb etmək lazımdır. Bu mərhələ bir çox hallarda danışıq və yazı arasında inteqrasiya şəklində həyata keçirilir. Şagirdlər bu mərhələdə oxu mətnlərinin yazılı şərhinə, real dünyanın mənasını anlamaq üçün reflektiv esse fəaliyyətinə, müzakirə, debatlara cəlb etmək çox maraqlı olur. Bu strategiya bir sıra faydalı texnikalarla tətbiq olunur.

Beləliklə, ümumi təhsil məktəblərində ingilis dilinin tədrisində kommunikativ oxunun tədrisi uyğun prinsiplər və strategiyalar əsasında həyata keçərsə, həm təlimdə, həmçinin təlimdən kənarda şagirdlər arasında bu dildə səmərəli ünsiyyət yaradıla bilər.

Problemin aktuallığı. İngilis dilində kommunikativ oxunun aktuallığı onunla izah olunur ki, bu yanaşma şagirdlərə məna çatdırmaq üçün ingilis dilindən istifadə edən aktiv oxucular olmağa kömək edir. İngilis dilində kommunikativ oxu, yalnız lüğət və ya qrammatika qaydalarını əzbərləməklə kifayətlənməyərək, məlumatları anlamağa, şərh etməyə və real həyatda ünsiyyət üçün istifadə etməyə yönəlmiş oxu fəaliyyətləridir. Bunun əvəzinə, onlar mətnlərlə məşğul olur, fikirlərini bölüşür və real həyat vəziyyətləri üçün praktik dil bacarıqlarını inkişaf etdirirlər.

Problemin elmi yeniliyi. Kommunikativ oxu tez-tez tədqiqat işinə, tədris metoduna və ya oxu nəzəriyyəsinə yeni bir elmi yanaşma kimi qəbul edilir, sadəcə deşifrə etmə bacarığı deyil, kommunikativ fəaliyyət kimi başa düşülür. Tətbiqi dilçilikdə kommunikativ oxu nəzəriyyəsi oxumağın real ünsiyyət bacarıqlarını inkişaf etdirməli olduğu qənaətinə əsaslanır. Burada mənanı anlamaq, konteksti şərh etmək, tənqidi cavab vermək və mətnlərdə sosial və mədəni cəhətdən iştirak etmək tələb olunur.

Problemin praktik əhəmiyyəti. İngilis dilində kommunikativ oxunun praktik dəyəri ondan ibarətdir ki, o, yalnız dili anlamağa və real ünsiyyət üçün istifadə etməyə deyil, həm də yalnız tərcüməyə və ya qrammatika qaydalarını əzbərləməyə yönəlib. Bu yanaşma real həyatda dil istifadəsini yaxşılaşdırır, özünə inam və səlis danışıq yaradır, tənqidi düşüncəni inkişaf etdirir, motivasiyanı artırır, oxumağı digər dil bacarıqları ilə birləşdirir. Bu, öyrənənlərə gündəlik, akademik və peşəkar vəziyyətlərdə effektiv ünsiyyət qurmaq bacarığı qazanmağa kömək edir.

Ədəbiyyat

1. Dörnyei, Z. (2009). The 2010s Communicative language teaching in the 21st century: The 'principled communicative approach'. Perspectives, 36(2), 33-43.
2. Huseynova F.M. Assessment of students' Reading Comprehension skills in teaching English // Web of Science -London-Cambridge Intechopen; –№ (1) 2023. –pp. 61-77/
3. Xasməmmədova T.O. İngilis dilində səmərəli oxu strategiyaları vasitəsilə oxu bacarıqlarının təkmilləşdirilməsi. Bakı, ARTİ-Elmi Əsərlər jurnalı, cild 84. № 6. Bakı s. 2017 - 24-28.
4. Küçükoğlu, H. Improving Reading Skills Through Effective Reading Strategies, in: Procedia – Social and Behavioral Sciences, 70 (2013) –pp. 709–714. DOI: https://doi.org/10.1016/j.sbspro.2013.01.113.
5. Lee, J. F., & VanPatten, B. (1995). Making Communicative Language Teaching Happen. Volume 1: Directions for Language Learning and Teaching. McGraw-Hill, Inc., 860 Taylor Station Rd., Blacklick, OH 43004-0545; toll-free: 800-722-4726.
6. Richards, J. C. (2005). Communicative language teaching today (pp. 22-26). Singapore: SEAMEO Regional Language Centre.
7. Spada, N. (2007). Communicative language teaching. In International handbook of English language teaching (pp. 271-288). Springer, Boston, MA

Redaksiyaya daxil olub: 13.05.2026

UOT 001.8

İntiqam Hilal oğlu Cəbrayılov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri, Əməkdar müəllim,
pedaqogika elmləri doktoru, professor
https://orcid.org/0000-0003-2437-5926
E-mail: i.cebrayilov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(4).165-169

“İRƏVANDA AZƏRBAYCAN TƏHSİL TARİXİ”: ARAŞDIRMA VƏ NƏTİCƏLƏR

Intigam Hilal Jabrayilov
head of the department of Theory and history of education at the Institute of Education of the Republic of Azerbaijan, doctor of pedagogical sciences, professor, Honored teacher

"HISTORY OF AZERBAIJANI EDUCATION IN IREVAN (YEREVAN)": RESEARCH AND RESULTS

Интигам Хилал оглы Джабраилов
заведующий отделом Теории и истории образования Института Образования Азербайджанской Республики, доктор педагогических наук, профессор, Заслуженный учитель

«ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ В *ИРЕВАНЕ* (ЕРЕВАНЕ)»: ИССЛЕДОВАНИЕ И РЕЗУЛЬТАТЫ

Xülasə. Məqalədə Cəlal Allahverdiyevin “İrəvanda Azərbaycan təhsil tarixi” kitabının səciyyəvi xüsusiyyətləri, struktur və məzmun problemləri araşdırılmışdır. İlk növbədə kitabda Azərbaycan təhsil tarixində xüsusi yeri olan İrəvan azərbaycanlılarının maarifçilik hərəkatında rolu, mövqeyi əsaslandırılmış, xalqımızın maddi-mənəvi dəyərləri, dövlətçilik ənənələrinin həmişə diqqətdə saxlanılması, araşdırılması və böyüyən nəsillərə çatdırılmasının vacibliyi ilə bağlı qeyd edilən faktlar vurğulanmışdır.

Məqalədə Azərbaycanın XIX-XX əsrlər təhsil tarixinə xüsusi töhfələr vermiş İrəvan maarifçilik hərəkatı, onun görkəmli nümayəndələri və təhsil müəssisələrinin fəaliyyət istiqamətləri barədə C. Allahverdiyevin tədqiqatının nəticələrini əks etdirən ideyalar ümumiləşdirilmiş şəkildə təqdim edilmişdir. Fikrimizcə, bu tədqiqat əsəri İrəvanda Azərbaycan təhsil tarixini dərindən öyrənmək üçün əsaslı mənbə rolunu oynaya bilər.

Açar sözlər: *İrəvan, təhsil tarixi, gimnaziya, progimnaziya, məktəb, pedaqoji məktəb, maarifçilik, pedaqoji fikir, inkişaf, məscid, mədəniyyət, seminariya, şəhər məktəbi*

Abstract. The article examines the specific features, structural and content problems of Jalal Allahverdiyev's book "History of Azerbaijani Education in İrevan". First of all, the book substantiates the role and position of the İrevan Azerbaijanis, who have a special place in the history of Azerbaijani education, in the enlightenment movement, and emphasizes the facts mentioned about the importance of always keeping in mind, researching and conveying the material and spiritual values of our people, statehood traditions to the growing generations. The article presents in a generalized form the ideas reflecting the results of J. Allahverdiyev's research on the Yerevan enlightenment movement, which made special contributions to the history of education in Azerbaijan in the 19th-20th centuries, its prominent representatives and the directions of activity of educational institutions. In our opinion, this research work can play the role of a fundamental source for in-depth study of the history of Azerbaijani education in İrevan.

Keywords: *Yerevan, history of education, gymnasium, progymnasium, school, pedagogical school, enlightenment, pedagogical idea, development, mosque, culture, seminary, city school*

Аннотация. В статье рассматриваются специфические особенности, структурные и содержательные проблемы книги Джалала Аллахвердиева «История азербайджанского образования в Иреване (Ереване). Прежде всего, в книге обосновывается роль и положение иреванских азербайджанцев, занимающих особое место в истории азербайджанского образования, в просветительском движении, и подчеркиваются упомянутые факты о важности постоянного сохранения, изучения и передачи материальных и духовных ценностей нашего народа, традиций государственности подрастающим поколениям. В статье в обобщенной форме представлены идеи, отражающие результаты исследования Дж. Аллахвердиева об иреванском просветительском движении, внесшем особый вклад в историю образования в Азербайджане в XIX-XX веках, его выдающихся представителях и направлениях деятельности образовательных учреждений. На наш взгляд, данное исследование может стать фундаментальным источником для углубленного изучения истории азербайджанского образования в Иреване (Ереване).

Ключевые слова: *Иреван, история образования, гимназия, прогимназия, школа, педагогическое училище, просвещение, педагогическая идея, развитие, мечеть, культура, семинария, городская школа*

Azərbaycan xalqı zəngin tarixi keçmişə, özünəməxsus dövlətçilik ənənələrinə malik olan bir xalq kimi dünyada yaxşı tanınır. Xalqımız tarixən böyük dövlətlər, milli və bəşəri dəyərləri əks etdirən çox qiymətli irs yaratmaqla dünyanın siyasi, mədəni mənzərəsini formalaşdırmaqda xüsusi rol oynamışdır. Bu baxımdan milli tariximizin hərtərəfli, dərindən öyrənilməsi və öyrədilməsi həmişə aktual olmuş və bu gün də keçmiş və bu günümüzün tədqiqi, araşdırma nəticələrinin nəşri diqqət tələb edən məsələlərdən biridir (1,2,3). Əlbəttə, xalqımızın tarixi təkcə bugünkü sərhədlərimizlə məhdudlaşmır. Dərbənddən Zəncana, Tiflisdən Qəzvinə və Qərbi Azərbaycandan-İrəvandan Şərqi Anadoluya qədər böyük coğrafiya xalqımızın tarixini əks etdirir. Tarixən geniş coğrafiyada formalaşan və zəngin mədəni irs yaradıb inkişaf etdirən xalqımızın maddi-mənəvi dəyərləri, dövlətçilik ənənələri həmişə diqqətdə saxlanılmalı, araşdırılmalı və böyüyən nəsillərə çatdırılmalıdır. Bu, həm də milli kimliyimizin dərki, xalqımızın qürur mənbələrinin qorunmasına xidmət edən vicdan məsələsi, şərəfli vəzifədir. Ona görə də müasir dövrdə Vətən tarixinə dair yazılmış qiymətli əsərlərin özü də bir sərvətdir, mənəvi dəyərdir. Bu baxımdam tədqiqatçı-alim, filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin yazdığı "İrəvanda Azərbaycan təhsil tarixi" əsərini də Vətən tarixinin dərindən öyrənilməsinə xidmət edən dəyərli mənbə kimi qiymətləndirmək olar (1).

Tarixi mənbələr əsasında yazılmış bu əsər bilavasitə maarifçilik hərəkatına, təhsil və pedaqoji fikir tarixinə, İrəvan ziyalılarının məktəb, təhsil fəaliyyətinə həsr olunmaqla, eyni zamanda bütövlükdə Vətən tariximizin öyrənilməsinə xidmət edir.

Kitabda Qərbi Azərbaycanın təhsil mühitinin, maarifçilik hərəkatının, məktəb və pedaqoji fikir tarixinin əsasən yeni və müasir dövrdə inkişaf xüsusiyyətləri, kadr hazırlığı, təhsilin struktur, məzmun, idarəetmə məsələlərini, ziyalıların fəaliyyət istiqamətləri, təhsil tarixinə töhfələri geniş şəkildə verilmişdir.

Kitabın ilk səhifələrində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkə Prezidenti İlham Əliyevin Qərbi Azərbaycanla bağlı dəyərli fikirlərinin, o cümlədən İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi, İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Prezident Sərəncamlarının yer alması təqdirəlayiqdir. Bu fikirlərdə ölkə rəhbərliyinin Qərbi Azərbaycan tarixinə nə qədər həssas yanaşmaları, bu bölgənin tarixinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti aydın şəkildə ifadə edilmişdir.

Müəllif əsərin ilk bölməsində İrəvanda Azərbaycan təhsilinin tarixi və inkişafı məsələlərinin ümumi xarakteristikasını verməklə XIX yüzilliyə qədər və daha sonrakı dövrdə Qərbi Azərbaycanda təhsil müəssisələrinin yaranması, məktəb və mədrəsələrdə təhsilin təşkili, dərslik yaradıcılığı, müəllimlərin iş metodları və digər problemlər barədə məlumatları diqqətə çatdırır, təhsilin inkişaf proseslərini izləyir, zaman keçdikcə bölgədə baş verən dəyişikliklərin mahiyyətini, Azərbaycan ziyalılarının tarixi missiyasının rolunu şərh edir.

C. Allahverdiyev haqlı olaraq İrəvan şəhərinin və həmin bölgənin Azərbaycan tarixində xüsusi yeri və rolu olduğunu qeyd edərək bu bölgədə hələ qədim dövrdən başlayaraq xalqımızın milli-mədəni sərvəti olan şifahi xalq yara-

dıcılığının inkişaf etdiyini və pedaqoji irsin köklərinin məhz şifahi xalq ədəbiyyatına bağlandığını faktlarla əsaslandırır. O, İrəvanda yaranıb-yayılmış xalq ədəbiyyatı nümunələrində pedaqoji irsə dair səciyyəvi örnəkləri diqqətə çatdırır. "Düz yol ilə gedən yorulmaz", "Düz divar yıxılmaz", "Saqqalını dəyirmanda ağardıb", "Yalanla iman bir yerdə olmaz" və s. bu kimi deyimləri, nağıl, bayatı, atalar sözü, dastanları İrəvanda xalq pedaqogikasının səciyyəvi örnəkləri kimi dəyərləndirir.

C. Allahverdiyevin tarixi mənbələri təhlil edərkən fakt və hadisələrə, mənbədə verilən məlumatlara tənqidi yanaşması da təqdirəlayiq cəhət kimi qiymətləndirilməlidir. O, bir mənbədə verilmiş məlumatları digər mənbə materialları ilə müqayisə edir, faktları dəqiqləşdirir, dövrün tarixi reallığını üzə çıxarmağa çalışır. Təhlillərdən aydın olur ki, İrəvan rus işğalına məruz qalandan sonra, XIX əsrdə və sonrakı yüzilliklərdə bölgə tarixi daha çox saxtalaşdırılmağa başlandı.

Tarixdən məlumdur ki, alman səyyahı Avqust Hanksthauzen, ingilis coğrafiyaşünası, Şərq ölkələri üzrə tanınmış səyyah X.F. Linç, alman səyyahı, coğrafiyaşünası, diplomatı, Sədinin "Gülüstan"ını alman dilinə tərcümə etmiş Adam Oleari, məşhur fransız səyyahı və etnoqrafı İvan İvanoviç Şopen və başqaları Şərq ölkələrinə, eyni zamanda Cənubi Qafqaza, Azərbaycana, İrəvan bölgəsinə səfərlər etmiş, bu yerlərin tarixi, mədəniyyəti barədə əsərlər yazmışlar. Araşdırmalar göstərir ki, onların tədqiqatları daha çox müşahidələrə əsaslandığından əsərlərində yanlışlıqlara yol vermiş, xalqımızın milli kimliyi barədə bəzən qeyri-dəqiq faktlar təqdim etmiş, İrəvan şəhərinin tarixi və buradakı məscid və mədrəsələr barədə dolğun təəssürat yarada bilməmişlər. Lakin bütün bunlara baxmayaraq İrəvan şəhəri barədə tarixi mənbələr birmənalı olaraq bu bölgənin tarixi Azərbaycan torpaqları, bölgə əhalisinin isə türk əsilli olduğu fikrini qətiyyətlə söyləməyə əsas verir.

Tədqiqatçı C. Allahverdiyev İrəvan bölgəsinin təhsil tarixini araşdırarkən bu məsələlərə də xüsusi diqqət yetirmiş, mənbələri müqayisə edərək elmi nəticə çıxarmış, öz mövqeyini əsaslandırmışdır.

Kitabda İrəvan bölgəsində məscid məktəbləri barədə geniş məlumat verilir. Aydın olur ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi Qərbi Azərbaycanda- İrəvanda da məscid və mədrəsələrdə verilən təhsil təkcə dini deyil, eyni zamanda dünyəvi məzmun kəsb edirdi. Ənənəvi yanaşmalardan fərqli olaraq müəllif məscid və mədrəsələrin Azərbaycan təhsil tarixində yeri və rolunu yeni yanaşmalar baxımından təhlil etmiş və İrəvanda Azərbaycan təhsilinin inkişaf xüsusiyyətlərini əsaslandıra bilmişdir.

Təhsil problemlərini araşdırarkən müəllif ilk növbədə arxiv materiallarına, "Кавказский календарь", "Кавказъ", "Обзоры Эриванский губернии", "Rəncbər", "Qızıl şəfəq", "Zəngi", "Sovet Ermənistanı" və digər nəşrlərə, qəzet və jurnallara isitnad etmiş, monoqrafik əsərlərdə, elmi məqalələrdə əksini tapmış faktları təhlil və müqayisə edərək ümumiləşdirmələr aparmışdır.

Kitabda İrəvan şəhər ibtidai məktəbi, İrəvan iki nömrəli rus-tatar məktəbi, İrəvan qəza məktəbi, İrəvan progimnaziyası və İrəvan oğlanlar gimnaziyası ilə bağlı ayrıca bölmələr verilmişdir. Bu bölmələrdə adları qeyd edilən məktəblərin, progimnaziya və gimnaziyanın yaranması, inkişafı, bu təhsil ocaqlarında təlimin təşkili, burada təhsil alan azərbaycanlılar, eləcə də məzunlar barədə ətraflı məlumatlar verilmişdir. Müəllif araşdırmalara əsasən 1880-ci ildə İrəvanda şəhər tipli ibtidai məktəbin (ibtidai dövlət məktəbi) açıldığını, təhsilin rus dilində aparıldığını və ilk ildə burada 11 nəfər azərbaycanlının təhsil aldığı faktını qeyd edir.

Məlumdur ki, rus işğalına məruz qalandan sonra Azərbaycanda yaradılan yeni məktəblərdə tədris rus dilində aparılmaqla yanaşı bu məktəblərdə ilahiyyat dərslərinin keçirilməsinə imkan yaradılırdı. Lakin burada da müstəmləkəçi rejimin "parçala-hökm sür!" siyasəti tətbiq edilirdi. Dini təriqətlər, məzhəblər arasında fərqliliyi qabartmaqla onları qarşı-qarşıya qoymaq, düşmənçilik toxumu səpmək məqsədi güdülürdü. Maarifçilik hərəkatının nümayəndələri, görkəmli ziyalılar isə çarizmin bu siyasətini anlayır və xalqı, xüsusilə gəncləri milli ruhda tərbiyə etməyə çalışırdılar. Tarixi mənbələrdə qeyd olunur ki, şəhər tipli bu ibitdai məktəb yarandığı ilk gündən – 1880-ci ildən 1910-cu ilə kimi burada ilahiyyat dərsini dövrünün tanınmış maarif xadimi Məşhədi Molla İsmayıl Hacı Kazım oğlu tədris etmiş və o da öz şagirdlərini dəyərlərimizə hörmət ruhunda tərbiyə etmiş, müsəlmanları birliyə çağırmışdır.

Tarixi mənbələrdə göstərilir ki, İrəvan şəhər ibtidai məktəbi eyni zamanda İrəvan Müəllimlər Seminariyasının təcrübə məktəbi olmuşdur.

C. Allahveridyevin kitabında qeyd edilir ki, 1900-cu ildən İrəvan şəhər ibtidai məktəbinin nəzdində kişilər üçün ödənişsiz bazar günü məktəbi də fəaliyyətə başlamışdır. Diqqət çəkən faktlardan biri də odur ki, məktəbin xərcləri üçün açılış günü müxtəlif şəxslər tərəfindən 25, İrəvan şəhər özünüidarə orqanı tərəfindən isə 100 rubl vəsait ayrılmışdı. Puşkin adını daşıyan İrəvan şəhər məktəbi birbaşa nəzarətçinin rəhbərliyi altında fəaliyyət göstərirdi. Əvvəlcə məktəbə 60 nəfər qəbul olunmuş, açılış günü isə dərslərə 47 nəfər qatılmışdı. Lakin növbəti iki bazar günü ərzində bu rəqəm 80 nəfərə çatmış, onlardan 25 nəfərinin isə azərbaycanlı olduğu məlumdur. Bu bazar günü məktəbində Azərbaycan (tatar) dilinin də tədris edildiyi barədə mənbələrdə məlumatlar verilir.

C. Allahverdiyev tədqiqat nəticəsində bazar günü məktəbində təhsil alanların yaş tərkibinə görə bölgüsünü aşağıdakı kimi müəyyənləşdirmişdir:

"18 yaşdan 30 yaşa qədər – 45 nəfər; 30 yaşdan 40 yaşa qədər – 25 nəfər; 40 yaşdan 50 yaşa qədər – 10 nəfər.

Müəllif qeyd edir ki, savad səviyyəsinə görə də məktəbdə şagirdlər üç qrupa bölünmüşdü:

Birinci qrup (tam savadsızlar) – 47 nəfər; ikinci qrup (yarımsavadlılar) – 23 nəfər; üçüncü qrup (savadlılar) – 10 nəfər"(1, s.21-22).

Kitabda İrəvan şəhər ibtidai məktəbində işin təşkili, təhsilin məzmun məsələlərilə yanaşı, İrəvan iki nömrəli rus-tatar məktəbi, İrəvan qəza məktəbi, İrəvan progimnaziyası və İrəvan oğlanlar gimnaziyası haqqında da geniş məlumatlar verilmişdir.

Əsərdə 1898-ci ildə Abbasqulu xan Mehbalı xan oğlu İrəvanskinin təşəbbüsü ilə İrəvanda rus-tatar məktəbinin açılması, onun 1898-ci ildən 1914-cü ilə kimi həmin məktəbin fəxri nəzarətçisi olması, Haşım bəy Nərimanbəyovun isə məktəbin nəzarətçisi təyin edilməsi və 20 ilə yaxın həmin məktəbdə müəllimlik, həm də məktəb müdiri vəzifəsində çalışması barədə tarixi faktlar əksini tapmışdır.

Müəllif daha sonra İrəvanda iki sinifli qəza məktəbi, progimnaziya və gimnaziyanın yaranması tarixindən bəhs edir və onların fəaliyyətinə aydınlıq gətirir. Qeyd edir ki, Tiflisdən və Şuşadan sonra 1831-ci ilin oktyabrında İrəvanda iki sinifli qəza məktəbi təsis edilmişdi. Lakin əyalətin rəisi general-mayor Vasiliy Osipoviç Behbutovun İrəvanda olmaması səbəbindən 1831-ci il noyabr ayının 31-nə nəzərdə tutulan İrəvan qəza məktəbinin açılması mümkün olmamışdı.

Müəllif araşdırmalara əsasən progimnaziyanın yaranması və gimnaziyaya çevrilməsi prosesini də izah edir və göstərir ki, İrəvan progimnaziyası 1869-cu ilin sentyabrında 3 sinifli kimi fəaliyyətə başlamış, 1870-ci ildən artıq dörd sinifli məktəbə çevrilmişdi. 31 mart 1881-ci ildən isə İrəvan progimnaziyası 5 sinifli gimnaziyaya çevrilmişdir.

Kitabın strukturunda maraq doğuran cəhətlərdən biri budur ki, təhsil müəssisələrinin tarixindən bəhs edilərkən eyni zamanda həmin təhsil ocaqları ilə bilavasitə bağlı olan şəxslər haqqında da bəs edilir, onların Azərbaycan tarixində, o cümlədən təhsil tarixində xidmətləri əhatəli şəkildə təqdim olunur. Bu baxımdan Əziz Əliyev, Mustafa bəy Topçubaşov, İsfəndiyar bəy (Muğanlinski), Məhəmmədəli oğlu Sultanov, Mirməhəmməd Mirfətullayev, Rza İsmixanov, Əkbər ağa Şeyxülislamov, Eynəli bəy Sultanov, Əslidar Abbasəli oğlu Muğanlinski, Abdulla Mahmudağa oğlu Kəngərlinski, Axund Məhəmmədbağır Qazızadə, Rəziyə Abdullayeva, Mirzə Cabbar Məmmədzadə və başqaları barədə təqdim edilən tarixi məlumatlar diqqət çəkən məzmun və formaya uyğun olaraq şərh olunur, onların maarifçilik, bütövlükdə təhsil və pedaqoji fikir tarixində xidmətləri ön plana çəkilir, fəaliyyətləri haqlı olaraq yüksək dəyərləndirilir.

Kitabda İrəvan maarifçilərinin dərslik yaradıcılığı, İrəvanda 7 illik türk məktəbinin, İrəvan Türk Pedaqoji Məktəbinin yaranması, fəaliyyəti və formalaşması, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin qiyabi şöbəsi ilə bağlı yeni məlumatlar verilmişdir. Müəllifin araşdırmaları bu baxımdan pedaqogika tarixinin yeni fakt və məlumatlarla zənginləşdirilməsinə zəmin yaradır.

Əsərdə Qərbi Azərbaycan ziyalılarının dərslik yaradıcılığı barədə bəhs edilərkən Mirzə Ələkbər Elxanovun fəaliyyətinə geniş yer verilmişdir. Bu da təbiidir. Çünki İrəvanda başlanan pedaqoji hərəkatda görkəmli pedaqoq Mirzə Ələkbər Elxanovun müstəsna xidmətləri danılmazdır. O, mətbuat səhifələrində çıxışlar edir, mövcud dərs kitablarının qüsurlarını göstərir, dərslik yaradıcılığında uşaqların yaş və əqli səviyyəsinin nəzərə alınmasını vacib şərtlərdən biri

hesab edirdi. Mirzə Ələkbər Elxanov öz dövrünün qabaqcıl ziyalılarından biri idi. O, elmin sirrlərinə dərindən bələdliliyi ilə seçilir, pedaqoji işə qəlbən bağlı olan bir insan kimi tanınırdı. Tarixi mənbələr göstərir ki, Mirzə Ələkbər Elxanov səs üsulu ilə "Vətən dili" dərsliyini yazmış və bu dərsliyin XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyi tərəfindən müzakirə edilərək çapa verilməsi tövsiyə edilmişdir. Bu, Azərbaycan təhsil tarixində mühüm hadisə kimi qiymətləndirilir.

Daim yeni təlim metodları, proqram və dərs vəsaitləri, dərsliklər barədə düşünən Mirzə Ələkbər Elxanov uzunmüddətli pedaqoji fəaliyyəti dövründə xalqını cəhalətdən xilas etməyə çalışmış, məktəblərdə yeni metodlarla, yeni məzmunla tədrisin təşkilinin tərəfdarı olmuşdur. C. Allahverdiyev də əsərdə elmi araşdırmaların nəticələrinə əsasən bu məsələ ilə bağlı fikirlərini əsaslandırmış, M,Ə. Elxanovun fəaliyyətini yüksək dəyərləndirmişdir.

Kitabın müxtəlif bölmələrində İrəvanda yeni əlifba islahatı (1922-1929), azərbaycanlı ziyalı qadınların maarifçilik missiyası, 1922-1924-cü illərdə azərbaycanlı pedaqoji kadrların hazırlanması sahəsində ilk addımların atılması məsələləri də tədqiqat problemi kimi nəzərə alınmış və Qərbi Azərbaycanda bu istiqamətlərdə həyata keçirilən tədbirlər, ziyalıların əməli işləri əksini tapmış, onların milli vətəndaşlıq mövqelərindən çıxış etmələri əsaslandırılmışdır.

Məlumdur ki, nə qədər çətin olsa da Sovet imperiyasının tənəzzül dövründək Qərbi Azərbaycanda soydaşlarımız yaşamış, fəaliyyət göstərmiş, daim milli dəyərlərimizi qorumaq əzmi ilə çıxış etmişlər. Həmin dövrədək Qərbi Azərbaycanda milli təhsil tariximiz üçün xüsusi əhəmiyyət kəsb edən dəyərlər formalaşmış, inkişaf etmişdir. İrəvan Türk Pedaqoji Məktəbi, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin qiyabi şöbəsi, İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu, İrəvan İkiillik Dövlət Müəllimlər İnstitutunun Türk bölməsi, İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi və s. kimi təhsil ocaqları mövcud olmuş və orada işləyən, tədrislə məşğul olan, təhsil alan azərbaycanlılar həmişə özlərini Vətənimizin döyünən qəlbi, bir parçası hesab etmişlər. Kitabda bu məsələlər haqqında verilən şərhlər, izahlar həm də vətəndaşlıq hisslərinin ifadəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Kitabda Qərbi Azərbaycanda milli təhsilimizin deportasiya dövrü, repressiyaya məruz qalan azərbaycanlılar, cəmiyyətdə böyük nüfuz qazanmış ali təhsilli ziyalılar haqqında geniş məlumatların verilməsini də təqdirəlayiq hesab edirik. Təqdim edilən yeni məlumatlar həm də tədqiqatın elmi yeniliyini ifadə etməyə əsas verir.

Ümumiyyətlə, tədqiqatçı-alim, filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin yazdığı "İrəvanda Azərbaycan təhsil tarixi" əsəri elmi-pedaqoji baxımdan yeni məlumatlarla zənginliyi ilə diqqəti cəlb edir. Bu əsər dəyərli mənbə kimi Azərbaycan təhsil tarixini, eyni zamanda bütövlükdə Vətən tarixini öyrənən, tədqiq edənlər üçün mühüm əhəmiyyət daşıyır.

Problemin aktuallığı. İrəvanda Azərbaycan təhsil tarixinin araşdırılması ilk növbədə Vətən tarixinin daha dərindən öyrənilməsi baxımından aktuallıq kəsb edir.

Problemin yeniliyi. Məqalədə "İrəvanda Azərbaycan təhsil tarixi" kitabının struktur və məzmun problemləri konseptual baxımdan tədqiq edilmiş və ümumiləşdirmələr aparılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalə Azərbaycan təhsil tarixini öyrənənlər, bu istiqamətdə araşdırma aparanlar üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Allahverdiyev C.V. İrəvanda Azərbaycan təhsil tarixi: araşdırmalar və nəticələr / –Bakı: Səda, –2026. –536 s.
2. Allahverdiyev C.V. Qərbi Azərbaycanda ali təhsil tariximizdən // Azərbaycan məktəbi jurnalı.(710) №1, –s.125-132.
3. Allahverdiyev C.V İrəvan Müəllimlər Seminariyası / –Bakı: Elm və Təhsil, –2022. –269 s.

Redaksiyaya daxil olub: 14.05.2026

UOT 376.4-053.2

Maniya Sanif qızı Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0008-3270-0526
E-mail: maniyahasanova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).170-175

AUTİZMLİ UŞAQLARIN İNKİŞAFINDA OYUN TERAPİYASININ ƏHƏMİYYƏTİ

Maniya Sanif Hasanova
lecturer at Azerbaijan State Pedagogical University

THE IMPORTANCE OF PLAY THERAPY IN THE DEVELOPMENT OF CHILDREN WITH AUTISM

Мания Саниф гызы Гасанова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ЗНАЧЕНИЕ ИГРОВОЙ ТЕРАПИИ В РАЗВИТИИ ДЕТЕЙ С АУТИЗМОМ

Xülasə. Autizm spektr pozuntusu uşaqlarda sosial, emosional, nitq və idrak inkişafına təsir edən mürəkkəb neyroinkişaf pozuntusudur. Məqalədə autizmli uşaqların inkişafında oyun terapiyasının əhəmiyyəti araşdırılmışdır. Oyun terapiyası uşaqlara təhlükəsiz və maraqlı mühit təqdim edərək sosial qarşılıqlı əlaqə, emosional ifadə, nitq və idrak bacarıqlarının inkişafına dəstək olur. Floortime və JASPER yanaşmaları, sensor oyunlar, rol və təxəyyül oyunları, strukturlaşdırılmış fəaliyyətlər, vizual dəstəklər, ifadəli incəsənət və texnologiyaya əsaslanan müdaxilələr autizmli uşaqların inkişafını gücləndirir. Fərdi və kompleks oyun terapiyası yanaşmaları uşaqların sosial, emosional və koqnitiv inkişafını artırmaqda mühüm rol oynayır.
Açar sözlər: *autizm spektr pozuntusu, oyun terapiyası, Floortime, JASPER, sensor oyunlar, sosial inkişaf, emosional ifadə, inkişaf dəstəyi*

Abstract. Autism Spectrum Disorder (ASD) is a complex neurodevelopmental condition affecting children's social, emotional, speech, and cognitive development. This article examines the importance of play therapy in supporting the development of children with autism. Play therapy provides a safe and engaging environment that promotes social interaction, emotional expression, speech, and cognitive skills. Approaches such as Floortime and JASPER, sensory play, role and imaginative play, structured activities, visual supports, expressive arts, and technology-based interventions enhance the development of children with autism. Individualized and comprehensive play therapy approaches play a crucial role in strengthening children's social, emotional, and cognitive development.
Keywords: *autism Spectrum Disorder, play therapy, Floortime, JASPER, sensory play, social development, emotional expression, developmental support*

Аннотация. Расстройства аутистического спектра являются сложными нейроразвивающими нарушениями, влияющими на социальное, эмоциональное, речевое и когнитивное развитие детей. В статье рассматривается значимость игровой терапии в развитии детей с аутизмом. Игровая терапия создает безопасную и интересную среду, способствуя развитию социальных взаимодействий, эмоционального выражения, речи и когнитивных навыков. Подходы Floortime и JASPER, сенсорные игры,

ролевые и воображаемые игры, структурированные занятия, визуальная поддержка, выразительное искусство и технологии усиливают развитие детей с аутизмом. Индивидуальные и комплексные игровые подходы играют важную роль в укреплении социального, эмоционального и когнитивного развития детей.

Ключевые слова: *расстройства аутистического спектра, игровая терапия, Floortime, JASPER, сенсорные игры, социальное развитие, эмоциональное выражение, поддержка развития*

"Oyun uşağın təbii inkişafını təşviq edən ən güclü vasitədir."

Stanley Greenspan

Giriş: Autizm Spektr Pozuntusu uşağın sosial, emosional və idrak inkişafına təsir edən mürəkkəb neyroinkişaf xüsusiyyəti kimi xüsusi yanaşma və sistemli dəstək tələb edir. Bu pozuntu uşağın ətraf mühitlə qarşılıqlı əlaqə qurma tərzinə, ünsiyyət bacarıqlarına və davranış xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir elmi yanaşmalar göstərir ki, autizmli uşaqlarla iş zamanı erkən diaqnostika və məqsədyönlü müdaxilə onların inkişaf potensialının üzə çıxarılmasında mühüm rol oynayır. Bu baxımdan fərdiləşdirilmiş və kompleks reabilitasiya proqramlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Autizmli uşaqlarla işləməkdə istifadə olunan müxtəlif terapevtik metodlar içərisində oyun əsaslı yanaşmalar xüsusi yer tutur. Oyun uşağın təbii fəaliyyət forması olduğundan, bu vasitə ilə onun sosial qarşılıqlı əlaqə, emosional ifadə və idrak bacarıqları daha effektiv şəkildə inkişaf etdirilə bilir. Oyun terapiyası uşağa təhlükəsiz, maraqlı və strukturlaşdırılmış mühit təqdim edərək onun daxili potensialının açılmasına şərait yaradır. Bu səbəbdən oyun terapiyası autizmli uşaqların inkişafının dəstəklənməsində mühüm və səmərəli metodlardan biri kimi geniş tətbiq olunur.

Autizm Spektr Pozuntusu uşaqlarda müəyyən zehni funksiyaların inkişaf qüsurları ilə xarakterizə olan mürəkkəb neyroinkişaf pozuntusudur. Bu pozuntu əsasən sosial qarşılıqlı əlaqələrdə çətinliklər, kommunikasiya problemləri, stereotip və təkrarlanan davranışlar, həmçinin müəyyən motor vərdişlərinin davamlı təkrarlanması ilə xarakterizə olunur. Autizm spektr pozuntusu erkən uşaqlıq dövründə formalaşan və uşağın sosial, emosional və idrak inkişafına təsir edən bir vəziyyətdir. Əksər hallarda bu pozuntu 3-4 yaşa qədər olan uşaqlarda diaqnoz qoyulur, lakin onun ilkin əlamətləri bəzən həyatın ilk ilində də müşahidə edilə bilər.

Autizmli uşaqlarda erkən dövrdə müşahidə edilən əlamətlər müxtəlif formalarda özünü göstərir. Məsələn, belə uşaqlar toxunma təmasına qarşı qeyri-adi reaksiya göstərə bilər, qucağa götürüldükdə ağlaya və ya narahat ola bilərlər. Valideynlərin müraciətlərinə və ya ünsiyyət təşəbbüslərinə qarşı passivlik, böyüklərlə emosional əlaqənin zəifliyi də erkən əlamətlərdən hesab olunur. Bəzi hallarda uşaqlarda yüksək səslərə həddindən artıq həssaslıq müşahidə edilir. Digər tərəfdən, parlaq və səsli oyuncaqlara marağın olmaması, standart oyuncaqlar əvəzinə qeyri-adi əşyalarla oynamağa meyl kimi xüsusiyyətlər də autizmli uşaqlar üçün xarakterikdir.

Autizmli uşaqlar çox vaxt tək qalmağa üstünlük verir, qrup fəaliyyətlərində iştirak etməkdən çəkinir və digər uşaqlarla ünsiyyət qurmaqda çətinlik çəkirlər. Onlar bəzən özlərinə xas oyunlar qurur və bu oyunları davamlı şəkildə təkrarlayırlar. Bu oyunlar ətrafdakılar üçün anlaşılmaz görünə bilər. Autizmli uşaqların davranışlarının belə fərqli görünməsi onların sosial mühitlə qarşılıqlı əlaqə qurma tərzinin fərqli olması ilə bağlıdır. [1, s. 276]

Autizm diaqnozu əsasən sosial ünsiyyət və sosial qarşılıqlı əlaqə sahəsində müşahidə olunan fərqlərlə müəyyən edilir. Bu sahədə çətinliklər autizm spektr pozuntusunun əsas diaqnostik meyarları hesab olunur. Sosial ünsiyyət xüsusiyyətləri aşağıdakı mühüm əlamətlərlə özünü göstərir:

1. Qeyri-verbal ünsiyyətdə çətinliklər: Autizmli uşaqlarda qeyri-adi göz təması, jest və mimikalardan fərqli istifadə, bədən dilinin qeyri-adi formaları müşahidə olunur. Bundan əlavə, verbal və qeyri-verbal ünsiyyət elementlərini birləşdirməkdə çətinlik yaranır.

2. Qarşılıqlı ünsiyyətdə çətinliklər: Autizmli uşaqlar ünsiyyət və qarşılıqlı əlaqənin adi sosial qaydalarına riayət etməkdə çətinlik çəkir, növbə ilə danışmaq və ya qarşı tərəfin reaksiyasına uyğun davranmaq bacarığı zəif olur. Onlarda hissləri, maraqları və emosiyaları başqaları ilə paylaşmaq meyli az müşahidə edilir.

3. Başqalarının perspektivini anlamaqda çətinlik: Belə uşaqlar müxtəlif sosial situasiyalara uyğun davranmaqda çətinlik çəkir, digər insanların düşüncə və hisslərini başa düşməkdə məhdudiyyət yaşayırlar. Bu isə sosial münasibətlərin qurulmasını çətinləşdirir.

Autizm spektr pozuntusu mürəkkəb inkişaf pozuntusu olduğundan onun korreksiyası və reabilitasiyası üçün müxtəlif terapevtik yanaşmalar tətbiq olunur. Bu metodların əsas məqsədi autizm simptomlarını azaltmaq, uşağın sosial mühitə uyğunlaşmasını təmin etmək, kommunikasiya və nitq bacarıqlarını inkişaf etdirmək, həmçinin ümumi psixoloji və fiziki inkişafı dəstəkləməkdir. [2, s. 22]

1. ABA terapiyası – Autizmli uşaqlarla işləməkdə ən geniş istifadə olunan metodlardan biri tətbiqi davranış analizi kimi tanınan ABA terapiyasıdır. Bu metod uşağın davranışlarını sistemli şəkildə təhlil etməyə və müəyyən bacarıqları mərhələli şəkildə inkişaf etdirməyə yönəlmişdir. ABA terapiyası zamanı uşağın müsbət davranışları mükafatlandırılır və bu davranışların təkrar olunması təşviq edilir. Beləliklə, uşaq yeni bacarıqları öyrənir və sosial mühitdə daha uyğun davranış formaları formalaşdırır [3, s. 278]

2. Əmək terapiyası – autizmli uşaqların gündəlik həyat bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Bu terapiya uşağın geyinmək, qidalanmaq, şəxsi gigiyena qaydalarına əməl etmək kimi gündəlik fəaliyyətləri müstəqil şəkildə yerinə yetirməsinə kömək edir. Autizmli uşaqlarda bəzən motor koordinasiyanın zəif olması müşahidə olunduğu üçün bu terapiya onların müstəqilliyini artırmaq baxımından mühüm əhəmiyyət daşıyır.

3. Sosial terapiya – autizmli uşaqlarda sosial bacarıqların inkişafına yönəlmişdir. Bu terapiya vasitəsilə uşaqlar başqaları ilə ünsiyyət qurmağı, emosiyalarını ifadə etməyi və sosial situasiyalarda düzgün davranmağı öyrənirlər. Sosial bacarıqların inkişafı uşağın məktəb mühitinə və cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayır.

4. Fizioterapiya – autizmli uşaqlarda motor inkişafın dəstəklənməsi məqsədilə tətbiq olunur. Bu metod əzələ tonusunun, koordinasiyanın və fiziki dözümlülüyün inkişafına kömək edir. Autizmli uşaqlarda kiçik və ümumi motor bacarıqlarının zəif inkişafı tez-tez müşahidə olunduğu üçün fizioterapiya onların fiziki inkişafını dəstəkləyir.

5. Oyun terapiyası – autizmli uşaqlarla işləməkdə xüsusilə effektiv metodlardan biridir. Oyun uşağın təbii fəaliyyət forması olduğundan, bu metod vasitəsilə uşağın sosial əlaqə qurma bacarıqları inkişaf etdirilir, emosional ifadə imkanları genişlənir və nitq inkişafı stimullaşdırılır. Oyun terapiyası uşağın maraq dairəsini genişləndirir və onun ətraf mühitlə daha aktiv qarşılıqlı əlaqə qurmasına kömək edir. [4, s. 95]

6. Vizual terapiya – isə autizmli uşaqların vizual düşünmə xüsusiyyətlərinə əsaslanır. Bir çox autizmli uşaq informasiyanı vizual şəkildə daha yaxşı qəbul etdiyi üçün bu terapiya zamanı şəkillər, videolar, vizual sxemlər və modelləşdirmə üsullarından istifadə olunur. Bu yanaşma uşağın yeni bacarıqları daha asan mənimsəməsinə və gündəlik fəaliyyətləri daha yaxşı başa düşməsinə kömək edir.

7. Musiqi terapiyası – uşaqlarda sosial, emosional, nitq və davranış bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan səmərəli bir yanaşmadır. Bu terapiya uşaqlara özlərini ifadə etməyə imkan verən təhlükəsiz və maraqlı bir mühit təqdim edir. Musiqi terapiyasının əsas məqsədlərindən biri uşaqların ünsiyyət bacarıqlarını inkişaf etdirməkdir. Ritm və mahnılar vasitəsilə uşaqlar öz ehtiyaclarını ifadə edə bilər və nitq gecikmələri və exolaliya kimi problemləri olan uşaqlarda sözlərin təkrarı vasitəsilə nitqi stimullaşdırır.

8. Nağıl terapiyası – uşaqlarda sosial, emosional, nitq və idrak bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan bir metodikadır. Bu terapiya uşaqlara hekayələr vasitəsilə özlərini ifadə etməyə, emosiyalarını tanımağa və başqaları ilə ünsiyyət qurmağa imkan verir. Nağıl vasitəsilə uşaqlar yeni sözlər öyrənir, nitq və dil bacarıqları inkişaf edir. Hekayələrdəki obrazlar və vəziyyətlər uşaqlara empatiya, sosial qaydalar və problemləri həll etmə bacarıqlarını öyrədir. Uşaqlar hekayəni dinləyərkən və ya hekayəni canlandırarkən (rəsm, hərəkət, rol oyunları ilə) diqqət, yaddaş və yaradıcılıq qabiliyyətləri inkişaf edir.

9. Art terapiyası – uşaqlarda emosional, sosial, nitq və motor bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan terapevtik bir yanaşmadır. Bu terapiya uşaqlara rəsm, rəngləmə, modelçəkmə və digər vizual incəsənət fəaliyyətləri vasitəsilə özlərini ifadə etməyə imkan verir. Art terapiyasının əsas məqsədlərindən biri uşaqların emosional ifadəsini inkişaf etdirməkdir. Uşaqlar duyğularını sözlərlə ifadə etməkdə çətinlik çəkdikdə, rənglər və şəkillər vasitəsilə özlərini göstərə bilirlər. Bu, həm də stresin azaldılmasına və emosional tənzimləməyə kömək edir.

Bundan əlavə, art terapiyası sosial və koqnitiv bacarıqları gücləndirir. Qrup şəklində rəsm və ya kollektiv layihələr uşaqlarda paylaşma, əməkdaşlıq və sıra gözləmə bacarıqlarını artırır.

Beləliklə, autizm spektr pozuntusu uşağın inkişafının müxtəlif sahələrinə təsir edən kompleks bir vəziyyət hesab olunur. Bu səbəbdən autizmli uşaqlarla iş zamanı müxtəlif terapiya metodlarının kompleks şəkildə tətbiqi xüsusi əhəmiyyət daşıyır. Erkən diaqnostika və düzgün təşkil olunmuş reabilitasiya proqramı uşağın sosial mühitə uyğunlaşmasına, kommunikasiya bacarıqlarının inkişafına və onun potensial imkanlarının daha səmərəli şəkildə üzə çıxmasına mühüm töhfə verə bilər.

Autizm spektr pozuntusu olan uşaqlarda inkişafın dəstəklənməsi üçün istifadə olunan mühüm yanaşmalardan biri oyun terapiyasıdır. Oyun terapiyası autizmli uşaqların emosional, sosial, ünsiyyət və idrak inkişafını gücləndirmək məqsədilə müxtəlif oyun fəaliyyətlərindən istifadə edən uşağa yönəlmiş terapevtik yanaşmadır. Bu yanaşma uşaqlar üçün təhlükəsiz, rahat və cəlbedici bir mühit yaradır. Belə bir mühitdə uşaq özünü sərbəst şəkildə ifadə edə bilir və terapiya prosesi çox vaxt uşağın maraqlarına uyğunlaşdırılmış fəaliyyətlər vasitəsilə həyata keçirilir. Bu fəaliyyətlərə saxta və ya rol oyunları, sensor oyunlar, incəsənət fəaliyyətləri və interaktiv oyunlar daxildir.

Oyun terapiyasının əsas məqsədi uşağın sosial qarşılıqlı əlaqə qurma, emosiyalarını ifadə etmə və ünsiyyət bacarıqlarını inkişaf etdirməkdir. Bu terapiya zamanı uşaqlar özünütənzimləmə, sosial münasibətlər qurma və emosional anlayış kimi həyati əhəmiyyətli bacarıqları tədricən formalaşdırırlar. Terapevtlər hər bir uşağın fərdi xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alaraq müxtəlif metod və texnikalardan istifadə edirlər. Bu metodlara Floortime, JASPER yanaşması və incəsənətə əsaslanan müdaxilələr daxildir. Bu yanaşmalar uşaqları qarşılıqlı əlaqəyə cəlb etməyə, terapevt və valideynlərlə etibarlı münasibət qurmağa və sinir inkişafını dəstəkləməyə kömək edir. [5, s. 34]

Autizmli uşaqların inkişafında oyun mühüm vasitə hesab olunur. Oyun uşağa təbii və maraqlı fəaliyyət mühiti təqdim edərək müxtəlif inkişaf sahələrinin formalaşmasına kömək edir. Oyun vasitəsilə uşaqlar ünsiyyət, sosial qarşılıqlı əlaqə, idrak və motor bacarıqları kimi mühüm sahələrdə təcrübə qazanırlar. Bu prosesdə uşaqlar müxtəlif davranışları sınaqdan keçirə, emosiyalarını ifadə edə və duyğu məlumatlarını daha rahat şəkildə emal edə bilirlər.

Oyun terapiyası çərçivəsində müxtəlif fəaliyyətlər uşaqların inkişafının müəyyən sahələrini dəstəkləmək məqsədilə xüsusi şəkildə təşkil olunur. Bu fəaliyyətlərin mühüm istiqamətləri aşağıdakılardır:

1. Sensor əsaslı oyun fəaliyyətləri.

Sensor oyunlar autizmli uşaqların duyğu məlumatlarını daha yaxşı qəbul etməsinə və emal etməsinə kömək edir. Bu fəaliyyətlərə toxunma oyunları, su ilə oyunlar, sensor qutuları və müxtəlif teksturalı oyuncaqlarla fəaliyyətlər daxildir. Bu tip oyunlar uşaqlarda sensor həddindən artıq yüklənmənin azaldılmasına, sakitləşməyə və özünütənzimləmə bacarıqlarının inkişafına kömək edir. [6, s. 41]

2. Strukturlaşdırılmış oyun və rutinlər.

Strukturlaşdırılmış oyun fəaliyyətləri müəyyən qaydalar və ardıcıllıq əsasında qurulur. Bu fəaliyyətlər uşaqlara özünütənzimləmə, emosional sabitlik və sensor emal bacarıqlarını inkişaf etdirməyə kömək edir. Məsələn, müəyyən ardıcıllıqla təşkil edilən oyunlar uşaqlarda proqnozlaşdırıla bilən mühit yaradır və bu da onların özlərini daha təhlükəsiz hiss etməsinə kömək edir.

3. Rol və təxəyyül oyunları.

Rol oyunları və təxəyyülə əsaslanan fəaliyyətlər uşaqlara müxtəlif sosial situasiyaları canlandırmaq imkanı verir. Bu oyunlar vasitəsilə uşaqlar başqalarının perspektivini anlamağı, emosiyalarını ifadə etməyi və sosial münasibətlər qurmağı öyrənirlər. Təxəyyül oyunları həmçinin uşaqların yaradıcılığını və müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir.

4. Problem həll etmə və idrak inkişafını dəstəkləyən oyunlar.

Tapmacalar, qurma oyunları və müxtəlif məntiqi fəaliyyətlər uşaqların tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu fəaliyyətlər uşaqların diqqətini artırır, planlaşdırma bacarıqlarını formalaşdırır və idrak inkişafını stimullaşdırır. [7, s. 41]

5. Vizual dəstəklərdən istifadə.

Autizmli uşaqlar çox vaxt vizual məlumatları daha yaxşı qəbul etdikləri üçün terapiyada müxtəlif vizual vasitələrdən istifadə edilir. Şəkil kartları, cədvəllər, vizual taymerlər və gündəlik fəaliyyət cədvəlləri uşaqların sosial işarələri və gündəlik rutinləri daha yaxşı başa

düşməsinə kömək edir. Bu vasitələr qarşılıqlı əlaqəni daha proqnozlaşdırıla bilən edir və uşaqlarda narahatlıq səviyyəsini azaldır.

6. İfadəli incəsənət fəaliyyətləri.

Rəsm, musiqi, hekayə danışma və digər yaradıcı fəaliyyətlər uşaqların emosional ifadə imkanlarını genişləndirir. Bu metodlar autizmli uşaqlar üçün alternativ ünsiyyət yolları yaradır və onların yaradıcılıq potensialını inkişaf etdirir.

7. Texnologiyaya əsaslanan müdaxilələr.

Son illərdə terapiyada müxtəlif texnoloji vasitələrdən də istifadə olunur. İnteraktiv tətbiqlər, virtual reallıq və genişləndirilmiş reallıq proqramları uşaqların terapiyaya marağını artırır və fəaliyyətlərin fərdiləşdirilməsinə kömək edir. Bu texnologiyalar uşaqların motivasiyasını yüksəldərək onların daha fəal iştirak etməsinə şərait yaradır.

Oyun terapiyasında fəaliyyətlərin hər bir uşağın fərdi ehtiyaclarına uyğunlaşdırılması xüsusi əhəmiyyət daşıyır. Terapevtlər uşağın maraqlarını, inkişaf səviyyəsini və sensor xüsusiyyətlərini nəzərə alaraq fəaliyyətlər planlaşdırırlar. Vizual dəstəklər, rutinlər və sensor vasitələr uşaqların sosial situasiyaları və gözləntiləri daha yaxşı anlamasına kömək edir və terapiya prosesini daha effektiv edir.

Oyun fəaliyyətlərinin gündəlik həyata və terapiya proqramlarına daxil edilməsi autizmli uşaqların ümumi inkişafını dəstəkləyir. Bu yanaşma uşaqların valideynləri və həmyaşıdları ilə münasibətlərini gücləndirir, sosial inamın formalaşmasına kömək edir və onların cəmiyyətə daha yaxşı uyğunlaşmasına şərait yaradır. Beləliklə, oyun terapiyasının müxtəlif metod və texnikalarının tətbiqi autizmli uşaqların inkişafında mühüm rol oynayır və onların ətraf mühitdə daha fəal və mənalı iştirak etməsinə imkan yaradır.

Müxtəlif terapiya metodları – ABA, əmək, vizual, musiqi, nağıl, oyun və art terapiyası – uşağın sosial, emosional və idrak bacarıqlarının inkişafına müsbət təsir göstərir. Bu yanaşmalar arasında oyun terapiyası xüsusi yer tutur, çünki oyun uşağın təbii inkişaf vasitəsidir. Sensor, rol və strukturlaşdırılmış oyunlar uşağın ünsiyyət və sosial bacarıqlarını gücləndirir. Erkən müdaxilə və sistemli reabilitasiya uşağın potensialını daha yaxşı üzə çıxarır. [6, s. 107]

Son olaraq biz utizm spektr pozuntusu zamanı tibbi korreksiyanın vacibliyini qeyd etməliyik. Uşağın sinir sisteminin stabilləşdirilməsi, emosional vəziyyətin tənzimlənməsi və davranış problemlərinin azaldılması baxımından tibbi korreksiya mühüm rol oynayır. Bu yanaşma diqqət, yuxu və emosional balansı yaxşılaşdıraraq uşağın öyrənmə və qarşılıqlı əlaqə imkanlarını genişləndirir. Oyun terapiyası ilə əlaqələndirdikdə isə, tibbi korreksiya uşağın terapiyaya hazır vəziyyətə gəlməsinə şərait yaradır. Yəni uşaq daha sakit, diqqətli və emosional olaraq stabil olduqda, oyun vasitəsilə öyrənmə prosesinə daha aktiv qoşulur. Oyun terapiyası sosial bacarıqların, ünsiyyətin və emosional ifadənin inkişafını dəstəkləyir, tibbi korreksiya isə bu prosesin daha effektiv və davamlı olmasına kömək edir. [8, s. 135]

Autizm spektr pozuntusu olan uşaqlarla aparılan korreksiya və inkişafetdirici işlərdə strukturlaşdırılmış yanaşmalar, vizual dəstəklər və oyun əsaslı fəaliyyətlər mühüm əhəmiyyət kəsb edir. Bu uşaqlar üçün proqnozlaşdırıla bilən mühitin yaradılması, sosial bacarıqların mərhələli şəkildə formalaşdırılması və fərdi xüsusiyyətlərin nəzərə alınması effektiv müdaxilənin əsas şərtlərindəndir. Rol və təxəyyül oyunları, eləcə də strukturlaşdırılmış fəaliyyətlər uşaqların sosial qarşılıqlı əlaqə, ünsiyyət və emosional ifadə bacarıqlarının inkişafına müsbət təsir göstərir. [9, s.21]

Eyni zamanda, idrak və davranış xüsusiyyətlərinin fərqli olması pedaqoji və psixoloji yanaşmaların fərdiləşdirilməsini zəruri edir. Bu baxımdan, həm oyun terapiyası, həm də strukturlaşdırılmış təlim metodlarının inteqrasiyası uşağın ümumi inkişaf dinamikasını gücləndirir və sosial uyğunlaşmasını asanlaşdırır.[10, s. 35]

Nəticə: Beləliklə, autizm spektr pozuntusu uşağın inkişafının bir çox sahələrinə təsir edən kompleks neyroinkişaf xüsusiyyəti kimi xüsusi yanaşma tələb edir. Bu uşaqlarla aparılan korreksiya və reabilitasiya işlərinin səmərəliliyi müxtəlif terapiya metodlarının kompleks və sistemli şəkildə tətbiqindən asılıdır. Xüsusilə oyun terapiyası uşağın təbii fəaliyyət forması olduğu üçün onun sosial, emosional və idrak bacarıqlarının inkişafında mühüm rol oynayır. Sensor, strukturlaşdırılmış və yaradıcı oyun fəaliyyətləri vasitəsilə uşaqların özünütənzimləmə, ünsiyyət və sosial qarşılıqlı əlaqə bacarıqları formalaşır. Nəticə etibarilə, düzgün təşkil olunmuş oyun əsaslı müdaxilələr autizmli uşaqların cəmiyyətə

uyğunlaşmasına və onların potensial imkanlarının inkişafına mühüm töhfə verir.

Problemin aktuallığı. Müasir dövrdə autizm spektr pozuntusunun yayılma tezliyinin artması bu sahənin aktuallığını daha da artırır. Autizmli uşaqların erkən yaşlardan etibarən düzgün diaqnostika və müdaxilə proqramlarına cəlb olunmaması onların sosial adaptasiyasında və inkişafında ciddi çətinliklər yarada bilər. Bu baxımdan autizmli uşaqlarla işləmək üçün effektiv metodların araşdırılması və tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə oyun terapiyasının uşağın inkişafına təsirinin öyrənilməsi və praktikada tətbiqi həm pedaqoji, həm də psixoloji baxımdan aktual məsələlərdən biridir. Bu problem həm də inklüziv təhsil mühitində autizmli uşaqların daha uğurlu inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi autizm spektr pozuntusu olan uşaqlarda oyun terapiyasının müxtəlif istiqamətlər üzrə sistemli şəkildə təhlil olunması ilə bağlıdır. İşdə oyun terapiyasının yalnız ümumi təsiri deyil, həm də onun sensor, sosial, idrak və emosional inkişaf sahələrinə spesifik təsir mexanizmləri araşdırılır. Eyni zamanda müxtəlif terapiya metodlarının inteqrativ şəkildə tətbiqinin əhəmiyyəti vurğulanır və oyun fəaliyyətlərinin fərdiləşdirilmiş yanaşma əsasında təşkilinin zəruriliyi əsaslandırılır. Bu yanaşma mövcud nəzəri biliklərin praktik tətbiqi ilə əlaqələndirilməsi baxımından yenilik xarakteri daşıyır.

Problemin praktiki əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti autizmli uşaqlarla işləyən mütəxəssislər və valideynlər üçün konkret tətbiq imkanları təqdim etməsindədir. İşdə təqdim olunan oyun terapiyası metodları və fəaliyyət istiqamətləri uşaqların sosial, emosional və idrak bacarıqlarının inkişafını dəstəkləmək üçün praktik vasitə kimi istifadə oluna bilər. Bu yanaşmalar pedaqoqlar, psixoloqlar, loqopedlər və reabilitasiya mütəxəssisləri tərəfindən tədris və korreksiya prosesində tətbiq edilə bilər. Eyni zamanda, valideynlərin də bu fəaliyyətləri gündəlik həyatda tətbiq etməsi uşağın inkişafının daha effektiv və davamlı olmasına şərait yaradır. Bu baxımdan tədqiqatın nəticələri həm nəzəri, həm də praktik sahədə əhəmiyyətli töhfə verir.

Ədəbiyyat

1. Alyavina E.A. “Autizm: korreksiya işləri üçün metodoloji tövsiyələr” (xüsusi kurs üçün materiallar) / redaktə edən S.A. Morozov. –Moskva, 2002. – 246 s.
2. Əliyeva R. Autizm spektr pozuntusu olan uşaqlarla pedaqoji işin xüsusiyyətləri. Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ), –2021. – 85 s.
3. Odom S. L. Evidence-based practices for children with autism spectrum disorders. Preventing School Failure, 54(4), 275–282. https://doi.org/10.1080/104598
4. Greenspan S. I. Developmental patterns and outcomes in children with autism. Journal of Developmental and Learning Disorders, 1(1), 87–123. https://doi.org/10.1023/A:1025871310151
5. Bogolyubova-Kuznetsova D.V. “Autizm pozulması olan uşağın ünsiyyət qabiliyyətlərinin inkişafı üçün psixoloji və pedaqoji müdaxilənin imkanları.” –2023. № 2. –s. 32-40
6. Sadıqova T. “Məktəbəqədər yaşlı uşağın sosial inkişafında oyunun rolu” Azərbaycan Respublikasının Təhsil İnstitutu //–Bakı, 2023. N2 –107 s.
7. Frith U. – Autism: Explaining the Enigma, Oxford, // –2003, –s. 15–40
8. Kərimova E. “Autistik spektrin pozulmasında tibbi korreksiyanın vacibliyi” //Azərbaycan Respublikasının Təhsil İnstitutu –Bakı, 2023, N4 –135 s.
9. Wing L. – The Autistic Spectrum: A Guide for Parents and Professionals // –London, 1996, –s. 20–38
10. Attwood T. – The Complete Guide to Asperger’s Syndrome, // –London, 2007, –s. 33–52

Redaksiyaya daxil olub: 18.05.2026

MUSİQİ TƏMAYÜLLÜ KOLLEC VƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ MÜƏLLİMLƏRİNİN ÖZÜNÜTƏHSİLİ
SELF-EDUCATION OF TEACHERS OF MUSIC-ORIENTED COLLEGE AND HIGHER EDUCATION INSTITUTIONS
САМООБРАЗОВАНИЕ ПРЕПОДАВАТЕЛЕЙ МУЗЫКАЛЬНЫХ КОЛЛЕДЖЕЙ И ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ МУЗЫКАЛЬНОГО ПРОФИЛЯ

UOT 378.041

Ənvər Hidayət oğlu Sadıqov
Azərbaycan Milli Konservatoriyanın dosenti, Xalq artisti
"Qaytağı" instrumental ansamblının bədii rəhbəri,
Özbəkistan Dövlət Konservatoriyasının fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0009-0000-0182-2186
E-mail: enversadiqov@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).176-181

CÜRƏ QARMONDAN QƏHRƏMANLIĞA GEDƏN YOL

Anvar Hidayat Sadiqov
associate professor of the Azerbaijan National Conservatory, People's Artist
artistic director of the İnstrumental ensemble "Gaytaghi",
doctorial student in the program of doctor of philosophy
at the State Conservatory of Uzbekistan

THE PATH FROM THE JURA GARMON TO HEROISM

Энвер Идаят оглы Садыгов
доцент Азербайджанской Национальной Консерватории, Народный артист
Художественный руководитель инструментального ансамбля «Гайтагы»,
диссертант по программе доктора философии Государственной Консерватории Узбекистана

ПУТЬ ОТ ДЖУРЫ ГАРМОНА К ГЕРОИЗМУ

Xülasə. Məqalədə ilk dəfə olaraq cürə (pikkolo) növlü Azərbaycan qarmonundan bəhs edilir. Burada öncə cürə alətlər haqqında ümumi məlumat verilir. Cürə növlü alətlərin Azərbaycanda qədim tarixi kökləri olduğu bildirilir. Nizami Gəncəvinin "İskəndərnamə" əsərində cürənin adının çəkildiyi beyt təqdim edilir və təhlil olunur. Azərbaycanın musiqişünas-alimi Əbdülqadir Marağalının risalələrində udun cürə növü olan *töhfətüluddan* bəhs edilir. Burada Qasım Qasımovun uda istinadən hazırladığı cürəud adlı alətdən də söz açılır.

Məqalədə daha sonra usta Vaqif Məmmədovun hazırladığı cürə növlü Azərbaycan qarmonundan və alətin ilk ifaçısı Tural Mehdioğlundan, cürə qarmonun yaranma tarixindən, etimologiyası və morfologiyasından bəhs edilir.

***Açar sözlər**: cürə növlü Azərbaycan qarmonu, pikkolo, Nizami Gəncəvi, döyüşçü qarmonçalan, şairə Xatirə Xatun, cürə qarmonun yaranma tarixi, etimologiyası, morfologiyası, diapazonu, Avtandil İsrafilov*

Abstract. The article discusses the Azerbaijani garmon of the jura (piccolo) type for first time. First, general information about jura instruments is provided. It is also stated that jura-type instruments have ancient historical roots in Azerbaijan. Here, the verse in which the name of the jura is mentioned in the work of the great Azerbaijani poet Nizami Ganjavi in the work "Iskendername" is presented and analyzed. The treatises of the Azerbaijani musicologist-scientist Abdulgadir Maraghali mention the tohfatulud, a jura type of oud. It also mentions the instrument called juraud, which was developed by Gasim Gasimov based on the oud.

The article devotes extensive space to the history, etymology and morphology of the jura garmon.

Keywords. *Azerbaijani qarmon of the jura type, piccolo, Nizami Ganjavi, warrior garmonist, poetess Khatira Khatun, history of the creation of the jura garmon, etymology, morphology, range, Avtandil Israfilov*

Аннотация. В статье впервые рассматривается азербайджанская гармонь типа джура (пикколо). Сначала приводится общая информация об инструментах типа джура. Также указывается, что инструменты типа джура имеют древние исторические корни в Азербайджане. Здесь представлен и проанализирован стих, в котором упоминается название джуры в произведении великого азербайджанского поэта Низами Гянджеви «Искендернаме». В трактатах азербайджанского музыковеда-ученого Абдулгадира Марагали упоминается *тохфатулуд*, разновидность уда типа джура. В статье также упоминается инструмент, называемый джурауда, разработанный Гасимом Гасимовым на основе уда.

В статье значительное место уделяется истории, этимологии и морфологии гармона типа джура.

Ключевые слова: *Азербайджанская гармонь типа джура, пикколо, Низами Гянджеви, гармонист военный, поэтесса Хатира Хатун, история создания гармона типа джура, этимология, морфология, диапазон, Автандил Исрафилов*

Giriş. Orqanologiya sahəsində bir sıra musiqi alətlərinin bəzən sonrakı mərhələlərdə kiçik növləri də hazırlanılır. Dilimizdə bu cür alətlərin adlarına cürə sözü də qoşulur, məsələn, cürə zurna, cürə balaban, cürə zurna, cürə tütək, cürə ney, cürə saz, cürə nağara, cürə sinc və s.

Cürə növlü alətləri əsasən eyni, yəni natural forması əsasında zil registrli səslənməsini almaqdan ötrü hazırlayırlar. Yaxud balaca uşaqlar üçün yüngül olsun deyə müvafiq aləti kiçik ölçüdə hazırlayırlar. Belə alətlərdən biri də cürə növlü Azərbaycan qarmonudur (bax: şəkil 1).

Şəkil 1. *Cürə növlü Azərbaycan qarmonu (A. Nəcəfzadənin şəxsi kolleksiyasından)*

Cürə sözü dilimizdə çox qədim dövrlərdən işlədilir. Nizaminin "İskəndərnamə" məsnəvisinin "İqbalnamə" hissəsində cürə adlı aləti farsca belə tərənnüm etmişdir:.

Moğənni, bedan ***core-ye*** *cannəvaz*

Bər ahənge-ma nale-ye nou besaz.

"İqbalnamə"də Hörmüzün rüzgarının sonu" başlıqlı şeirdəki bu beytin dilimizə filoloji tərcüməsi belədir:

Müğənni, könül oxşayan ***cürəni*** *götür,*

Bizim halımıza uyğun yeni bir hava çal [5, s. 610].

Şeirdən göründüyü kimi, N. Gəncəvi cürənin adını çəkdikdə hansı alətdən söhbət açıldığı bəlli olmur. Belə ki, şair burada istənilən aləti nəzərdə tuta bilərdi.

Sənətşünaslıq elmləri doktoru, professor Abbasqulu Nəcəfzadə "Nizami Gəncəvinin yaradıcılığında musiqi alətləri" əsərində həmin beytə belə münasibət bildirir: "Nizaminin bu beytindən aydın olur ki, burada hordofonlu qrupa aid edilən hansısa telli alət təsvir edilmişdir. Birinci misrada müğənninin həm də cürə ifaçısı olduğu bildirilir. Nizami dövründə adətən müğənnilər telli-mizrablı alətlərdə çalıb, özlərini müşayiət edərdilər. Olsun ki, burada ud və ya tənburun cürə növü tərənnüm olunmuşdur. Doğrudur, bu alətlərin cürə növünə XII əsr qaynaqlarında rast gəlmirik. Lakin XIV–XV əsrlərdə yaşamış Əbdülqadir Marağalı risalələrində udun cürə növü olan *töhfətüluddan* bəhs edir [2, s. 74-79; 6, s. 105]. Bu alətin 12 teli olmuşdur. Görünür, töhfətüluda hər biri bir səs hökmündə olan 6 qoşalaşdırılmış tel taxılmışdır" [4, s. 183].

Xatırladaq ki, ustad sənətkar, multiinstrumentalçı Qasım Qasımov (1942–2005) uda istinadən cürəud adlı bir alət hazırlamışdır [1, s.

45-54]. A. Nəcəfzadə cürəud haqqında “Azərbaycan çalğı alətlərinin izahlı lüğəti” adlı kitabında məlumat vermişdir (şəkil 2) [3, s. 54].

Şəkil 2. *Cürəud*

Cürə qarmonun yaranma tarixi. Ölkəmizdə cürə növlü Azərbaycan qarmonunu ilk dəfə 2004-cü ildə Ağdam rayonundan olan peşəkar qarmon ifaçısı, usta Vaqif Məmmədov hazırlamışdır. O, bu qarmonu musiqiçilər ailəsi olan Nəcəfzadələrdən birinə – Tural Mehdioğluna hədiyyə etmişdir.

Şəkil 3. *Tural Mehdioğlu*

Şəkil 4. *Leytenant Tural Mehdioğlu*

Deməli, cürə növlü Azərbaycan qarmonunun ilk ifaçısı Tural Mehdioğlu olmuşdur (şəkil 3). O, respublika İncəsənət Gimnaziyasında qarmon ixtisası üzrə təhsil almış və həmçinin orta məktəbi də burada bitirmişdir (2002-2013). Tural daha sonra Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Memarlıq” fakültəsində ali təhsil almışdır. Universiteti bitirdikdən sonra hərbi xidmətə çağırılmış, nümunəvi əsgər kimi vətənimizin keşiyində durmuşdur. Tural hərbi xidmətini bitirdikdən sonra yenidən döyüş meydanlarına yollanmış, şərəfli döyüş yolu keçmişdir. O, 2022-ci ilin avqust ayında Kəlbəcər rayonu, Buzduq yüksəkliyinin alınması istiqamətində keçirilən “Qisas” əməliyyatında böyük şücaət göstərmişdir. Tural həmçinin 2023-cü ilin 19-20 sentyabr günlərində lokal xarakterli antiterror əməliyyatında da fəal iştirak etmişdir. Bu əməliyyat zamanı Tural Mehdioğlu Xocəvənd rayonu, Çartaz kəndi istiqamətində döyüş tapşırıqlarını yerinə yetirərkən yaralanmış (şəkil 4), hərbi hospitalda müalicə olunmuş, sağaldıqdan sonra yenidən hərbi xidmətini davam etdirmişdir.

Leytenant Tural Mehdioğlu hərbi xidmətdə göstərdiyi igidliyə və fərqlənməyə görə “Hərbi xidmətdə fərqlənməyə görə” III dərəcəli medalla təltif olunmuşdur.

Tural Mehdioğlunun qəhrəmanlığından təsirlənən Azərbaycan və İraq Türkmən Yazarlar birliyinin üzvü, şairə Xatirə Xatun 24 sentyabr 2023-cü il tarixində Tural bəyə həsr etdiyi “Yaralı əsgərə təşəkkür məktubu” adlı kövrək bir şeir yazmışdır. Həmin şeir “facebook” plat-

formasında təqdim edilsə də, ilk dəfə bu məqalədə işıq üzü görür:

Vətən üçün canını oda atan igidim,
"Torpaq" – deyib, özünü ay unudan igidim.
Baxıram gül çöhrənə, inan ürəyim sızlar,
Vətənin harayına hay verən əsgər oğul.
Kaş ki yanında olam, tərinə dəsmal çəkəm,
Öpəm şəvə gözündən, telinə sığal çəkəm.
Yaralarına tək-tək məlhəm ola biləm kaş,
Sənə bu halımla da həmdəm ola biləm kaş.
Sağalar sənin yaran, izi-tozu da qalmaz,
O bizim yaramızdır, illərdir ki, sağalmaz.
Əllərimi qaldırıb Allahın dərgahına,
Yalvarıram, yetişsin bu millətin dadına.
Bitsin müharibələr, kəsilsin qoy bu savaş,
Anaların gözündən süzülməsin qanlı yaş [8].

Etimologiyası. Cürə – dilimizdə ən kiçik, ən balaca, xırda mənalarda işlədilən sözdür. Deməli, eyni çalğı alətinin natural ölçüsü ilə müqayisədə ən kiçiyi müvafiq alətin cürə növü adlanır. Cürə növlü Azərbaycan qarmonu ifadəsi də, bu alətin kiçik ölçüdə hazırlandığını bildirir.

Beynəlxalq musiqi aləmində isə, cürə əvəzinə italyan sözü olan "pikkolo" termini işlədilir. Pikkolo sözü dilimizə italyancadan (piccolo) kiçik mənasında tətcümə olunur. Bununla bağlı rusiyalı alim, sənətşünaslıq namizədi Aleksandr Doljanski (1908-1966) tərrtib etdiyi lüğətdə yazır: "1. Eyni alətin fərqli növlərindən biri olub, daha yüksək tonlu soprano. 2. Kiçik fleytanın (pikkolo fleyta) yığcam adı" [7, s. 258].

Tərcümədən göründüyü kimi, Avropada "piccolo" dedikdə əsasən kiçik ölçülü fleyta nəzərdə tutulur. Azərbaycan musiqi alətşünaslığında isə cürə sözü çox qədim dövrlərdən, ən azı, Nizami Gəncəvinin yaşadığı XII əsrdən işlədilir. Yuxarıda deyildiyi kimi, sənətkarlarımız müxtəlif alətlərin cürə növlərini də hazırlasmışlar.

Morfologiyası. İstənilən alətin cürə formasını, o cümlədən də cürə qarmonu hazırlayan ustadan böyük peşəkarlıq tələb olunur. Belə qarmonun konstruksiyası sadə olsa da, detalların hər birini mikroölçüdə hazırlanması zamanı müəyyən problemlər ortaya çıxır.

Cürə qarmonu hazırlayan Vaqif Məmmədov deyir: "Qarmon düzəltmək istəyən insandan xüsusi həvəs və bacarıq tələb edir. Bu peşənin sahibi olan hər bir kəs gərək, bir neçə sahəni mükəmməl bilsin. **Zərgərlik, xarrat, saatsaz, radiotexnikanı bilmək, eləcə də bütün dəzgahlarda işləmək bacarığı**na sahib olmaq lazımdır ki, bu sahədə uğur qazanasan. Üstəlik qarmon ustasının **musiqi təhsili** olması da vacibdir. Bütün bu keyfiyyətlərə sahib olan şəxs qarmon düzəldə, yaxud da bu musiqi alətinin təmiri ilə məşğul ola bilər. Bu işin zövqlə, bəzəkdüzəklə yerinə yetirilməsi isə əl qabiliyyətindən asılıdır. Çünki qarmon düzəldərkən yapışqanlardan və plastik materiallardan çox istifadə olunur. Bu materiallarla işləmək üçün isə bacarıq lazımdır. Yəni qarmon düzəltmək bir sənətkarlıq işidir, gərək həm əl qabiliyyətin olsun, həm də istifadə etdiyin materialların təyinatını, xüsusiyyətlərini dəqiq biləsən. Polad materiallardan qarmonun dartıcı yay hissələri hazırlanır, bu materialların istifadə qaydalarını yüksək səviyyədə bacarmaq lazımdır. Xüsusilə də qarmon və pianino düzəldən ustanın **görmə və eşitmə qabiliyyəti** də yüksək olmalıdır" [9].

Cürə növlü alətlərdən əsasən qadın və ya azyaşlı musiqiçilər istifadə edirlər. Çünki belə alətlər həm çəkisinə görə yüngüldür, həm də ölçüsünə görə yığcamdır.

Cürə qarmonunu təşkil edən hissələr: 1. Gövdə (korpus); 2. Körük (möhkəm nazik parça ilə yapışdırılmış büzməli kartondan hazırlanır, ehtiyat hava rezervuarı yaradır); 3. Sağ və sol hissədə yerləşdirilmiş taxta çərçivələr (körük buna birləşdirilir); 4. Səs hasil edən klapanlar (açılıb-bağlanmaqla metal dilçəyin titrəyişindən səslənmə alınır); 5. Sağ tərəfdə üzərində ağ və qara klavişlər (dillər) yerləşən qrif və sol tərəfdə isə bayanda olduğu kimi, "ağ və qara düymələr" ("knopka") mexanizmi; 6. Tirlər (plankalar). 7. Sağ və sol tərəfdə üzərinə tirlər bağlanmış taxta rezonatorlar.

Cürə qarmonun hündürlüyü 26 sm, eni 19 sm, klaviatura (qrif) 6 sm, korpusun üst eni isə 15 sm-dir.

Şəkil 5. *Cürə qarmonun gövdəsinin iç tərəfi*

Əsas melodiya sağ əlin barmaqları ilə çalınır. Gövdənin sağ tərəfində 27 müxtəlif yüksəklikli dillər var ki, bunların 16-sı ağ, 11-i isə qara rənglidir. Qara dillərdən hər əsas səsi yarım ton bəmləşdirib və ya zilləşdirməkdən ötrü istifadə edilir. Gövdənin sol tərəfində harmonik səsləri ifa etmək üçün sağ tərəfdə olan hər səsə uyğun "düymə"lər düzülmüşdür. Bu "düymə"lərin hər birini basdıqda hərəsi ayrıca bir səs verir. İfaçılar bu səslər vasitəsilə, bir növ, dəmkeşin funksiyasını yerinə yetirərək özlərini müşayiət edirlər.

Göründüyü kimi, cürə növlü Azərbaycan qarmonunun quruluşu eyni ilə natural ölçülü qarmona bənzəyir. Cürə qarmonda da sağ tərəfdə olan klavişlərin sayı qədər sol tərəfd" ədüymə"lər yerləşdirilmişdir.

Diapazonu və kökü. Cürə qarmonun ümumi ölçüsü yığcam olduğundan, təbii ki, diapazonu da məhdudlaşır. Bu növ qarmonun diapazonu kiçik oktavanın *do* səsindən II oktavanın *re* səsinə qədərdir.

Alətin ümumi kökü fortepianoya görə yarım ton bəm səslənir, yəni "do" çalındıqda fortepianoda "si" səslənir. Bu səbəbdən cürə növlü Azərbaycan qarmonu in H ("si") köklüdür.

Təbii ki, cürə qarmonu böyüklər çaldıqda bir qədər çətinlik çəkir. Amma professional sənətkarlar cürə qarmonunu ifa etdikdə onlarda heç bir problem hiss olunmur. Cavanlıq illərində peşəkar qarmon ifaçısı olmuş professor Fərahim Sadıqovun ad günündə Xalq artisti Avtandil İsrafilov (1941-2023) onu cürə qarmonda "Ad günü" kinofilmdə ifa etdiyi və özünün bəstəsi olan "Nazilə" rəqsi ilə təbrik etmişdi. Xatırladaq ki, "Nazilə" rəqsini "Ad günü" kinofilmi ekrana çıxdıqdan sonra toyda-düyündə filmin adı ilə adlandırılmağa başlanıldı (şəkil 6). Bu tədbirdə böyük türkoloq alim, professor Firudin Ağasıoğlu da cürənin təmiz türk sözü olduğunu bildirmişdir. Fotoşəkil qarmonçu, iş adamı İlqar Kərimovun arxivindəndir.

Şəkil 6. *Soldan A. Nəcəfzadə, F. Ağasıoğlu, A. İsrafilov, F.Sadıqov, İ.Kərimov*

Problemin aktuallığı. Qarmonla bağlı yazılmış hər bir araşdırmada diqqəti cəlb edən mövzuların açılması, o cümlədən cürə qarmonun tədqiqi mövzunun aktuallığından xəbər verir. Belə ki, qarmon ifaçılığı daim yeniləşir, müasirləşir. Bununla yanaşı, bir sıra həllini gözləyən problemlər də ortaya çıxır. Bu baxımdan işlənilən hər bir yeni mövzu, o cümlədən cürə qarmonuna həsr etdiyimiz məqalə də öz aktuallığını qoruyub saxlamaqdadır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə olaraq cürə növlü Azərbaycan qarmonu ilk dəfə bir çox parametrlərlə (yaranma tarixi, etimologiyası, morfologiyası, diapazonu və s. xüsusiyyətlər) əhatəli və kompleks şəkildə öyrənilmişdir. Cürə növlü qarmon haqqında yazılan müddəalar da məqalənin elmi yeniliyi sayıla bilər.

Problemin təcrübi əhəmiyyəti. Azərbaycan qarmonunun tədris olunduğu uşaq musiqi məktəblərinin müəllimləri məqalədən faydalana bilərlər. Belə ki, balaca boylu uşaqlar üçün valideynləri cürə qarmon sifariş versələr, onlar alətdə daha rahat ifa edərlər. Məqalənin bəzi müddəalarından musiqi təmayüllü təhsili ocaqlarında "Etnoorqanologiya", "Alətşünaslıq", "Etnomusiqişünaslıq" və digər fənlərin tədrisində yardımçı vəsait kimi bəhrələnmək mümkündür.

Ədəbiyyat

1. Ağarzaoğlu, M. (tərtibçi-müəllif). El sənətkarı –Qasım Qasımov /Bakı: "Zərdabi" LTD MMC, 2012, 152 s.

2. Marağalı Əbdülqadir. Musiqi alətləri və onların növləri. Farscadan tərcümə: M.Müsəddiq //-Bakı: Qobustan, 1977. №1, s. 74-79
3. Nəcəfzadə, A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Düzəliş və əlavələr edilmiş II nəşr / Bakı: "MBM", - 2004, -224 s.
4. Nəcəfzadə, A.İ. Nizami Gəncəvinin yaradıcılığında musiqi alətləri / - Bakı: Aspoliqraf, -2022. - 272 s.
5. Nizami Gəncəvi. İskəndərnamə (İqbalnamə). Filoloji tərcümə Vaqif Aslanovundur / -Bakı:"Elm, - 1983. - 650 s.
6. Bardakçı, M.G. Maragalı Abdülkadir / - İstanbul:"Pan Yayıncılık, -1986. -200 s.
7. Должанский, А.Н. Краткий музыкальный словарь / - Ленинград: Музыка, -1964. -с. 524 с.
8. Xatirə Xatun. Yaralı əsgərə təşəkkür məktubu. / "Facebook" platforması, 24 sentyabr 2023; https://www.facebook.com/story.php?story_fbid=818929120238341&id=100063637813368&rdid=g23BWUm677GbUnF8#
9. Qələndər Xaçınçaylı. Bir sənətin sirri. Hafta.az onlayn ictimai-siyasi qəzet, 29.01.2015; https://hafta.az/bir-senetin-min-bir-sirri-145673-xeber.html

UOT 159.9

Sevda Hidayət qızı Axundova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktor müavini
https://orcid.org/0000-0001-9192-2307
E-mail. sevda.appp@icloud.com
https://doi.org/10.69682/arti.2026.93(4).182-187

SOSİAL-İQTİSADİ AMİLLƏR FONUNDA ERKƏN NİKAH VƏ NARKOTİK ASILILIĞININ QARŞILIQLI ƏLAQƏSİ

Sevda Hidayat Akhundova
deputy director of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

THE INTERRELATIONSHIP BETWEEN EARLY MARRIAGE AND DRUG ADDICTION IN THE CONTEXT OF SOCIO-ECONOMIC FACTORS

Севда Хидайят гызы Ахундова
заместитель директора Азербайджанского государственного педагогического колледжа при Азербайджанском государственном педагогическом университете,

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ФАКТОРЫ В КОНТЕКСТЕ ВЗАИМОСВЯЗИ РАННИХ БРАКОВ И НАРКОТИЧЕСКОЙ ЗАВИСИМОСТИ

Xülasə. Məqalədə sosial-iqtisadi amillər fonunda erkən nikah və narkotik asılılığının qarşılıqlı əlaqəsi kompleks şəkildə təhlil edilmişdir. Tədqiqat çərçivəsində hər iki fenomenin formalaşmasına təsir göstərən əsas struktur determinantlar – aşağı gəlir səviyyəsi, işsizlik, təhsil imkanlarının məhdudluğu, gender bərabərsizliyi və sosial nəzarət mexanizmlərinin zəifləməsi – nəzəri və analitik müstəvidə araşdırılmışdır. Müəyyən edilmişdir ki, erkən nikah və narkotik asılılığı bir çox hallarda eyni sosial-iqtisadi zəmin üzərində formalaşır və qarşılıqlı gücləndirici təsir mexanizminə malikdir. Erkən nikah nəticəsində yaranan psixoloji və sosial məhdudiyyətlər narkotik maddələrə meyli artıran risk faktoru kimi çıxış edə bilər. Eyni zamanda, narkotik asılılığı ailə münasibətlərində qeyri-sabitlik yaradaraq erkən və düşünülməmiş nikah qərarlarına təsir göstərə bilər. Məqalədə səbəb–nəticə əlaqələri sistemləşdirilmiş və problemin həlli üçün kompleks sosial siyasət yanaşmasının zəruriliyi əsaslandırılmışdır.
Açar sözlər: *erkən nikah, narkotik asılılığı, sosial-iqtisadi amillər, deviant davranış, gender bərabərsizliyi*

Abstract. The article provides a comprehensive analysis of the interrelationship between early marriage and drug addiction within the framework of socio-economic factors. The study examines the main structural determinants influencing the formation of both phenomena at theoretical and analytical levels, including low income levels, unemployment, limited access to education, gender inequality, and the weakening of social control mechanisms. It has been determined that early marriage and drug addiction often emerge from the same socio-economic background and possess mutually reinforcing mechanisms. Social and psychological limitations resulting from early marriage may act as risk factors increasing susceptibility to drug use. At the same time, drug addiction, by creating instability in family relations, may influence early and impulsive marriage decisions. The article systematizes cause-and-effect relationships and substantiates the necessity of a comprehensive social policy approach to address this issue.
Keywords: *early marriage, drug addiction, socio-economic factors, deviant behavior, gender inequality*

Аннотация. В статье комплексно проанализирована взаимосвязь ранних браков и наркотической зависимости в контексте социально-экономических факторов. В рамках исследования на теоретическом и аналитическом уровне рассмотрены основные структурные детерминанты, влияющие на формирование обоих феноменов – низкий уровень доходов, безработица, ограниченный доступ к образованию, гендерное неравенство и ослабление механизмов социального контроля. Установлено, что ранние браки и наркотическая зависимость во многих случаях формируются на общей социально-экономической основе и обладают взаимно усиливающим воздействием. Социальные и психологические ограничения, возникающие вследствие раннего брака, могут выступать фактором риска, способствующим склонности к употреблению наркотических веществ. В то же время наркотическая зависимость, вызывая нестабильность в семейных отношениях, может влиять на принятие ранних и необдуманных брачных решений. В статье систематизированы причинно-следственные связи и обоснована необходимость комплексного подхода социальной политики для решения данной проблемы.

Ключевые слова: *ранний брак, наркотическая зависимость, социально-экономические факторы, девиантное поведение, гендерное неравенство*

Müasir dövrdə cəmiyyətin sosial dayanıqlılığına və insan kapitalının inkişafına təsir göstərən mühüm problemlərdən biri erkən nikah və narkotik asılılığıdır. Hər iki fenomen ayrı-ayrılıqda sosial, psixoloji və iqtisadi nəticələr doğurmaqla yanaşı, bir sıra hallarda qarşılıqlı təsir mexanizmləri vasitəsilə bir-birini şərtləndirən risk faktorları kimi çıxış edir. Xüsusilə sosial-iqtisadi qeyri-bərabərlik, işsizlik, aşağı gəlir səviyyəsi, təhsil imkanlarının məhdudluğu və ailədaxili nəzarətin zəifləməsi kimi amillər gənclər arasında həm erkən nikah hallarının, həm də narkotik maddələrə meylin artmasına zəmin yaradır.

Erkən nikah sosial institut kimi ailənin formalaşması prosesində hüquqi yaş həddindən əvvəl və ya sosial-psixoloji yetkinlik tam təmin olunmadan baş verən nikah münasibətlərini ifadə edir. Bu hal bir çox hallarda təhsil prosesinin yarımçıq qalmasına, əmək bazarında iştirak imkanlarının azalmasına və sosial asılılığın güclənməsinə səbəb olur. Digər tərəfdən, narkotik asılılığı fərdin fiziki və psixi sağlamlığına, sosial münasibətlərinə və iqtisadi fəaliyyətinə mənfi təsir göstərən deviant davranış formasıdır. Hər iki problem xüsusilə yeniyetmə və gənclər qrupunda daha həssas xarakter daşıyır.

Sosial-iqtisadi amillər kontekstində aparılan tədqiqatlar göstərir ki, gəlir səviyyəsinin aşağı olması, urbanizasiya prosesləri, miqrasiya, ailə institutunun transformasiyası və sosial nəzarət mexanizmlərinin zəifləməsi risk davranışlarının artmasına səbəb olur. Erkən nikah hallarında sosial təcridolunma, psixoloji təzyiq və gender bərabərsizliyi faktorları narkotik maddələrə meyl riskini artıran mühit formalaşdıra bilər. Eyni zamanda, narkotik asılılığı olan fərdlərin sosial və ailə münasibətlərində yaranan qeyri-sabitlik erkən və düşünülməmiş nikah qərarlarına təsir göstərə bilər.

Məqalənin məqsədi sosial-iqtisadi amillər fonunda erkən nikah və narkotik asılılığı arasında mövcud olan qarşılıqlı əlaqəni nəzəri və analitik müstəvidə araşdırmaq, risk faktorlarını sistemləşdirmək və profilaktik yanaşmalar üçün elmi əsaslar təqdim etməkdir. Tədqiqat çərçivəsində sosial struktur nəzəriyyələri, deviant davranış konsepsiyaları və ailə institutunun transformasiyası ilə bağlı yanaşmalar müqayisəli şəkildə təhlil ediləcəkdir.

Erkən nikahın nəzəri əsasları. Erkən nikah fenomeninin izahında müxtəlif nəzəri yanaşmalar formalaşmışdır. Sosial struktur nəzəriyyəsinə əsasən, erkən nikah sosial-iqtisadi qeyri-bərabərlik, təhsil səviyyəsinin aşağı olması və ailə institutunun transformasiyası ilə sıx bağlıdır. Sosial stratifikasiya şəraitində aşağı gəlirli və sosial müdafiəsi zəif ailələrdə erkən nikah hallarının daha yüksək olması bu hadisənin struktur xarakter daşıdığını göstərir [3, s. 45; 9, s. 112]. Bu yanaşmaya görə, erkən nikah fərdi seçimdən daha çox sosial mühit və iqtisadi məhdudiyyətlərlə şərtlənən sosial hadisə kimi qiymətləndirilir.

Funksionalist yanaşma erkən nikahı ənənəvi ailə modelinin davamlılığını təmin edən sosial mexanizm kimi izah edir. Bəzi cəmiyyətlərdə erkən nikah sosial sabitliyin qorunması, ailə nüfuzunun saxlanılması və gender rollarının möhkəmləndirilməsi vasitəsi kimi qəbul olunur [8, s. 67]. Lakin müasir sosial transformasiya və urbanizasiya prosesləri fonunda bu model fərdin təhsil və əmək bazarında iştirak imkanlarını məhdudlaşdıraraq sosial inkişaf perspektivlərini zəiflədə bilər [6, p. 18].

Gender nəzəriyyəsi erkən nikahı patriarxal münasibətlər sisteminin məhsulu kimi qiymətləndirir. Gender bərabərsizliyi, qadınların iqtisadi asılılığı və sosial imkanlarının məhdudluğu erkən nikah hallarının artmasına səbəb olan mühüm faktorlar kimi göstərilir [6, p. 25]. Bu baxımdan erkən nikah yalnız ailə institutu çərçivəsində deyil, həm də insan hüquqları və sosial ədalət problemi kimi dəyərləndirilir [1, s. 12].

Beləliklə, erkən nikahın nəzəri əsasları sosial struktur, funksionalist və gender yanaşmaları kontekstində kompleks şəkildə izah olunur və onun sosial-iqtisadi mühitlə qarşılıqlı əlaqəsi elmi baxımdan əsaslandırılır.

Narkotik asılılığının nəzəri əsasları. *Narkotik asılılığının izahında deviant davranış nəzəriyyələri mühüm yer tutur. Anomiya nəzəriyyəsinə görə, cəmiyyətdə qəbul olunmuş məqsədlərlə bu məqsədlərə çatmaq üçün mövcud vasitələr arasında uyğunsuzluq fərdləri alternativ və qeyri-qanuni yollar axtarmağa sövq edə bilər [11, p. 673]. Sosial-iqtisadi gərginlik, işsizlik və gəlir bərabərsizliyi narkotik istifadəsi riskini artıran əsas struktur faktorlar kimi çıxış edir [5, p. 42].*

Sosial öyrənmə nəzəriyyəsinə əsasən, narkotik asılılığı sosial mühit və rol modelləri vasitəsilə formalaşır. Fərd yaxın sosial çevrəsində narkotik istifadəsini müşahidə etdikdə və bu davranış sosial dəstək qazandıqda asılılıq ehtimalı yüksəlir [7, p. 14]. Bu kontekstdə ailə münasibətləri və həmyaşıd qrupları mühüm təsir mexanizmi hesab olunur.

Psixoloji yanaşmalar narkotik asılılığını emosional boşluq, stress və sosial təcridolunma kimi hallara adaptiv reaksiya kimi izah edir [4, s. 28]. Erkən nikah nəticəsində yaranan sosial təzyiq və psixoloji gərginlik bəzi hallarda narkotik maddələrə meyl riskini artıra bilər [8, s. 89].

Biopsixososial model isə asılılığı bioloji meyllər, psixoloji xüsusiyyətlər və sosial mühit faktorlarının qarşılıqlı təsiri nəticəsində yaranan kompleks proses kimi qiymətləndirir [7, p. 21]. Bu yanaşmaya görə, narkotik asılılığı yalnız fərdi zəiflik deyil, sosial-iqtisadi mühitin və ailə münasibətlərinin təsiri altında formalaşan çoxşaxəli problemdir.

Nəticə etibarilə, narkotik asılılığının nəzəri əsasları sosial struktur, deviant davranış və psixoloji yanaşmaların inteqrasiyası əsasında izah edilir və erkən nikah kimi sosial hadisələrlə qarşılıqlı əlaqə kontekstində araşdırılması elmi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Sosial-iqtisadi amillər kontekstində erkən nikah və narkotik asılılığının səbəb–nəticə əlaqələrinin təhlili. Sosial-iqtisadi mühit fərdin davranış modellərinin formalaşmasında əsas determinantlardan biri kimi çıxış edir. Erkən nikah və narkotik asılılığı kimi sosial risk hadisələri çox vaxt struktur amillərlə – gəlir səviyyəsi, təhsil imkanları, məşğulluq vəziyyəti, sosial nəzarət mexanizmləri və ailə institutunun funksionallığı ilə – sıx əlaqəlidir. Bu baxımdan məsələnin təhlili kompleks yanaşma tələb edir və səbəb-nəticə əlaqələrinin sistemləşdirilməsi mühüm əhəmiyyət daşıyır

Aşağıda sosial-iqtisadi amillərin erkən nikah və narkotik asılılığına təsir mexanizmləri cədvəllər əsasında təqdim edilir.

Cədvəl 1. Sosial-iqtisadi amillərin erkən nikaha təsir mexanizmləri

Sosial-iqtisadi amil	**Təsir mexanizmi**	**Nəticə**
Aşağı gəlir səviyyəsi	Ailələrin iqtisadi yükü azaltmaq məqsədilə erkən evlilik qərarı	Erkən nikah hallarının artması
Təhsil imkanlarının məhdudluğu	Qızların məktəbdən yayınması və alternativ sosial rolun ailə kimi qəbul olunması	Təhsilin yarımçıq qalması
İşsizlik və məşğulluq problemi	Sosial təminatın zəifliyi və gələcək perspektivin qeyri-müəyyənliyi	Sosial asılılığın güclənməsi
Gender bərabərsizliyi	Patriarxal dəyərlərin üstünlük təşkil etməsi	Qadınların erkən ailə qurmağa məcbur edilməsi
Kənd-şəhər fərqləri	Ənənəvi dəyərlərin dominantlığı	Erkən nikahın normativləşməsi

Bu cədvəldən göründüyü kimi, erkən nikah fərdi seçimdən daha çox sosial və iqtisadi mühitin təsiri altında formalaşır.

Cədvəl 2. **Sosial-iqtisadi amillərin narkotik asılılığına təsir mexanizmləri**

Sosial-iqtisadi amil	**Psixososial təsir**	**Nəticə**
İşsizlik	Özünəinamın azalması, sosial frustrasiya	Narkotik istifadəsinə meyl
Gəlir bərabərsizliyi	Sosial təcridolunma və stress	Risk davranışlarının artması
Ailə nəzarətinin zəifləməsi	Həmyaşıd təsirinin güclənməsi	Asılılıq ehtimalının yüksəlməsi
Miqrasiya və urbanizasiya	Sosial adaptasiya çətinlikləri	Narkotik maddələrə çıxış imkanının artması
Təhsil səviyyəsinin aşağı olması	Risklər barədə məlumatlılığın azlığı	Profilaktik davranışın zəifləməsi

Cədvəl göstərir ki, narkotik asılılığı sosial-iqtisadi gərginlik fonunda formalaşan deviant davranış modeli kimi çıxış edə bilər.

Cədvəl 3. **Erkən nikah və narkotik asılılığı arasında qarşılıqlı səbəb–nəticə əlaqəsi**

İlkin amil	**Aralıq dəyişən**	**Son nəticə**
Aşağı sosial-iqtisadi status	Təhsildən uzaqlaşma	Erkən nikah və sosial asılılıq
Erkən nikah	Psixoloji stress və sosial təcridolunma	Narkotik maddələrə meyl
Narkotik asılılığı	Ailə münasibətlərində qeyri-sabitlik	Düşünülməmiş erkən nikah qərarları
Gender bərabərsizliyi	Sosial təzyiq və məhdud seçim imkanı	Hər iki risk davranışının artması
Sosial nəzarətin zəifliyi	Deviant davranışın normallaşması	Risk amillərinin güclənməsi

Bu qarşılıqlı model göstərir ki, erkən nikah və narkotik asılılığı bir-birindən tamamilə ayrı fenomenlər deyil; onlar çox zaman eyni sosial-iqtisadi zəmin üzərində formalaşır və qarşılıqlı təsir mexanizmləri ilə möhkəmlənir.

Təhlil nəticəsində müəyyən olunur ki, sosial-iqtisadi risk faktorları həm erkən nikahın, həm də narkotik asılılığının əsas struktur determinantları kimi çıxış edir. Xüsusilə aşağı gəlir səviyyəsi, təhsil imkanlarının məhdudluğu və sosial nəzarət mexanizmlərinin zəifləməsi bu iki fenomen arasında qarşılıqlı gücləndirici təsir yaradır. Beləliklə, problemin həlli yalnız hüquqi və ya inzibati tədbirlərlə deyil, sosial-iqtisadi inkişaf, təhsil siyasətinin gücləndirilməsi, məşğulluq proqramlarının genişləndirilməsi və gender bərabərliyinin təmin olunması kimi kompleks yanaşma tələb edir.

Sosial-iqtisadi determinantların erkən nikah və narkotik asılılığına təsirini daha dərin analitik müstəvidə qiymətləndirdikdə, xüsusilə beynəlxalq empirik tədqiqatların nəticələri struktur səbəb-nəticə əlaqələrinin mövcudluğunu aydın şəkildə göstərir.

Petroni və başqalarının çoxsəviyyəli statistik təhlili sübut edir ki, erkən nikah yalnız ailədaxili qərar deyil, həm də icma səviyyəsində yoxsulluq, təhsil infrastrukturunun zəifliyi və gender normativlərinin təsiri altında formalaşan sosial hadisədir [11]. Tədqiqatda göstərilir ki, fərdi risk faktorları (ailənin gəlir səviyyəsi, valideyn təhsili) ilə yanaşı, regional kontekstual dəyişənlər də (kənd mühiti, sosial xidmətlərin əlçatanlığı) erkən nikah ehtimalını əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma erkən nikahın struktur determinantlara bağlılığını statistik olaraq əsaslandırır.

Rumble və digərlərinin empirik araşdırması isə erkən nikahın təhsil prosesindən uzaqlaşma ilə birbaşa əlaqəsini ortaya qoyur [12]. Müəlliflər müəyyən etmişlər ki, təhsilin yarımçıq qalması sosial-iqtisadi zəifliklə birlikdə erkən nikah riskini artırır və bu proses gender əsaslı sosial rollarla möhkəmlənir. Analitik baxımdan bu, sosial-iqti-

sadi statusun aralıq dəyişən – təhsildən uzaqlaşma – vasitəsilə erkən nikaha transformasiya olunması modelini təsdiq edir.

Digər tərəfdən, narkotik asılılığının sosial-demoqrafik determinantları ilə bağlı qlobal sistemli təhlil göstərir ki, aşağı sosial-iqtisadi qruplar arasında inyeksion narkotik istifadəsi daha geniş yayılmışdır və bu göstərici sosial təcridolunma, işsizlik və urbanizasiya ilə sıx bağlıdır [10]. Bu nəticə sosial marginalizasiya ilə deviant davranış arasında səbəb-nəticə əlaqəsini statistik müstəvidə təsdiqləyir.

Əgər erkən nikah və narkotik asılılığı paralel analiz edilərsə, burada oxşar struktur faktorların – yoxsulluq, təhsil imkanlarının məhdudluğu və gender bərabərsizliyi – hər iki risk davranışının formalaşmasında ortaq baza yaratdığı görünür. Erkən nikah nəticəsində yaranan sosial təcridolunma və psixoloji gərginlik sonrakı mərhələdə risk davranışlarına, o cümlədən maddə istifadəsinə meyli artıra bilər. Eyni zamanda, narkotik asılılığı ailədaxili münasibətlərdə qeyri-sabitlik və sosial məsuliyyətsizlik fonunda erkən və düşünülməmiş nikah qərarlarını stimullaşdıra bilər. Bu qarşılıqlı təsir modeli "ikiistiqamətli risk spiralı" kimi xarakterizə oluna bilər.

Nəticə. Aparılmış nəzəri və analitik təhlil göstərir ki, erkən nikah və narkotik asılılığı sosial-iqtisadi mühitlə sıx bağlı olan və bir çox hallarda eyni struktur determinantlardan qaynaqlanan sosial risk fenomenləridir. Aşağı gəlir səviyyəsi, işsizlik, təhsil imkanlarının məhdudluğu, gender bərabərsizliyi və sosial nəzarət mexanizmlərinin zəifləməsi həm erkən nikahın, həm də narkotik asılılığının formalaşmasında mühüm rol oynayır.

Təhlil nəticəsində müəyyən olunmuşdur ki, erkən nikah fərdlərin sosiallaşma və təhsil prosesini yarımçıq qoyaraq onların iqtisadi müstəqillik imkanlarını məhdudlaşdırır, bu isə psixoloji gərginlik və sosial təcridolunma riskini artırır. Bu şəraitdə narkotik maddələrə meyl bəzi hallarda sosial adaptasiya mexanizmi kimi meydana çıxa bilər. Digər tərəfdən, narkotik asılılığı ailə münasibətlərində qeyri-sabitlik yaradaraq erkən və düşünülməmiş nikah qərarlarına təsir göstərə bilər. Beləliklə, bu iki fenomen arasında qarşılıqlı gücləndirici təsir mexanizmi mövcuddur.

Məqalədə təqdim edilən səbəb–nəticə modeli göstərir ki, problemin mahiyyəti yalnız fərdi davranış səviyyəsində deyil, sosial struktur səviyyəsində qiymətləndirilməlidir. Erkən nikah və narkotik asılılığının qarşısının alınması üçün kompleks yanaşma – sosial müdafiə mexanizmlərinin gücləndirilməsi, məşğulluq imkanlarının artırılması, təhsilin əlçatanlığının təmin edilməsi, gender bərabərliyinin təşviqi və ailə institutunun möhkəmləndirilməsi – əsas prioritet kimi çıxış etməlidir.

Nəticə etibarilə, erkən nikah və narkotik asılılığı problemlərinin səmərəli həlli sosial-iqtisadi inkişaf siyasəti ilə profilaktik və maarifləndirici tədbirlərin inteqrasiyası əsasında mümkündür. Bu istiqamətdə aparılacaq gələcək empirik tədqiqatlar risk qruplarının daha dəqiq müəyyənləşdirilməsinə və preventiv strategiyaların elmi əsaslarla formalaşdırılmasına imkan verə bilər.

Problemin aktuallığı. Müasir dövrdə erkən nikah və narkotik asılılığı cəmiyyətin sosial təhlükəsizliyinə, insan kapitalının inkişafına və demoqrafik proseslərə birbaşa təsir göstərən mühüm problemlər sırasındadır. Qloballaşma, urbanizasiya, sosial-iqtisadi diferensiasiya və ailə institutunun transformasiyası fonunda bu iki fenomenin yayılma dinamikası daha mürəkkəb xarakter almışdır. Xüsusilə yeniyetmə və gənclər arasında erkən nikah hallarının və psixoaktiv maddələrə meylin artması sosial inkişaf perspektivlərinə mənfi təsir göstərir. Problemin yalnız hüquqi və ya tibbi aspektdə deyil, sosial-iqtisadi determinantlar kontekstində araşdırılması onun aktuallığını daha da artırır. Bu baxımdan erkən nikah və narkotik asılılığının səbəb-nəticə əlaqələrinin kompleks təhlili elmi və ictimai baxımdan zəruri hesab olunur.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi erkən nikah və narkotik asılılığı problemlərinin ayrı-ayrılıqda deyil, qarşılıqlı təsir mexanizmləri çərçivəsində sistemli şəkildə təhlil edilməsindən ibarətdir. Məqalədə sosial-iqtisadi amillərin hər iki fenomenə təsiri vahid analitik model əsasında ümumiləşdirilmiş, səbəb-nəticə əlaqələri strukturlaşdırılmış və onların qarşılıqlı gücləndirici təsir mexanizmi əsaslandırılmışdır. Bundan əlavə, sosial struktur, deviant davranış və gender yanaşmalarının inteqrasiyası əsasında kompleks nəzəri çərçivə formalaşdırılmışdır ki, bu da mövcud ədəbiyyatda parçalı şəkildə təqdim olunan yanaşmaların sistemləşdirilməsinə imkan verir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri sosial siyasətin formalaşdırılması, profilaktik proqramların hazırlanması və risk qrupları ilə iş mexanizmlərinin təkmilləşdirilməsi baxımından praktik əhəmiyyət kəsb edir. Təklif olunan səbəb-nəticə modeli erkən nikah və narkotik asılılığının qarşısının alınması üzrə kompleks tədbirlərin planlaşdırılmasına metodoloji əsas yaradır. Xüsusilə təhsil müəssisələri, sosial xidmət qurumları və ictimai təşkilatlar üçün maarifləndirmə strategiyalarının hazır-

lanmasında bu tədqiqatın nəticələrindən istifadə oluna bilər. Eyni zamanda, dövlət səviyyəsində məşğulluq, sosial müdafiə və gender bərabərliyi siyasətlərinin gücləndirilməsi istiqamətində qərar qəbul edən orqanlar üçün analitik baza rolunu oynaya bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi // –Bakı: Hüquq ədəbiyyatı, – 2023. – 256 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // – Bakı: Hüquq ədəbiyyatı, –2023. – 432 s.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi // Azərbaycanda əhalinin sosial vəziyyəti, – Bakı, – 2024. Dövlət Statistika Komitəsinin rəsmi saytı
4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Narkotik vasitələrin və psixotrop maddələrin istifadəsi üzrə illik hesabat // –Bakı, 2023. –78 s.
5. United Nations Office on Drugs and Crime (UNODC) // World Drug Report 2023, Vienna: United Nations,– 2023. –296 p.
6. UNICEF. Child Marriage: Latest Trends and Future Prospects // – New York: UNICEF, –2022. –42 p.
7. World Health Organization (WHO). Adolescent Health and Substance Use**.** // –Geneva: WHO, –2021. –65 p.
8. Əliyeva, R. Gənclər arasında deviant davranışın sosial-psixoloji xüsusiyyətləri // – Bakı: Elm və Təhsil, –2020. – 184 s.
9. Qasımov, S. Sosial-iqtisadi problemlər və ailə institutunun transformasiyası. // –Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 2019. – 212 s.
10. Degenhardt, L. Global prevalence of injecting drug use and sociodemographic characteristics and prevalence of HIV, HBV and HCV in people who inject drugs: A multistage systematic review / L.Degenhardt, A.Peacock, S.Colledge [et. al.]// *The Lancet Global Health*. – 2023. – Vol. 11, № 5. – P. e659–e672.
11. Petroni, S. New findings on child marriage in sub-Saharan Africa: A multilevel analysis of individual and contextual factors / S.Petroni, M.Steinhaus, N.S. Fenn [et. al.] // *BMC Public Health*. – 2021. – Vol. 21, № 1. – P. 1–14.
12. Rumble, L., An empirical exploration of female child marriage determinants in Indonesia / L.Rumble, A.Peterman, N.Irdiana [et. al.] // *BMC Public Health*. – 2020. – Vol. 20, № 1. – P. 1–13.

Redaksiyaya daxil olub: 11.03.2026

UOT 159.9

Günel İlqar qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0006-5941-7611
E-mail:gunel1505@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).188-192

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN SOSİALLAŞMASINDA SOSİAL BACARIQLARIN ROLU

Gunel Ilgar Mammadova
lecturer at
Azerbaijan State Pedagogical University

THE ROLE OF SOCIAL SKILLS AND SOCIALIZATION OF YOUNGER SCHOOLCHILDREN

Гюнель Ильгар гызы Мамедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ СОЦИАЛЬНЫХ НАВЫКОВ В СОЦИАЛИЗАЦИИ ШКОЛЬНИКОВ МЛАДШЕГО ВОЗРАСТА

Xülasə. Elmi məqalədə kiçik yaşlı məktəblilərin sosiallaşmasında sosial bacarıq və qabiliyyətlərin mahiyyəti və rolu araşdırılır. Həmçinin müasir təhsilin humanistləş- dirilməsinin yenilənmiş ideyası kontekstində müəllim və kiçik yaşlı məktəbli arasında şəxsiyyətyönlü qarşılıqlı əlaqənin formaları və metodları, eləcə də müəllim tərəfindən istifadə edilə bilən şagirdlərin özünüinkişaf və hədəfyönlülüyü mexanizmlərini işə salmağa yönəlmiş şagirdlərə pedaqoji dəstək metodları açıqlanır.
Açar sözlər: *kiçik yaşlı məktəblilər, sosiallaşma, sosial bacarıq və qabiliyyətləri, şəxsiyyətyönlü əlaqə formaları, pedaqoji dəstək metodları*

Abstract. This scientific article examines the nature and role of social skills and abilities in the socialization of primary school students. Within the context of the updated concept of humanizing modern education, it also explores the forms and methods of student-centered interaction between teachers and primary school students, as well as methods of pedagogical support for students aimed at activating mechanisms of self-development and purposefulness that can be utilized by teachers.
Keywords*: primary school students, socialization, social skills and abilities, personality-oriented forms of communication, methods of pedagogical support*

Аннотация. В научной статье рассматривается сущность и роль социальных навыков и способностей в социализации школьников младшего возраста. Автором в контексте обновленной идеи гуманизации современного образования раскрываются формы и методы личностно-ориентированного взаимодействия учителя и младшего школьника, а также методы педагогической поддержки учащихся, направленные на активизацию механизмов саморазвития и целеустремленности, которые могут быть использованы учителем.
Ключевые слова: *младшие школьники, социализация, социальные навыки и способности, личностно-ориентированные формы общения, методы педагогической поддержки*

GİRİŞ. Kiçik yaşlı məktəblilərin sosiallaşması pedaqoji-psixoloji problem kimi həmişə elmi biliklərin müxtəlif sahələrində mütəxəssislərin diqqətini cəlb etmişdir. Fərdi sosiallaşmanın strukturunu şərh edən müxtəlif yanaşmalar və çoxsaylı nəzəriyyələr mövcuddur. Müasir təhsil sistemi cəmiyyətdə sosial-mədəni normaların və dəyərlərin ötürülməsinin təməli olaraq

bu gün fərdin institusional sosiallaşması üçün ictimai inkişaf perspektivləri ilə uyğunlaşan, informasiya, bilik və idrak arasındakı mürəkkəb əlaqəni nəzərə alan, həmçinin cəmiyyətdə təcrübə və mədəniyyətin ötürülməsindəki dəyişiklikləri anlayan prinsipial olaraq yeni bir strategiyanın hazırlanmasını tələb edir [1]. Buna görə də, yeni nəsil təhsil standart- ları təhsil müəssisələrində müəllimlərin qarşısında xüsusi təşkil olunmuş dərslərdə yüksək keyfiyyətli sosial və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək vəzifələrini qoyur [2].

P.F. Nağızadənin fikrincə, sosial və emosional bacarıqların şagirdlərə qazandırılmasının önəmini dərk edən bir məktəb liderinin ilk öncə öz güclü və zəif tərəflərinin fərqinə varması, inkişaf yoluyla özünü yeniləməyə çalışması vacibdir [3, s.90-91].

Psixoloji-pedaqoji ədəbiyyatın təhlili göstərir ki, sosial bacarıqlar anlayışı elmdə hələ də dəqiq tərifini almayıb. Onun mahiyyəti sosial rollar, sosial sərişta, sosial vəziyyətlər və sosial qarşılıqlı əlaqə kimi anlayışlarla əlaqələndirilir. O.F. Borisovaya görə, sosial bacarıqlar sosial reallıq haqqında ideya və biliklərin mənimsənilməsi və sosial münasibətlərin aktiv, yaradıcı şəkildə araşdırılması prosesində formalaşan insan keyfiyyətidir. Bu proses həyatın müxtəlif mərhələlərində və müxtəlif sosial qarşılıqlı əlaqə növlərində baş verir [4, s.11].

O.V. Polozovanın fikrincə, sosial bacarıqlar çoxşaxəli bir anlayışdır. Buraya təkcə şəxsi bacarıqlar deyil, həm də şəxslərarası və qrup səviyyələrində qarşılıqlı əlaqə qurma qabiliyyətini təmin edən sosial bacarıqlar daxildir [5, s.10]. E.V. Oparinanın əsərlərində qeyd edilir ki, sosial bacarıqlar fərdin cəmiyyətin digər üzvləri ilə effektiv şəkildə münasibətlər qurmaq qabiliyyətidir [6, s. 83]. Odur ki, kiçik yaşlı məktəblilərdə sosial bacarıqların inkişaf etdirilməsi və onların sosial-iqtisadi transformasiyaların hazırkı mərhələsində cəmiyyətə inteqrasiyası və sosiallaşması problemi xüsusi əhəmiyyət kəsb edir.

Bəzi kiçik yaşlı məktəblilər sosial bacarıqları özləri tam mənimsəyə bilməkdə çətinlik çəkirlər, bu da onların şifahi və qeyri-şifahi ünsiyyət vasitələrindən tam istifadə edə bilməmələrindən, həmçinin ünsiyyətdə qapalı olmaları, iradi və emosional təzahürlərin kifayət qədər olmaması və aşağı səviyyədə müstəqil olmaları ilə xarakterizə olunurlar [7].

Sosiallaşma ani bir proses deyil, o, yalnız bir insanın cəmiyyətə daxil olmasına və qəbul edilməsinə əsaslanır. Sosiallaşma ömür boyu davam edə bilər, buna görə də, uşağın şəxsiyyətinin sosial qarşılıqlı əlaqə subyekti kimi inkişafı zamanı gələcək sosiallaşmanı asanlaşdıran şəxsi keyfiyyətləri inkişaf etdirmək çox vacibdir. Çoxları uyğunlaşmanı sosiallaşma ilə eyniləşdirir. Uyğunlaşma yalnız sosiallaşmanın bir hissəsidir, lakin sosiallaşmış şəxsiyyətin inkişafı zamanı uyğunlaşmanı nəzərdən qaçırmaq olmaz. Axı, uşağın sosiallaşması onun müəyyən bir qrupa nə dərəcədə uyğunlaşmasından çox asılıdır [4].

Kiçik yaşlı məktəblilərin sosiallaşma prosesində sosial bacarıq qruplarını aşağıdakı kimi ayırd etmək lazımdır:

- ***kommunikativ-effektiv ünsiyyət bacarıqlarına*** şifahi və qeyri-şifahi ünsiyyətdən istifadə, əlaqə qurmağın asanlığı, söhbəti davam etdirmək, öz fikrini müdafiə etmək;
- ***perseptiv ünsiyyət bacarıqlarına*** başqa bir insanın emosional vəziyyətini anlamaq, onun nöqteyi-nəzərini qəbul etmək, empatiya, dəstək göstərmək və onu qəbul etmək;
- ***idraki bacarıqlara*** birgə fəaliyyətlərdə problemləri görmək və onları həll etmək, əldə edilmiş bilikləri qeyri-standart vəziyyətlərdə tətbiq etmək;
- ***təşkilati bacarıqlara*** kollektiv fəaliyyətlərin planlaşdırılması, məqsədlərə çatmağın yollarını və vasitələrini müəyyən etmək, resursları qiymətləndirmək, münaqişələri həll etmək bacarığı;
- ***refleksiv bacarıqlara*** özünənəzarət, davranışını başqalarının davranışı ilə əlaqələndirmək, özünütəhlil, həmçinin davranışının səbəblərini və keçmiş vəziyyətləri təhlil etmək kimi sosial bacarıqlar aid edilir.

Müasir dövrdə uşaqlarda sosiallaşma prosesi zamanı inkişaf edən sosial davranış bacarıqlarına xüsusi diqqət yetirilir. Fərdi sosiallaşma problemində cəmiyyətin subyektlərinə təqdim etdiyi sosiallaşma proseslərinə təsirinin iki qarşılıqlı əlaqəli kanalı fərqləndirilir: aktuallaşdırma istiqamətləri və motivasiya konteksti, yəni hər bir fərdin şəxsi potensialını reallaşdırmaqda fəaliyyətinin təzahürünün unikal formaları və metodları da mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz ki, burada əsas vəzifə ictimai tərbiyə və təhsil sisteminin üzərinə düşür. Bununla belə, burada cəmiyyətin hər bir fərdi üzvünün özünütəhsili, özü-

nütəkmilləşdirməsi və özünüaktuallaşdırmasının rolu da az əhəmiyyət kəsb etmir [5].

Sosiallaşmanın əsas ideyası fərdin sosial-yönlü və məktəblilərin dəyəryönlərini müəyyən etməyə imkan verən sərbəst seçim vəziyyəti yaratmaqdır. İbtidai sinif şagirdlərinin sosial bacarıq və qabiliyyətlərini inkişaf etdirmək ilk növbədə, onları sosial təcrübə qazandıqları və ətraf dünyaya düzgün baxışlarını inkişaf etdirdikləri aktiv fəaliyyətlərə cəlb etməklə mümkündür. Kiçik yaşlı məktəblilərin sosial bacarıq və qabiliyyətlərinin düzgün inkişafı ətraf mühit hadisələrinə və obyektlərinə qarşı şüurlu münasibət müxtəlif növ sosial fəaliyyətlərə ehtiyac yaradır və nəticədə şagirdlərdə sosial həssaslığın inkişafına gətirib çıxarır. Bu cür bilik və bacarıqlara əsaslanaraq kiçik yaşlı məktəblilər həyatda istifadə edə biləcəkləri sosial bacarıqlara yiyələnir və onlarda fəallıq hissi inkişaf edir. Maraq ibtidai sinif şagirdlərində sosial bacarıq və qabiliyyətlərin inkişafının hərəkətverici qüvvəsidir. Əgər şagird fəaliyyətlə maraqlanırsa, onlarda müsbət maraqlar yaranır və onlar öz fəaliyyətlərini davam etdirmək istəyirlər. Qeyd etmək lazımdır ki, kiçik yaşlı məktəblilərdə sosial bacarıq və qabiliyyətlərin inkişaf etdirilməsinin əsas şərti sinif daxilində birgə fəaliyyətlərdir və bu fəaliyyətlər zamanı uşaqlar ortaq bir məqsədlə birləşirlər. Burada müəllim tərəfindən demokratik liderlik tərzi və şagirdlər arasında humanist münasibətlərin inkişafı da vacibdir. Bu prosesdə əsas rol kiçik yaşlı məktəblilərin təşkilatçılıq bacarıqları və qabiliyyətlərinin öyrədilməsinə verilir.

A.V. Mudrikə görə, sosiallaşma mədəni dəyərlərin, sosial normaların mənimsənilməsi və təkrarlanması, eləcə də uşağın yaşadığı cəmiyyətdə özünüinkişaf etdirməsi və özünüdərk etməsidir [9, s.135].

Kiçik yaşlı məktəblilərin sosiallaşmasında əsas məqsəd onlarda vətəndaş cəmiyyəti üzvünün sosial bacarıqlarını dərk etmək və ötürmək ehtiyacını inkişaf etdirməkdir. Bunlarla yanaşı:

1) demokratiya qanunlarına uyğun yaşamaq;

2) həm qrup, həm də fərdi olaraq, həm sistem daxilində, həm də vəziyyət baxımından sosial əhəmiyyətli layihə fəaliyyətlərində iştiraklarını təmin etməkdir.

Odur ki, kiçik yaşlı məktəblilərin sosiallaşması bir neçə dominant məqsədin həllinə xidmət etməlidir:

1) sülh, tolerantlıq, əməkdaşlıq mədəniyyəti və dəyərləri ilə istiqamətlənmək bacarığını inkişaf etdirmək;

2) ünsiyyət normaları və qaydalarını: etik, psixoloji, estetik, gigiyenik, hüquqi və ailə münasibətləri mədəniyyətini inkişaf etdirmək;

3) insana layiq həyatın xüsusiyyətləri kimi özünədəyər və azadlıq hissini inkişaf etdirmək və s.

4) Cəmiyyət qarşısında borc hissini və cəmiyyətin fərd qarşısında borc anlayışını inkişaf etdirmək;

5) Dövlətin ictimai həyat üçün tənzimləyici aparat kimi anlayışını inkişaf etdirmək. Dövlət hakimiyyətinin atributlarına hörmət hissini aşılamaq;

6) Yaradıcı özünüifadə, özünütənzimləmə, özünüinkişaf, sosiallaşma və özünü daha da təkmilləşdirmə ehtiyacı hissini inkişaf etdirmək;

7) Öz sağlamlığı və başqalarının sağlamlığı üçün məsuliyyət hissini inkişaf etdirmək;

8) Həmvətənlərin (valideynlərin, həmvətənlərin və s.) müsbət nümunələri vasitəsilə ləyaqətli həyat anlayışlarını inkişaf etdirmək;

9) Müasir dünya və kiçik vətəninin (regionun) xeyrinə və onun sərhədləri daxilində peşəkar istəklərini reallaşdırmaq ehtiyacı haqqında bilikləri genişləndirməklə həyat və peşəkar məqsədlər inkişaf etdirmək.

Uşağın məktəbli kimi daxili mövqeyinin inkişafı onun akademik fəaliyyətinin uğurundan çox asılıdır. Bu mövqe ətrafdakılar tərəfindən qiymətləndirilir. Nəticədə bu həm onların daxili mövqeyinə, həm də emosional rifahına təsirini göstərir. Odur ki, şagird mövqeyini daxilən qəbul edə bilməli və ehtiyaclarını oyunda deyil, real dünyada, məktəb vasitəsilə ödəyə bilməlidir. Lakin bu proseslərin böyüklər tərəfindən yönəldilməsinin qarşısını almır. Buna görə də, uşağın inkişafının bu mərhələsində yetkinin rolu onun həyat fəaliyyətinin, akademik bacarıqlarının, ünsiyyət texnikalarının, biliklərinin, qiymətləndirmə meyarlarının və şəxsi keyfiyyətlərin mənimsənilməsi ilə bağlı aspektlərin təşkilatçısı, repetitoru olmaqdır [9].

Bildiyimiz kimi, uşaq inkişaf etmək, böyüdülmək və təhsil almaq əvəzinə, böyüdülmək və təhsil almaqla inkişaf edir. Bu o deməkdir ki, təhsil və təlim uşağın inkişaf prosesinin bir hissəsidir və onun üzərində qurulmur; uşağın şəxsi zehni xüsusiyyətləri, qabiliyyətləri, xarakter xü-

susiyyətləri və s. yalnız özünü göstərmir, həm də uşağın öz fəaliyyəti zamanı formalaşır.

Bu, məktəblilərin təlim fəaliyyəti kimi təliminin xüsusi təşkilinə ehtiyac duyulması ilə bağlı psixoloji tezisə gətirib çıxarır. İbtidai məktəb yaşlı uşaqlar üçün sosial səriştənin ən vacib psixoloji komponentləri akademik fəaliyyətlərdə nailiyyətlər, motivasiyanın inkişafı, yüksək özünüqəbuletmə və özünəhörmət, həmyaşıdları və böyüklərlə məhsuldar qarşılıqlı əlaqə bacarıqlarının əldə edilməsi və çətin həyat vəziyyətlərində konstruktiv davranışdır [10].

Yeniyetmələr üçün sosial səriştəlik əsasən konstruktiv qarşılıqlı əlaqə bacarıqlarına, məsuliyyətə, uğur qazanmaq üçün motivasiyaya və çətin həyat vəziyyətlərində uyğun davranışa əsaslanır. Orta məktəbdə sosial səriştəlik əsasən mənalı bir həyata, uğura nail olmağa, motivasiya, məsuliyyət və özünəhörmətin inkişafına əsaslanır.

İlk növbədə, müəllimlər sosial bacarıq və qabiliyyətlərin inkişaf etdirilməsi məqsədini müəyyən etməlidirlər. Bu bacarıqlara aşağıdakılar daxil ola bilər: qarşılıqlı anlaşma yaratmaq, komanda işi, məsuliyyətləri bölüşmək və münaqişələrin həlli. Bütün bu bacarıqlar yalnız həm sinifdə, həm də dərsdənkənar fəaliyyətlərdə mühüm rol oynayan qrup işi vasitəsilə inkişaf etdirilə bilər. Yetkin və uşaq arasındakı münasibətlər həm də sosial qarşılıqlı əlaqə üçün rahat bir mühit yaratmaq üçün təməldir.

Buna görə də, dərslər, məşğələlər şagirdlər üçün bilikləri təcrübəyə çevirmək üçün bir fürsətə çevrilir. Yetkin şəxsin iştirakının dəyəri, öz resursları çatışmadıqda və ya vəziyyət onların səlahiyyətlərindən kənarda olduqda uşağa kömək etmək qabiliyyətindədir. Yeni biliklər ünsiyyət, davranış və hərəkətlərdə praktik təcrübə formalaşdırır. Uşağın çətinliklərini müşahidə edən yetkin onlara müstəqil şəkildə öyrənə bilmədiklərini anlamağa kömək edən öyrənmə vəziyyətləri yaradır.

Şagirdin şəxsiyyətinin sosiallaşması və ümumi mədəni inkişafı uzun, çoxsəviyyəli bir prosesdir və yalnız yuxarıda qeyd olunan bütün sahələrin üzvi qarşılıqlı təsiri sayəsində müsbət nəticə gözləmək olar. Həm dövlət təhsil sistemində, həm də şəxsi dəyərlər, mənalar sistemində dəyişikliklər nəzərə çarpır. Bu dəyişən sosial reallıqda şagirdlər yeni sosiallaşma metodlarını mənimsəməlidirlər. Həyat plan- larını yerinə yetirmək üçün dünyaya baxışlarını dəyişdirməyin səmərəli yollarını aktiv şəkildə axtarmalıdırlar. Daxili qətiyyətləri çərçivəsində onlar özünütəkmilləşdirmə sərhədlərini aşa biləcəklər. Onların kimləri təqlid etmək istədiklərini və məqsədlərinə çatmaqdan nə gözlədiklərini nəzərə almaq vacibdir. Bu sualların cavabları insanın şəxsi mənasının fundamental prinsipləri kontekstində axtarılmalıdır. Potensialını necə reallaşdırmaq seçimi kənardan qəbul edilə bilməz. Bu, hər bir fərdi ruhun daxilində böyüməli olan daxili bir qərarıdır. Qərar insanın özünündür. Bu, dəyərlərin aydın şəkildə başa düşülməsinə əsaslanmalıdır ki, bu zaman insan həqiqətən nəyin vacib olduğunu, nəyə vaxt və səy sərf etməyə dəyər olduğunu və nəyin bahasına olursa olsun nədən çəkinməli olduğunu seçəcəkdir.

Cəmiyyətin insan potensialının reallaşması üçün təqdim etdiyi imkanlar, onlardan istifadə etmək üçün daxili bir motivasiya hiss etmədikcə istifadə olunmayacaq. Həm şəxsi, həm də sosial tərəqqi insanın özünüdərk və özünütəkmilləşdirmə prosesində fəal iştirak etmək əzminə əsaslanır və nəticədə insanın şəxsi potensialı təkcə şəxsi aktiv kimi deyil, həm də cəmiyyətin həyat qabiliyyətinin təminatı kimi inkişaf edir. Bu baxımdan müəllim dəstəyi, tapşırıqların səriştəli və effektiv bölüşdürülməsi, şagirdlərin maraqlarının nəzərə alınması, fəal iştirakın təşviq edilməsi, verilən tapşırıqlara düzgün münasibətin formalaşdırılması mühüm rol oynayır. Bir sözlə, ibtidai sinif şagirdlərinin sosial bacarıqlarının inkişaf etdirilməsi üçün düzgün təşkil olunmuş iş vahid bir komanda, proaktiv sosial mövqe və yüksək səviyyəli şagird təşkilatçılığı və iştirakını inkişaf etdirəcəkdir.

Beləliklə, ibtidai sinif şagirdlərinin sosial bacarıqlarının inkişafı prosesin həm hər bir fərdi sinifdə, həm də bütün təhsil müəssisəsində nə qədər effektiv şəkildə təşkil olunmasından, müəllimlərin peşəkar və həyati mövqelərindən, eləcə də bu fəaliyyətin bütün iştirakçıları arasında şəxsiyyətlərarası münasibətlərin düzgün və rasional inkişafından asılıdır.

Nəticə. Kiçik yaşlı məktəblilərin sosiallaşmasında sosial bacarıqlar mühüm rol oynayır. Bu bacarıqlar uşaqların həmyaşıdları və müəllimlərlə düzgün ünsiyyət qurmasına, əməkdaşlıq etməsinə və özünüifadə qabiliyyətinin inkişafına kömək edir. Sosial bacarıqları formalaşmış uşaqlar məktəb mühitinə daha tez uyğunlaşır və

kollektivdə özlərini rahat hiss edirlər. Sosial bacarıqların inkişafı uşağın həm təlim uğuruna, həm də şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Problemin aktuallığı onunla izah olunur ki, müasir dövrdə uşaqların sosial mühitə uyğunlaşması və sağlam ünsiyyət bacarıqlarına yiyələnməsi mühüm əhəmiyyət daşıyır. Kiçik yaşlı məktəblilərdə sosial bacarıqların zəif inkişafı onların təlim fəaliyyətinə və sinif yoldaşları ilə münasibətlərinə mənfi təsir göstərə bilər.

Problemin elmi yeniliyi kiçik yaşlı məktəblilərin sosiallaşma prosesində sosial bacarıqların rolunun müasir pedaqoji və psixoloji yanaşmalar əsasında araşdırılmasından ibarətdir. İşdə sosial bacarıqların uşaqların məktəb mühitinə uyğunlaşmasına, ünsiyyət münasibətlərinə və şəxsiyyətinin formalaşmasına təsiri sistemli şəkildə təhlil olunur. Eyni zamanda, sosial bacarıqların inkişaf etdirilməsi yolları və onların sosiallaşma prosesinə təsiri üzrə yeni yanaşmalar irəli sürülür.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr müəllimlər, məktəb psixoloqları və valideynlər tərəfindən uşaqların sosial bacarıqlarının inkişaf etdirilməsi istiqamətində istifadə oluna bilər. Araşdırma zamanı irəli sürülən tövsiyələr məktəblərdə sağlam psixoloji mühitin formalaşdırılmasına və uşaqların kollektivə daha asan uyğunlaşmasına kömək edə bilər. Həmçinin, tədqiqat nəticələri gələcək pedaqoji və psixoloji araşdırmalar üçün faydalı mənbə kimi istifadə edilə bilər.

Ədəbiyyat

1. Həmidova X. [və b.]. İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması (məktəbəqədər təhsil ixtisası üçün), Dərs vəsaiti, ARTN, ARTİ, Aİ,. –Bakı: 2020. –82s.
2. Məlikova E. Uşaqların sosial inkişafının zəruriliyi // –Bakı: Məktəbəqədər və ibtidai təhsil, 2024., № 4, – –s. 89-96.
3. Nağızadə P.F. Sosial emosional bacarıqların sağlam sinif mühitinə təsiri //-Bakı: Sosial və humanitar elmlərin müasir problemləri, – 2023., № 3, –s.89-92.
4. Борисова, О.Ф. Формирование социальной компетентности детей дошкольного возраста: автореф. дис. канд. пед. наук: 13.00.07 / О. Ф. Борисова. – Челябинск, 2009. – 28 с.
5. Полозова, О.В. Формирование социальной компетентности у детей старшего дошкольного возраста с общим недоразвитием речи в проектной деятельности: автореф. дис. канд. пед. наук : 13.00.03 / О. В. Полозова. – М., 2015. – 30 с.
6. Опарина, Е.В. Формирование социальных навыков школьников во вне- урочной проектной деятельности в разновозрастных группах / Е. В. Опарина // Педагогика. Вопросы теории и практики. – 2018. № 1. – С. 83–87.
7. Игнатьева Е.Е. Духовно-нравственное воспитание школьников / Е.Е. Игнатьева. Текст: непосредственный //Вестник московского государст венного областного университета. Серия: педагогика. –2010. № 1. –С. 209-212.
8. Мамаева С.В. Формы и методы социализации школьника на основе сотрудничеств семьи, школы, общественности: методические разработки. Йошкар-Ола: Марийский институт образования, –2016. –16 с.
9. Мудрик А. В. Социальная педагогика: учебник для студ. учреждений высш. проф. образования. Изд-е 8-е, испр. и доп. –М.: Академия, –2013. –240 с.
10. Развитие социальных навыков детей 5-7 лет: познавательно-игровые занятия / авт.-сост.О.Р. Меремьянина. Изд.2-е. –Волгоград: Учитель, –2013. –142 с.
11. Maleki, M., Mardani, A., Mitra Chehrzad, M., Dianatinasab, M., & Vais- moradi,-M.(2019). Social skills in children at home and in preschool. *Behavioral sciences*, *9*(7), 74. Behav.Sci.2019.9(7),74; https: //doi.org /103390/bs9070074
12. Sun, J., Singletary, B., Jiang, H., Justice, L. M., Lin, T. J., & Purtell, K. M. (2022). Child behavior problems during COVID-19: Associations with parent distress and child social-emotional skills. *Journal of Applied Developmental Psychology*, *78*, 101375. European Child & Adolescent Psychiatry (2024) 33:909–922 https://doi.org/10.1007/s00787-023-02215-7

Redaksiyaya daxil olub: 17.06.2026

UOT 159.9

Cəmilə Qabil qızı Qasımova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0006-9488-7467
E-mail- cemilegasimova52@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).193-197

TƏLƏBƏLƏRARASI MÜNASİBƏTLƏRİN FORMALAŞMASINDA EMOSİONAL İNTELLEKTİN ROLU

Jamila Gabil Gasimova
doctorial student in the program of doctor of philosophy
at Azerbaijan State Pedagogical University

THE ROLE OF EMOTIONAL INTELLIGENCE IN THE FORMATION OF RELATIONSHIP BETWEEN STUDENTS

Джамиля Габиль гызы Гасымова
докторант по программе доктора философии
Азербайджанского Государственного Педагогического Университета

РОЛЬ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА В ФОРМИРОВАНИИ ОТНОШЕНИЙ МЕЖДУ СТУДЕНТАМИ

Xülasə. Emosional intellekt tələbələrin öz emosiyalarını tanımaq, başa düşmək və idarə etmək, həmçinin başqalarının emosiyalarına empatiya göstərmək bacarıqlarını əhatə edir. Araşdırmalar göstərir ki, yüksək Eİ-yə malik tələbələr akademik motivasiyanı qoruyur, streslə daha yaxşı mübarizə aparır, qrup işində fəal iştirak edir və sosial münasibətlərdə daha uyğun davranırlar. Məqalədə həmçinin vurğulanır ki, müəllim-şagird münasibətlərində Eİ, sinif mühitinin müsbət olmasına, münaqişələrin azaldılmasına və şagirdlərin dərsə cəlb olunmasına kömək edir. Bu, həm tələbələr, həm müəllimlər, həm də ümumilikdə tədris mühiti üçün önəmli və praktik əhəmiyyət daşıyır. Nəticədə, Eİ-nin inkişafı tələbələrin yalnız akademik uğurunu deyil, həm də uzunmüddətli sosial münasibətlərini, liderlik bacarıqlarını və psixoloji rifahını gücləndirir.
Açar sözlər: *Emosional zəka, tələbələrarası münasibət, akademik uğur, sosial bacarıqlar, empatiya, liderlik, motivasiya*

Abstract. Emotional intelligence encompasses students' ability to recognize, understand, and manage their own emotions, as well as to empathize with the emotions of others. Studies show that students with high EI maintain academic motivation, cope better with stress, participate more actively in group work, and behave more appropriately in social relationships. The article also highlights that EI in teacher-student relationships contributes to a positive classroom environment, reduces conflict, and engages students in the lesson. This has important and practical implications for students, teachers, and the educational environment in general. As a result, developing emotional intelligence not only enhances students' academic success, but also their long-term social relationships, leadership skills, and psychological well-being.
Keywords*: Emotional intelligence, interpersonal relationships, academic success, social skills, empathy, leadership, motivation*

Аннотация. Эмоциональный интеллект включает в себя способность учащихся распознавать, понимать и управлять собственными эмоциями, а также сопереживать эмоциям других. Исследования показывают, что учащиеся с высоким уровнем ЭИ сохраняют академическую мотивацию, лучше справляются со стрессом, активнее участвуют в групповой работе и ведут себя более адекватно в

социальных отношениях. В статье также подчеркивается, что ЭИ во взаимоотношениях учителя и ученика способствует созданию позитивной атмосферы в классе, снижает конфликтность и вовлекает учащихся в учебный процесс. Это имеет важные и практические последствия для учащихся, учителей и образовательной среды в целом. В результате развитие эмоционального интеллекта не только повышает академические успехи учащихся, но и улучшает их долгосрочные социальные отношения, лидерские качества и психологическое благополучие.

Ключевые слова: *эмоциональный интеллект, межличностные отношения, академические успехи, социальные навыки, эмпатия, лидерство, мотивация*

Müasir təhsil sistemində tələbələrin yalnız akademik biliklərə malik olması kifayət etmir. Onların sosial və emosional bacarıqları da inkişaf etməlidir. Bu baxımdan emosional intellekt anlayışı mühüm əhəmiyyət kəsb edir. Emosional intellekt insanın öz emosiyalarını tanımaq, anlamaq və onları idarə etmək bacarığını ifadə edir. Eyni zamanda bu anlayış insanın başqalarının emosional vəziyyətini başa düşmək və sosial münasibətlərdə uyğun davranış forması seçmək bacarığını da əhatə edir.

Universitet mühiti müxtəlif xarakterə, düşüncəyə və sosial təcrübəyə malik olan tələbələrin bir araya gəldiyi bir mühitdir. Bu mühitdə tələbələr arasında ünsiyyət, əməkdaşlıq və qarşılıqlı anlaşma mühüm rol oynayır. Tələbələr arasında sağlam münasibətlərin qurulması isə böyük ölçüdə emosional zəkanın səviyyəsindən asılıdır. Emosional intellekti yüksək olan tələbələr ünsiyyətdə daha anlayışlı olur, konfliktləri daha düzgün şəkildə həll edir və sosial münasibətlərdə daha uğurlu nəticələr əldə edirlər.

Psixologiya sahəsində aparılan tədqiqatlar göstərir ki, emosional intellekt yalnız şəxsi münasibətlərə deyil, həm də akademik fəaliyyətə müsbət təsir göstərir. Emosional cəhətdən inkişaf etmiş tələbələr stressli situasiyalarda daha sakit davranır, motivasiyalarını qoruyur və qarşılaşdıqları çətinlikləri daha asanlıqla aradan qaldıra bilirlər. Bu səbəbdən emosional zəka tələbələrin həm sosial, həm də akademik həyatında mühüm rol oynayır [1,s.43].

Emosional intellekt insanın emosional vəziyyətini dərk etməsi, bu emosiyaları idarə etməsi və başqalarının emosiyalarını anlamaq bacarığı kimi izah olunur. Bu anlayışın inkişafında mühüm rol oynamış tədqiqatçılardan biri Daniel Goleman olmuşdur. Onun fikrinə görə Eİ sosial münasibətlərdə uğurun əsas amillərindən biridir. Emosional intellekt bir neçə əsas komponentdən ibarətdir: Bunlara özünüdərketmə, özünütənzimləmə, motivasiya, empatiya və sosial bacarıqlar daxildir. Bu komponentlər insanın emosional davranışını və sosial münasibətlərini formalaşdırır.

Özünüdərketmə insanın öz emosiyalarını tanımaq və onları dərk etmək bacarığıdır. Bu bacarıq insanın öz davranışını daha yaxşı idarə etməsinə kömək edir. Öz emosiyalarını tanıyan insan hansı situasiyada necə reaksiya verdiyini anlayır və davranışlarını daha şüurlu şəkildə tənzimləyə bilir.

Özünütənzimləmə insanın emosiyalarını nəzarət altında saxlaması və onları konstruktiv şəkildə ifadə etməsi ilə bağlıdır. Bu bacarıq xüsusilə sosial münasibətlərdə mühüm rol oynayır. Öz emosiyalarını düzgün idarə edə bilən insan konfliktli vəziyyətlərdə daha sakit və düşünülmüş qərarlar qəbul edə bilir.

Motivasiya emosional intellektin digər mühüm komponentlərindən biridir. Motivasiya insanın məqsədlərinə çatmaq üçün daxili güc və enerji tapmasına kömək edir. Emosional cəhətdən motivasiyalı tələbələr akademik fəaliyyətlərdə daha aktiv olur və qarşılaşdıqları çətinliklərə baxmayaraq məqsədlərinə doğru irəliləməyə davam edirlər.

Sosial bacarıqlar isə insanın digər insanlarla effektiv ünsiyyət qurmaq və münasibətləri davam etdirmək bacarığını ifadə edir. Bu bacarıqlar tələbələr arasında əməkdaşlığın və qarşılıqlı anlaşmanın formalaşmasında mühüm rol oynayır. Psixoloq Daniel Goleman qeyd edir ki, insanın həyat uğurunun böyük hissəsi onun emosiyalarını idarə etmə bacarığından asılıdır. Onun fikrinə görə yüksək emosional intellekt sosial münasibətlərdə uğurun əsas şərtlərindən biridir.

Universitet mühitində tələbələr müxtəlif sosial münasibətlər qururlar. Onlar qrup işlərində iştirak edir, müzakirələr aparır və müxtəlif sosial fəaliyyətlərdə birgə iştirak edirlər. Bu münasibətlərin sağlam şəkildə qurulması üçün emosional zəka mühüm əhəmiyyət daşıyır.Eİ yüksək olan tələbələr ünsiyyətdə daha açıq və anlayışlı olurlar. Onlar digər tələbələrin fikirlərinə hörmətlə yanaşır və müzakirələr zamanı qarşı tərəfin mövqeyini an-

lamağa çalışırlar. Bu isə tələbələr arasında qarşılıqlı hörmət və etimadın formalaşmasına kömək edir 1-ci cədvəldə emosional intellektin səviyyələrinə görə göstəriciləri təqdim olunmuşdur. Emosional intellektin sosial bacarıqların formalaşmasında da xüsusi rolu vardır.

Cədvəl 1. *Emosional intellektin səviyyələrinə görə göstəriciləri*

Emosional İntellekt səviyyəsi	Dostluq keyfiyyəti	Münaqişələri idarə	Qrup işində iştirak
Yüksək	Səmimi	Asanlıqla həll edir	Aktiv iştirak
Orta	Normal	Bəzən çətinlik çəkir	Orta səviyyədə iştirak
Aşağı	Səthi, qısamüddətli	Çətinliklə həll edir	Passiv

Bundan əlavə, Eİ konfliktlərin həllində də mühüm rol oynayır. Tələbələr arasında müxtəlif fikir ayrılıqları və mübahisələr yarana bilər. Emosional zəka yüksək olan tələbələr bu cür situasiyalarda emosiyalarını idarə edərək daha konstruktiv davranış nümayiş etdirirlər. Onlar problemi emosional reaksiyalarla deyil, məntiqi və dialoq yolu ilə həll etməyə çalışırlar. Universitet mühitində tələbələr arasında müxtəlif səbəblərdən münaqişələr yarana bilər. Bu münaqişələr fikir ayrılığı, rəqabət, ünsiyyət problemləri və ya emosional gərginlik nəticəsində meydana çıxa bilər. Belə hallarda emosional zəkanın yüksək olması münaqişələrin daha konstruktiv şəkildə həll olunmasına kömək edir.

IQ-nun insanın gələcək həyatındakı uğurlarını müəyyən etməsi ilə bağlı çox saylı fikirlər vardır. Lakin IQ-nun uğura qatqısı 100/20- dir. Qalan 80 faizi müəyyən edən başqa amillər vardır [2, s.62]**.**

Emosional intellekti yüksək olan tələbələr konflikt vəziyyətində emosiyalarını idarə edə bilir və qarşı tərəfin mövqeyini anlamağa çalışırlar. Bu isə münaqişələrin daha tez və səmərəli şəkildə həll olunmasına şərait yaradır. Əksinə, emosional intellektin aşağı olması konfliktlərin daha da dərinləşməsinə səbəb ola bilər. Belə hallarda tələbələr emosiyalarını idarə etməkdə çətinlik çəkir, qarşı tərəfin fikirlərini qəbul etməkdə problemlər yaşayırlar. Bu isə münasibətlərin gərginləşməsinə gətirib çıxarır.

Eİ yalnız sosial münasibətlərdə deyil, həm də tələbələrin akademik inkişafında mühüm rol oynayır. Eİ səviyyəsi yüksək olan tələbələr stress və akademik təzyiqi daha yaxşı idarə edə bilir. İmtahan dövründə tələbələr tez-tez narahatlıq və gərginlik yaşayırlar. Eİ yüksək olan tələbələr bu vəziyyətləri daha yaxşı idarə edir və diqqətlərini dərs prosesinə yönəldə bilirlər. Bu isə onların akademik nəticələrinə müsbət təsir göstərir. Emosional intellekt tələbələrin liderlik bacarıqlarının formalaşmasında da əhəmiyyətlidir .Eİ səviyyəsi yüksək olan tələbələr qrup fəaliyyətlərində daha aktiv iştirak edir, digər tələbələrlə daha asan ünsiyyət qurur və kollektivin təşkilində təşəbbüs göstərirlər. Belə tələbələr başqalarının fikirlərinə hörmətlə yanaşır, münaqişəli vəziyyətlərdə vasitəçi rolunu oynaya bilir və qrup daxilində müsbət psixoloji mühitin yaranmasına kömək edirlər. Bu xüsusiyyətlər isə onların gələcək peşə fəaliyyətində liderlik keyfiyyətlərinin formalaşmasına şərait yaradır. Emosional intellekt yalnız tələbələrarası münasibətlərdə deyil, müəllim-tələbə münasibətlərində də mühüm rol oynayır. Belə ki, emosional intellekt səviyyəsi yüksək olan tələbələr müəllimlə daha rahat ünsiyyət qurur, tənqidi daha düzgün qəbul edir və təlim prosesinə daha aktiv qoşulurlar **[**4, s. 28]**.** Bundan əlavə, emosional intellekt qrup layihələrində əməkdaşlığı da gücləndirir. Emosional bacarıqları inkişaf etmiş tələbələr qrup üzvləri ilə daha yaxşı ünsiyyət qurur və kollektiv işdə daha effektiv nəticələr əldə edirlər.

Cədvəl 2. *Emosional intellekt səviyyəsi və akademik nailiyyət göstəriciləri*

Emosional intellektsəviyyəsi	Akademik nailiyyət	Misal
Yüksək	Orta və yüksək qiymətlər, imtahanda stress az	Tələbə A- imtahanlarda narahatlıq yaşamır və layihədə liderlik edir
Orta	Müntəzəm qiymətlər, ara-sıra stress	Tələbə B- qrup işində aktivdir, amma bəzən stress yaşayır

Aşağı	Qiymətlər dalğalı, yüksək stress	Tələbə C- imtahanlarda gərgin olur və motivasiyasını itirir

Emosional intellektin inkişaf etdirilməsinin bir sıra yolları vardır. Qeyd edək ki, emosional intellekt müəyyən dərəcədə anadangəlmə xüsusiyyətlərə malik olsa da, bu bacarıq sonradan da inkişaf etdirilə bilər. Təhsil mühitində emosional intellektin inkişafı üçün müxtəlif metodlardan istifadə etmək mümkündür.

Tələbələrin emosional intellekt bacarıqlarının inkişafı üçün ilk növbədə öz emosiyalarını tanımaq və onları düzgün ifadə etmək bacarığı formalaşdırılmalıdır. Bunun üçün psixoloji təlimlər, qrup müzakirələri və refleksiya üsullarından istifadə edilə bilər. Bundan əlavə empatiya bacarığının inkişafı da böyük əhəmiyyət daşıyır. Empatiyanın inkişafı üçün tələbələr müxtəlif sosial situasiyaları analiz etməli və başqalarının emosional vəziyyətini anlamağa çalışmalıdırlar. Sosial bacarıqların inkişafı üçün isə tələbələrin qrup fəaliyyətlərində və kollektiv layihələrdə iştirak etməsi vacibdir. Bu fəaliyyətlər tələbələrin ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və sosial münasibətlər qurmağa kömək edir.

Tələbələr arasında emosional intellektin inkişaf etdirilməsi üçün müxtəlif metodlardan istifadə edilə bilər. Bu metodlara psixoloji təlimlər, qrup fəaliyyətləri, ünsiyyət bacarıqları və empatiyanın formalaşdırılması daxildir. Belə fəaliyyətlər tələbələrə yalnız akademik bilik deyil, həm də sosial bacarıqlar qazandırır.

Emosional intellektin əsas komponentlərindən biri səmərəli ünsiyyət bacarıqlarıdır. Tələbələr arasında sağlam münasibətlərin qurulması üçün düzgün ünsiyyət mühüm əhəmiyyət kəsb edir. Sımərəli ünsiyyət yalnız məlumat ötürmək deyil, həm də qarşı tərəfin emosiyalarını və fikirlərini başa düşmək bacarığını əhatə edir. Ünsiyyət bacarıqları inkişaf etmiş tələbələr müzakirələrdə daha aktiv iştirak edir, fikir ayrılıqlarını daha konstruktiv şəkildə həll edir və qrup işlərində daha səmərəli fəaliyyət göstərirlər. Belə tələbələr konflikt vəziyyətlərində emosiyalarını nəzarətdə saxlayaraq qarşı tərəfi dinləməyi bacarırlar.

Empatiya emosional intellektin mühüm komponentlərindən biridir. Empatiya insanın başqalarının emosiyalarını hiss etmək və onların vəziyyətini başa düşmək bacarığıdır. Empatiya qabiliyyəti inkişaf etmiş tələbələr sosial münasibətlərdə daha anlayışlı və tolerant davranırlar. Empatiyanın inkişafı tələbələr arasında qarşılıqlı hörmətin və anlayışın formalaşmasına kömək edir. Empatik münasibət tələbələrin bir-birinə dəstək göstərməsini və sosial mühitdə daha rahat ünsiyyət qurmasını təmin edir. Eİ yalnız tələbəlik dövründə deyil, gələcək peşə fəaliyyətində də mühüm rol oynayır. Müasir əmək bazarında yalnız peşə bilikləri kifayət etmir. İnsanlarla işləmək bacarığı, ünsiyyət qurmaq və komanda daxilində əməkdaşlıq etmək kimi sosial bacarıqlar da böyük əhəmiyyət daşıyır.

Universitet dövründə emosional intellektin inkişafı tələbələrin gələcək karyerasına müsbət təsir göstərir. Yüksək Eİ olan insanlar iş mühitində daha uğurlu olur, liderlik bacarıqları göstərir və kollektivdə daha sağlam münasibətlər qururlar. Araşdırmalara görə Eİ səviyyəsi yüksək olan şəxslər stressli iş şəraitinə daha yaxşı uyğunlaşırlar. Onlar problemləri daha konstruktiv şəkildə həll edir və qərar qəbul etmə prosesində daha balanslı yanaşma nümayiş etdirirlər. Eİ-nin iş performansının yaxşılaşdırılmasında mühüm amil olduğuna dair güclü dəlillər mövcuddur. Tədqiqatlar göstərir ki, daha yüksək Eİ psixoloji rifahın yaxşılaşmasına və müsbət emosional vəziyyətlərin daha yüksək nisbətlərinə gətirib çıxarır və iş mühitində mənalı və xoşbəxt mühit yaratmağı inkişaf etdirə bilir [10, s. 3].

Nəticə olaraq qeyd etmək olar ki, Eİ tələbələrarası münasibətlərin formalaşmasında mühüm rol oynayır. Emosional intellekt tələbələrin bir-biri ilə daha effektiv ünsiyyət qurmasına, münaqişələri konstruktiv şəkildə həll etməsinə və qarşılıqlı hörmətə əsaslanan münasibətlər yaratmasına kömək edir.

Bundan əlavə, Eİ-nin inkişafı tələbələrin gələcək peşə fəaliyyətində də mühüm rol oynayır. Sosial bacarıqları inkişaf etmiş insanlar əmək bazarında daha uğurlu olur və müxtəlif sosial mühitlərdə daha asan uyğunlaşırlar. Bu səbəbdən təhsil müəssisələrində emosional intellektin inkişafına xüsusi diqqət yetirilməsi vacibdir. Müxtəlif psixoloji təlimlər, qrup fəaliyyətləri və sosial bacarıqların inkişaf etdirilməsinə yönəlmiş proqramlar tələbələrin emosional və sosial inkişafına müsbət təsir göstərə bilər.

Problemin aktuallığı. Bu mövzu günümüz təhsil sistemi üçün çox aktualdır, çünki tələbələr si-

nifdə və sosial mühitdə daim qarşılıqlı əlaqədədirlər. Akademik təzyiqlər, imtahanlar və sosial rəqabət onların yalnız intellektual deyil, həm də emosional bacarıqlarını sınayır. Araşdırmalar göstərir ki, Eİ yüksək olan tələbələr streslə daha yaxşı başa çıxır, motivasiyasını qoruyur və qrup fəaliyyətlərində uğur əldə edirlər. Tələbələrarası ünsiyyət və sosial bacarıqların inkişafı yalnız akademik nəticəyə deyil, həm də psixoloji rifaha təsir göstərir. Bu səbəbdən, Eİ-nin tələbələrin həm akademik, həm də sosial uğuru üçün rolu aktuallığını qoruyur.

Problemin elmi yeniliyi. Ənənəvi tədqiqatlar akademik performans və intellekt (IQ) üzərində fokuslanır. Lakin son illərin araşdırmaları göstərir ki, emosional intellekt həm akademik, həm də sosial nailiyyətlərin formalaşmasında əsas rol oynayır. Bu məqalə, mövcud ədəbiyyatı sistemləşdirərək tələbələr arasında Eİ-nin təsirini vizual cədvəllərlə göstərir və müəllim-şagird münasibətlərində Eİ-nin rolunu vurğulayır. Beləliklə, mövzuya elmi yenilik gətirir və gələcək tədqiqatlar üçün praktik istiqamətlər müəyyən edir.

Problemin praktik əhəmiyyəti. Bu tədqiqatın nəticələri praktik olaraq aşağıdakı sahələrdə faydalıdır: Müəllimlərin təlim strategiyaları: Müəllimlər Eİ-ni başa düşərək sinifdə münasibət və ünsiyyət bacarıqlarını təkmilləşdirə bilərlər. Tələbələrin inkişafı: Eİ yüksək olan tələbələr stressi idarə edir, özünəinamı artırır və qrup işində daha aktiv olurlar. Uzunmüddətli faydalar: Gələcəkdə bu tələbələr liderlik, əməkdaşlıq və şəxsi münasibətlərdə daha uğurlu olurlar. Beləliklə, mövzu həm məktəb və universitet fəaliyyətləri, həm müəllim, həm də tələbə üçün praktik əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Bradberry, T. Duygusal zeka / T. Bradberry. –İstanbul: Solo Unitas, –2017. –218 s.
2. Goleman , D. Duygusal zeka / D. Goleman. –İstanbul: Varlık yayınları A.Ş, –2016. –442 s.
3. Goleman, D. Sosyal zeka / D. Goleman. – İstanbul: Varlık yayınları, –2007. –487 s.
4. Goleman, D. On Emotional Intelligence. –Harvard: Business Review Press, –2016. –54 p.
5. Goleman, D. Leadeeship : The power of emotional intelligence / D. Goleman. –Florence: More than sound, –2011. –118 s.
6. Gottman, J. Duygusal zekası yüksek çocuklar yetişdirmek / J. Gottman. – İstanbul: Yayıncılık San. ve Tic. Ltd. Şt, –2023. –256 s.
7. Mayer, J. D. & Salovey, P. Emotional intelligence and the construction and regulation of feelings. – Cambridge: University Press, –1995. Applied & Preventive Psychology- 4, 197–208
8. Petrides, K.V. Sanchez-Ruiz, M.J. Siegling, A.B. Emotional Intelligence as Personality: Measurement and Role of Trait Emotional Intelligence in Educational Contexts. Assessing emotional intelligence: Theory, research, and applications –pp. 85–101.
9. Cəbrayılova ,R.N. Tələbələrdə akademik stressin təzahür xüsusiyyətləri // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2025. № 4, – s. 196-197.
10. Karimi, L., Legato, S., Afshadi, L. Emotional intelligence: predictor of employees' wellbeing, quality of patient care and psychological empowerment –2021. –p.3-7

Redaksiyaya daxil olub: 15.04.2026

UOT 159.9

Yeganə Fəhrad qızı Yaqublu
Azərbaycan Dillər Universitetinin fəlsəfə proqramı üzrə doktorantı
https://orcid.org/0009-0006-1484-1099
E-mail:yagubluyegana@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(4).198-202

AİLƏDƏ PSİXOLOJİ MÜHİTİN FORMALAŞMASINDA QLOBALLAŞMANIN TƏSİRİ

Yegana Farhad Yagublu
doctoral student in the program of doctor of philosophy at Azerbaijan University of Languages

THE IMPACT OF GLOBALIZATION ON THE FORMATION OF PSYCHOLOGICAL ENVIRONMENT IN THE FAMILY

Егяна Фахрад гызы Ягублу
докторант по программе доктора философии Азербайджанского Университета Языков

ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИ НА ФОРМИРОВАНИЕ ПСИХОЛОГИЧЕСКОЙ СРЕДЫ В СЕМЬЕ

Xülasə. Məqalə qloballaşmanın ailədaxili psixoloji mühitin formalaşmasına göstərdiyi sosial, mədəni və informasiya təsirlərini araşdırır. Müasir ailə modelinə təsir edən əsas amillər, o cümlədən texnoloji inkişaf, informasiya mühiti və mədəni qloballaşma aspektləri təhlil edilir. Tədqiqat ailə münasibətlərində psixoloji balansın dəyişməsi və fərdi identiklik məsələlərini ön plana çıxarır. Eyni zamanda, Azərbaycan cəmiyyətində ailə münasibətlərində müşahidə olunan transformasiya proseslərinə də xüsusi diqqət yetirilir.
Açar sözlər: *ailə, qloballaşma, psixoloji mühit, mədəni təsir, sosial dəyişiklik*

Abstract. The article examines the social, cultural, and informational impacts of globalization on the formation of the psychological environment within the family. It analyzes the main factors influencing the modern family model, such as technological development, the information environment, and aspects of cultural globalization. The study highlights the changing psychological balance and issues of individual identity within family relationships. It also focuses on the transformation processes observed in family relations within Azerbaijani society.
Keywords: *family, globalization, psychological environment, cultural influence, social change*

Аннотация. В статье рассматриваются социальные, культурные и информационные влияния глобализации на формирование психологической среды в семье. Анализируются основные факторы, воздействующие на современную модель семьи, такие как технологическое развитие, информационная среда и аспекты культурной глобализации. Особое внимание уделяется изменениям психологического баланса и вопросам индивидуальной идентичности в семейных отношениях. Также акцентируется внимание на процессах трансформации семейных отношений, наблюдаемых в азербайджанском обществе.
Ключевые слова: *семья, глобализация, психологическая среда, культурное влияние, социальные изменения*

Giriş. Qloballaşma XXI əsrin sosial, iqtisadi və mədəni inkişafını müəyyənləşdirən ən aparıcı proseslərdən biri kimi cəmiyyətin bütün strukturlarına – dövlət, təhsil, iqtisadiyyat, mədəniyyət və ən əsası, ailə institutuna – çoxölçülü təsir göstərir. Bu prosesin mahiyyəti təkcə ölkələr və xalqlar arasında iqtisadi inteqrasiyanın dərinləşməsi ilə məhdudlaşmır; eyni zamanda o, sosial münasibətlərin, dəyərlərin, həyat tərzinin və psixoloji davranış modellərinin qlobal miqyasda homogenləşməsi tendensiyasını doğurur. Ailə isə bu təsirlərin birbaşa və dolayı şəkildə

əks olunduğu əsas sosial mühit kimi xüsusi əhəmiyyət daşıyır.

Müasir dövrdə ailə ənənəvi dəyərlərin qoruyucusu olmaqla yanaşı, həm də yeni sosial reallıqlara uyğunlaşmaq məcburiyyətində qalan dinamik bir institut kimi çıxış edir. İnformasiya texnologiyalarının inkişafı, rəqəmsal ünsiyyət vasitələrinin həyatımızın ayrılmaz hissəsinə çevrilməsi, sosial şəbəkələrin ailə münasibətlərinə nüfuz etməsi ailədaxili qarşılıqlı əlaqələrin formasını və məzmununu köklü surətdə dəyişmişdir. Nəticədə ailə üzvləri arasında ünsiyyətin intensivliyi artdığı halda, emosional yaxınlıq və qarşılıqlı empatiya bəzi hallarda zəifləyir. Bu ziddiyyət ailədə psixoloji mühitin sabitliyinə və harmoniyasına mənfi təsir göstərə bilir.

Qloballaşmanın təsiri ilə formalaşan yeni sosial mühit fərdlərin identikliyinə, dəyərlər sisteminə və emosional davranışlarına da təsirsiz ötüşmür. Müasir insanın həyatında qərb yönümlü mədəni nümunələrin, istehlak davranışlarının və fərdiyyətçiliyin artması, kollektiv və ailəvi dəyərlərin isə nisbətən zəifləməsi müşahidə olunur. Belə şəraitdə ailə təkcə sosial birlik deyil, həm də fərdi psixoloji təhlükəsizliyin təminatçısı kimi yeni funksional yük daşımağa başlayır.

Azərbaycan cəmiyyəti də bu proseslərdən kənarda qalmamışdır. Aİlədə psixoloji mühitin formalaşması artıq təkcə mikro-sosial hadisə deyil, həm də qlobal proseslərin bir parçasıdır. Bu prosesin elmi tədqiqi ailə psixologiyasının, sosial psixologiyanın və mədəniyyətlərarası münasibətlər nəzəriyyəsinin kəsişməsində həyata keçirilməlidir. Məhz bu prizmadan yanaşdıqda, qloballaşmanın ailə üzvlərinin emosional münasibətlərinə, dəyərlər sisteminə və psixoloji adaptasiya mexanizmlərinə göstərdiyi təsirləri daha obyektiv qiymətləndirmək mümkündür.

Beləliklə, tədqiqatın obyekti ailə, tədqiqatın predmeti isə qloballaşmanın psixoloji mühitə təsirini əhatə edir. Tədqiqatın məqsədi qloballaşma şəraitində ailədaxili psixoloji mühitin formalaşmasına təsir edən əsas sosial-psixoloji mexanizmləri müəyyənləşdirmək, bu təsirlərin ailə münasibətlərində, emosional iqlimdə və fərdi psixoloji sabitlikdə necə əks olunduğunu təhlil etməkdir. Burada əsasən elmi-nəzəri təhlillərdən, meta-analiz metodundan istifadə olunmuşdur. Tədqiqat nəticəsində əldə olunacaq elmi qənaətlər ailənin sağlam funksionallığının qorunması, milli-mənəvi dəyərlərlə qlobal mədəni təsirlər arasında tarazlığın bərpa olunması və psixoloji rifahın gücləndirilməsi baxımından nəzəri və praktik əhəmiyyət daşıyır.

Qloballaşma anlayışı və ailə institutuna təsiri. Qloballaşma prosesi təkcə iqtisadi sərhədlərin aradan qalxması ilə məhdudlaşmır, o, eyni zamanda fərdlərin dəyərlər sistemini, psixoloji durumunu və gündəlik münasibətlərini əhatə edən çoxsahəli bir transformasiyadır (1). Bu, insanlarda mənəvi parçalanma, identiklik böhranı və psixoloji sabitliyin pozulması kimi nəticələr doğura bilər.

Xüsusilə ailə daxilindəki psixoloji iqlimə qloballaşmanın təsiri fərdlərarası emosional əlaqələrin zəifləməsi, sosial rolların qeyri-müəyyənləşməsi və ailə üzvləri arasında qarşılıqlı anlaşmanın pozulması ilə müşahidə olunur. Yeni dəyərlər sisteminin qəbulu zamanı yaranan mənəvi ixtilaflar ailə münasibətlərində gərginliklərə yol açır. Valideynlə övlad arasında baş verən nəsil toqquşmaları, ailə dəyərlərinin yenidən şərh olunması və ailədaxili normativlərin dəyişməsi bu prosesi daha da mürəkkəbləşdirir (2).

Qloballaşma nəticəsində ailə üzvlərinin fərdi azadlığa və özünü ifadə etməyə yönəlik meyllərinin artması, bir tərəfdən fərdin inkişafına imkan yaratsa da, digər tərəfdən ailə daxilində kollektiv məsuliyyət və həmrəylik kimi dəyərlərin zəifləməsinə səbəb ola bilər. Bu isə ailənin psixoloji dayanıqlığına mənfi təsir göstərir və ailədaxili münasibətlərdə gərginlik potensialını artırır. Ənənəvi ailə modeli əsasən kollektiv dəyərlər, patriarxal münasibətlər və uzunmüddətli sabit sosial rol bölgüsü üzərində qurulmuşdur. Bu modeldə ailə başçısının (adətən atanın) dominant mövqeyi, ailə üzvlərinin qarşılıqlı asılılığı və sosial nəzarət funksiyaları mühüm rol oynayırdı. Emosional bağlılıq, mənəvi dəyərlər və ailədaxili intizam bu münasibətlər sisteminin əsas sütunlarını təşkil edirdi (3).

Qoballaşma şəraitində ailə modeli təkamül edir və bu təkamül ailədaxili münasibətlərə yeni məzmun və struktur gətirir. Psixoloji mühitin formalaşmasında fərdi və kollektiv faktorlar arasındakı tarazlıq dəyişir ki, bu da ailənin cəmiyyət daxilindəki mövqeyinə və funksionallığına birbaşa təsir göstərir.

Qloballaşma ailə institutunun sosial və psixoloji funksiyalarını yenidən formalaşdıran əsas qlobal proseslərdən biridir. Müxtəlif tədqiqatçılar bu dəyişiklikləri fərqli aspektlərdə –

intim münasibətlər, sosial bağlılıq, dəyərlərin transformasiyası və emosional sabitlik baxımından araşdırmışlar.

Anthony Giddens (2020) "*Globalization and the Transformation of Intimacy*" əsərində qloballaşmanı "intim münasibətlərin demokratikləşməsi" ilə əlaqələndirir. O, qeyd edir ki, müasir ailələrdə emosional münasibətlər ənənəvi avtoritar modellərdən uzaqlaşaraq qarşılıqlı inam və şəxsi azadlıqlar əsasında qurulur. Giddensin fikrincə, bu proses ailə münasibətlərinə fərdi seçim azadlığı gətirsə də, emosional sabitliyin qorunmasını çətinləşdirir (5).

